AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

AZƏRBAYCAN MƏCBURİ KÖÇKÜNLƏRİNİN POZULMUŞ HÜQUQLARINA DAİR KOMPLEKS BEYNƏLXALQ

HESABAT

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

AZƏRBAYCAN MƏCBURİ KÖÇKÜNLƏRİNİN POZULMUŞ HÜQUQLARINA DAİR KOMPLEKS BEYNƏLXALQ HESABAT

BAKI – 2021

Hesabat Bakı Dövlət Universitetində həyata keçirilən "Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat" layihəsi çərçivəsində Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında hazırlanmışdır.

Layihənin ideya müəllifi və rəhbəri: **Elçin Babayev** – BDU-nun rektoru

İşçi qrupunun həmsədrləri və Hesabatın elmi redaktorları:

Əmir Əliyev – BDU-nun Hüquq fakültəsinin dekanı, İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri, hüquq elmləri doktoru, professor;

Turqay Hüseynov – BDU-nun Hüquq fakültəsinin nəzdində Hüquq klinikasının rəhbəri, Azərbaycan Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü, hüquq elmləri doktoru;

Məhəmməd Quluzadə – BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, MG Konsaltinq Şirkətinin rəhbəri, hüquq üzrə fəlsəfə doktoru.

İşçi qrupunun üzvləri:

Leonard Hammer – ABŞ-ın Arizona Universitetinin Yəhudi Tədqiqatlar Mərkəzi, professor;

Revol Valeyev – Rusiya Federasiyasının Kazan Federal Universitetinin Beynəlxalq və Avropa hüququ kafedrasının professoru, hüquq elmləri doktoru;

Leonid Timçenko – Ukrayna Dövlət Vergi Xidməti Milli Universitetinin professoru, hüquq elmləri doktoru;

Aron Salimqerey – Qazaxıstan Respublikasının Əl-Fərabi adına Qazax Milli Universitetinin Dövlət və Hüquq İnstitutunun direktoru, hüquq elmləri doktoru, professor;

Cavid Abdullazadə – Türkiyə Respublikasının Ankara Universitetinin Beynəlxalq hüquq kafedrasının professoru, hüquq elmləri doktoru;

Hicran Hüseynova – Milli Məclisin komitə sədri, BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri, siyasi elmlər doktoru, professor;

Bəhruz Məhərrəmov – Milli Məclisin deputatı, BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru, dosent;

Rüstəm Məmmədov – BDU-nun Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor;

Əlizadə Məmmədov – BDU-nun Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent;

Aytəkin İbrahimova – BDU-nun Hüquq fakültəsinin dekan müavini, hüquq üzrə fəlsəfə doktoru, dosent;

Samirə Eyvazova – BDU-nun Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru, dosent;

Gülnaz Rzayeva – BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru;

Əlövsət Allahverdiyev – BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru, dosent;

Azər Səfərov – BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru;

Günel Vəliyeva – BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru;

Şahin Məmmədrzalı – BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi;

Günay Hacıyeva – BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi;

Aytac Qibləliyeva – BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi;

Aytac Qasımova - BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi;

Elnur Aslanov – BDU-nun Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının müəllimi;

Aydan Məmmədova – BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının müəllimi;

Leyla Əsgərzadə – BDU-nun Əqli mülkiyyət hüququ kafedrasının müəllimi;

Əkbər Əliyev – BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının doktorantı;

Samirə Mərdanlı – BDU-nun Hüquq fakültəsinin əməkdaşı;

Firavan Əlizadə – BDU-nun Hüquq fakültəsinin magistrantı;

Nəzrin Əliyeva – BDU-nun Hüquq fakültəsinin magistrantı.

Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair kompleks beynəlxalq hesabat. – Bakı: BDU, 2021. – 328 səh.

ISBN: 978-9952-546-01-9

© BDU, 2021

İXTİSARLAR

ABŞ – Amerika Birləşmiş Ştatları
Aİ – Avropa İttifaqı
AİHK – 1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası
AİHM – Avropa İnsan Hüquqları Məhkəməsi
AŞ – Avropa Şurası
AŞ PA – Avropa Şurası Parlament Assambleyası
ATƏM – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi
ATƏT – Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
BƏT – Beynəlxalq Əmək Təşkilatı
BMT – Birləşmiş Millətlər Təşkilatı
BMT BA – Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası
BMT BM – Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Məhkəməsi
BMT TŞ – Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası
BMT İHŞ – Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası
BMT İHK – Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi
BMT QAK – Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı
BCM – Beynəlxalq Cinayət Məhkəməsi
İƏT – İslam Əməkdaşlığı Təşkilatı
İSMHBP – 1966-cı il tarixli İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt
UNESCO – BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı
UHK – 1989-cu il tarixli Uşaq hüquqları haqqında Konvensiya
ÜİHB – 1948-ci il tarixli Ümumdünya İnsan Hüquqları Bəyannaməsi
MSHBP – 1966-cı il tarixli Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt
SSRİ – Sovet Sosialist Respublikaları İttifaqı
SSR – Sovet Sosialist Respublikası

MÜNDƏRİCAT

1.Giriş **6**

2. Ümumi yanaşma və metodologiya **8**

3. Uzun müddət ərzində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan əraziləri haqqında ümumi məlumatlar **14**

4. Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul edilmiş beynəlxalq sənədlərin təhlili **22**

4.1. BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrinə dair hüquqi mövqe 22
4.2. Münaqişə ilə əlaqədar qəbul edilmiş digər beynəlxalq sənədlərin ümumi səciyyəsi 25

5. Məcburi köçkünlərin pozulmuş əsas hüquq və azadlıqları **27**

5.1. Yaşamaq hüququ 27
5.2. Azadlıq və toxunulmazlıq hüququ 33
5.3. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ 36
5.4. İşgəncəyə məruz qalmamaq hüququ 39
5.5. Mülkiyyət hüququ 42
5.6. Şəxsi və ailə həyatına hörmət hüququ 46
5.7. Vicdan azadlığı 48
5.8. Köləliyə və məcburi əməyə məruz qalmamaq hüququ 49
5.9. Sosial təminat hüququ 51
5.10. Sağlam ətraf mühitdə yaşamaq hüququ 53
5.11. Sağlamlığın qorunması hüququ 58
5.12. İstirahət hüququ 60
5.13. Mədəni hüquqlar 62
5.14. Səmərəli müdafiə vasitəsi hüququ 69
5.15. Azad sahibkarlıq hüququ 71
5.16. Sülh hüququ 73
5.17. İnkişafa olan hüquq 76
5.18. Digər hüquqlar 78

6. Ermənistan tərəfindən beynəlxalq hüququn əsas prinsiplərinin pozulması və törədilən beynəlxalq cinayətlər **80**

6.1. Güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipi 81
6.2. Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi 82
6.3. Dövlətlərin suveren bərabərliyi prinsipi 83
6.4. Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi 84
6.5. Dövlətlərin əməkdaşlığı prinsipi 85
6.6. Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi 86
6.7. Xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipi 87
6.8. Dövlətlərin ərazi bütövlüyü prinsipi 88
6.9. Sərhədlərin pozulmazlığı prinsipi 89
6.10. İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi 89
6.11. Törədilən beynəlxalq cinayətlər 90

7. İşğalla əlaqədar vurulmuş ziyanların təxmini əhatə dairəsi **93**

8. Mövcud beynəlxalq mexanizmlər **95**

8.1. Beynəlxalq sənədlər 95
8.2. Beynəlxalq təşkilati mexanizmlər 97

9. Digər dövlətlərin təcrübəsi **101**

10. Beynəlxalq məhkəmə mexanizmləri **105**

11. Ermənistanın beynəlxalq-hüquqi məsuliyyəti 112

12. 2020-ci ilin sonlarına qədər işğal altında olmuş və hazırda işğaldan azad edilmiş Azərbaycan ərazilər üçün zəruri olan ilkin humanitar yardım 116

13. Nəticə 117

14. Əlavələr I

14.1. Uzun müddət ərzində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində mövcud olmuş, hazırda isə tam və ya qismən dağıdılmış tarix və mədəniyyət abidələrinin (Dünya əhəmiyyətli tarixə malik daşınmaz tarixi və mədəniyyət abidələrinin; Respublika əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələrinin; Yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələrinin) Siyahısı (Azərbaycan Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərari ilə təsdiq edilmişdir) I
14.2. Azərbaycan məcburi köçkünlərinin həyatına dair fotolar (1991-1993-cü illər) LIII
14.3. Azərbaycan xalqına qarşı törədilən Xocalı soyqırımını əks etdirən fotolar (1992-ci il) LVIII
14.4. 2020-ci ildə münaqişə zonasından xeyli kənarda yerləşən Azərbaycanın Gəncə şəhərinə atılmış silahlar (raket və s.) nəticəsində mülki şəxslərin öldürülməsi və yaralanmasını əks etdirən fotolar LXIV
14.5. Azərbaycanın Ağdam rayonunun işğaldan öncə və işğaldan azad ediləndən sonrakı fotoları LXXI
14.6. İşğaldan azad edilmiş Azərbaycan ərazilərində vəziyyəti əks etdirən video materiallar LXXVIII
14.7. Hesabatın göndəriləcəyi beynəlxalq təşkilatların siyahısı XCI

1.Giriş

Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair Kompleks Beynəlxalq Hesabatın *(bundan sonra – Hesabat)* məqsədi təqribən 30 ilə yaxın müddətdə Ermənistan Respublikası *(bundan sonra – Ermənistan)* tərəfindən Azərbaycan Respublikası *(bundan sonra - Azərbaycan)* ərazilərinin işğal edilməsi nəticəsində həmin ərazilərdən olan məcburi köçkünlərin pozulmuş hüquqlarının, daha sonra dəymiş ziyanın əhatə dairəsinin və istiqamətlərinin müəyyən edilməsi, beynəlxalq təcrübəni öyrənməklə pozulmuş hüquqların bərpası, nəhayət dəymiş ziyanın Ermənistan tərəfindən ödənilməsi üçün beynəlxalq-hüquqi mexanizmlərin təhlil edilməsidir. Ermənistanın təcavüzünə məruz qalmış və uzun müddət işğal olunmuş Azərbaycan ərazilərindən olan məcburi köçkünlərin işğala qədər, işğal dövründə və işğaldan azad olunandan sonra əsas hüquq və azadlıqları beynəlxalq sənədlərlə tanınır. Xüsusi olaraq, BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan məcburi köçkünlərinin öz doğma yurdlarına *"şərəfli və təhlükəsiz qayıdış hüququ"* da birmənalı olaraq təsbit olunmuşdur.

Uzun müddət öz yaşayış yerlərindən və tərzlərindən ayrılan məcburi köçkünlərin yenidən qayıtdıqları əraziyə adaptasiya olunması adətən çox çətin və psixoloji baxımdan əziyyətli olur. Bu vəziyyət Azərbaycan məcburi köçkünləri üçün daha məşəqqətlidir. Belə ki, ərazilərin minalanması və daha təhlükəli partlayıcı vasitələrin olması qorxusu, yaxın qohumlarının məzarlarının dağıdılması, tarixi və mədəniyyət abidələrinin tam məhv edilməsi, uşaqlıq və gənclik xatirələrini xatırladan hər şeyin məhv edilməsi, nəhayət, yenidən həyata başlamaq üçün ilkin şəraitlərin qurulmasının çox çətin olması fikri və s. amillər qeyd olunan vəziyyəti daha ağırlaşdırır. Ona görə də bu halların gələcəkdə təkrarlanmaması Azərbaycan məcburi köçkünlərinə dəymiş bütün ziyanların məhz hadisələri törədən dövlət olan Ermənistan tərəfindən tam şəkildə ödənilməsini xüsusi zəruri edir ki, beynəlxalq hüquq da artıq kifayət qədər belə halları həll etmişdir.

Müasir beynəlxalq hüquqda beynəlxalq öhdəliklər nəinki beynəlxalq hüququn əsas prinsipləri, eyni zamanda beynəlxalq müqavilə normaları ilə deyil, həm də dövlətlərin üzv olduğu beynəlxalq təşkilatların qərarları ilə də müəyyən edilir. Bu müstəvidə BMT-nin beynəlxalq təhlükəsizliyin təminatında ən mühüm orqanı olan TŞ-nin qətnamələrinin yerinə yetirilməsinə hörmətlə yanaşılmalıdır. Ermənistan 30 ilə yaxın müddətdə nəinki bu qətnamələri yerinə yetirmədi, əksinə, 27 sentyabr 2020-ci il tarixində atəşkəsi pozmaqla Azərbaycanın yeni ərazilərini tutmağa cəhd etdi. BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunan fərdi özünümüdafiə hüququndan istifadə edən Azərbaycan isə BMT TŞ-nin yuxarıda qeyd olunan qətnamələri ilə Ermənistanın azad etməli olduğu əraziləri işğaldan azad etdi. Sonradan 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata müvafiq olaraq hərbi əməliyyatlar dayanmaqla Azərbaycanın işğal edilmiş üç rayonu da Ermənistan tərəfindən təhvil verildi. Azərbaycanın qalan digər əraziləri isə həmin Bəyanata əsasən hazırda Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarəti altındadır. Müqayisə üçün qeyd olunmalıdır ki, həm Azərbaycan ordusu tərəfindən azad edilən ərazilərdə (Şuşa, Füzuli, Cəbrayıl, Qubadlı,

Zəngilan və s.), həm də Ermənistan tərəfindən təhvil verilən ərazilərdə (Ağdam, Kəlbəcər və Laçın) vəziyyət tamamilə eynidir: 30 ilə yaxın müddətdə işğal edilmiş ərazilər mədəni irs də daxil olmaqla tam dağıdılmış və talan edilmiş, yaşayış üçün yararsız vəziyyətə salınmış, kütləvi şəkildə minalanmışdır.

Bununla əlaqədar Ermənistanın beynəlxalq-hüquqi məsuliyyətə cəlb olunması, Azərbaycan məcburi köçkünlərinin *"şərəfli və təhlükəsiz qayıdış hüququ"*nun təmin edilməsi, dəymiş ziyanın ödənilməsi, işğal altında olmuş Azərbaycan əraziləri üçün zərurət duyulan humanitar yardım və s. aktual problemlərin beynəlxalq-hüquqi həlli bu Hesabatda öz əksini tapmışdır.

Hesabat beynəlxalq hökumətlərarası və qeyri-hökumətlərarası təşkilatlar, xarici dövlətlərin müvafiq dövlətdaxili qurumları və qeyri-hökumət təşkilatları, o cümlədən insan hüquqları sahəsində tədqiqatlar aparan elmi-tədqiqat müəssisələri və tədqiqatçılar, Azərbaycanın müvafiq dövlət qurumları və təhsil müəssisələri üçün təcrübi baxımdan əhəmiyyətli olacaqdır.

Azərbaycan və ingilis dillərində hazırlanmış Hesabat müvafiq beynəlxalq təşkilatlara göndəriləcəkdir (Hesabatın göndəriləcəyi beynəlxalq təşkilatların təxmini siyahısı - Əlavə 7).

Hesabatın elektron versiyası ilə buradan tanış ola bilərsiniz*: **bsu.edu.az***

2. Ümumi yanaşma və metodologiya

Dünyada məcburi köçkünlərin hüquqlarının müdafiəsi ciddi problem olaraq qalır. Belə ki, əgər 1982-ci ildə məcburi köçkünlərin sayı 11 ölkədə 1,2 milyon nəfəri ötürdüsə, 1996-cı ildə bu rəqəm 40 ölkə üzrə 20-25 milyona çatmışdır. Burada statistika yalnız hərbi münaqişələr dövründəki məcburi köçkünlərə aiddir. XXI əsrdə bu rəqəmlər daha da artmışdır. 2019-cu ildə məcburi köçkünlərin sayı 41 milyonu ötmüşdür.[1] Bu rəqəm Kolumbiyada 7,8 milyon, Suriyada 6,2 milyon, Yəməndə 2 milyon, Sudanda 2 milyon, Əfqanıstanda 1,8 milyon, Ukraynada 1,8 milyon, Azərbaycanda 1 milyondan çox və s. məcburi köçkünləri birləşdirir.[2]

Qaçqınlar və miqrantlar haqqında 2016-cı il tarixli Nyu-York Bəyannaməsində bütün qaçqınların və miqrantların onların statusundan asılı olmayaraq dövlətlər tərəfindən insan hüquqlarının müdafiəsi öhdəliyi müəyyən edilir.[3] Bu baxımdan insan hüquqları, xüsusilə silahlı münaqişələr dövründə insan hüquqları ilə bağlı beynəlxalq hüquq normaları məcburi köçkünlərin müdafiəsi üçün də hüquqi əsas hesab edilməlidir. Bu sahədə tədqiqat aparan alimlərin haqlı olaraq qeyd etdiyi kimi, məcburi köçkünlər də qaçqınlar kimi müəyyən edilən səbəblərdən daimi yaşayış yerlərindən qovulurlar, lakin öz ölkələrinin yurisdiksiyasında qaldığından, Qaçqınların statusu haqqında 1951-ci il tarixli Beynəlxalq Konvensiya və s. beynəlxalq aktlarla qaçqınlar üçün müəyyən edilən beynəlxalq müdafiədən istifadə edə bilmirlər.[4] Lakin onlar da maksimum fiziki, psixoloji və mənəvi zorakılığa məruz qalırlar; ailə üzvlərini, yaxınlarını itirirlər; insan hüquqlarının həyata keçirilməsi prosesi demək olar ki, dayanır; mülkiyyət hüquqları ciddi pozulur və s. Buna görə də bu məsələlərin həllinə artıq beynəlxalq cəmiyyət birmənalı müsbət istiqamətdə yanaşır. Məsələn, 4 dekabr 1995-ci il tarixli Bosniya və Herseqovinada Deyton Sülh Sazişinə 7-ci Əlavədə iki milyondan çox qaçqın və məcburi köçkünün "evlərinə sərbəst qayıtmaq hüququ" təsbit edilmişdir. Bu Sazişə müvafiq olaraq məcburi köçkünlər 1991-ci ildən sonra döyüş əməliyyatları zamanı əllərindən alınmış əmlaklarını özlərinə qaytarmaq və özlərinə qaytarıla bilməyən əmlak üçün isə təzminat almaq hüququna malikdirlər.

Bundan başqa, BMT BA-nın Gürcüstandan olan məcburi köçkün və qaçqınların vəziyyəti ilə bağlı 18 iyun 2018-ci il tarixli A/RES/72/280 saylı Bəyannaməsində də Gürcüstan ərazilərindən məcburi köçkün düşmüş şəxslərin hüquqlarının bərpa edilməsinə, o cümlədən onların təhlükəsiz, şərəfli və maneəsiz qayıtmalarına dair çağırış edilmişdir.[5]

---

[1] Global Report on Internal Displacement 2018 [«Глобальный доклад о перемещении лиц внутри стран, 2018 год»], опубликован Центром мониторинга внутренних перемещений и Норвежским советом по делам беженцев, 15 мая 2018 г., с.1

[2] Ежегодный доклад «Глобальные тенденции», опубликованном в 2019, УВКБ ООН https://www.unhcr.org/globaltrends2018/

[3] https://undocs.org/ru/A/RES/70/302

[4] Brun.C (2003). Local Citizens or Internally Displaced Persons? Dilemmas of Long term Displacement in Sri Lanka. Journal of Refugees Studies, Vol (16); Cohen. R. and Deng, F. (1998a) Masses in Flight, the Global Crisis of Internal Displacement, Washington DC: Brooking Institution Press, p.7-10

[5] A/RES/72/280 - R - A/RES/72/280 -Desktop (undocs.org)

Azərbaycan və Ermənistan Cənubi Qafqazda qonşu və hər ikisi əvvəllər keçmiş SSRİ-yə daxil olan müttəfiq respublika, hazırda isə Türkiyə, İran, Gürcüstan və Rusiya Federasiyası (bundan sonra Rusiya) (yalnız Azərbaycan) ilə sərhədi olan müstəqil dövlətlərdir. SSRİ dağılmaqdan bir neçə il öncə keçmiş İttifaq rəhbərliyinin dəstəyi ilə Ermənistan SSR SSRİ və Azərbaycan SSR-nin Konstitusiyaları ilə Azərbaycan SSR-nin ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin erməni əhalisinin "özünü müəyyənetmə hüququ"ndan sui-istifadə və zorakılıqla istifadə etməyi qərara almış, Azərbaycana qarşı 1989-cu ildən 1994-cü ilə qədər davam edən birbaşa hərbi təcavüzkar müharibəyə başlamışdır. 1994-cü ildə Ermənistan və Azərbaycan arasında münaqişəni danışıqlar yolu ilə həll etmək üçün atəşkəs imzalanmışdır. Lakin 1994-2020-ci illər ərzində münaqişənin dinc yolla həlli barədə Ermənistan tərəfindən addım atılmamış, Ermənistan BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirməmiş və icrasına belə məcbur edilməmişdir. Əksinə, Ermənistan BMT və digər beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan əraziləri hesab edilən, nəhayət BMT TŞ-nin qətnamələri ilə işğal ərazisi kimi tanınan Azərbaycan əraziləri (Şuşa, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Fizuli, Ağdam rayonları və s. - adlarını dəyişməklə) hesabına qondarma "Dağlıq Qarabağ Respublikası" yaratmış və onu idarə etməyə başlamışdır. Bununla müşayiət olunan Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycana 1 milyondan çox qaçqın və məcburi köçkün problemi yaratmışdır.

BMT-nin 1998-ci il tarixli Məcburi köçkünlərlə bağlı Rəhbər Prinsipləri ciddi beynəlxalq hüquqi öhdəliklər müəyyən etməsə də, məcburi köçkünlərə aid məsələləri tənzim edən əsas beynəlxalq sənəd hesab edilir. Bu sənəddəki bir sıra əsas müddəalar artıq dövlətlərin hüquq sistemlərinə inkorporasiya edilmişdir. Prinsiplərin 21-ci maddəsində qeyd edilir ki, heç bir məcburi köçkün özbaşına əmlak və mülkiyyət hüququndan məhrum edilə bilməz. Məcburi köçkünlərin mülkiyyəti və əmlakı hər vəziyyətdə, xüsusən aşağıdakılardan: talan, birbaşa və ya dolayısı hücumlar və ya digər zorakılıq hərəkətlərindən, hərbi əməliyyatların və ya qurğuların qorunması üçün istifadə edilməkdən, repressali, kollektiv cəzanın bir növü olaraq məhv edilmə kimi hərəkətlərdən qorunmalıdır.

BMT-nin İqtisadi və Sosial Şurasının 2005-ci ildə qəbul etdiyi Qaçqınlar və məcburi köçkünlər üçün ev və əmlak restitusiyası Prinsipləri (Pinheiro prinsipləri)[6] isə köçürülmə nəticəsində bütün şəxslərin qanunsuz olaraq yaşayış yerlərindən, torpaqlarından, əmlaklarından məhrum olunması halında, yaşayış yerlərinin, torpaqlarının və əmlaklarının istisnasız olaraq bərpasını nəzərdə tutur. Pozulmuş hüquqların bərpa edilməsi məsələsinə gəldikdə, bu sənəd bütün qaçqınlara, məcburi köçkünlərə və eyni vəziyyətdəki digər şəxslərə eyni dərəcədə şamil edilir.

Bundan əlavə, 2018-ci ildə isə BMT çərçivəsində "Daxili məcburi köçkünlərin problemlərinin qarşısının alınması, müdafiəsi və həll edilməsi üzrə Plan (2018-2021)" qəbul edilmişdir.[7] Hətta bununla bağlı BMT-nin xüsusi məruzəçilər institutu da yaradılmışdır.

Bütün regional mexanizmlər çərçivəsində də bu problemə ciddi yanaşılır. Belə ki, AŞ-nin 2006-cı il Tövsiyəsində də dövlətlərin məcburi köçkünlərin insan hüquqlarına hörmət etmək, AİHK-ə və digər beynəlxalq aktlara uyğun olaraq dərhal həyata keçirilməsini təşviq etmək, onların humanitar və sosial ehtiyaclarına vaxtında cavab vermək öhdəlikləri göstərilmişdir. AŞ PA-nın Qaçqın və məcburi köçkünlərin mülkiyyət məsələlərinin həllinə dair 1708 (2010) saylı

[6] http://hrlibrary.umn.edu/russian/instree/Rhousingprinciples2006.html
[7] https://data2.unhcr.org/en/documents/details/64693

Qətnaməsində açıq şəkildə bildirilir ki, mənzil, torpaq və əmlak itkisi məcburi köçkünlərlə bağlı problemlərin uzunmüddətli həllinə mane olan əsas məsələlərdəndir. [8]

Mülklərin talan edilməsi 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 33 (2) və həmin Konvensiyalara I Əlavə Protokolun 54-cü maddəsi və II Əlavə Protokolun 4 (2) (g), 17-ci maddələri ilə qadağandır. Beynəlxalq Qırmızı Xaç Komitəsi həmin Konvensiyanın 33-cü maddəsinin 2-ci bəndində talanın qadağan edilməsinin "ümumi mənada" olduğunu vurğulayır. Buraya yalnız hərbi orqanların razılığı olmadan fərdi talan hərəkətləri deyil, həm də mütəşəkkil talançılıq da daxildir. 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 33-cü maddəsinin 2-ci bəndi son dərəcə aydın və dəqiqdir. Qeyd edilir ki, Razılığa gələn Yüksək Tərəflər həm talanın təşkil edilməsini, həm də onlara icazə verilməsini qadağan edirlər. Dövlətlər öz üzərlərinə fərdi talanın başlandığı təqdirdə onun qarşısını almaq və dayandırmaq öhdəliyi götürürlər. Buna görə dövlətlər bu sahədə lazımi qanunvericilik tədbirlərini görməlidirlər. Talan barədə qadağa həm münaqişə tərəflərinin ərazilərində, həm də işğal olunmuş ərazilərdə tətbiq olunmalıdır. Qadağa xüsusi mülkiyyət, bələdiyyə və ya dövlət mülkiyyəti timsalında bütün mülkiyyət növlərinə münasibətdə təmin edilməlidir. BCM-nin Roma Statutunun 8-ci maddəsi ilə Məhkəmənin yurisdiksiyasına digər müharibə cinayətləri ilə bərabər talama cinayəti də daxil edilmişdir.

2009-cu ildə Afrika Birliyi Təşkilatı Məcburi köçkünlərin hüquqlarının qorunmasına dair Konvensiya qəbul etmişdir. Konvensiyanın 4-cü maddəsində məcburi köçkünlərə qarşı törədilən cinayətlərə görə məsuliyyət məsələləri, 12-ci maddədə isə məcburi köçkünlərə dəyən ziyana görə kompensasiyanın beynəlxalq standartlarla təmin edilməsi öhdəliyi bu vəziyyəti yaradan dövlətin ödəməsi ilə müəyyən edilir.

Göründüyü kimi, məcburi köçkünlərə dəymiş ziyanın ödənilməsi üzrə müəyyən sistemin formalaşması artıq universal və regional əsasda tam qəbul edilmişdir. Ona görə də bu sistem beynəlxalq cəmiyyət tərəfindən birdəfəlik mexanizmlər vasitəsilə Ermənistana münasibətdə də tətbiq edilməlidir. Belə ki, BMT-nin 1998-ci il tarixli Məcburi köçkünlərlə bağlı Rəhbər Prinsiplərinin[9] 29-cu maddəsində qeyd edilir ki, səlahiyyətli orqanlar geri qayıdanlara və köçürülmüş məcburi köçkünlərə, tərk etdikləri və ya köçürülməsindən sonra onlardan ələ keçirilmiş mülklərini və əmlaklarını mümkün qədər geri qaytarmağa kömək etmək vəzifəsinə malikdirlər və müvafiq məsuliyyət daşıyırlar. Bu cür əmlakın və mülklərin geri qaytarılması mümkün deyilsə, səlahiyyətli orqanlar həmin şəxslərə lazımi kompensasiya və ya ədalətli təzminatın digər formasının almasını təmin edəcək və ya kömək edəcəkdir. Bu vəzifə Azərbaycan tərəfindən məcburi köçkünlərin pozulmuş hüquqlarının müdafiəsi məsələsinin beynəlxalq qurumlarda qaldırılması və buna nail olunması ilə həyata keçirməlidir. Beynəlxalq cəmiyyət isə bu pozulmuş hüquqları bərpa etməli və Ermənistanın məsuliyyətini müəyyən etməlidir.

BMT-nin 1998-ci il tarixli Məcburi köçkünlərlə bağlı Rəhbər Prinsiplərinin Kommentariyasında qeyd edilir ki, məcburi köçkünlər adətən köçürülmə nəticəsində əmlaklarının çoxunu itirirlər. Əvvəlki daimi yaşayış yerinə qayıtdıqda və ya geri qayıtmağın mümkünsüzlüyü səbəbindən yeni bir yerə köçdükdə, digər insanların onların əmlaklarına sahib olduqları ilə qarşılaşa biləcəyi halda, insan hüquqları ilə bağlı bütün beynəlxalq sənədlər və müasir beynəlxalq hüquq bu suala tam müsbət cavab verməklə onların hüquqlarını müdafiə etmək imkanı yaratmışdır

[8] https://www.coe.int/T/r/Parliamentary_Assembly/[Russian_documents]/[2010]/[Jan2010]/Res1708_rus.asp
[9] https://www.un.org/ru/documents/decl_conv/conventions/internal_displacement_principles.shtml

(ÜİHB (8-ci maddə) və digər çoxsaylı beynəlxalq sənədlər). Bundan başqa, həm Avropa, həm də digər regional insan hüquqları məhkəmələri insan hüquqlarının pozuntularına məruz qalanlara davamlı olaraq təzminat verilməsi barədə kifayət qədər qərarlar qəbul etmişdir.

Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının qaydaları, hətta əmlak üçüncü bir şəxsin əlinə keçsə də, onun qaytarılmasını nəzərdə tutur (Tribunal tərəfindən 11 fevral 1994-cü ildə qəbul edilmiş Prosessual və sübut Qaydalarının 105-ci maddəsi). Amerika İnsan Hüquqları Komissiyasının *"Resolution of the Friendly Settlement Procedure regarding the Human Rights Situation of a Segment of the Nicaraguan population of Miskito origin"* rəyində məcburi köçkünlərə evlər, əkinlər, mal-qara və ev əmlakı da daxil olmaqla itmiş əmlaklarına görə ədalətli təzminat verilməsinə dair tövsiyəsi də qeyd edilmişdir. [10] Dünya Bankının Məcburi köçürmələr barədə Direktivində də iqtisadi, sosial və ekoloji problemləri daha da artıran inkişaf layihələri ilə əlaqədar istər-istəməz köçkünlərə köçürülmədən qaynaqlanan bütün zərərlərin ödənilməsinin də təmin edilməsi göstərilmişdir.

Konkret hərbi münaqişələrə gəldikdə isə, 1907-ci il tarixli Müharibə qanun və adətləri haqqında IV Haaqa Konvensiyasının 3-cü maddəsinə, 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 148-ci maddəsinə və həmin Konvensiyaya I Əlavə Protokolun 91-ci maddəsinə əsasən, dövlətlər öz öhdəliklərini pozduqları təqdirdə təzminat ödəmək məcburiyyətindədirlər.

Bosniya və Herseqovina üçün Deyton Sülh Sazişinə 7-ci Əlavədə qaçqınların və məcburi köçkünlərin əmlak iddialarına baxılması üçün bir Komissiyanın yaradılması nəzərdə tutulmuşdur. Komissiyaya 1991-1995-ci illər müharibəsi zamanı istər-istəməz satılmış və ya başqa yolla digər şəxslərə verilmiş daşınmaz əmlakla əlaqəli iddialarla bağlı son və məcburi qərarlar qəbul etmək üçün birbaşa səlahiyyətlər verilmişdir. Tələblər əmlakın qaytarılması və ya geri qaytarılmaması müqabilində ədalətli kompensasiyanı əhatə etmişdir. 21 may 1999-cu il tarixinə qədər Komissiya 183 mindən çox obyektlə bağlı 143 min iddia toplamış və 3,5 mindən çox qərar qəbul etmişdir. Bundan əlavə, Deyton Sazişinin 6-cı Əlavəsinə uyğun olaraq yaradılan, bu ölkədə insan hüquqları üzrə ən yüksək məhkəmə orqanı olan Bosniya və Herseqovina İnsan Hüquqları Palatası mülkiyyət məsələləri ilə əlaqədar bəzi qanunvericilik və inzibati aktların qəbul olunduğu bir sıra qərarlar vermişdir. Qərarlarda bu sahədə qəbul edilmiş və evlərin qaçqın və məcburi köçkünlərə qaytarılmasının qarşısını almaq məqsədi ilə qəbul edilmiş bəzi dövlətdaxili qanunvericilik aktlarının AİHK-ə və digər beynəlxalq müqavilələrə zidd olduğu təsbit edilmişdir. Cavabdehlərə (Bosniya-Herseqovina və ya Serbiya Respublikası) vəziyyəti həll etmək və ya zərər çəkmiş şəxslərə təzminat vermək üçün müvafiq qanunvericilik və inzibati tədbirlər görmək öhdəliyi qoyulmuşdur.[11]

Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarının bərpa edilməsinə gəldikdə isə, ilk növbədə qarşıda dayanan əsas vəzifə onların öz doğma yurdlarına qaytarılmasıdır. Bunun üçün isə Ermənistan tərəfindən dağıdılmış ərazilər yaşayış üçün bərpa edilməlidir. Lakin Ermənistan dəymiş ziyanın ödənilməsindən tam boyun qaçırır. Çünki cavabdeh dövlət kimi beynəlxalq cəmiyyət tərəfindən indiyə qədər ona qarşı heç bir sanksiya tətbiq ediməmişdir. Hətta Ermənistan bu günə qədər uzun müddət ərzində işğalda saxladığı Azərbaycan ərazilərində minaların xəritəsini belə vermir. Nəhayət, yeni beynəlxalq cinayətlər törətmək niyyətindən də əl

[10] http://www.cidh.oas.org/countryrep/Miskitoeng/annex.htm

[11] Вальтер Кёлин. Руководящие принципы по вопросу о перемещении лиц внутри страны. Комментарий. Американское общество международного права и Институт Брукингса, 2003, Перевод на русский язык ПЦ «Мемориал».// http://hrlibrary.umn.edu/russian/Ridprinciplescommentary.html

çəkmir. Belə ki, 20 fevral 2021-ci il tarixdə Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin radikal ermənilərinin aqressiv separatçılığının əsasını qoyan 20 fevral 1988-ci il tarixli qeyri-qanuni qərarını dəstəkləyən bəyanat verməsi Ermənistanın hələ də məsuliyyətli davranışdan və beynəlxalq hüquq əsasında münasibətlər qurmaqdan uzaq olduğunun göstəricisidir. Bununla əlaqədar olaraq Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində qeyd edilir ki, aqressiv erməni separatçılarının Ermənistan tərəfindən dəstəklənməsi və sonuncunun Azərbaycana qarşı açıq ərazi iddiaları və təcavüzkar siyasəti bölgədə onilliklər ərzində davam edən hərbi işğal, qanlı etnik təmizləmə, bir milyon insanın fundamental hüquqlarının pozulmasına və böyük dağıntılara gətirdi. Bu vəziyyət bölgənin uzun illər ərzində dayanıqlı inkişafına, sülh, təhlükəsizlik və tərəqqiyə ciddi əngəl törətdi. Şərhdə Ermənistan tərəfinin öz üzərinə götürdüyü öhdəliklərə əməl edərək iki dövlət arasında münasibətlərin normallaşması, bölgədə sülh şəraitində birgə yaşayışın təmin olunması istiqamətində əməli addımlar atmaq əvəzinə düşmənçiliyi təşviq etməsi qətiyyətlə qınanılır.[12] Daha sonra, Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə göndərilməsi halları ilə bağlı məlumat yaymışdır. Məlumatda qeyd edilir ki, 10 noyabr 2020-ci il tarixində Rusiya, Azərbaycan və Ermənistan arasında üçtərəfli Bəyanatın imzalanmasından sonra Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin beynəlxalq hüququn norma və prinsiplərinə, beynəlxalq insan hüquqlarının əsas prinsiplərinə zidd olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində hərbi xidmət üçün göndərilməsi hallarına rast gəlinir. Ermənistanda fəaliyyət göstərən beynəlxalq media agentliklərinin məlumatlarında Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin aldadılaraq və ya zorla məcbur edilərək Azərbaycanın Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarəti altında olduğu bölgələrində hərbi fəaliyyətlərə cəlb edildiyi, bunun həm hərbçilərin, həm də onların ailələrinin etirazına səbəb olduğu bildirilir. Məlumatlarda hərbçilərin valideynlərinin açıq şəkildə öz övladlarını Azərbaycan ərazisində hərbi xidmətə cəlb olunmasına etiraz etdikləri, Ermənistan hərbçilərinin "Laçın dəhlizi"ndən gizli şəkildə keçirilərək Azərbaycan ərazilərinə zorla yerləşdirilməklə onların həyatlarının risk altına qoyulduğu, onların işgəncə və qeyri-insani rəftara məruz qaldıqları öz əksini tapır. Daha sonra, məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində Azərbaycanın razılığı olmadan hər hansı bir formada yerləşdirilməsi beynəlxalq hüququn norma və prinsiplərinin, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin pozulmazlığının, eləcə də Ermənistanın özünün də tərəfdar çıxdığı digər beynəlxalq sənədlərin müddəalarınının açıq şəkildə pozuntusudur.[13]

İnsan hüquqları sahəsində kifayət qədər beynəlxalq müqavilələrin iştirakçısı olaraq bu siyasətə sadiq qalan Azərbaycan isə yenə də əvvəlki illərdə olduğu kimi məcburi köçkünlərin hüquqlarının bərpası istiqamətində onların yanındadır. Necə ki, 30 ilə yaxındır Azərbaycan dövləti tərəfindən məcburi köçkünlərlə bağlı ən ciddi proqramlar belə yüksək səviyyədə yerinə yetirilmişdir. Bununla yanaşı Ermənistana qarşı təzminat məsələsi də qaldırılacaqdır. 06 yanvar 2021-ci il tarixində Azərbaycan Prezidenti cənab İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədəki çıxışı zamanı qeyd etmişdir ki, "bərpa işlərinə qədər digər vacib bir məsələ də öz həllini tapmalıdır. Bu, dəymiş ziyanın hesablanmasıdır... Bütün şəhərlərin, bütün kəndlərin video və foto çəkilişləri aparılmalıdır, təsdiq edilməlidir, protokollaşdırılmalıdır. Bununla paralel olaraq, dağıdılmış və azad edilmiş

[12] https://www.mfa.gov.az/az/news/7211/view
[13] https://www.mfa.gov.az/az/news/7226/view

bütün torpaqların peyk vasitəsilə çəkilişi aparılmalıdır. Dronlardan da istifadə etməklə hər bir şəhərin, hər bir kəndin sənədləşdirilməsi, əgər belə demək mümkündürsə, pasportlaşdırılması aparılmalıdır..."[14]

BMT QAK-ın Avropa Bürosunun 2020-ci ilin noyabr ayında "Dağlıq Qarabağ və ətraf rayonlara qayıdışla əlaqədar əsas Mülahizələr" adlı sənədində qeyd edilir ki, Azərbaycan hökumətinin 2005-ci ildən məcburi köçkünlərin qayıdış konsepsiyası hazırlanmışdır. Sənəd məhz bu konsepsiyanın beynəlxalq sənədlərə uyğun həyata keçirilməsi üçün və 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatda BMT QAK-a istinad olunduğuna görə hazırlanmışdır. Qeyd edilən sənəddə məcburi köçkünlərin qayıdışında aşağıdakı prinsiplər qeyd edilir: geyi qayıtmaq hüququ; təhlükəsiz və şərəfli qayıdış; milli məsuliyyət və sahiblik; təhlükəsiz, çevik və maneəsiz əlçatımlılıq; hüquqlara əsaslanan yanaşma; iştirakçılıq və icma əsaslı yanaşma; hərtərəfli və inkluziv yanaşma; səmərəli monitorinq mexanizmi; ayrı-seçkiliyin qadağan edilməsi; ilkin planlaşdırma və vəziyyətin təhlili; bərpa proqramları və maliyyələşmə; sülh, ədalət və barışıq. [15]

Hesabatın yazılmasında *ümumi və xüsusi elmi-tədqiqat: tarixi-hüquqi, müqayisəli-hüquqi, formal-məntiqi, sistem, konkret-sosioloji, statistik və s. metodlardan istifadə edilmişdir.*

Hesabatın *məqsədləri üçün aşağıdakı mənbələrdən istifadə edilmişdir:*

– insan hüquqları sahəsində beynəlxalq sənədlər;

– beynəlxalq təşkilatların qərarları və hesabatları;

– beynəlxalq məhkəmə presedentləri;

– xarici dövlətlərin bu sahədə təcrübəsi;

– Ermənistan-Azərbaycan münaqişəsi və məcburi köçkünlərin hüquqlarına dair dərc edilmiş elmi-praktiki araşdırmalar, əsərlər və s.;[16]

– beynəlxalq statistika və rəsmi məlumatlar;

– foto və video materiallar və s.

Nəticə: *Qəbul edilmiş kifayət qədər beynəlxalq sənədlər və mövcud beynəlxalq təcrübə Azərbaycandakı məcburi köçkünlərin pozulmuş hüquqlarına dair cavabdeh dövlət olan Ermənistanın məsuliyyətini beynəlxalq səviyyədə müəyyənləşdirməyə tam imkan verir. Ermənistana qarşı beynəlxalq müstəvidə müvafiq məsuliyyət tədbirlərinin həyata keçirilməsi həm Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarının bərpa edilməsi nöqteyi-nəzərindən, həm də Ermənistanın gələcəkdə beynəlxalq hüquqa zidd fəaliyyətinin qarşısını almağa xidmət edəcəkdir. Əks halda, cəzasızlıq mühitində Ermənistan yeni beynəlxalq cinayətlər etmək niyyətini və hərəkətlərini davam etdirəcəkdir.*

---

[14] https://president.az/articles/49933

[15] https://www.refworld.org/docid/5fc0e1e24.html

[16] Kruger H. The Nagorno-Karabakh Conflict. A Legal Analysis. Springer-Verlag Berlin Heidelberg, 2010, 168 p; Мережко А.А. Проблема Нагорного Карабаха и международное право. Киев, Издательский дом Дмитрия Бураго, 2014, 208 с.; Церцвадзе Ф.Э. Забытый геноцид. Нью-Йорк, 2005, 132 с.; Kuznetsov O. The history of transnational Armenian terrorism in the twentieth century: A historico-criminological study. Berlin, Verlag Dr. Köster, 2016, 332 p.; Feigl E. A myth of terror. Armenian extremism: its causes and its historical context. Salzburg, Edition Zeitgeschichte, 1986, 144 p.; Gunter M.M. Armenian terrorism: a reappraisal // The Journal of Conflict Studies, 2007, Vol. 27, No 2, pp. 109-128; Heß M.R. Panzer im Paradies: Der Berg-Karabach-Konflikt zwischen Armenien und Aserbaidschan. Berlin, Verlag Dr. Köster, 2016, 171 s.; Kipke R. Konfliktherd Südkaukasus: Aserbaidschan im Fokus (sowjet-) russischer und armenischer Interessen. Wiesbaden, Springer VS, 2015, 128 s.; Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, 176 p.

3. Uzun müddət ərzində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan əraziləri haqqında ümumi məlumatlar

Bu bölmədə uzun müddət ərzində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan əraziləri haqqında ümumi məlumatlar verilir.

Şuşa rayonu. Şuşanın rayon kimi yaranma tarixi 8 avqust 1930-cu il hesab edilir. Mərkəzi Şuşa şəhəridir. Ərazisi 0,31 min kv.km., əhalisinin sayı 34,7 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə). Şuşa 8 may 1992-ci il tarixində Ermənistan tərəfindən işğal edilmişdi. İşğaldan qabaq ərazidə 1 şəhər, 1 qəsəbə, 37 kənd olmuşdur. Rayonun iqtisadiyyatında heyvandarlıq əsas yer tuturdu. 1986-cı ilin statistikasına əsasən kənd təsərrüfatına yararlı torpaqlar 20,9 min hektar idi. Rayonda quşçuluq və meyvəçilik sahələri də geniş inkişaf etmişdi.

Rayon mərkəzi olan Şuşa şəhərində Dövlət Dram Teatrı, Şuşa televiziyası, Dövlət Qarabağ tarixi və Şuşa şəhərinin tarixi muzeyləri, Üzeyir Hacıbəylinin, Bülbülün, Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Dövlət Rəsm Qalereyası, dörd texnikum (kollec), iki institut filialı, texniki peşə məktəbi, 25 orta məкtəb, orta və orta ixtisas musiqi məкtəbləri, 7 uşaq bağçası, 8 mədəniyyət evi, 17 klub, 31 кitabxana, 40 tibb müəssisəsi, 2 sanatoriya, uşaq sanatoriyası, uşaq sağlamlıq məktəbi, 70 yerlik turist bazası, mehmanxana, 5 mədəniyyət və istirahət parkı, 4 kinoteatr, ictimai iaşə obyektləri və s. fəaliyyət göstərirdi. 17 məhəlləsi olan və abidələr şəhəri adlandırılan Şuşada milli abidələrin çoxluğu, onların rəngarəng-lik baxımından fərqlənməsi, haqlı olaraq, şəhərin Azərbaycan mədəniyyətinin ən zəngin beşiyi adlandırılmasına səbəb olmuşdur. Bu abidələrin çoxu XVIII-XIX əsrlərə aiddir. Şuşada hər bir ev, küçə, möhtəşəm qala divarları, məscidlər, qədd-qamətli minarələr, əzəmətli qəsrlərin qalıqları keçmişdən xəbər verir.[17]

Rayonun ərazisində müxtəlif növ tikinti materialı yataqları və mineral su bulaqları vardır: üzlük daş yatağı; kərpic-kirəmit istehsalına yararlı Keçəldağ (Lesoqor) gil yatağı; yeraltı şirin su yatağı; Şırlan və Turşsu mineral su yataqları; və s. Ərazidə nadir təbiət komplekslərini qo-rumaq üçün 1988-ci ildə təşkil edilən Daşaltı Dövlət Təbiət Yasaqlığı 450 hektar ərazini əhatə edirdi.

Şuşa işğal edilərkən və işğalda olduğu müddətdə erməni işğalçıları tərəfindən tarixi-mədəni və dini abidələr vəhşicəsinə dağıdılmışdır. Şuşa muzeylərinin qiymətli sərvətləri - rəsm və heyкəltəraşlıq əsərləri, xalça və xalça toxuculuq məmulatları, xalq tətbiqi sənət nümunələri, arxeoloji tapıntılar, qədim tarixi sənədlər, Azərbaycanın görкəmli şəxsiyyətlərinin xatirə əşyaları, digər qiymətli materiallar Ermənistana aparılmış, sonradan həmin əşyalar xarici auкsionlarda satılmış, yaxud müxtəlif sərgi və muzeylərdə erməni mədəniyyət nümunəsi кimi təqdim olunmuşdu.[18]

[17] http://www.shusha-ih.gov.az/page/10.html
[18] https://www.armenianvandalism.az/az_shusha.html

Şuşa şəhəri 8 noyabr 2020-ci il tarixində Ermənistan işğalından azad olunmuşdur. Rayonun bəzi əraziləri və kəndləri hazırda 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata əsasən müvəqqəti olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Ağdam rayonu. Ağdamın rayon kimi yaranma tarixi 8 avqust 1930-cu il hesab edilir. Ərazisi 1,15 min kv. km., əhalinin sayı isə 204 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə). İşğala qədər Ağdam rayonunda 1 şəhər, 2 qəsəbə, 123 kənd var idi.[19]

Erməni işğalından öncə Ağdam ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik rayon idi. Ağdamda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları, metis-furnitur, traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları, tikinti materialları və ət kombinatları, iki dəmiryol vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət xidməti kombinatı, elektrik şəbəkəsi, kənd təsərrüfatı, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi stansiyaları, Üzeyir Hacıbəyli adına musiqi texnikumu (kollec), Əbdürrəhman bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı fəaliyyət göstərirdi. Həmçinin, 38 kolxoz və sovxoz, 24 tikinti-quraşdırma idarəsi, 12 sənaye müəssisəsi, 74 məktəb, 105 səhiyyə müəssisəsi, 271 mədəniyyət evi, 67 idarə, 99 klub və s. var idi.

Rayon ərazisinin 1700 hektarı meşəlik, 28 min hektar sahə isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi. Kənd təsərrüfatının istiqaməti, əsasən, pambıqçılıq, üzümçülük və heyvandarlıq idi.[20] 1988-ci ilin sonlarında Ermənistandan – özlərinin tarixi yaşayış yerlərindən, daha sonra isə Dağlıq Qarabağdakı doğma ocaqlarından qovulub çıxarılan on minlərlə azərbaycanlı da məhz Ağdam rayonunda yerləşdirilmişdi. Ermənistan Ağdam rayonunun 846,7 kv. km. ərazisini, yəni ümumi ərazisinin 77,4 faizini işğal etmişdi. İşğal edilmiş Ağdam şəhəri və rayonun 89 kəndi vəhşicəsinə darmadağın və talan edilmişdir.[21]

20 noyabr 2020-ci il tarixində Ağdam rayonu Ermənistan işğalından tam azad olunmuşdur.

Kəlbəcər rayonu. Kəlbəcərin rayon kimi yaranma tarixi 8 avqust 1930-cu il hesab edilir. Ərazisi 3,05 min kv. km. olan rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 150-dən çox kənd var idi. Mərkəzi Kəlbəcər şəhəridir. Kəlbəcər rayonu əhalisinin sayı 94,1 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə).

Meşələrinin ümumi sahəsi 38 min hektardır. Rayon Ermənistanın işğalından öncə nadir heyvan və bitki növləri ilə zəngin olmuşdur. Rayon ərazisində 4 mindən artıq bitki növü bitir ki, bunlardan da 200-ü dərman bitkisidir. Zəngin meşələr diyarı olan Kəlbəcərdə yüzlərlə mineral bulaqlar mövcuddur. Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Mozçay, Bağırsaq, Qotursu kimi çox böyük müalicə - balneoloji təsirə malik mineral su yataqları da vardır. Rayonun İstisu qəsəbəsində keçmiş SSRİ-də Ümumittifaq

[19] http://www.agdam-ih.gov.az/page/10.html
[20] https://avciya.az/agdam-rayonu-haqqinda-umumi-m%C9%99lumat/
[21] http://www.dqdk.gov.az/az/view/objects/4

əhəmiyyətli 1 və 2 saylı İstisu sanatoriyaları fəaliyyət göstərirdi.[22] Kəlbəcər ərazisində olan zəngin qızıl yataqları Ermənistan tərəfindən xarici şirkətlər cəlb edilərək tam qanunsuz olaraq vəhşicəsinə istismar edilmiş, bütün xammal Ermənistana və xaricə daşınmış, orada emal edilərək hər il milyardlarla dollar qanunsuz gəlirlər əldə edilmişdir.

Kəlbəcər rayonu 2 aprel 1993-cü il tarixində Ermənistan tərəfindən işğal edilmişdi. Kəlbəcərin işğalı zamanı 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə maşın, texnika və s. talan edilmiş və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınmışdır.[23] Kəlbəcər rayonu ərazisində qalmış 13 minədək fərdi mənzil, 38 min hektar meşə sahəsi Ermənistan tərəfindən ciddi talan və məhv edilmişdir.

25 noyabr 2020-ci il tarixində Kəlbəcər rayonu Ermənistan işğalından tam azad olunmuşdur.

Xocalı rayonu. Xocalı rayonu 26 noyabr 1991-ci il tarixində Əsgəran rayonunun əsasında yaradılmışdır. Rayonun ərazisi 1991-1992-ci illərdə Ermənistan tərəfindən işğal edilmişdir. Ərazisi 1,00 min kv. km., əhalisi 28,8 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə). Rayonda 1 şəhər, 1 qəsəbə, 50 kənd olmuşdur. Mərkəzi Xocalı şəhəridir. Rayonun ərazisindən uzunluğu 32 km. olan birinci kateqoriyalı şose yolu və Bakı-Xankəndi dəmir yolu keçirdi.[24] Ərazinin 40 faizə qədəri fıstıq, cökə, ağcaqayın, qaraağac və s. ağaclarla zəngindir.[25]

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan tərəfindən Xocalıda ağır beynəlxalq cinayət – soyqırımı törədilmiş və ərazi tam işğal edilmişdir (bu barədə 5.1-də (səh. 31-32) ətraflı qeyd edilmişdir). İşğala qədər rayonda 56 mədəniyyət müəssisəsi, muzeylər, texnikum (kollec), orta məktəblər, səhiyyə müəssisələri, kənd təsərrüfatı və sənaye müəssisələri, aeroport və s. fəaliyyət göstərirdi. Əhali əsasən üzümçülük, heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğul olurdu. Özbəkistandan qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Ermənistandan və Xankəndindən qovulmuş azərbaycanlılar da o vaxtlar Xocalı şəhərində məskunlaşmışdılar.[26] Xocalı rayonu ərazisində yerləşən çox qədim abidələr, tarix və mədəniyyət nümunələri də erməni vandalizminin qurbanı olmuşdur (bu barədə 5.12-də (səh.60-61) ətraflı qeyd edilmişdir).[27]

Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr - 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Xocalı rayonunun 9 kəndi Ermənistan işğalından azad olunmuşdur. Rayonun digər əraziləri 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata əsasən müvəqqəti olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Xankəndi şəhəri. İnzibati bölgüyə əsasən Xankəndi şəhəri Xocalı rayonunun tərkibindədir. İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan qəsəbəsi daxildir. Əhalisinin sayi 55,9 min nəfər (01 yanvar 2020-ci il tarixinə), sahəsi 8,8 kv.

[22] http://www.anl.az/kelbecer.htm
[23] http://www.dqdk.gov.az/az/view/objects/8
[24] http://xocali-ih.gov.az/page/10.html
[25] https://www.justiceforkhojaly.org/az/content/xocali-rayonu-bar%C9%99d%C9%99
[26] http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_mart2009/70876.htm
[27] http://www.dqdk.gov.az/az/view/objects/12

km. olan Xankəndi şəhəri Azərbaycan SSR daxilində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi olmuşdur. Xankəndi şəhəri Ermənistan tərəfindən 28 dekabr 1991-ci il tarixində işğal olunmuşdur.

Xankəndi şəhəri XVIII əsrin axırlarında Qarabağ xanlarının istirahəti üçün yaşayış məskəni kimi salınmışdır.[28] XX əsrdə isə Xankəndi şəhəri Azərbaycanın yeni sənaye və mədəniyyət mərkəzi kimi inkişaf etməyə başlayır. Xankəndində bütün Cənubi Qafqazda tanınan ipək kombinatı, ayaqqabı, xalça, tikiş fabrikləri, süd kombinatı, şərab zavodu və s. fəaliyyət göstərirdi. Elektrotexnika zavodunun, mebel fabrikinin, tikinti materialları kombinatının məhsulları isə Azərbaycanın daxili bazarında özünə layiqli yer tutmuşdu.[29]

Azərbaycan SSR-nin Mərkəzi İcraiyyə Komitəsi Sovetlərinin 07 iyul 1923-cü il tarixli Dekretinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılarkən, həmin Vilayətin mərkəzi Xankəndi şəhəri olmuşdur. 18 sentyabr 1923-cü il tarixində SSRİ rəhbərliyinin dəstəyi və Qarabağ Vilayət Partiya Komitəsinin qərarı ilə Xankəndi şəhərinin adı dəyişdirilərək Stepanakert şəhəri adlandırılmışdı. 26 noyabr 1991-ci il tarixli Qanuna əsasən isə şəhərin tarixi adı qaytarılmış və Xankəndi şəhəri adlandırılmışdır.[30]

Uzun müddət Xankəndində kifayət qədər sayda azərbaycanlıların yaşamasına baxmayaraq, bu gün orada bir nəfər azərbaycanlı yaşamır. 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata əsasən həmin ərazi hazırda müvəqqəti olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Laçın rayonu. Laçının rayon kimi yaranma tarixi 8 avqust 1930-cu il hesab edilir. Rayon ərazisində dünyada ən nadir ağac növü sayılan qırmızı dəmirağac meşələri, çoxlu mineral suları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, həddindən çox dərman bitkiləri və s. vardır.[31] Laçın rayonunun çox keyfiyyətli su mənbələri vardır. Bunlardan 20-dən artıq müalicə əhəmiyyətli bulaqlardır. El arasında möcüzəsinə görə bu sulara – baş suyu, göz suyu, diş suyu, yel suyu, mədə suyu və s. kimi adlar verilmişdi.[32] Ərazisi 1,84 min kv. km., əhalinin sayı 78,6 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə). Laçın rayonunda 1 şəhər, 1 qəsəbə və 125 kənd var idi. [33]

Laçın rayonu çoxlu sayda tarixi mədəniyyət, memarlıq və qəbirüstü abidələri, onlarla kurqan, qala tipli arxeologiya baxımından əhəmiyyətli olan abidələr, stellalar, at, qoç fiqurları, süjetli daşları və s. olan bir ərazi olmuşdu.[34]

Laçın rayonu Ermənistan tərəfindən 18 may 1992-ci il tarixində işğal edilmişdi. İşğaldan əvvəl rayonda 217 mədəniyyət müəssisəsi, 142 səhiyyə obyekti, 133 idarə və müəssisə, 100-dən çox ümumtəhsil məktəbi, məktəbəqədər müəssisə, musiqi məktəbi, internat məktəbi, orta texniki peşə məktəbi və s. var idi.[35]

01 dekabr 2020-ci il tarixində Laçın rayonu Ermənistan işğalından azad olunmuşdur. 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli

[28] http://anl.az/down/meqale/525/2010/fevral/107143.htm
[29] https://www.stat.gov.az/map/az/09_8/
[30] https://www.gomap.az/info/Cities/Khankendi.aspx
[31] https://www.bbc.com/azeri/azerbaijan-54941977
[32] https://report.az/qarabag/lacin-rayonu/
[33] https://www.stat.gov.az/map/az/10_2/
[34] http://www.anl.az/lachin.html
[35] http://www.lachin-ih.gov.az/page/10.html

Bəyanata əsasən isə Laçın rayonu ərazisinin müəyyən hissəsi müvəqqəti olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Xocavənd rayonu. Xocavənd rayonu 26 noyabr 1991-ci il tarixində Martuni və Hadrut rayonlarının əsasında yaradılmışdır. Rayonun ərazisi 1,46 min kv. km., əhalisi 44,1 min nəfərdir (01.01.2020-ci il tarixinə). Xocavənd rayonu 1 şəhər, 2 qəsəbə və 81 kəndi birləşdirirdi. Xocavənd rayonu 02 oktyabr 1992-ci il tarixində Ermənistan tərəfindən işğal olunmuşdu.

Xocavənd rayonu əsasən kənd təsərrüfatı rayonu olmaqla, burada üzümçülük, taxılçılıq və heyvandarlıq mühüm yer tuturdu. Rayonda axan dağ çayları füsunkar gözəlliklə bərabər, bağçılıq və bostançılıq üçün əlverişli şərait yaratmışdı.[36]

Xocavənd rayonunda diametri 600 sm., hündürlüyü 25 m. olan 1 ədəd 1000 il və diametri 600 sm., hündürlüyü 25 m. olan 1 ədəd 2000 il yaşlı Şərq çinarları təbiət abidəsi kimi qorunurdu.[37] Xocavənd rayonunun Qarakənd kəndində Azərbaycanın "Qırmızı Kitab"ına düşmüş 0,5 hektar ərazidə orta diametri 24 sm, hündürlüyü 12 m, yaşı 100 illik azat ağacları da mühafizə edilirdi.

Xocavənd rayonu ərazisində, Salakətin kəndinin yaxınlığında (Quruçay vadisində) 1,5 milyon il yaşı olan Azıx mağarası, həmçinin qədim tarixə malik Tağlar mağarası, Tuğ kəndi ərazisində yerləşən V-VIII əsrlərə aid "Ritiş" qalası, Ərgünəş dağının yamacında sıldırım qayalar üzərində yerləşən "Ərgünəş" qalası, Düdükçü kəndi ətrafında XIII əsrə aid "Rzaqulu Bəy" türbəsi, Xocavənd kəndi yaxınlığında "Aşıqlı Qoşa" günbəzi, Böyük Tağlar kəndində "Alban" məbədi, Tuğ kəndindəki "Qırmızı" məbəd adlı X əsrə aid tarixi memarlıq və incəsənət abidələri və s. olmuşdu, lakin tam əksəriyyəti ermənilər tərəfindən məhv edilmişdir.[38]

Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr - 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Xocavənd rayonunun 35 kəndi və Hadrut qəsəbəsi erməni işğalından azad olunmuşdur. Rayonun digər əraziləri 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata əsasən müvəqqəti olaraq Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altındadır.

Qubadlı rayonu. Qubadlı rayonu 14 mart 1933-cü il tarixində yaradılmışdır. Rayonda 1 şəhər və 93 kənd var idi. Ərazisi 0,80 min kv. km., əhalisi 41,6 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə). [39]

Qubadlı rayonunda 1969-cu ildə dövlət yasaqlığı yaradılmışdır. Rayonda 13,2 min hektar meşə sahəsi vardır. Rayon ərazisindən iki böyük dağ çayı keçir: Həkəri və Bərgüşad.[40] Dağlıq yerlər meşə örtüyü ilə zəngindir. Rayon əhalisi əsasən heyvandarlıq, tütünçülük və taxılçılıqla məşğul olurdu. Qubadlıda böyük əqiq yatağı və böyük mərmər karxanası da var idi.[41]

Rayonun mərkəzi olan Qubadlı şəhərində 62 idarə və müəssisə fəaliyyət göstərirdi. Burada asfalt zavodu, inkubator-quşçuluq fabriki, daş karxanası, texniki-təchizat idarəsi, tikiş

[36] http://www.xocavend-ih.gov.az/page/10.html
[37] https://nmdk.gov.az/page/region_info/149
[38] http://www.dqdk.gov.az/az/view/objects/13
[39] http://www.qubadli-ih.gov.az/page/10.html
[40] http://www.dqdk.gov.az/az/view/objects/10
[41] http://www.qubadli-ih.gov.az/page/11.html

fabriki, Azərbaycan "Neftqazavtomat" təcrübə zavodu və başqa istehsal xarakterli müəssisələr də var idi.[42]

Qubadlı rayonunda 22 orta, 26 səkkizillik, 15 ibtidai məktəb var idi. Rayonda 300 yerlik 4 xəstəxana və 33 səhiyyə müəssisəsi fəaliyyət göstərirdi. 111 mədəni-maarif müəssisəsi, o cümlədən 60 kitabxana, 10 mədəniyyət evi, 28 klub, 6 avtoklub, 23 kino qurğusu fəaliyyət göstərirdi. 125 ticarət, 96 ictimai-iaşə, 25 məişət xidməti və 21 rabitə müəssisəsində əhaliyə xidmət göstərilirdi. Rayon 31 avqust 1993-cü il tarixində Ermənistan tərəfindən işğal edildikdən sonra tamamilə dağıdılmış, bütün tarixi, mədəni, dini abidələr, o cümlədən sənaye əhəmiyyətli ehtiyatlar məhv və talan edilmişdir.[43]

Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr – 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Qubadlı rayonu Ermənistan işğalından tam azad olunmuşdur.

Zəngilan rayonu. Zəngilanın rayon kimi yaranma tarixi 8 avqust 1930-cu il hesab edilir. Ərazisi 0,73 min kv. km., əhalisi 45,2 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə).[44]

1 şəhər, 5 qəsəbə və 79 kənddən ibarət olan Zəngilan rayonu 29 oktyabr 1993-cü il tarixində Ermənistan tərəfindən işğal olunmuşdu. Zəngin təbiətə malik Zəngilan rayonunun işğalına qədər əsasən tütünçülük və üzümçülüklə məşğul olunurdu. Heyvandarlıq, ipəkçilik, taxılçılıq da inkişaf etmişdi.[45]

İşğaldan öncə rayonda 10453 yaşayış mənzili, 28200 yardımçı bina, 195 inzibati bina, 870 təsərrüfatların yardımçı binaları, 128 mədəniyyət müəssisəsi, 123 təhsil müəssisəsi, texniki peşə məktəbi, 64 səhiyyə müəssisəsi, 80 rabitə müəssisəsi, 7 səyyar avtoklub, 21 kino qurğu, 2 diyarşünaslıq muzeyi, 142 ticarət obyekti, 49 ictimai-iaşə obyekti, 2 şərab zavodu, konserv zavodu, toxuculuq sexi, kərpic zavodu, çörəkbişirmə zavodu, çınqıl zavodu, 2 asfalt zavodu, su nasos stansiyası kompleksləri, 8 dəmir yol vağzalı və depo, quşçuluq fabriki, mal-qara kökəltmə kompleksi, 3,4 min hektar üzüm bağları, 6 süni su tutarları olmuşdur. Ermənistan bu əraziləri işğal etdikdən sonra rayonun bütün resursları məhv edilmişdir.[46]

Zəngilan rayonu ərazisində olan zəngin Vejnəli qızıl yataqları Ermənistan tərəfindən xarici şirkətlər cəlb edilərək tam qanunsuz olaraq vəhşicəsinə istismar edilmiş və hər il milyardlarla dollar qanunsuz gəlirlər əldə edilmişdir.

Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr – 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Zəngilan rayonu Ermənistan işğalından tam azad olunmuşdur.

Cəbrayıl rayonu. Cəbrayılın rayon kimi yaranma tarixi 8 avqust 1930-cu il hesab edilir. Ərazisi 1,05 min kv. km., əhalisi 81,7 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə).

23 avqust 1993-cü il tarixində Ermənistan tərəfindən işğal edilən Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 92 kənddən ibarət idi. Rayonda 510 çarpayılıq xəstəxanalarda 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi çalışırdı. Rayon Tarix-diyarşünaslıq muzeyində 20 mindən yuxarı eksponat var

[42] http://supremecourt.gov.az/static/view/298
[43] http://btpm.edu.az/component/k2/item/400-zhubadli-rayonunun-iszhali
[44] http://www.zengilan-ih.gov.az/page/10.html
[45] https://nmdk.gov.az/page/region_info/269
[46] http://www.dqdk.gov.az/az/view/objects/14

idi. Rayonda 8 sənaye müəssisəsi, 42 kolxoz, kökəltmə birliyi, quşçuluq fabriki və s. fəaliyyət göstərirdi. [47]

Azərbaycanda eramızın I əsrindən yaradılmış kəhriz şəbəkəsindən Cəbrayılda daha geniş şəkildə istifadə olunurdu. Respublikamızda olan 813 kəhrizin 118-i Cəbrayılın payına düşür.[48] 360-dan çox təbii mineral bulaqları olan rayonda 4 min hektar meşə zolağı, 60 min hektar əkin sahəsi, 1,1 min hektar bağ sahəsi mövcud idi. Cəbrayılda xalçaçılıq (Cəbrayıl xalça məktəbi) tarixi peşə növü kimi geniş inkişaf etmişdi. Həmçinin, rayonun ərazisi maddi və mədəni abidələrlə zəngin olmuşdu. Rayonun ərazisində çoxlu qədim türk yazılı abidələri mövcud idi.[49]

Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr – 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Cəbrayıl rayonu Ermənistan işğalından tam azad olunmuşdur.

Füzuli rayonu. İlkin adı Qarabulaq olan Füzulinin rayon kimi yaranma tarixi 8 avqust 1930-cu il hesab edilir. 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin şərəfinə Füzuli rayonu adlandırılmışdır. Füzuli rayonu həm də yaşı minilliklərə gedib çıxan tarixi-mədəni-dini və memarlıq abidləri ilə tanınır.[50]

Füzuli rayonunun ərazisi 1,39 min kv. km., əhalisi 133,8 min nəfərdir (01 yanvar 2020-ci il tarixinə). Rayonda 2 şəhər, 11 qəsəbə, 82 kənd var idi. Rayon iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. İşğala qədər rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdi. Rayonda 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı, 11 üzüm emalı müəssisəsi və s. var idi.[51] Kənd təsərrüfatına yararlı torpaqlar 85 min hektar idi. 50,9 min hektar otlaq sahələri var idi. Tikinti trestləri, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərən rayonda Köndələn su anbarı tikilmiş və suvarma kanalları çəkilmişdi. [52]

Füzuli rayonunda işğala qədər 90 kitabxana, 20 mədəniyyət evi, 79 klub, 20 kinoqurğu, 2 muzey, xalq və dövlət dram teatrları, istirahət parkları fəaliyyət göstərirdi. Bundan başqa, rayonda 685 çarpayılıq 13 xəstəxana, 17 həkim məntəqəsi, 30 feldşer–mama məntəqəsi, vərəm, dəri və zöhrəvi xəstəlikləri dispanseri, texnikum (kollec), 86 ümumtəhsil məktəbi, 2 texniki peşə məktəbi, 65 məktəbəqədər müəssisə, stadion və s. olmuşdu.

Ermənistan tərəfindən Füzuli rayonu 23 avqust 1993-cü il tarixində işğal olunmuşdur və digər işğal edilmiş ərazilər kimi bütövlükdə vəhşicəsinə dağıntılara məruz qalmışdır.[53] 1994-cü ildə Azərbaycan tərəfindən aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində rayonun 82 yaşayış məntəqəsindən 23-ü Ermənistan işğalından azad edilmişdi.[54]

Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr - 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Füzuli rayonu Ermənistan işğalından tam azad olunmuşdur.

[47] https://www.stat.gov.az/map/az/09_6/
[48] https://www.cahid.info/archives/1007
[49] https://nmdk.gov.az/page/region_info/101
[50] https://heydaraliyev-centers.az/fuzuli/about-region
[51] https://myfuzuli.wordpress.com/2010/08/18/tarixi-haqqinda-qisa-m%C9%99lumat/
[52] http://www.fuzuli-ih.gov.az/page/10.html
[53] https://www.armenianvandalism.az/az_fizuli.html
[54] http://www.inter-infor.com/load/i_sgal_olunmus_razil_r/fuzuli/fuzuli_rayonu_23_08_1993/12-1-0-36

Nəticə: *Uzun müddət Ermənistan tərəfindən işğal altında saxlanılmış Azərbaycan əraziləri haqqında işğala qədərki vəziyyəti aşağıdakı kimi ifadə etmək olar:*

- işğal nəticəsində həmin ərazilərdə yaşayan xeyli sayda insanlar qətlə yetirilmiş, itkin düşmüş və əlil olmuşdur (bu barədə 5.1-də (səh.31) ətraflı qeyd edilmişdir). Sonda oradakı ailələr məcburi köçkün həyatı ilə öz təbii mühitindən kənar yaşamağa məcbur edilmişlər;

- həmin ərazilərdə yaşayış üçün bütün şərait (nəqliyyat, infrastruktur və s.) istiqamətləri tam formalaşmış şəkildə idi;

- həmin ərazilərdə uzun müddətli yaşama ilə insanlar tam məskunlaşmışdı;

- həmin ərazilərdə kənd təsərrüfatı, sənaye və digər formalaşmış istehsalat sahələri mövcud idi;

- həmin ərazilər zəngin ekoloji-təbii mühitə və təbii sərvətlərə malik idi;

- həmin ərazilər tarixi, mədəni və dini abidələrin zənginliyi ilə diqqəti cəlb edirdi; və s.

Uzun müddət Ermənistan tərəfindən işğal altında olmuş və bu gün işğaldan azad edilmiş Azərbaycan ərazilərinin hazırki vəziyyəti aşağıdakı hallarla müşahidə olunur:

- həmin ərazilər tam şəkildə dağıdılmışdır;

- həmin ərazilər minalanmış, orada digər başqa partlayıcı və təhlükəli silahların olması təhlükəsi ciddidir;

- həmin ərazilərdə yaşayış üçün şərait (nəqliyyat, infrastruktur və s.) istiqamətləri demək olar ki, yoxdur;

- həmin ərazilərdə kənd təsərrüfatı, sənaye və digər formalaşmış istehsalat sahələri məhv edilmişdir;

- həmin ərazilərin zəngin ekoloji-təbii mühiti ciddi korlanmış və təbii sərvətlər qanunsuz istismar edilmişdir;

- həmin ərazilərin zəngin tarixi, mədəni və dini abidələri tam və vəhşicəsinə məhv və talan edilmişdir; və s.

Qeyd: *Uzun müddət Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində mövcud olmuş, hazırda isə tam və ya qismən dağıdılmış tarix və mədəniyyət abidələrinin siyahısı Əlavə edilir.*

4. Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul edilmiş beynəlxalq sənədlərin təhlili

4.1. BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrinə dair hüquqi mövqe

Məlum olduğu kimi, BMT TŞ tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin qarşısının alınması və regionda təhlükəsizliyin təmin edilməsi məqsədilə, o cümlədən bu istiqamətdə əsas prinsiplər, nəhayət ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini təsdiq edən *dörd qətnamə* qəbul edilmişdir:

- *İşğalçı qüvvələrin dərhal Kəlbəcər və digər işğal olunmuş rayonlardan çıxarılmasını tələb edən 30 aprel 1993-cü il tarixli 822 saylı qətnamə;*

- *Ağdam və digər işğal olunmuş rayonların işğalını pisləyən 29 iyul 1993-cü il tarixli 853 saylı qətnamə;*

- *İşğal olunmuş ərazilərdən işğalçı qüvvələrin qoşunlarının çıxarılması və münaqişənin sülh danışıqları vasitəsi ilə həll olunmasına dair 14 oktyabr 1993-cü il tarixli 874 saylı qətnamə;*

- *Hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikası ərazisinin bombardman edilməsini pisləyən 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamə.*

Vurğulamaq lazımdır ki, *ratione materiae* BMT TŞ beynəlxalq sülh və təhlükəsizliyə təhdidlərin qarşısını almaq üçün məcburi hüquqi qüvvəyə malik qərar verməkdə səlahiyyətlidir. Nəzərə alsaq ki, beynəlxalq sülh və təhlükəsizliyə təhdid yarada biləcək vəziyyətlər məhdud deyil, o zaman BMT TŞ-nin bu istiqamətdə imkanları genişdir. BMT TŞ-nin qərarları bütün üzv dövlətlər, o cümlədən Şuranın üzvü olmayan dövlətlər üçün də məcburi hüquqi qüvvəyə malikdir. Odur ki, müqavilə öhdəliklərindən fərqli olaraq, BMT TŞ-nin qərarları daha əhatəli və geniş hüquqi qüvvəyə malikdir. Bu mövqe BMT TŞ-nin *Legal Consequences for States of the Continued Presence of South Africa in Namibia (South West Africa)* rəyində də öz təsdiqini tapmışdır.[55] Odur ki, BMT Nizamnaməsindən irəli gələrək məcburi qərar qəbul etmək səlahiyyəti əsasında qəbul edilən BMT TŞ-nin qərarları mühüm normativ dəyərə malikdir və bu cür qərarların artıq bütün üzv dövlətlər adından çıxarıldığı ehtiva edilir.

BMT TŞ-nin qətnamələri dövlətlərin yerinə yetirməli olduğu beynəlxalq öhdəliklərinə aiddir. Dövlətlərin beynəlxalq hüquqazidd əməllərinə görə məsuliyyəti haqqında Maddələr Layihəsinə Kommentariyalarda qeyd edilir ki, beynəlxalq cəmiyyətə öz üzvlüyünə görə hər bir dövlət bəzi əsas hüquqların müdafiəsində və bəzi əsas öhdəliklərin icrasında qanuni marağa malikdir. "*Barcelona Traction, Light and Power Company, Limited (Belgium v. Spain)*" işi üzrə BMT BM-nin qərarı bu prinsipin tanınmasının təminatında əhəmiyyətli rol oynamışdır. Bu öhdəliklərin xüsusi kateqoriyasının mövcudluğunu, yəni bütövlükdə beynəlxalq cəmiyyət

[55] https://www.icj-cij.org/en/case/53

qarşısında öhdəlikləri müəyyən etdi. BMT BM-nin mövqeyinə görə: öz təbiətinə görə beynəlxalq cəmiyyət qarşısında dövlətin öhdəlikləri bütün dövlətlərin narahatlığına səbəb olur. Müvafiq hüquqların əhəmiyyətini nəzərə alaraq, bütün dövlətlər onların müdafiəsinə maraq göstərə bilər: onlar *erga omnes* öhdəliklərdir. Müvafiq olaraq, beynəlxalq ümumi hüququn imperativ normalarından yaranan öhdəliklərin ciddi pozulması yalnız məsuliyyət daşıyan dövlətə yox, həm də bütün başqa dövlətlərə toxunan əlavə nəticələrə malik ola bilər. Bir halda ki, bütün dövlətlər qanuni marağa malikdir, onda dövlətlərin hər biri dövlətin məsuliyyətinə istinad etmək hüququna malikdirlər, hansı ki, öz *erga omnes* öhdəliklərini pozmuşdur. Bundan başqa, dövlətlər belə pozmaların dayandırılması məqsədi ilə əməkdaşlıq etməlidirlər.[56]

BMT TŞ-nin həmin 822, 853, 874 və 884 saylı 4 qətnaməsi ilə müəyyən edilmiş əsas hissələrini aşağıdakılar kimi müəyyən etmək olar:

- Bütün qətnamələr, ilk növbədə, münaqişənin Ermənistan və Azərbaycan arasında baş verdiyini və Azərbaycan ərazilərinin işğal edildiyini təsdiqləmişdir. İşğal faktını gücləndirən sonrakı sübutlar Ermənistan hərbi qulluqçularının, yəni Ermənistanın silahlı qüvvələrinin müntəzəm bölmələrinin Azərbaycan ərazisində döyüş əməliyyatlarında daim iştirakı olmuşdur. Sonradan, 2020-ci ilin sentyabr ayının sonundan başlayaraq işğal edilmiş Azərbaycan ərazilərinin işğaldan azad edilməsi zamanı Ermənistan silahlı qüvvələri bütün gücü və səfərbərliyi ilə bu prosesə qarşı çıxış etmişdir. Otuz ilə yaxın müddətdə münaqişənin tənzimlənməsi ilə əlaqədar beynəlxalq təşkilatlar çərçivəsində və ayrı-ayrı dövlətlərin vasitəçiliyi ilə aparılan danışıqlar məhz Ermənistan və Azərbaycan arasında aparılmışdır, bu gün də bu format davam edir.

- Bütün qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü tanınır, beynəlxalq sərhədlərin pozulmazlığı təsdiq edilir və ərazilərin güc tətbiq etməklə əldə edilməsi qəbuledilməz hesab edilir.

- Bütün qətnamələr davamlı sülhün təmin edilməsi məqsədilə regiondakı bütün hərbi hərəkətlərin dərhal dayandırılmasını və işğalçı qüvvələrin Azərbaycanın ərazisindən çıxarılmasını tələb edir. Nəzər yetirmək lazımdır ki, işğalçı qüvvələrin Azərbaycanın ərazisindən çıxarılması məsələsinə qətnamələrdə müxtəlif hüquqi qüvvə verilir. Belə ki, işğalçı qüvvələrin dərhal çıxarılması ilə yanaşı 853 saylı qətnamə (b.3), o cümlədən həmin qüvvələrin tam və qeyd-şərtsiz, 884 saylı qətnamədə (b.4) isə birtərəfli çıxarılması tələb olunur. Vurğulamaq lazımdır ki, hər bir növbəti qətnamədə əvvəl işğal edilmiş bütün ərazilərdən işğalçı qüvvələrin çıxarılması tələb olunur. Bu isə öz-özlüyündə BMT TŞ-nin qətnamələri ilə fərdi olaraq əhatə edilməyən Azərbaycanın BMT-yə üzv olan zaman tanınmış digər ərazilərinin işğaldan tam azad olunmasını ehtiva edir. [57]

- Bütün qətnamələrdə mübahisənin sülh yolu ilə həll edilməsinə böyük önəm verilir və tərəflərə ATƏT-in Minsk qrupu çərçivəsində və ya birbaşa danışıqlar prosesinə başlamasına çağırış edilir, o cümlədən regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpası gündəmə gətirilir (853 – b.5; 874 – b.5).

- Bütün qətnamələrdə mülki əhalinin müdafiəsi məsələsi önə çəkilərək mülki insanların əzablarını yüngülləşdirmək və beynəlxalq humanitar hüququn norma və prinsiplərini təmin

[56] https://www.icj-cij.org/en/case/50
[57] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 51-52

etmək çağırışı edilir, mülki əhaliyə və mülki obyektlərə hücumlar pislənilir. Bundan əlavə, zərərçəkmiş mülki əhaliyə humanitar yardımın həyata keçirilməsi üçün beynəlxalq təsisatlara müraciət olunur (822 – b.3; 853 – b.11; 874 – b.11; 884 – b.7).

- Bütün qətnamələrdə BMT Baş Katibindən və müvafiq beynəlxalq təsisatlardan mülki əhaliyə dəstək verilməklə yanaşı, məcburi köçkünlərin öz əvvəlki yurdlarına *"şərəfli və təhlükəsiz qayıdış hüququ"* tanınır (853 – b.12; 874 – b.11; 884 – b.7). *Şərəfli qayıdış hüququ* əvvəlki vəziyyətin bərpası ilə qayıdışın təmin edilməsini əhatə edən və mühüm insan hüquqları ilə tanınan hər bir məcburi köçkünün əsas hüquqlarından biridir. *Təhlükəsiz qayıdış hüququ* isə məcburi köçkünlərin öz yurdlarına qayıdarkən heç bir təhlükə ilə rastlaşmayacağını bildirir (halbuki bu gün Ermənistan tərəfindən uzun müddət işğal edilmiş və hazırda işğaldan azad olunan Azərbaycan ərazilərində kifayət qədər minalar və digər təhlükəli partlayıcı vasitələr yerləşdirilmişdir. Ermənistan isə həmin silahların ən azı xəritəsini belə vermir. Hər gün isə Azərbaycan tərəfindən minaya düşən mülki şəxslərin və hərbi qulluqçuların sayı artır). Bütün qətnamələrdə əsas məqamlardan biri də Ermənistanın üzərinə (853 – b.9; 884 – b.2) Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərə təsir edərək bu qətnamələrin icrasını təmin etmək öhdəliyinin qoyulmasıdır. Bu bir daha onu təsdiq edir ki, münaqişə tərəfi Ermənistandır ki, o həm özü tərəfindən, həmçinin Azərbaycan ərazisində yaşayan ermənilər tərəfindən həmin qətnamələrin icrasını təmin etməlidir.

- Nəhayət, bu qətnamələrdə müəyyən edilən müddəalar BMT BA-nın müvafiq qərarları ilə bir daha möhkəmlənmişdir. Belə ki, BMT BA-nın "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyət haqqında" 14 mart 2008-ci il tarixli qətnaməsində ciddi narahatlıq ifadə edilərək qeyd edilir ki, Azərbaycanın Dağlıq Qarabağ regionunda və onun ətrafındakı hərbi münaqişə beynəlxalq sülh və təhlükəsizliyə təhlükə yaratmağa davam etməklə Cənubi Qafqaz ölkələrində humanitar vəziyyətə mənfi təsir edir. BMT BA üzv-dövlətləri Azərbaycanın beynəlxalq qaydada tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə çağırır. Qəbul edilən sənəddə BMT BA bir daha bəyan edir ki, Azərbaycan ərazisinin işğalı nəticəsində yaranmış vəziyyəti heç bir dövlət qanuni saymamalı və bu vəziyyətin qalmasını təşviq etməməlidir. Nəhayət, həmin sənəddə Azərbaycanın işğal edilmiş ərazilərindən məcburi köçkün salınmış əhalinin öz yurdlarına qaytarılmasının da vacibliyi bildirilir.[58]

Nəticə: *BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələri Azərbaycana qarşı təcavüzün baş verdiyini və ərazisinin işğal edildiyini təsdiq edir. Münaqişənin sülh yolu ilə tənzimlənməməsi və Ermənistan tərəfindən növbəti təxribatların törədilməsi BMT TŞ-nin qətnamələrinin icrasını təmin etmək üzrə Azərbaycanın BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutaraq özünümüdafiə hüququnun realizəsi ilə nəticələnmişdir.*

Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə yönəlmiş özünümüdafiə tədbirləri 10 noyabr 2020-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən imzalanmış Bəyanatla nəticələnmişdir. Həmin Bəyanata əsasən 30 ilə yaxın müddətdə işğal edilmiş əraziləri Ermənistan rəsmən qaytarsa da, ərazilər tam dağıdılmış, yaşayış üçün yararsız vəziyyətə salınmış, kütləvi şəkildə minalanmışdır. Bu isə məcburi köçkünlərin "şərəfli və təhlükəsiz qayıdış hüququ"nun ciddi pozulmasıdır. Bu hüququn

[58] https://undocs.org/ru/A/RES/62/243

birinci istiqaməti olan şərəfli qayıdış hüququ əvvəlki vəziyyətin bərpası ilə qayıdışın təmin edilməsini əhatə edən və mühüm insan hüquqları ilə tanınan hər bir məcburi köçkünün əsas hüquqlarından biridir. Bu hüququn ikinci istiqaməti olan təhlükəsiz qayıdış hüququ isə məcburi köçkünlərin öz yurdlarına qayıdarkən heç bir təhlükə ilə rastlaşmayacağını əhatə edir. Sonda, hər iki istiqamətlə birlikdə məcburi köçkünlərin bu hüququnun təmin edilməsi isə Ermənistan dövlətinin müvafiq beynəlxalq məsuliyyətə səbəb olacaq əsas öhdəliyidir.

4.2. Münaqişə ilə əlaqədar qəbul edilmiş digər beynəlxalq sənədlərin ümumi səciyyəsi

1. BMT BA-nın 14 mart 2008-ci il tarixli "Azərbaycanın işğal edilmiş ərazilərindəki vəziyyət" adlı 62/243 saylı qətnaməsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə davamlı hörmət və dəstək təsdiqlənmiş, işğal altında olan ərazilərdən bütün erməni qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilmiş və qeyd edilmişdir ki, Azərbaycan ərazilərinin işğalını qorumaq üçün heç bir dövlət yardım göstərə bilməz. [59]

2. 2005-ci il yanvarın 25-də AŞ PA tərəfindən qəbul olunmuş "ATƏT-in Minsk Qrupunun məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə"yə dair 1690 (2005) saylı Tövsiyədə xüsusilə hərbi əməliyyatlardan çəkinmə və Azərbaycanın bütün işğal olunmuş ərazilərindən hərbi qüvvələrin geri çəkilməsi də daxil olmaqla əlaqədar tərəfləri BMT TŞ-nin 822, 853, 874, 884 saylı qətnamələrinə əməl etməyə çağırış ifadə edilmişdir. Eyni zamanda, AŞ PA tərəfindən qəbul olunmuş *"ATƏT-in Minsk Qrupunun məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə"yə dair 1416 (2005) saylı qətnamənin* 1-ci bəndində qeyd edilir ki, Azərbaycan ərazisinin əhəmiyyətli hissələri hələ də erməni qüvvələri tərəfindən işğal altındadır və separatçı qüvvələr hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət edirlər. Eyni zamanda, həmin qətnamənin 3-cü bəndində AŞ PA BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrini xatırladır və əlaqədar tərəflərin, xüsusilə silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla onlara riayət etməsini təkid edir.

3. AŞ PA-nın 2016-cı il tarixli "Azərbaycan Respublikasının sərhəd rayonlarının sakinlərinin sudan qəsdən məhrum edilməsi haqqında" 2085 saylı qətnaməsinin 4-cü bəndində Azərbaycanın Dağlıq Qarabağ və digər ətraf ərazilərinin Ermənistan tərəfindən işğalının Azərbaycanın digər bölgələrində yaşayan əhalisi üçün oxşar humanitar və ekoloji problemlər yaratdığı öz əksini tapmışdır. Məhz bu məqsədlə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması və bu ölkənin hakimiyyətinin su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyini dayandırması tələb olunur.

4. Aİ Parlamentinin "Cənubi Qafqaz üçün Aİ strategiyasına ehtiyac olmasına dair" 20 may 2010-cu il tarixli 2009/2216 qərarında Dağlıq Qarabağdakı müharibə zamanı və bununla əlaqədar yüz minlərlə evlərini məcburi tərk edənlərin məcburi köçkün qalmasından və geri qayıtmaq hüququ, mülkiyyət hüququ və şəxsi təhlükəsizlik hüququ da daxil olmaqla digər hüquqlarının pozulmasından ciddi narahatlıq ifadə olunur. Bundan başqa, həmin sənəddə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən çıxarılması tələbi də qeyd edilmişdir. [60]

[59] https://undocs.org/pdf?symbol=ru/A/RES/62/243
[60] https://oeil.secure.europarl.europa.eu/oeil/popups/printficheglobal.pdf?id=583055&l=en

5. *ATƏT çərçivəsində keçirilən görüşlərin (məsələn, Lissabon sammiti) nəticələrinə dair sənədlərdə* birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyü və Dağlıq Qarabağın Azərbaycan ərazisi olması qeyd edilir.

6. İslam Konfransı Təşkilatının (hazırkı İƏT) Xarici İşlər Nazirləri Şurasının "Ermənistan və Azərbaycan arasında münaqişə haqqında" 1994-cü il tarixli 11/22P saylı və 1995-ci il tarixli 11/23P saylı qətnamələrinin 5-ci bəndində, o cümlədən digər sənədlərində *(Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında 1996-cı il 12/24P saylı qətnaməsi; Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında 1998-ci il 13/25P saylı qətnaməsi; Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında 1999-cu il 14/26P saylı qətnaməsi; Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında 2000-ci il 17/27P saylı qətnaməsi və s.)* gücdən istifadə edərək Ermənistan tərəfindən Azərbaycan ərazilərinin əldə edilməsinə, yəni işğalına dair mühüm müddəalar əks olunmuşdur. Bütövlükdə, qanunsuz güc tətbiq etmənin qadağan olunan forması kimi Ermənistanın Azərbaycana qarşı təcavüzü İƏT-in qəbul etdiyi bütün müvafiq beynəlxalq sənədlərdə birmənalı şəkildə pislənilir, ərazi bütövlüyünün və sərhədlərin pozulmazlığının bərpası qəti şəkildə tələb olunur.

7. 10 noyabr 2020-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanmış Bəyanatın əsas məqamları isə bunlardır:

- Dağlıq Qarabağ münaqişəsi zonasında atəş və bütün hərbi əməliyyatlar tam dayandırılır. Ərazidən erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə 5 il müddətinə Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyunca Rusiya sülhməramlı kontingenti yerləşdirilir. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır;
- Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT QAK-ın nəzarəti altında geri qayıdır. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir;
- Ermənistan uzun müddət ərzində işğal etdiyi Azərbaycan əraziləri olan Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytarır.

8. 11 yanvar 2021-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanmış Bəyanatda isə iqtisadi və ticarət əlaqələrinin qurulması üçün hər üç dövlətin baş nazirlərinin müavinlərinin rəhbərliyi ilə işçi qrupların, o cümlədən onların tərkibində ekspert qruplarının yaradılması, dəmiryol və avtomobil daşımalarının həyata keçirilməsi, yeni nəqliyyat infrastrukturunun qurulması və onların təhlükəsizliyinin təmin edilməsi məsələləri əks olunmuşdur.

Nəticə: *Qeyd edilən beynəlxalq sənədlər də birbaşa olaraq Azərbaycan ərazilərinin Ermənistan tərəfindən uzun müddət işğalını təsdiq etmişdir. Ermənistan özünün də imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda da uzun müddət işğal etdiyi əraziləri geri qaytarmağı öhdəsinə götürməklə 30 ilə yaxın müddətdə bu ərazilərdə törətdiyi bütün hərəkətlərə görə məsuliyyətini tam şəkildə ifadə etmişdir.*

5. Məcburi köçkünlərin pozulmuş əsas hüquq və azadlıqları

Ayrı-ayrı insan hüquq və azadlıqlarının təmin edilməsi beynəlxalq hüququn əsas prinsiplərindən biri olan insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin normativ məzmunundan irəli gəlir. Bu hüquqların təmin edilməsi artıq *jus cogens* xarakterlidir. İnsan hüquqlarına əməl etmək öhdəliyi isə dövlətlərin və bütövlükdə beynəlxalq cəmiyyətin qarşısında duran ən vacib vəzifələrdən biridir. Ümumiyyətlə, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin məzmunu ümumi şəkildə aşağıdakı qaydada ifadə edilir: *bütün dövlətlər öz ərazisində yerləşən bütün şəxslərin əsas hüquq və azadlıqlarına hörmət etmək öhdəliyi daşıyırlar; bütün dövlətlər irqi, cinsi, dil, dini və s. əlamətlərə görə ayrı-seçkiliyə yol verməmək vəzifəsini öz üzərlərinə götürürlər; bütün dövlətlər insan hüquqları və əsas azadlıqlarına hörmət olunması və bu məqsədlərə nail olunması sahəsində bir-biri ilə əməkdaşlıq etməyə yardım etmək öhdəliyinə malikdirlər.*[61]

5.1. Yaşamaq hüququ

Beynəlxalq sənədlərlə yaşamaq hüququ insana məxsus təbii hüquq kimi təsbit edilmişdir. ÜİHB-nin 3-cü maddəsinə uyğun olaraq, hər bir kəsin yaşamaq hüququ vardır. MSHBP-nin 6-cı maddəsində isə qeyd olunmuşdur ki, hər bir insanın ayrılmaz yaşamaq hüququ vardır.[62] Eyni zamanda, bu hüququn qanunla qorunması və kimsənin özbaşına həyatdan məhrum edilməsinin yolverilməzliyinə dair norma öz əksini tapmışdır. MSHBP-nin (xüsusilə 6-cı maddənin) əsas səciyyəvi cəhəti ondan ibarətdir ki, yaşamaq hüququ soyqırımı cinayəti ilə birbaşa olaraq əlaqələndirilmişdir. Belə ki, MSHBP-nin 6.3-cü maddəsinə əsasən, həyatdan məhrumetmə soyqırımı cinayətini yaradarsa, bu maddənin (yəni, 6-cı maddənin) hər hansı müddəası dövlətlərə Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyasının müddəalarına uyğun üzərinə götürdüyü hər hansı öhdəlikdən heç bir halda geri çəkilmək hüququ vermir. Hətta sözügedən maddənin şərh olunması ilə bağlı BMT İHK-nın "MSHBP-nin 6-cı maddəsinin təfsirinə dair" 30 aprel 1982-ci il tarixli 6 saylı Ümumi Rəyinin 2-ci bəndində qeyd edilmişdir ki, müharibə və digər kütləvi zorakılıq halları, hər şeydən öncə, bəşəriyyətin bəlasıdır və hər il minlərlə günahsız insanların həyatına son qoyur. BMT İHK hesab edir ki, dövlətlərin özbaşına insan itkilərinə gətirib çıxaran müharibə, soyqırımı və digər kütləvi zorakılıq hərəkətlərinin qarşısını almaq kimi ali öhdəliyi vardır. BMT İHK 6-cı maddə ilə istənilən müharibə təbliğatının və ya zorakılığa təhrikin qadağan olunduğu 20-ci maddə arasında xüsusilə qarşılıqlı əlaqənin olduğu qənaətindədir.

Bu baxımdan erməni silahlı birləşmələrinin Xocalı şəhərində və Azərbaycanın digər ərazilərində törətdikləri soyqırımı cinayətləri həm də yaşamaq hüququnun pozuntusu kimi qiymətləndirilməlidir. Burada Ermənistan istər MSHBP-yə, istərsə də Soyqırımı cinayətinin

[61] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar" nəşriyyatı, 2019, s. 27
[62] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 109-110

qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyasına 23 iyun 1993-cü il tarixdə, yəni hadisələrin baş verməsindən sonra qoşulduğuna dair iddia ilə çıxış edə və məsuliyyəti boynundan atmağa cəhd edə bilər. Lakin bir məsələni də nəzərə almaq lazımdır ki, XX əsrin 90-cı illərində azərbaycanlılara qarşı soyqırımı cinayətinə yol verərkən Ermənistan artıq müstəqil dövlət olmuşdur. Belə ki, Ermənistan 21 sentyabr 1991-ci il tarixdə keçmiş SSRİ-dən ayrılmaq və dövlət müstəqilliyi əldə etmək barədə referendum keçirmiş, 23 sentyabr 1991-ci il tarixdə isə Ermənistan Ali Soveti tərəfindən referendumun nəticələri təsdiq edilmişdir. Nəticədə 25 sentyabr 1991-ci ildə "Müstəqil dövlətçiliyin əsasları haqqında" Ermənistanın Konstitusiya Qanunu qəbul olunmuşdur. Bütün bu faktlar həmin dövrdə Ermənistanın müstəqil dövlət olaraq soyqırımı cinayəti törətməsi faktını tam şəkildə sübut edir. Digər tərəfdən, Ermənistanın Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyasına qoşulmaması onu məsuliyyətdən azad etmir. Çünki bu Konvensiyada sadalanan öhdəliklər beynəlxalq ümumi hüququn bir hissəsidir və dünyanın bütün dövlətləri tərəfindən məhz beynəlxalq-hüquqi adət kimi tanınır. Hətta BMT BM-nin "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyaya qeyd-şərtlər haqqında" Məşvərətçi Rəyində (1951) və "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın tətbiqinə dair Bosniya və Herseqovina Serbiya və Monteneqroya qarşı" işi (*Bosnian genocide*) (2007) üzrə qərarında qeyd edilmişdir ki, sözügedən beynəlxalq-hüquqi sənədin əsas müddəaları beynəlxalq adət hüququ kimi hamılıqla tanınmışdır. [63]

Burada BMT İHK-nın təcrübəsi də nəzərə alınmalıdır. Belə ki, 1924/2010 saylı (*Boudehane v. Algeria*) işdə[64] BMT İHK, iştirakçı dövlətin yalnız iddia edilən insan hüquqları pozuntularını, xüsusilə məcburi itkin düşmələri və ya yaşamaq hüquqlarının pozulmasını hərtərəfli araşdırmaqla yanaşı, bu pozuntulara görə məsuliyyət daşıyanlarla bağlı cinayət işi açmalı, mühakimə etməli, cəzalandırmalı olduğu ilə bağlı öhdəliyini qeyd etmişdir. BMT İHK oxşar qərarları 1931/2010 (*Louddi v. Algeria*)[65], 1964/2010 (*Fedsi v. Algeria*)[66], 1974/2010 (*Bousseloub v. Algeria*)[67], 2083/2011 (*Kroumi v. Algeria*)[68], 2086/2011 (*Dehimi v. Algeria*)[69] və 2132/2012 saylı (*Allioua v. Algeria*)[70] işlərdə də qəbul etmişdir.

2054/2011 saylı (*Ernazarov v. Kyrgyzstan*)[71] işdə BMT İHK hesab edir ki, iştirakçı dövlət hər bir məhbusa həyati təhdidlərdən tələb edə biləcəyi müdafiəni təmin etmək məcburiyyətindədir. BMT İHK, Qırğızıstan səlahiyyətlilərinin Müqavilənin 6-cı maddəsinin 1-ci bəndinə zidd olaraq, lazımi qoruma tədbirləri görməməsi və qurbanın həyatını qorumaması üçün cavabdeh olduğu qənaətinə gəlmişdir.

2018/2010 saylı (*Chaulagein v. Nepal*)[72] işdə BMT İHK hərbiçilər, ümumiyyətlə dövlət orqanları tərəfindən həyatdan məhrumetməni istənilən halda qeyri-qanuni hesab etmiş və

[63] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 25
[64]http://www.worldcourts.com/hrc/eng/decisions/2014.07.24_Boudehane_v_Algeria.pdf
[65]http://www.worldcourts.com/hrc/eng/decisions/2014.10.30_Louddi_v_Algeria.pdf
[66]http://www.worldcourts.com/hrc/eng/decisions/2014.07.23_Fedsi_v_Algeria.pdf
[67]http://www.worldcourts.com/hrc/eng/decisions/2014.07.23_Bousseloub_v_Algeria.pdf
[68]http://www.worldcourts.com/hrc/eng/decisions/2014.10.30_Kroumi_v_Algeria.pdf
[69]http://www.worldcourts.com/hrc/eng/decisions/2014.10.30_Dehimi_v_Algeria.pdf
[70]http://www.worldcourts.com/hrc/eng/decisions/2014.10.30_Allioua_v_Algeria.pdf
[71]https://juris.ohchr.org/Search/Details/1961
[72]https://archive.crin.org/en/library/legal-database/kedar-chaulagain-v-nepal.html

MSHBP-yə uyğun olaraq belə halların təcili, obyektiv təhqiqatını və müvafiq tədbirlər görməklə təqsirkarların cəzalandırılması istiqamətində dövlətin öz öhdəliklərini yerinə yetirməli olduğunu qeyd etmişdir.

Məcburi köçkünlərlə bağlı işlərə nəzər yetirilən zaman BMT İHK-nın 2134/2012 saylı (*Serna and other v. Colombia*)[73] işini xüsusi qeyd etmək lazımdır. Bu işdə Kolumbiya dövləti həmin qruplaşmalarla heç bir əlaqəsinin olmadığını sübuta yetirə bilməmişdir. Bu iş zamanı BMT İHK MSHBP-nin heç bir maddəsində "məcburi itkin düşmə (zorla yoxa çıxma)" ifadəsinin açıq şəkildə istifadə edilməməsinə baxmayaraq, məcburi itkin düşmə, MSHBP-də tanınan müxtəlif hüquqların davamlı pozulmasını təşkil edən unikal və mürəkkəb bir sıra hərəkətlər kimi başa düşülməlidir. BMT İHK itkin düşmə hadisəsinin baş verməsindən 21 il keçdikdən sonra işi qəbul etmiş və bu cür gecikmə üçün kifayət qədər obyektiv səbəblər olması qənaətinə gəlmişdir. BMT İHK itkin düşmüş şəxsin və qohumlarının MSHBP-nin 6, 7, 9-cu maddələrinə əsasən hüquqlarının pozulduğu qənaətinə gəlmişdir.

AİHM-nin baxdığı işlər üzrə formalaşmış məhkəmə presedentinə uyğun olaraq, silahlı münaqişə zamanı insanların öldürülməsi, xüsusilə mülki əhalinin qətlə yetirilməsi AİHK-in 2-ci maddəsinin (yaşamaq hüququ) pozuntusu kimi qiymətləndirilir. Hətta AİHK-in 15.2-ci maddəsində göstərilmişdir ki, qanuni hərbi əməliyyatlar nəticəsində ölüm halları istisna olmaqla, fövqəladə hallar zamanı öhdəliklərdən geri çəkilmə 2-ci maddənin müddəalarına uyğun olmayan tədbirlərin görülməsinə əsas vermir. Başqa sözlə, müharibə dövründə törədilərək ölümlə nəticələnmiş və beynəlxalq humanitar hüquqa zidd olan əməllər *ipso facto* həm də AİHK-in 2-ci maddəsinin pozuntusudur. Bütövlükdə, beynəlxalq sənədlərlə mülki əhalinin qətli və ya onların ölümünə gətirib çıxara biləcək şəraitin yaradılması tamamilə qadağandır. Məhz bu baxımdan, Ermənistan tərəfindən silahlı münaqişə və təcavüz zamanı heç bir hərbi zərurət olmadan mülki əhalinin qətlə yetirilməsi və nəticədə yaşamaq hüququnu pozması bilavasitə ÜİHB-nin preambulasında təsbit olunan "İnsan hüquqlarına etinasızlıq və hörmətsizliyin bəşəriyyətin vicdanını hiddətləndirən barbar hərəkətlərə gətirib çıxarması" müddəasının təsdiqi, habelə MSHBP-nin preambulasında qeyd edilən "Bəşər ailəsinin bütün üzvlərinə məxsus ləyaqətin, bərabər və ayrılmaz hüquqların tanınması bütün dünyada azadlıq, ədalət və sülhün əsasıdır" və AİHK-in preambulasında göstərilən "Dünyada ədalətin və sülhün əsası olan və riayət edilməsi başlıca olaraq... insan hüquqlarını hamının anlaması və riayət etməsi ilə təmin olunan əsas azadlıqlardır" müddəalarının isə inkar edilməsi deməkdir.

AİHM qeyd edir ki, AİHK-in 2-ci maddəsində təsbit edilmiş yaşamaq hüququ təkcə AİHK çərçivəsində deyil, həm də beynəlxalq hüququn ümumi prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq normaları nəzərə alınmaqla təfsir və tətbiq edilməlidir. AİHM razılığa gələn tərəfi təkcə müharibə, münaqişə dövründə təsadüfi açılan atəş zamanı mülki şəxslərin həlak olmasına görə deyil, eyni zamanda müharibə dövründə seçilmiş mübarizə metodlarının insan həyatı üçün təhlükəli ola biləcəyi hallar üçün də təqsirli hesab edir. Ümumiyyətlə, müharibə zamanı dövlət mülki əhali arasında minimum itkiyə hədəflənmiş metod və vasitələrdən istifadə etməlidir.[74]

[73] http://ccprcentre.org/decision/16130
[74] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-61696%22]}

"Ergi v. Turkey" işində AİHM təsbit etmişdir ki, hərbçilər mülki əhalinin həyatını və təhlükəsizliyini təmin etmək üçün kifayət qədər tədbir görməmişlər.[75]

Hətta zəruri hallarda hərbçilərin özünümüdafiə üçün cavab atəşi açmalı olduğu halda belə, ilk növbədə mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün tədbirlər görülməli, onların həyatı risk altına atılmamalıdır.[76]

Hərbi əməliyyatlar planlaşdırılarkən mülki əhalinin təhlükəsizliyi üçün kifayət qədər həssaslıq göstərilmədikdə, düzgün hesablar aparılmadıqda da AİHM dövləti təqsirli hesab edir.[77]

AİHM dövlətin təhlükəsizlik qüvvələri tərəfindən atışma zamanı tək bir mülki şəxsin ehtiyatsızlıq üzündən ölümü halında da dövləti cavabdeh hesab edir.[78] AİHM hesab edir ki, Razılığa gələn tərəflər münaqişə zonasında hərbi əməliyyatlarda iştirak etməyən insanların həyatını qorumağa, təhlükə altına atmamağa borcludurlar.[79] Bununla da AİHK-in müddəaları yalnız dinc, sülh dövründə tətbiq olunmamalı, münaqişələr zamanı beynəlxalq humanitar hüquq normaları ilə birlikdə şərh olunaraq tətbiq edilməlidir.[80] Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr - 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Ermənistan tərəfindən Azərbaycanın mülki şəxslərinin yaşadığı ərazilərə ağ fosforlu mərmilərin atılması və kasetli bombalardan istifadə edilməsi faktları qeydə alınmışdır. Qadağan olunmuş silahların bir növü olan kasetli silahların əhalinin sıx yaşadığı ərazilərdə istifadəsi Beynəlxalq kasetli silahlar üzrə 2008-ci il tarixli Konvensiyada qadağan edilmişdir. Bu silahlar da ermənilər tərəfindən 2020-ci ilin oktyabr-noyabr aylarında Gəncə, Bərdə, Tərtər, Ağdam və Azərbaycanın digər yaşayış məntəqələrində mülki əhaliyə qarşı istifadə edilərək kütləvi itkilərə səbəb olmuşdur. Bu faktlar beynəlxalq təşkilatlar və kütləvi informasiya vasitələri tərəfindən də təsdiq edilmişdir.[81]

Bu yaxınlarda "Amnesty International" təşkilatı Ermənistan-Azərbaycan münaqişəsinin 27 sentyabr - 10 noyabr 2020-ci il dövrünü əhatə edən mərhələsində Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində dinc sakinlərə hücum üçün qeyri-dəqiq ballistik raketlərdən, idarə olunmayan yaylım atəşli raket sistemlərindən və artilleriyadan istifadə etməsi barədə yeni hesabat yaymışdır. Hesabatda ilkin olaraq qeyd edilir ki, yaşayış məntəqələri yaxınlığında qeyri-dəqiq silahlardan istifadə müharibə qanunlarının pozulması deməkdir. Daha sonra, hesabatda göstərilir ki, 10 noyabr 2020-ci il tarixli Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli Bəyanatın imzalanmasından sonra "Amnesty International" təşkilatının nümayəndələri Azərbaycanda raket zərbələri endirilmiş yerlərə

[75] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-58200%22]}
[76] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-61696%22]}
[77] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-68379%22]};
https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-101936%22]}; Case of Benzer and others v. Turkey
https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-128036%22]};
[78]https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-61963%22]}
file:///C:/Users/User/Downloads/CASE%20OF%20ZENGIN%20v.%20TURKEY%20-%20[Turkish%20Translation]%20by%20the%20Turkish%20Ministry%20of%20Foreign%20Affairs.pdf
[79] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-94162%22]}
[80] https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-146501%22]}
[81] https://www.amnesty.org/en/latest/news/2020/10/armenia-azerbaijan-first-confirmed-use-of-cluster-munitions-by-armenia-cruel-and-reckless/; https://www.pakistanpoint.com/en/story/1069681/azeri-prosecutors-say-14-people-killed-in-armenian-atta.html; https://www.aljazeera.com/news/2020/10/17/13-killed-in-gan; https://www.dw.com/en/nagorno-karabakh-conflict-azerbaijan-says-armenia-targets-second-city-of-ganja/a-55151955

baş çəkmişlər. Təşkilat erməni qoşunlarının dinc şəhər və kəndlərə endirdiyi və 72 dinc sakinin həlak olduğu 8 raket zərbəsi faktını sənədləşdirmişdir. Belə ki, 17 oktyabr 2020-ci il tarixində Gəncə şəhərində yaşayış məntəqəsinə SCUD-B ballistik raketinin atılması nəticəsində 21 dinc sakin həlak olmuş, 50-dən çox sakin yaralanmışdır. 27 oktyabr 2020-ci il tarixində Bərdənin Qarayusifli kəndinə kasetli bombanın atılması nəticəsində 5 nəfər həlak olmuş, 14 nəfər isə yaralanmışdır. Hesabatda həmçinin bildirilir ki, 28 oktyabr 2020-ci il tarixində erməni qoşunları cəbhə xəttindən 20 km-dən çox məsafədə yerləşən Bərdə şəhərinə bir neçə irikalibrli raket atmışdır. Raketlərdən biri, içərisində 72 kasset bombası olan "Smerç" raketi insanların sıx olduğu əraziyə düşmüş və nəticədə 21 nəfər həlak olmuşdur. Bundan başqa, qeyd edilmişdir ki, 27 sentyabr 2020-ci il tarixində Naftalan yaxınlığındakı Qaşaltı kəndinə artilleriya zərbəsi nəticəsində bir ailənin 5 üzvü həlak olmuşdur.[82]

Azərbaycanın Baş Prokurorluğunun yaydığı məlumatda qeyd edilir ki, 27 sentyabr 2020-ci il – 10 noyabr 2020-ci il tarixlərində Ermənistan silahlı qüvvələri tərəfindən vurulan zərbələr nəticəsində azərbaycanlı dinc əhalinin sıx yaşadığı rayon və şəhərlərin ərazisinə 30 minə yaxın mərmi və 227 raket atılmışdır. Eyni zamanda, dinc əhalinin atəşə tutulması nəticəsində 12 azyaşlı və 27 qadın olmaqla 93 nəfər qətlə yetirilmiş, 50 azyaşlı və 101 qadın olmaqla 407 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.[83] Ermənistan tərəfindən törədilən beynəlxalq cinayətlərlə bağlı Azərbaycanın Baş Prokurorluğu tərəfindən azərbaycan, rus və ingilis dillərində videoçarxlar da hazırlanmışdır.[84]

Ermənistan tərəfindən yaşamaq hüququnun pozulmasına dair kifayət qədər digər faktlar da göstərilə bilər. Təkcə onu qeyd etmək lazımdır ki, Ermənistan-Azərbaycan münaqişəsinin birinci dövründə 20 mindən artıq (onların 1/3-dən çoxu mülki şəxs), sonuncu dövründə isə 3 minə yaxın (onlardan 93 mülki şəxs) Azərbaycan vətəndaşı qətlə yetirilmişdir. Münaqişə müddətində 6 mindən çox Azərbaycan vətəndaşı itkin düşmüş, əsir-girov götürülmüş, 50 mindən çox Azərbaycan vətəndaşı isə əlil olmuşdur.[85]

26 fevral 1992-ci il tarixdə isə Xocalıda törədilən soyqırımda 613 mülki şəxs qətlə yetirilmişdir ki, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmuş, 8 ailə tamamilə məhv edilmişdir. 56 Xocalı sakini xüsusi qəddarlıqla öldürülmüşdür.[86] Həmin dövrdə Ermənistanın prezidenti olan Levon Ter-Petrosyan erməni ordusuna müraciətində söyləmişdir: "Siz, ermənilər düşməni öldürərkən ürəyi yumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir". Bundan əlavə, Ermənistanın prezidenti olmuş Serj Sarkisyan isə ermənilərin həqiqi simasını açaraq xarici jurnalistlə müsahibəsində bildir-mişdir: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmaz. Biz bu stereotipi dağıtdıq. Məhz bu baş verdi".[87] Bundan əlavə, məşhur erməni terrorçusu və Xocalı şəhərinə hücumda şəxsən iştirak

[82] www. qafqazinfo.az/news/detail/amnesty-internationaldan-daha-bir-hesabat-311462
[83] https://genprosecutor.gov.az/az/post/3427
[84] https://qafqazinfo.az/news/detail/bas-prokurorluqdan-ermenistanin-cinayetleri-barede-videocarx-315297
[85] http://www.human.gov.az/az/view-page/65/ERM%C6%8FN%C4%B0STAN+RESPUBLIKASININ+H%C6%8FRB%C4%B0+T%C6%8FCAV%C3%9CZ%C3%9CN%C3%9CN+N%C6%8FT%C4%B0C%C6%8FL%C6%8FR%C4%B0+%28R%C6%8FSM%C4%B0+XRON%C4%B0KA%29#.YESRxFUzYdU
[86] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 84-85
[87] www.anl.az/xocali/soyqirim.htm; Waal Th. Black Garden: Armenia and Azerbaijan through Peace and War. New York, 2004, p. 172

etmiş Monte Melkonyanın qardaşı Markar Melkonyanın birinciyə həsr etdiyi kitabında şəhərin strateji məqsəd, eyni zamanda qisas yeri olduğu xüsusilə vurğulanmışdır. Xocalıda dinc sakinlərin qətlində "Arabo" və "Aramo" adlanan iki erməni hərbi bölməsinin iştirakını xatırladan Markar Melkonyan həmin insanlara qarşı edilən vəhşilikləri ətraflı təsvir etmişdir.[88] Ermənilərin sevə-sevə "ideoloq" hesab etdikləri Zori Balayanın 1996-cı ildə nəşr olunan "Ruhumuzun dirçəlişi" adlı kitabında Xocalı soyqırımı zamanı ermənilərin azərbaycanlılara qarşı cinayətkar niyyəti aydın şəkildə ifadə edilmişdir: "Biz Xaçaturla Xocalıda ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".[89]

Xocalıda insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdir ki, bunu dünya mətbuatı da təsdiq etmişdir. Belə ki, Rusiyanın "Memorial" Hüquq Müdafiə Mərkəzi diri adamın baş dərisinin soyulması faktını qeydə almış, Parisdə çıxan "Le Monde" qəzetinin isə 14 mart 1992-ci il tarixli sayında qeyd edilmişdir ki, ".. Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş uşaq və qadınlar arasında üçünün baş dərisinin soyulduğunu, dırnaqlarının qoparıldığını görmüşlər. Bunlar Azərbaycan təbliğatı deyil, reallıqdır.....". Moskvada çıxan "İzvestiya" qəzeti, Parisdə çıxan "Krua L"Evonemon" və "Valer Aktyuel" jurnalları, Londonda çıxan "Tayms", "Sandi Tayms", "Feyneşnl Tayms" qəzetləri Xocalıda ermənilərin törətdikləri qəddar qətllərdən bəhs edir. ABŞ-ın "Nyu York Tayms" qəzeti Ermənistan-Azərbaycan münaqişəsinin gedişatında insan hüquqlarının pozulduğunu, başları kəsilmiş, başlarının dərisi soyulmuş meyitlərin, bir nəfərin diri-diri başının dərisinin soyulduğunun şahidi olunduğunu yazmışdı.[90]

Ermənistan tərəfindən yaşamaq hüququnun kobud pozulması ilə bağlı yüzlərə digər faktlar da göstərmək olar. Belə ki, 17 fevral 1992-ci il tarixində Xocavəndin Qaradağlı kəndində törədilən soyqırımı zamanı kəndin hər 10 sakinindən biri şəhid olmuşdur. Bu soyqırımda 104 kənd sakini və 15 nəfər xüsusi müdafiə dəstəsinin üzvü əsir götürülmüş, onlardan 80 nəfəri ermənilər tərəfindən qətlə yetirilmişdir. Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi.

Xocalı soyqırımının törədilməsindən sonra soyqırımı siyasətini davam etdirən Ermənistan tərəfindən növbəti hədəf Kəlbəcər rayonunun Ağdaban kəndi oldu. 1992-ci ilin aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlılarının köməyi ilə Kəlbəcər rayonunun Ağdaban kəndinə hücum edərək 130 evdən ibarət olan kəndi tamamilə yandırmış, 779 nəfər dinc sakinə divan tutmuş, 67 nəfəri amansızcasına qətlə yetirərək soyqırımı törətmişlər. Bir gecədə 8 nəfər 90-100 yaşlı qoca, 2

[88] Melkonian M. My Brother's Road: An American's Fateful Journey to Armenia. New York, I.B.Tauris, 2008, p. 213-214
[89] Aziz B. Mart faciasından Hocalı`ya Azerbaycan`da ermenilerin türk soykırımı. Tükiye türkçesinden aktaran Doç. Dr. Sebahattin Şimşir. İstanbul, IQ Kültür Sanat Yayıncılık, 2013, s. 191-192
[90] https://www.kaspi.az/az/esrin-faciesi-rusiya-mediasinda

nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarətləri yetirilmişdir.[91]

01 aprel 1993-cü il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Kəlbəcər rayonuna hücum zamanı Ermənistanın Vardenis ərazisindəki hərbi qərargahından simsiz rabitə ilə ("QSM-7") müharibə bölgəsindəki birliyə ("Uraqan") bölgədəki bütün mobil simsizlərlə çatdırılmaqla təcili əmr verildi. Bu əmrdə əsir və girov götürülmüşlərin, xüsusilə də yaşlılar, qadınlar və uşaqların təcili olaraq öldürülməsi və aradan qaldırılması vacibliyi bildirilmişdir. Səbəb olaraq da beynəlxalq təşkilatların əraziyə baxış keçirmək istəyi olmuşdur. Bu danışığın mətni Azərbaycan xüsusi xidmət orqanları tərəfindən yazılmış və arxivlərdə saxlanılır. 25 avqust 1993-cü il tarixində Füzulinin Qacar kəndində 25-dən yuxarı mülki azərbaycanlı erməni əsgərlər tərəfindən mühasirəyə alınaraq toplu şəkildə çarpaz atəşlə öldürülmüşdür. 23 oktyabr 1993-cü il tarixində Füzulinin Goran kəndində Ermənistan silahlı qüvvələri tərəfindən 30 mülki azərbaycanlı atəş açılaraq öldürülmüşdür.

Bununla da 2001-ci ildən AŞ-nin üzv olan və AİHK-i ratifikasiya edən Ermənistan əslində Konvensiyanın həm 2-ci, həm də 4-cü maddəsinin tələblərini ciddi şəkildə pozmuşdur.

Qeyd olunan faktlar Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində həyatlarını itirmiş azərbaycanlıların yaşamaq hüququnun pozulması kimi qiymətləndirilərək, Ermənistanın tam beynəlxalq-hüquqi məsuliyyətini yaratmış olur.

5.2. Azadlıq və toxunulmazlıq hüququ

Azadlıq və toxunulmazlıq hüququ dedikdə, insanın azadlığını, öz hərəkətlərini sərbəst müəyyənləşdirmək və vaxtını idarə etmək hüququ başa düşülür. Göstərilən hüquq aşağıdakı komponentlərdən ibarətdir: özünü mülahizəsinə uyğun olaraq idarə etməyin fərdi azadlığı; şəxsiyyətin fiziki, psixi və mənəvi toxunulmazlığı.

Azadlıqdan qeyri-qanuni məhrum olmaq cinayət qanunvericiliyində zorakılıq aktı kimi qiymətləndirilir. Lakin azadlıq və ya toxunulmazlığın məcburi məhdudiyyətlərini tələb edən şərait də mövcuddur. Bu cür hərəkətlər qanuna əsaslanmalıdır**.** Azadlıq və toxunulmazlıq hüququ MSHBP-nin 9-cu maddəsinin 1-ci bəndi və AİHK-in 5-ci maddəsinin 1-ci bəndində daha aydın şəkildə təsbit edilmişdir.

Ermənistan-Azərbaycan münaqişəsində bu hüququn ciddi pozulması hallarına çox sayda faktlarla rast gəlinir. Belə ki, Kəlbəcər rayonundan məcburi köçkün düşmüş Azərbaycan vətəndaşları Şahbaz Quliyev, Həsən Həsənov və Azərbaycan əsilli Rusiya vətəndaşı olan Dilqəm Əsgərov Ermənistanın işğalı altında olmuş öz ata-baba yurdlarını ziyarət edərkən 11 iyul 2014-cü il tarixində ermənilər tərəfindən Şahbaz Quliyevin və Dilqəm Əsgərovun girov götürülməsini, eləcə də Həsən Həsənovun öldürülməsini göstərmək olar. Bəlli olduğu kimi, qondarma, separatçı və tanınmamış "Dağlıq Qarabağ Respublikası"nın Xankəndi şəhərindəki qondarma "Birinci instansiya məhkəməsi" tərəfindən Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyev isə 22 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. Bu hal öz-özlüyündə və aşağıdakı meyarlar baxımından bütövlükdə beynəlxalq hüquq normalarının ciddi və kobud pozuntusu sayılmalıdır.

İlk növbədə, 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 34-cü maddəsində təsbit olunan "Girovlar götürülməsi qadağandır"

[91] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 80-81

müddəası, habelə həmin Konvensiyalara 1977-ci il tarixli I Əlavə Protokolun 75.2-ci maddəsində istər hərbi, istərsə də mülki orqanların nümayəndələri tərəfindən hər hansı vaxtda və hər hansı yerdə törədilən girov götürmənin qadağan edilməsinə dair norma açıq-aydın şəkildə pozulmuşdur.

Məhkəmə prosesinin keçirildiyi yer olan Xankəndi şəhəri Ermənistan tərəfindən işğal edilmiş və Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisidir. Burada formalaşdırılan "qondarma" dövlət Azərbaycanın ərazi bütövlüyünün pozulması nəticəsində yaradılmışdır. Öz dövləti daxilində sərbəst hərəkət etmək isə hər bir şəxsin mühüm hüquq və azadlıqlarından biridir. Məhz bu hüququn əks olunduğu ÜİHB-nin 11-ci maddəsi, MSHBP-nin 12-ci maddəsi və AİHK-ə IV Əlavə Protokolun "Hərəkət etmək azadlığı" adlanan 2-ci maddəsini rəhbər tutaraq vurğulamaq lazımdır ki, öz dövləti daxilində sərbəst hərəkət etmək kimi mühüm hüquq və azadlıqlardan birinə malik olan Şahbaz Quliyev və Həsən Həsənovun *(hətta Rusiya vətəndaşı Dilqəm Əsgərovu istisna etsək belə, halbuki həmin şəxs də bu vaxta qədər Azərbaycan ərazisində qanuni əsaslarla yaşayıb; bundan başqa hərəkət etmək azadlığı hər kəsə məxsusdur)* öz dövləti (*Azərbaycan*) ərazisində bu hüququnun pozulması və qondarma cinayətlərlə qondarma dövlətin qondarma məhkəməsi önünə çıxarılması adi beynəlxalq hüquq normalarının belə ciddi və kobud pozuntusudur.[92]

Qondarma, separatçı və tanınmamış "Dağlıq Qarabağ Respublikası" beynəlxalq hüququn subyekti sayılmadığından, onun hər hansı beynəlxalq-hüquqi sənədlərə, habelə insan hüquqlarının müdafiəsinə dair beynəlxalq aktlara qoşulması qeyri-mümkündür. Məhz bu baxımdan, həmin ərazidə "formalaşdırılan" məhkəmə qanunsuz və qərəzli sayılmalıdır. Hətta sözügedən məsələ hər bir şəxsin qanun əsasında yaradılan səlahiyyətli, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli araşdırma hüququna malik olmasına dair müddəanı özündə ehtiva edən MSHBP-nin 14-cü maddəsi və AİHK-in 5 və 6-cı maddələrinin pozuntusu hesab olunmalıdır. Çünki qondarma "Dağlıq Qarabağ Respublikası" beynəlxalq hüquqla nəzərdə tutulan dövlət hesab olunmadığına görə, onun bu hüququn təmin edilməsi sahəsində minimum tədbirlər həyata keçirməsi də ağlasığmaz və absurd haldır. Bundan əlavə, "Dağlıq Qarabağ Respublikası"nın məhkəməsi beynəlxalq hüquq normalarının pozulması nəticəsində "separatçı rejim" tərəfindən yaradılmış, ümumi yurisdiksiya məhkəmə proseslərinin rəhbər tutduğu və əsaslandığı əsas başlanğıclarla heç bir şəkildə uzlaşmır. Göstərmək lazımdır ki, AİHK-in 6.1-ci maddəsində qeyd olunan məhkəmənin hər zaman qanun əsasında yaradılmasına dair müddəa sözügedən beynəlxalq-hüquqi sənəd və ona əlavə protokollarla müəyyən olunmuş müdafiə sisteminə xas hüququn aliliyi prinsipini əks etdirir. Bu müddəa öz təsdiqini AİHM-nin presedent hüququnda (məsələn, *"Jorgic v. Germany"* işi (2007), bənd 64; *"Rikert v. Poland"* işi (2011), bənd 41 və s.) tapmışdır. Digər tərəfdən, Şahbaz Quliyev və Dilqəm Əsgərovun qanunsuz məhkəmə tərəfindən mühakimə olunması həm də uzun müddət Azərbaycan ərazilərini işğal edən, bu ərazilər üzərində faktiki və effektiv nəzarəti həyata keçirən, habelə qondarma "Dağlıq Qarabağ Respublikası" ilə sıx bağlılığı olan Ermənistanın tərəf qismində iştirak etdiyi AİHK-in 1-ci və 6-cı maddələrinin kobud pozuntusu sayılır. Belə ki, AİHK-in 1-ci maddəsinə görə, iştirakçı-dövlətlər onların yurisdiksiyasında olan hər kəs üçün sözügedən beynəlxalq-hüquqi sənədin 1-ci bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin etmək öhdəliyi daşıyırlar. Yurisdiksiya məsələsinə gəldikdə isə, söhbət

[92] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 112-113

faktiki və effektiv nəzarətdən gedir. Ermənistanın işğal edilmiş Azərbaycan ərazilərinə effektiv nəzarəti həyata keçirməsi faktı AİHM-in "*Chiragov and others v. Armenia"* işində də öz təsdiqini tapmışdır.[93] Bundan əlavə qeyd etmək lazımdır ki, sonradan Azərbaycan vətəndaşı Şahbaz Quliyev və Rusiya vətəndaşı Dilqəm Əsgərovun Dağlıq Qarabağdan Ermənistana aparılması və oradan da 2020-ci ilin dekabr ayının sonunda Azərbaycana qaytarılması bir tərəfdən yenə də "qanunsuz və ya qondarma məhkəmə"nin Ermənistan tərəfindən idarə edilməsini, digər tərəfdən isə onların girov götürülməklə tam təqsirsizliyini, nəhayət "qanunsuz və ya qondarma məhkəmə" qərarının tam iflasını sübut edir.

Beləliklə, Ermənistan effektiv nəzarətini həyata keçirdiyi işğal etdiyi Azərbaycan ərazilərində Şahbaz Quliyev və Dilqəm Əsgərovun AİHK ilə nəzərdə tutulan hüquq və azadlıqlarının, xüsusilə, ədalətli məhkəmə araşdırması hüququnun (maddə 6) pozulmasına görə beynəlxalq-hüquqi məsuliyyət daşıyır. Bununla belə, girovları "mühakimə edən" qondarma "Dağlıq Qarabağ Respublikası"nın məhkəməsinin qanun əsasında yaradılmaması və Ermənistanın bu məsələdə özünü kənara çəkərək AİHK-in 1-ci maddəsi ilə üzərinə qoyulan öhdəliyin icrasından boyun qaçırması Şahbaz Quliyev və Dilqəm Əsgərovu həbsdə saxlamanın qanuniliyinə yenidən baxılması (hətta 2015-ci ildə "qondarma" apellyasiya prosesinin keçirilməsinə baxmayaraq[94]) məqsədilə müstəqil və qərəzsiz məhkəməyə əlyetərlilik hüququndan, xüsusilə AİHM-ə müraciət imkanlarından məhrum edir. ÜİHB-nin 8-ci maddəsində qeyd edilir ki, hər bir insan, Konstitusiya və ya qanunla ona verilən əsas hüquqlarının pozulması hallarında səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqlarının səmərəli şəkildə bərpa edilməsi hüququna malikdir. Bundan başqa, həmin sənədin 10-cu maddəsində qeyd edilir ki, hər bir insan öz hüquq və vəzifələrini müəyyənləşdirmək üçün və ona qarşı qaldırılan cinayət ittihamının əsaslandırılmış olub-olmamasını aydınlaşdırmaq üçün ona qarşı qaldırılan işə müstəqil və qərəzsiz məhkəmə tərəfindən tam bərabərlik əsasında, açıq və ədalətin bütün tələblərinə riayət olunmaqla baxılmasını tələb etmək hüququna malikdir.[95]

Qeyd olunan keçmiş girovlar üzərində "qanunsuz" məhkəmə prosesinin keçirilməsi son nəticədə müharibə cinayəti hesab olunur. Belə ki, 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 147-ci maddəsinə uyğun olaraq, himayədə olan şəxsi *(yəni, girov götürülmüş mülki şəxsi)* sözügedən beynəlxalq-hüquqi sənəddə nəzərdə tutulan ədalətli və normal mühakimə icraatı hüququndan məhrum etmək ciddi pozuntu sayılır. Eyni zamanda, həmin Konvensiyalara 1977-ci il tarixli I Əlavə Protokolun 85.4-cü maddəsinin *e* bəndində də himayədə olan şəxslərin ədalətli və normal mühakimə icraatı hüququndan məhrum edilməsi bu sənədin pozuntusu hesab olunur. Bundan əlavə, keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsinin 2-ci maddəsinin *f* bəndində "hərbi əsirin və ya mülki şəxsin ədalətli və normal mühakimə icraatı hüququndan qəsdən məhrum olunması", habelə BCM-nin Roma Statutunun 8.2-ci maddəsinin *a* bəndində isə "qəsdən hərbi əsir, yaxud digər mühafizə olunan şəxsi ədalətli və normal mühakimə icraatı hüququndan məhrum etmə" müharibə cinayəti kimi təsbit olunmuşdur.[96]

Beləliklə, nəinki vurğulanan fakt, o cümlədən 30 ilə yaxın davam edən işğal nəticəsində məcburi köçkünlərin öz yurdlarından qovulmaqla mühüm insan hüquqlarından hesab edilən

[93] https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-155353%22]}
[94] www.mfa.gov.az/news/909/3100
[95] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 113-114
[96] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 115-116

azadlıq və toxunulmazlıq hüququna heç bir istiqamətdə əməl edilməməsi Ermənistan tərəfindən bu hüquq üzrə əsas insan hüquqları standartlarının da tam şəkildə pozulmasının göstəricisidir.

5.3. Ayrı-seçkiliyə məruz qalmamaq hüququ

BMT yarandığı vaxtdan insan hüquqları sistemində ayrı-seçkilik problemini həll etməyə çalışmış və nəticədə, irqi ayrı-seçkiliyin bütün formalarının qadağan edilməsi əsas insan hüquqları sənədlərində təsbit edilmişdir. ÜİHB-nin 1-ci maddəsi ilə butun insanların öz ləyaqətləri və huquqları etibarilə azad və bərabər doğulduqları, onlara ağıl və vicdan bəxş edildikləri və onların bir-birinə munasibətdə qardaşlıq ruhunda davranmalı olduqları bəyan edilir. 1965-ci il tarixli İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya irqi fərqə əsaslanan hər hansı bir üstünlük nəzəriyyəsinin elmi cəhətdən yanlış olduğunu, əxlaqi cəhətdən qınanıldığını, sosial baxımdan ədalətsiz və təhlükəli olduğunu, nəhayət nə nəzəriyyədə, nə də təcrübədə irqi ayrı-seçkiliyə heç bir haqq qazandırıla bilmədiyini qeyd edir. Konvensiya ilə insanlara irqi, rəng və ya etnik mənsubiyyətə görə ayrı-seçkiliyin millətlər arasındakı dostluq və sülh münasibətlərinə əngəl olduğu və xalqlar arasında sülhün və təhlükəsizliyin pozulmasına səbəb ola biləcəyi təsdiq edilir. Konvensiyanın 1-ci maddəsində irqi ayrı-seçkilik məqsədi və ya nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irqi, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirmə, istisna, məhdudiyyət və ya üstün tutulma kimi müəyyən edilir. Konvensiyasının 8-ci maddəsi əsasında 1970-ci ildə İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə yaradılmışdır. Konvensiyanın iştirakçı-dövlətləri Komitəyə dörd ildən bir ətraflı məruzələr, iki ildən bir isə yeni məlumatları əks etdirən qısa məruzələr təqdim etməlidirlər. Bu Komitənin səlahiyyətlərində əsas üstün fərq ondan ibarətdir ki, Komitədə dövlətlərarası şikayət proseduru məcburi xarakter daşıyır. Yəni Komitənin müvafiq səlahiyyətini tanımaq barədə heç bir ilkin bəyanat vermədən iştirakçı-dövlət öz ərazisində irqi ayrı-seçkiliyə yol verən başqa bir iştirakçı-dövlətə qarşı ərizə ilə müraciət edə bilər[97]. Qeyd etmək lazımdır ki, Azərbaycan 1996-cı ildən həmin Konvensiyaya qoşulmuş və üzərinə götürdüyü öhdəliklərə tam sadiqdir.

İnsan hüquqlarının mühüm prinsiplərindən olan bərabərlik, bərabərhüquqluluq və ayrı-seçkiliyin qadağan edilməsi prinsipi insan hüquq və azadlıqlarının müdafiəsində mühüm əhəmiyyət kəsb etməklə humanitar məsələlərdə beynəlxalq əməkdaşlığın inkişafının əsasını təşkil edir. İnsan ləyaqəti anlayışını bu prinsip olmadan təsəvvür etmək qeyri-mümkündür. 1966-cı il beynəlxalq paktlarının müddəalarında bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsipi daha ətraflı şəkildə öz əksini tapmışdır. MSHBP-nin 2, 3 və 26-cı maddələri qarşılıqlı əlaqədə olan aşağıdakı beş prinsipi müəyyən etmişdir: hüquqlardan bərabər istifadə edilməsi prinsipi; kişi və qadının bərabərliyi prinsipindən irəli gələn ümumi bərabərlik prinsipi; hüquq norması və məhkəmə qarşısında bərabərlik prinsipi; qanun tərəfindən bərabər müdafiə prinsipi; ayrı-seçkiliyə yol verilməməsi prinsipi.

[97] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Nurlar, 2021, s. 226-227.

AİHK-in 14-cü maddəsində deylir ki, ayrı-seçkiliyin qadağan olunması bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı seçkilik olmadan təmin olunmalıdır. AHİK-in ayrı-seçkiliyin qadağan edilməsinə həsr edilmiş 12 saylı Protokolunun 1-ci maddəsində isə qeyd edilir ki, Qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.

AİHK-in 14-cü maddəsi həmçinin etnik zəmində ayrı-seçkiliyə məruz qalmamaq hüququnu tanıyır və bunu irqi ayrı-seçkiliyə aid edir (Sejdić and Finci v. Bosnia and Herzegovina [GC], 2009, § 43; Timishev v. Russia, 2005, § 55). Bu əsasla hazırda bir neçə hökumətlərarası işlər AİHM-in icraatındadır (Azerbaijan v. Armenia (no. 47319/20) və Armenia v. Azerbaijan (no. 42521/20)).

Son illərdə etnik zəmində AİHK-in 14-cü maddəsi ilə hökumətlərarası şikayətlərin AİHM-ə təqdim edilməsi hallarına daha tez-tez rast gəlinir. Məsələn, hazırda AİHM-in icraatında Ukrayna tərəfindən Rusiyaya qarşı, Gürcüstan tərəfindən Rusiyaya qarşı və s. işlər vardır. Bu işlərə dair AİHM-in gələcək qərarlarında ayrı-seçkiliyə dair məhkəmə praktikasına dair yeni prinsiplərin ortaya çıxması istisna edilmir.

Bundan əlavə, AŞ-ın ayrı-seçkiliyin qadağan edilməsi istiqamətində çoxşaxəli struktur və proqramları mövcuddur. Xüsusən 1993-cü ildə təşkil olunmuş İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının fəaliyyətini vurğulamaq lazımdır. Məhz həmin Komissiya AŞ-yə daxil olan ölkələrdə baş verən ayrı-seçkiliyə və dözümsüzlüyə aid hadisələrin elmi araşdırma əsasında tədqiqatlarını nəşr etdirir, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələri ilə bu istiqamətdə əməli iş aparır və dövlətlərə tövsiyələr ünvanlayır. Xüsusi olaraq 2002-ci ildə (2017-ci il dəyişikliklərlə) İrqçilik və irqi ayrı-seçkiliklə mübarizəyə dair milli qanunvericilik haqqında 7 saylı Ümumsiyasi Tövsiyəni qeyd etmək olar.

2001-ci ildə İrqçiliyə qarşı Dünya Konfransı irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və bununla bağlı dözümsüzlüklə mübarizə üçün ən təsirli və əhatəli Durban Bəyannaməsi və Fəaliyyət Proqramını qəbul etmişdir. 2009-cu ilin aprel ayında Durban İcmal Konfransında irqçiliklə mübarizədə əldə olunan irəliləyiş müzakirə edildi və görüləcək işlərin əsas istiqamətləri müəyyənləşdirildi. Şübhəsiz ki, Konfransın ən böyük uğuru irqçiliyə qarşı beynəlxalq öhdəliyin yenilənməsi idi. Bundan başqa, son zamanlar qəbul edilmiş beynəlxalq sənədlər siyahısında BMT BA-nın 21 dekabr 2010-cu il tarixli İrqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və əlaqəli dözümsüzlüyün müasir formalarının artmasına səbəb olacaq bəzi növ təcrübənin yolverilməzliyinə dair Qətnamə xüsusi qeyd edilməlidir.

Beləliklə, qeyd olunan universal və regional müstəvidə əks olunan normalar dövlətlərin üzərinə bir sıra öhdəliklər qoyur və ən əsası istənilən müstəvidə ayrı-seçkiliyi kökündən kəsməyə çağırır. Lakin bu gün irqi və etnik ayrı-seçkilik halları baş verməkdədir və bununla da dünyada milyonlarla insanın normal inkişafı təhdid altındadır.

Ermənistanın Azərbaycana qarşı törətdiyi beynəlxalq cinayətlərin əsas səbəblərindən biri dövlət tərəfindən ermənilərdə anti-azərbaycan və anti-türk nifrətinin formalaşdırılması və daha da inkişafıdır. Cənubi Qafqazda əzəli azərbaycan torpaqları olmuş və hazırda Ermənistan Respublikası kimi tanınan ərazilərdən XX əsrin əvvəllərindən, xüsusən 1920-ci

ildə Ermənistan SSR-in yaranmasından başlayaraq etnik zəmində azərbaycanlıların həmin ərazilərdən qovulması prosesi başlamışdır. Bu fakt SSRİ dövründə Ermənistan SSR-də yaşayan azərbaycanlıların sayının daim kəskin azalması ilə müşayiət edilmişdir. Yalnız İrəvan (hazırda Yerevan) şəhərinin əhalisin sayına nəzər yetirsək azərbaycanlıların etnik zəmində təhdid edilməsinin və qovulmasının şahidi oluruq. Hətta ermənilərin öz mənbələrində də İrəvanın (hazırda Yerevan) əhalisinin tam əksəriyyətinin azərbaycanlı olması konkret faktlarla da sübut edilir. Erməni alimi Zaven Korkodyanın 1932-ci ildə nəşr etdirdiyi "Sovet Ermənistanının əhalisi. 1831-1931" adlı kitabında qeyd edilir ki, 1883-cü ildə İrəvan şəhərinin 18766 nəfər əhalisinin 15992 nəfəri, 1886-cı ildə isə 27246 nəfərindən 23626 nəfəri, yəni 85,2 %-i azərbaycanlı olmuşdur[98]. 1897-ci ildə İrəvan şəhərinin əhalisinin 42,6% (12359) azərbaycanlılar təşkil edirdilərsə, artıq 1926-cı ildə onların sayı 7,8% (5216)[99], 1959-cu ildə - 0,3% (3413), 1979-cu ildə - 0,2% (2341), 1989-cu ildə isə 0%-ə düşmüşdür[100]. Bu nisbət ümumi Ermənistan SSR-in bütün ərazisində də müşahidə olunmuşdur. Danılmazdır ki, bu göstəricilər azərbaycanlıların ciddi etnik təcavüzə məruz qalmasının əyani sübutudur. Azərbaycan SSR ərazisində isə əksinə etnik ermənilərin sayı həmin dövrdə ciddi surətdə artmışdır. Hazırda da heç bir ayrı-seşkiliyə məruz qalmadan Azərbaycanda 100 minə qədər erməni yaşamaqdadır. Ermənilərə qarşı Azərbaycanda ayrı-seçkiliyin olmamasının bariz nümunəsi Ermənistanın keçmiş müdafiə naziri Mikael Arutyunyanın bacısı Zoya Arutyunovanın hazırda Azərbaycanın Kürdəmir rayonunda yaşaması və Bakı şəhərinin mərkəzində ən böyük erməni kilsəsinin yerləşməsidir.

Hazırda da regionda sülhün bərqərar olmasına yönəlmiş addımların atılmasında ermənilər azərbaycanlılara qarşı ayrı-seçkiliyi öndə saxlayırlar. Belə ki, 1991-ci ildə əhalisi deportasiyaya məruz qalmış və Ermənistan SSR-də sonuncu azərbaycanlı kəndi olan Nüvədi kəndi (hazırda Nrnadzor kəndi) sakinlərinin (qaçqınların) öz doğma torpaqlarına qayıtmaq və yenə də ermənilərlə birgə yaşamaq təşəbbüsü erməni cəmiyyəti tərəfindən qəbul edilməmişdir. Bir daha vurğulamaq lazımdır ki, məhz münaqişə tərəfi olan xalqların birgə yaşaması ayrı-seçkiliyin aradan qaldırılmasına və insan hüquq və azadlıqlarının bərqərar olmasına təkan verə bilər. Ermənistan isə hələ də beynəlxalq hüquq normalarını yerinə yetirməkdən tam imtina edir.

BMT QAK-ın hesabatına görə, 1988-ci ilə qədər Ermənistanda ən böyük etnik azlıq olmuş azərbaycanlı əhali "yerli hakimiyyətin iştirakı" ilə respublikadan qovulmuşdur. Bütövlükdə isə o dövrlər ərzində Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdundan – 185 kənddən və başqa yaşayış məntəqələrindən 250 min azərbaycanlı qovuldu, onlara məxsus 31000 ev və şəxsi təsərrüfat, 165 kolxoz və sovxoz əmlakı talandı, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, qız-gəlinlərin namusu təhqir edildi. 15 mindən çox kürd və bir neçə min rus Ermənistan SSR-dən çıxarıldı. Ermənistan SSR-də həmin dövrdə azərbaycanlıların yaşadıqları ərazi isə respublika ərazisinin (29, 8 min kv. km.) iyirmi beş faizini, yaxud təqribən 7,5 min kv. km. təşkil edirdi[101].

Xüsusi olaraq qeyd etmək lazımdır ki, azərbaycanlılara qarşı törədilən insanlıq əleyhinə cinayətlərin, o cümlədən digər beynəlxalq cinayətlərin əsasında soydaşlarımızın milli və etnik

[98] Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, "Təhsil" nəşriyyatı, 2005, s. 70.
[99] РГБ, Всесоюзная перепись населения 1926 года, т. 14, Закавказская СФСР, г. Москва, 1929
[100] http://www.ethno-kavkaz.narod.ru/rnarmenia.html
[101] Əliyev Ə.İ. Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil. Bakı, 2018, s. 146-147.

əsaslarla təqibi də dayanmışdır. Məhz bu təqiblər həmin beynəlxalq cinayətlərin törədilməsi üçün "ideoloji baza" rolunu oynamışdır. Hazırda işğaldan azad edilmiş ərazilərdəki tam dağıdılmış vəziyyət də Ermənistan tərəfindən azərbaycanlılara qarşı açıq nifrətin bariz nümunəsidir.

Ayrı-seçkiliyə məruz qalmamaq hüququnun pozulması istiqamətində Ermənistanın fəaliyyəti regiondan kənarda da aparılmışdır. Belə ki, 21 iyul 2020-ci il tarixdə Los-Ancelesdə (ABŞ) ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən nifrət cinayətinə dair Beynəlxalq işçi qrupun hesabatında qeyd edilimişdir ki, 21 iyul 2020-ci il tarixdə ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində yaşayan çoxsaylı etnik ermənilər daha az sayda yaşayan etnik azərbaycanlılara qarşı zorakı hücumlar təşkil etmişlər. Bu hücum 20-yə yaxın etnik azərbaycanlının fiziki zorakılığa məruz qalması, o cümlədən yeddi etnik azərbaycanlının (bir qadın da daxil olmaqla) və bir polis məmurunun bədən xəsarətləri alması ilə nəticələnmişdir. 28 iyul 2020-ci il tarixdə Los Anceles şəhərinin meri Erik Qarsetti Azərbaycanın Los Ancelesdəki baş konsulluğuna məktub ünvanlayaraq, 21 iyul 2020-ci il tarixdə etnik azərbaycanlılara qarşı baş verən zorakılığı kəskin şəkildə qınadığını bildirmişdir[102] .

Yuxarıda qeyd olunan faktlar və təhlillər Azərbaycan məcburi köçkünlərinin ayrı-seçkiliyə ciddi şəkildə məruz qalmasını əks etdirməklə yanaşı bu istiqamətdə öz üzərinə götürdüyü öhdəliklərini pozmaqla bağlı Ermənistanın beynəlxalq məsuliyyətə cəlb edilməsini tam şəkildə müəyyən edir.

5.4. İşgəncəyə məruz qalmamaq hüququ

İnsan ləyaqətinə bağlı olan mənəvi bütünlük və şəxsiyyətə hörmət hüququ onu göstərir ki, heç bir vəziyyətdə heç bir insana insan ləyaqəti əleyhinə onu təhqir edən rəftar və ya cəza verilə bilməz. Bu hüquq ÜİHB-nin 5-ci maddəsi, MSHBP-nin 7-ci maddəsi, AİHK-in 3-cü maddəsi, BCM-nin Roma Statutunun 7-ci maddəsi ilə və s. təminat altına alınmışdır.

Bu sahədə əsas sənədlərdən olan İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə 1984-cü il tarixli Konvensiyanın 1-ci maddəsinə uyğun olaraq, "işgəncə" – müvafiq hərəkətlə hər hansı şəxsdən və üçüncü şəxsdən məlumatlar və ya etiraflar alma, onun və ya üçüncü şəxsin etdiyi və ya etməkdə şübhəli bilindiyi hərəkətə görə onu cəzalandırmaq, habelə onu və ya üçüncü şəxsi qorxutmaq və ya məcbur etmək üçün yaxud istənilən xarakterli ayrı-seçkiliyə əsaslanan hər hansı başqa səbəbə görə belə ağrı və ya əzab dövlətin vəzifəli şəxsi və ya rəsmi şəxs qismində çıxış edən digər şəxs tərəfindən və ya onların təhriki ilə, yaxud xəbərdar olmaları və ya susmaqla razılaşmaları ilə verilməklə, hər hansı şəxsə qəsdən fiziki və ya mənəvi cəhətdən güclü ağrı və ya əzab verilməsini ifadə edir. Konvensiya dövlətlərin üzərinə onların yurisdiksiyası çərçivəsində olan istənilən ərazidə işgəncə aktının qarşısının alınması üçün səmərəli qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlər görmək öhdəliyini qoyur. Bütün bunlarla yanaşı, işgəncəyə yol verilməsi üçün hər hansı şəraitin, o cümlədən müharibə və müharibə təhlükəsinin, daxili siyasi qeyri-sabitliyin və ya istənilən digər fövqəladə vəziyyətin mövcudluğu bəhanə edilə bilməz. Buraya, həmçinin ali rəis heyətinin və yuxarı dövlət orqanlarının əmri və ya sərəncamı da aid edilir (Konvensiyanın 2-ci maddəsi). Dövlətlərin öz cinayət qanunvericiliklərində işgəncə əməlini cinayət

[102] 21 iyul 2020-ci il tarixdə Los-Ancelesdə (ABŞ) ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən nifrət cinayətinə dair Beynəlxalq işçi qrupun hesabatı. Bakı, 2020, s.4.

kimi nəzərdə tutması və müvafiq əməlin ağırlıq dərəcəsinə görə cəza müəyyən etməsi ilə bağlı öhdəliklər isə Konvensiyanın 4-cü maddəsinin tərkib hissəsini təşkil edir. Konvensiyanın 3-cü maddəsində qeyd edilir ki, heç bir iştirakçı-dövlət heç bir şəxsi ona işgəncə veriləcəyini ehtimal etməyə ciddi əsaslar mövcud olduğu başqa bir dövlətə sürgün etməməli, qaytarmamalı və ya ekstradisiya etməməlidir. Konvensiyanın 13-cü maddəsində isə qeyd edilir ki, hər bir iştirakçı-dövlət bu dövlətin yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrə məruz qaldığını iddia edən hər bir şəxsin həmin dövlətin səlahiyyətli hakimiyyət orqanlarına şikayət verməsi və belə şikayətlərə təcili və maneəsiz baxılması hüququnu təmin edir. İddiaçının və şahidlərin verdiyi şikayət və ya hər hansı şahid ifadələri ilə bağlı hər hansı pis davranış, yaxud hədə-qorxudan müdafiəsini təmin etmək üçün tədbirlər görülür. Daha sonra, Konvensiyanın 14-cü maddəsində müəyyən olunur ki, hər bir iştirakçı-dövlət işgəncə qurbanının əvəz almasını və hüquqi sanksiya ilə gücləndirilən ədalətli və adekvat kompensasiya hüququna, o cümlədən mümkün qədər tam reabilitasiya vasitələrinə malik olmasını öz hüquq sistemində təmin edir. İşgəncə qurbanı işgəncə nəticəsində ölərsə, kompensasiya almaq hüququ onun öhdəsində olanlara verilir.[103]

İşgəncənin tərifi Ruanda Beynəlxalq Tribunalının Məhkəmə Palatası tərəfindən 2 sentyabr 1998-ci il tarixli "*The Prosecutor v. Jean-Paul Akayesu*" işi üzrə qətnamədə (Akayesu, ICTR-96-4, §594–595)[104] və Keçmiş Yuqoslaviya Beynəlxalq Tribunalının Məhkəmə Palatası tərəfindən 12 iyun 2002-ci il tarixli "*Kunarac et al.*" işində (Foca IT-96-23 & 23/1, §142)[105] də verilmişdir. Burada üç əsas elementi qeyd etmək lazımdır: fiziki və ya psixi hərəkət və ya hərəkətsizlik, şiddətli ağrı və ya əzab nəticəsində işgəncə faktı; bu hərəkət və ya hərəkətsizlik qəsdən xarakter daşımalıdır; bu hərəkət informasiya əldə etmək, tanınmaq və ya cəzalandırmaq, işgəncələr qurbanını və ya üçüncü şəxsi qorxutmaq və ya hər hansı bir ayrı-seçkiliyə qurban və ya üçüncü şəxsin məruz qalması üçün səbəb olmalıdır.

02 noyabr 2001-ci il tarixli "*Kvočka et al.*" işində keçmiş Yuqoslaviya Beynəlxalq Tribunalının Məhkəmə Palatası işgəncə cinayətinin elementlərindən hesab edilən hərəkətlərə dair nümunələr gətirdi. Burada döyülmə (zərbələr), yuxudan məhrum etmə, qidadan məhrum etmə və gigiyenanı qorumaq üçün lazımi vasitələrdən məhrum etmə haqqında söhbət gedir. İşgəncənin mənəvi elementini müəyyən etmək üçün cinayətdə təqsirli olan şəxs yuxarıda göstərilən məqsədlərdən birinə uyğun olaraq qəsdən belə qəddar iztirablara məruz qalmalıdır (Ruanda Beynəlxalq Tribunalı ("*The Prosecutor v. Jean-Paul Akayesu*" işi), ICTR-96-4, §142-143). Həmin işdə işgəncələrin baş verdiyi qənaətinə gəlmək üçün nəzərə alınmalı olan elementlər dəqiqləşdirilir. Söhbət, ilk növbədə, dəymiş zərərin (iztirabların) obyektiv ciddiliyinin müəyyən edilməsindən, ikinci növbədə, məruz qaldığı müraciətə görə, qurban üçün fiziki və ya psixoloji nəticələrə dair daha subyektiv meyarın nəzərə alınmasından gedir. Bundan əlavə, müəyyən hallarda qurbanın yaşı, cinsi və ya sağlamlıq vəziyyəti kimi zərər çəkmiş şəxsin əzabının ciddiliyini qiymətləndirmək üçün işgəncə vəziyyətinə aid bəzi əlavə elementləri nəzərdən keçirmək lazımdır (§ 142-143).[106]

AİHM, həmçinin həbsdə saxlanılma zamanı işgəncələr və qəddar rəftar məsələsini, həmçinin dövlətlərin belə halların araşdırılması və dövlət təhlükəsizliyi (legitim maraqlar) və

[103] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, „Nurlar", 2019, s. 163
[104] https://casebook.icrc.org/case-study/ictr-prosecutor-v-jean-paul-akayesu
[105] https://www.icty.org/en/case/kunarac
[106] https://www.icty.org/en/case/kvocka

fərdi hüquqların məhdudlaşdırılması arasında mütənasiblik məsələsini ("*Aksoy v. Turkey*" işi) nəzərdən keçirir. AİHM etiraf edir ki, "terrorçu hüquqpozmaların təhqiqatı, şübhəsiz, hakimiyyət üçün xüsusi çətinliklər yaradır və o, şübhəli şəxsin 14 gün müddətinə məhkəmə müdaxiləsi olmadan yaxalanması zərurəti ilə razılaşa bilməz. Bu qədər uzun müddət ərizəçini yalnız onun azadlıq hüququna özbaşına müdaxiləsi ilə deyil, həm də işgəncələrə qarşı da zəiflədir " (§ 78).[107]

2011-ci ildə AİHM "*Al Skeini and others v. United Kingdom*" işi üzrə AİHK-in eksterritorial tətbiqini qəbul etmişdir. Bu qərarda AİHM belə eksterritorial tətbiqin dövlətlərin öz nəzarəti altında olan şəxslərin həyatına və fiziki toxunulmazlığına qarşı bütün cəhdlərin müstəqil araşdırılmasını həyata keçirmək öhdəliyini nəzərdə tutduğunu təsdiqlədi.[108]

Ermənistan-Azərbaycan münaqişəsi zamanı əsir götürülmüş azərbaycanlılara (hərbçi və mülki şəxslər) qarşı işgəncələr edildiyi müxtəlif sənədlərlə və şahid ifadələri ilə öz təsdiqini tapmışdır. Belə ki, Qubadlının işğalı zamanı 65 yaşlı Biniş Məmmədova adlı qadın və 69 yaşlı Sara İsmayılova adlı qadın əsir alınaraq Xankəndi hərbi düşərgəsinə aparılmışdır. Burada Sara İsmayılova gündüzləri ağır işlərdə kölə kimi işlədilmiş, gecələri isə ağır işgəncələrə məruz qalmış, əsgərlər tərəfindən döyülmüşdür. Onlarla eyni yerdə saxlanılan Şahsənəm və Əsli adında iki qadın bu işgəncələrə dözməyərək həyatlarını itirmişlər. Ermənilər Ağdamdan əsir götürdükləri Kəklik Həsənova adlı qadına müxtəlif işgəncələr vermiş, kəlbətinlə heç bir ağrıkəsici olmadan onun 16 dişi çəkilmişdir. Ağdamın işğalı zamanı əsir alınan Şərqiyyə Şirinova adlı qadının 8 qızıl dişi kəlbətinlə çəkilmiş və 6 ay boyunca işgəncəyə məruz qalmışdır. 1930-cu il təvəllüdlü Əli Abbasov əsir olduğu vaxtlarda davamlı olaraq döyülmüş, bədəninin hər tərəfində siqaret söndürülmüşdür. Məruz qaldığı işgəncəyə dözməyən həmin şəxs vəfat etmişdir. Erməni əsgərləri Füzulinin işğalı zamanı əsir götürdükləri Mürvət Ağayevi və oğlu Yaşarı əvvəlcə döymüşlər, sonra atanın gözü qarşısında oğul öldürülmüş, ata isə qulağı kəsilərək əlləri arxadan bağlı ağacdan asılmış və tonqalda yandırılmışdır. Ermənistan tərəfindən 8 may 1992-ci il tarixində Şuşa şəhərinin işğalı zamanı ermənilər 15 yaşlı Nəzakət Məmmədova adlı qız uşağını və atasını tutmuş, onları əvvəl Xankəndinə, sonra da Ermənistana aparmışlar. Nəzakətin gözü qarşısında atasına ağır işgəncə verilmiş, qulaqları kəsilmiş, qızardılmış metal parçası ilə bədəni damğalanmış, anası bu dəhşətlərə dözməyərək dəli olmuş, özü isə 4 milyon rus rublu müqabilində qohumlarına təhvil verilmişdir. 1993-cü ilin avqustunda Ermənistan polisləri Zakir Vəlioğlu adlı Azərbaycan vətəndaşını Gürcüstanın Marneuli vilayətinin Kirovka kəndində hərəkətsiz halda buraxmış, şəxs Azərbaycanın Qazax vilayətindəki xəstəxanaya gətirilsə də, həyatı xilas edilə bilinmə-mişdir. Ekspertiza zamanı onun bədənində siqaret izlərinin olduğu, sağ əli və sol ayaq barmaqlarının götürüldüyü, zərbə səbəbindən daxili orqanlarının çoxunun məhv edildiyi məlum olmuşdur. Ölümün səbəbi bu zərbələr və aclıq olaraq təyin olunmuşdur. Bundan başqa, Ağdam rayonunun sakini, milliyyətcə rus olan, erməni əsirliyində hədsiz işgəncələrə məruz qalmış Vladimir İvanoviç Şevelyov Ağdam rayonunun işğalı zamanı 89 yaşlı anası Vera Davıdovnanın və ahıl yaşlı bacısı Svetlana İvanovnanın, eləcə də 58 yaşlı xəstə qardaşı Anatoli İvanoviçin ermənilər tərəfindən vəhşicəsinə öldürülüb və sonradan yandırıldığını, Ağdam kanalının yanında saysız-hesabsız qadın və uşaq meyidlərini gördüyünü bildirmişdir. Bundan əlavə, Vladimir Şevelyov şahidlik edir ki, ermənilər Ağdam rayonunun işğalı zamanı oradakı

[107] https://www.globalhealthrights.org/health-topics/health-care-and-health-services/aksoy-v-turkey/
[108] https://casebook.icrc.org/case-study/echr-al-skeini-et-al-v-uk

ruhi xəstəxanada olan 7 ruhi xəstəni, o cümlədən iki xəstə qadını girov götürmüşlər. Onların biri azad edilmiş, biri döyülə-döyülə öldürülmüş, digərlərinin sonrakı taleyindən isə bu günədək məlumat yoxdur.[109]

Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında olan materiallar sübut edir ki, yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən uşaq, qadın və qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı olmuşdur. Çoxsaylı faktlar göstərir ki, əsir və girovlara müxtəlif dəhşətli işgəncələr verilmiş, onlar vəhşicəsinə döyülmüş, qəsdən şikəst vəziyyətinə salınmış, sinələrinə qızdırılmış "xaç" nişanları ilə damğa basılmış, dırnaqları və dişləri çıxarılmış, yaralarına duz basılmış, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülmüş, damarlarına benzin yeridilmişdir. Əsir götürülənlər arasında işgəncəyə məruz qalanların çoxu isə qadınlardır. Belə ki, Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, itkin düşən şəxslərin 3890 nəfərindən 267 nəfəri qadındır.[110]

Ermənilərin azərbaycanlı əsir və girovlara işgəncə verməsi ilə bağlı ABŞ-dan siyasi sığınacaq istəyən keçmiş erməni zabiti Mesrop Martirosyanın ifadəsi də xüsusi qeyd edilməlidir. Belə ki, sonradan Ermənistan ordusunda xidmət etməkdən imtina edən Mesrop Martirosyan, 1991-ci ildə könüllü olaraq Ermənistan ordusuna yazılaraq Qarabağda Azərbaycana qarşı mübarizə aparmaq istədiyini bildirmişdi. Bundan sonra əsir düşərgələrində zabit olaraq çalışacağını bilən Mesrop Martirosyan qərarını dəyişdirərək orduya getmək istəmədiyini bildirmişdi. Bir müddət sonra hərbi xidmətə çağrıldıqda isə, Mesrop Martirosyan "Mən əsgərəm, qatil deyiləm, mən azərbaycanlı əsirlərə qarşı çox vəhşilik eşitdim, indi eyni şeyi özüm edə bilmərəm" deyərək bu düşərgələrdə çalışmaqdan boyun qaçırmışdır. Onu müharibə bölgəsinə göndərsələr, məmnuniyyətlə oraya gedəcəyini bildirsə də, onun bu hərəkəti orduya xidmət etməkdən imtina kimi qəbul edilmiş və ona qarşı cinayət icraatına başlanılmışdır. Bundan sonra, Mesrop Martirosyan Ermənistanı tərk etməyə qərar vermiş və beynəlxalq təşkilatların qərarlarına da istinad edərək azərbaycanlı əsirlərə qarşı işgəncə hadisələrini də bildirmişdi.[111]

Yuxarıda qeyd olunan faktlar və təhlillər Azərbaycan məcburi köçkünlərinin işgəncəyə məruz qalmamaq kimi mütləq insan hüququnun tam şəkildə pozulması kimi qiymətləndirilərək, Ermənistanın beynəlxalq-hüquqi məsuliyyətini yaratmış olur.

5.5. Mülkiyyət hüququ

Mülkiyyət hüququ insan hüquq və azadlıqlarının harmonik şəkildə həyata keçirilməsinin təminatıdır. ÜİHB-nin 17-ci maddəsində göstərilir ki, hər bir insan təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq hüququna malikdir. Heç kəs öz əmlakından özbaşına məhrum edilə bilməz.

Təqdirəlayiq haldır ki, bu gün mülkiyyət hüququ ilə bağlı beynəlxalq sənədlərdə əks olunmuş normalar dövlətlərin milli qanunvericiliyinə implementasiya edilmiş və imperativ normaya çevrilmişdir. AİHK-ə I Əlavə Protokolun 1-ci maddəsinə əsasən, hər bir fiziki və hüquqi

[109] http://www.human.gov.az/az/view-page/29/%C4%B0%C5%9EG%C6%8FNC%C6%8FL%C6%8FR#.YEXNmlUzYdU
[110] http://www.human.gov.az/az/view-page/27/%C6%8FS%C4%B0R%2C+G%C4%B0ROV+V%C6%8F+%C4%B0TK%C4%B0N+D%C3%9C%C5%9EM%C3%9C%C5%9EL%C6%8FR#.YEXLQVUzYdU
[111] http://human.gov.az/public/Mesrop.pdf

şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs cəmiyyətin maraqları və qanunda, beynəlxalq hüququn ümumi prinsiplərində nəzərdə tutulan hallardan başqa əmlakından məhrum edilə bilməz.

Azərbaycan Konstitusiyasının 13-cü maddəsinə görə, mülkiyyət toxunulmazdır və dövlət tərəfindən qorunur. Konstitusiyanın 29-cu maddəsinin 4-cü hissəsində deyilir: "Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər".

Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il tarixli IV Cenevrə Konvensiyasının 53-cü maddəsində göstərilir ki, işğalçı dövlət tərəfindən fərdi və ya kollektiv olaraq fərdi şəxslərə və ya dövlətə, yaxud digər dövlət orqanlarına və ya ictimai və ya kooperativ təşkilatlara məxsus olan daşınmaz və ya şəxsi əmlakın hərbi zərurət olmadan hər hansı formada məhv edilməsi qadağandır. Eyni zamanda, tələblərdən biri budur ki, tərəflər arasında aktiv döyüş əməliyyatları bitəndən sonra vətəndaşların mülkləri özlərinə qaytarılmalıdır. Ancaq əsl həqiqət budur ki, Ermənistan tərəfindən Azərbaycanın dağıdılan şəhər və qəsəbələrində vətəndaşlara məxsus bir yaşayış mənzili belə tapılmır ki, oraya qayıda bilinsin.

İşğal edilmiş bütün ərazilər demək olar ki, urbisid cinayətinə məruz qalmışdır. Urbisid[112] müasir müharibələrdə şəhər mühitinin canlılığını, əhalisinin davamlılığını və şəhərsalma sahəsinin məhv edilməsini nəzərdə tutan cinayətdir. Ermənistanın otuz ilə yaxın davam edən təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində həqiqi urbisid həyata keçirilmişdir. 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanata əsasən hətta Ermənistan özünün təhvil verdiyi Ağdam rayonu ərazisindəki bütün yaşayış məntəqələrini, memarlıq abidələrini bütünlüklə talan etmiş, yandırmış, dağıdıb məhv etmiş, saysız tarixi, dini abidə və maddi-mədəniyyət nümunələrini yer üzündən silmişdir. Bu yaxınlarda “France-24” kanalı işğaldan azad edilmiş Ağdam rayonu haqqında yayımladığı reportajda Ağdamı “Qafqazın Xirosiması” adlandırmışdır. Rusiyanın “Dojd” telekanalında yayımlanan verilişdə isə Ağdam “ruhlar şəhəri” adlandırılmışdır. Bir sözlə, bu gün Ağdam şəhəri dünyada urbisid, yəni şəhərə qarşı həyata keçirilən soyqırımı muzeyini xatırladır. [113] Cəkilmiş foto və video materiallar göstərir ki, Azərbaycanin işğal edilmiş bütün əraziləri bu siyasətə məruz qalmışdır (Hesabata Əlavənin 14.5-ci və 14.6-cı bölməsində bu barədə foto və video materallar ətraflı şəkildə əks olunmuşdur).

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində yüz minlərlə şəxsin mülkiyyət hüquqları kobud şəkildə pozulmuşdur. Bundan başqa, Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində 1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan ərazilərində, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 695 tibb müəssisəsi, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 44 məbəd, 67 məscid, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri, o cümlədən Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri, Kəlbəcər rayonunda Gəncəsar və Xudavəng məbədləri, Ağdam rayonunun Xaçın Türbətli kəndində məqbərə, Xocavənd rayonu ərazisində dünyanın ən

[112] https://en.wikipedia.org/wiki/Urbicide
[113] https://azertag.az/xeber/Ermeni_nasizminin_seherlerin_mehv_edilmesi_siyaseti-1666785

qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu və s. erməni vandalizminin qurbanına çevrilmişdir.[114]

Ermənistan tərəfindən dağıdılmış ərazilərdə əhalinin ərzaqla təmin olunmasında mühüm əhəmiyyət kəsb edən yağ-pendir, şərabçılıq və qismən də yüngül sənaye sahələri daha çox inkişaf etmişdi. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki sənaye müəssisələri tərkibi və inkişaf səviyyəsinə görə keçmiş Azərbaycan SSR-nin iqtisadi regionları arasında dördüncü yeri tuturdu. Sənaye və kənd təsərrüfatı məhsullarının istehsalına görə vaxtilə yüksək göstəricilərə sahib olmuş Azərbaycanın işğal olunmuş rayonlarında İstisu və Turşsu mineral su qablaşdıran müəssisələri, mərmər, mişar daşı zavodları, məşhur "Ağdam" şərabları istehsal edən şərab zavodları, yağ-pendir müəssisələri, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və s. fəaliyyət göstərirdi. Bakı müəssisələrinin 50-dən çox filialları işğal olunmuş ərazilərdə qalmışdı. Ümumiyyətlə, bu ərazilərdə 300-dən çox sənaye və tikinti müəssisəsi cəmlənmişdi. Hesablamalara görə, Azərbaycanda istehsal edilən taxılın 14,3, üzümün 31,5, ətin 14,5, südün 17,1, yunun 19,3 və baramanın 17 faizi dağıdılmış rayonların payına düşürdü.[115]

Beynəlxalq hüquq normalarına görə istər beynəlxalq, istərsə də qeyri-beynəlxalq silahlı münaqişələr zamanı hərbi zərurət olmadığı təqdirdə mülkiyyətin məhv edilməsi və ya ələ keçirilməsi qadağandır. Eyni zamanda, hərbi zərurət olmadan mülkiyyətin genişmiqyaslı formada məhv edilməsi və mənimsənilməsi birbaşa Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il tarixli Cenevrə Konvensiyalarının kobud pozulması kimi dəyərləndirilməlidir.[116] BCM-nin Roma Statutuna görə hərbi zərurətlə əlaqədar olmayan əmlakın qeyri-qanuni, mənasız və genişmiqyaslı məhvi və mənimsənilməsi müharibə cinayətidir.[117]

Beynəlxalq hüquqi sənədlərdən irəli gələn tələblər Ermənistan tərəfindən nəinki nəzərə alınmamış, əksinə daha geniş formada və kobud şəkildə pozulmuşdur. Ermənistan siyasi və hərbi rəhbərliyinin həyata keçirdiyi plana uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərində vətəndaşlara məxsus mülklərin dağıdılması, talan edilməsi və mənimsənilməsi kimi cinayət əməllərinin hər biri yuxarıda qeyd etdiyimiz beynəlxalq hüquqi sənədlərə tam zidd olmaqla beynəlxalq cinayət kimi dəyərləndirilməlidir. Buna əsas verən kifayət qədər beynəlxalq məhkəmə təcrübələri vardır. Məsələn, Yuqoslaviya Tribunalının *"The Prosecutor v. Blaskic"* işi. Belə ki, Bosniya xorvatlarının silahlı qüvvələri tərəfindən Bosniya müsəlman mülki vətəndaşlarına qarşı edilən hərbi hücumlar və Mərkəzi Bosniyanın Lasva Vadisi bölgəsində 1992-ci ilin mayından 1994-cü ilin yanvarına qədər yaşanan əlaqəli hadisələrə görə General Tihomir Blaskiçə hökm oxundu.[118] Blaskiç törətdiyi beynəlxalq cinayətlərlə bərabər vətəndaşların mülkiyyət hüquqlarının pozulmasına görə Tribunal tərəfindən təqsirləndirilərək məsuliyyətə cəlb olunmuşdur. Yuqoslaviya Tribunalı Nizamnaməsinin 2-ci maddəsinin (d) bəndini təşkil edən ciddi pozuntuya bənzər, hərbi zərurətlə əsaslandırıla biləcəyi hallar xaricində əmlakın dağıdılması qadağandır. Cəzalandırıl-

[114] Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Azərbaycan Baş Prokurorluğunun rəsmi veb-səhifəsi. https://genprosecutor.gov.az/az/page/azerbaycan/ermenistan-azerbaycan-dagliq-qarabag-munaqisesi; http://www.anl.az/down/meqale/azerbaycan/2020/oktyabr/726680.htm

[115] Ermənistanın təcavüzü nəticəsində Azərbaycana vurulmuş sosial-iqtisadi ziyan. Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi veb-səhifəsi. https://mfa.gov.az/az/content/112/sosial-iqtisadi-ziyan

[116] First Geneva Convention, Article 50 (*ibid.*, § 53); Second Geneva Convention, Article 51 (*ibid.*, § 53); Fourth Geneva Convention, Article 147 (*ibid.*, § 53)

[117] İCC Statute, Article 8(2)(b)(xiii) (*ibid.*, § 55)

[118] https://www.icty.org/en/case/blaskic; https://casebook.icrc.org/case-study/icty-prosecutor-v-blaskic

maq üçün dağıntı qəsdən törədilmiş və ya təqsirləndirilən şəxslərin hərəkətlərinin gözlənilən nəticəsi olmalıdır. Bütövlükdə, Bosniya müsəlmanlarının üzləşdiyi problemlər Azərbaycan məcburi köçkünlərinin problemləri ilə demək olar ki, çox oxşardır.

Bu zaman AİHM-nin *"Chiragov and Others v. Armenia"* işi üzrə qərarı da xüsusi qeyd edilməlidir. Belə ki, AİHM bu qərarla Laçın rayon sakinləri olan şəxslərin AİHK-in I Əlavə Protokolunun 1, 8 və 13-cü maddələri ilə hüquqlarının davamlı pozulduğunu bildirmişdir. Həmin şəxslər iddia ərizələrində bildiriblər ki, Laçın rayonuna qayıda bilmədiklərinə görə öz mülkiyyətlərindən istifadə edə bilmirlər. Ermənistan isə onların məruz qaldığı zərərin müqabilində hələ də təzminat ödəməmişdir.[119] Həmin Qərarın 213-cü bəndində göstərilmişdir ki, ərizəçilərin əmlakdan və evlərindən istifadə etmək imkanlarının davamlı surətdə rədd edilməsi ilə əlaqədar AİHK-in I Əlavə Protokolunun 1-ci maddəsinin (mülkiyyətin müdafiəsi) və AİHK-in 8-ci maddəsinin (şəxsi həyata və ailə həyatına hörmət hüququ) pozulması AİHM tərəfindən müəyyən edilmişdir. Buna görə, onların şikayətləri AİHK-in 13-cü maddəsinin (səmərəli hüquqi müdafiə vasitələri hüququ) məqsədləri üçün "əsassız" deyildir. Qərarın 214-cü bəndinə əsasən, AİHM bir daha təsdiq edir ki, cavabdeh Dövlət (yəni Ermənistan) ərizəçilər üçün onların AİHK-ə əsasən şikayətləri ilə bağlı əvəzi ödəmək qabiliyyətində olan və ağlabatan perspektivləri olan hüquqi müdafiə vasitəsinin mümkün olmasını sübut etmək vəzifəsini yerinə yetirə bilməmişdir. Eyni səbəblərə görə, AİHM müəyyən etmişdir ki, ərizəçilərin Laçın rayonunda əmlakları və evlərindən istifadə etmək imkanının rədd edilməsi ilə əlaqədar səmərəli hüquqi müdafiə vasitələri mövcud olmamışdır. Beləliklə, AİHM qənaətə gəlmişdir ki (bənd 215), ərizəçilərin AİHK-in 13-cü maddəsinə əsasən hüquqlarının pozulması baş vermiş və baş verməkdə davam edir, buna isə Ermənistan cavabdehdir. Bununla yanaşı, qərarın 207-ci bəndində AİHM müəyyən etmişdir ki, AİHK-ə I Əlavə Protokolun 1-ci maddəsi üçün təqdim edilmiş səbəblərlə eyni olan səbəblərə görə, ərizəçilərin öz evlərindən istifadə etmək imkanının rədd edilməsi onların şəxsi və ailə həyatına, habelə evlərinə hörmət hüququ ilə əsassız müdaxiləni təşkil edir. Nəticə etibarilə (bənd 208), AİHM hesab edir ki, ərizəçilərin AİHK-in 8-ci maddəsinə əsasən hüquqlarının pozulması baş vermiş və baş verməkdə davam edir, məhz buna görə də Ermənistan cavabdehlik daşıyır.[120]

"Muradyan v. Armenia" işində (2016) də AİHM əvvəlki təcrübəsinə əsaslanaraq ("*Zalyan and Others v. Armenia"*(2016)) bir daha qeyd etmişdir ki, Dağlıq Qarabağ ərazisində baş vermiş hadisələrə və Dağlıq Qarabağ səlahiyyətli orqanlarının etdiyi hərəkətlərə görə Ermənistan məsuliyyət daşıyır (paraqraf 124).[121] Beləliklə, AİHM müəyyən etmişdir ki, *"Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Ermənistanın Dağlıq Qarabağ üzərində əhəmiyyətli və həlledici təsiri olmuşdur və onların hər ikisi demək olar bütün mühüm məsələlərdə yüksək səviyyədə inteqrə olmuşlar..... Digər sözlə, Dağlıq Qarabağ və onun idarə edilməsi Ermənistan tərəfindən hərbi, siyasi, maliyyə və digər dəstəklə baş vermişdir və nəticədə Ermənistan Dağlıq Qarabağ və ətraf ərazilər üzərində səmərəli nəzarəti həyata keçirmişdir".*[122]

[119] http://supremecourt.gov.az/uploads/files/avropa-mehkemesi/case_of_chiragov_and_others_vs_armenia.pdf; Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 29-31

[121] Paraqraf 117-118, Muradyan v. Armenia, ECtHR, 2016 (№11275/07)

[122] Paraqraf 126, Muradyan v. Armenia, ECtHR, 2016 (№11275/07); Рамиз Севдималиев. К вопросу о праве Азербайджана на самооборону по освобождению оккупированных территорий. Hileya, Scientific bulletin, Volume 157 (№6-9), Part 3, Political Sciences, Kiyev, 2020, p.103

Bütün bunlarla yanaşı, həm beynəlxalq, həm də milli-hüquqi aspektdən mülkiyyət dedikdə, nəyin nəzərdə tutulduğuna diqqət yetirməliyik. Çünki bu, Ermənistan dövlətinin məsuliyyətinin müəyyən olunmasında vacib məsələdir. Mülkiyyət anlayışını yalnız istifadə və ya sərəncamda olan hər hansı daşınmaz əmlakla əlaqələndirməməliyik. *"Pine Valley Developments Ltd v. İreland"* (1991) işində AİHM qeyd edir ki, AİHK-ə I Əlavə Protokolun 1-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş "mülkiyyət" anlayışı müstəqil məzmuna malik olub, maddi əşyalara sahiblik ilə məhdudlaşmır və milli qanunvericilikdəki formal təsnifatdan asılı deyildir. Maddi əşyalar kimi, əmlakı təşkil edən bəzi digər hüquqlar və maraqlar da "mülkiyyət hüququ" kimi tanınmalı və beləliklə, bu maddənin məzmunu baxımından "mülkiyyət" hesab olunmalıdır. "Mülkiyyət" anlayışı "mövcud mülkiyyətlə" məhdudlaşmır və tələblər də daxil olmaqla, ərizəçinin ən azından mülkiyyət hüququndan səmərəli şəkildə istifadənin əldə olunmasına ağlabatan və "qanuni gözləntisi" olan əmlakı da əhatə edə bilər.

Mülkiyyət hüququnun toxunulmazlığı özündə həm də mənzil toxunulmazlığını ehtiva edir. Ermənistan tərəfindən dağıdılmış mənzillər elə vətəndaşlara məxsus olan mülkiyyətin bir hissəsidir. Uzun müddət ərzində Azərbaycana qarşı təcavüz nəticəsində baş vermiş cinayətlərin cəzasız qalması isə Ermənistanın bu istiqamətdə yeni beynəlxalq cinayətlər törətməsinə gətirib çıxardı. 2020-ci ildə yenidən Azərbaycanın dinc mülki vətəndaşlarının yaşayış mənzilləri və digər əmlakları Ermənistan silahlı qüvvələri tərəfindən hücuma məruz qaldı. Təkcə 2020-ci il sentyabrın 27-dən oktyabrın 30-na qədər Ermənistan tərəfindən atılan raket və mərmilər nəticəsində 93 mülki vətəndaş həyatını itirmiş, 396 nəfər xəsarət almış, 2442 yaşayış evi, 92 çoxmərtəbəli yaşayış binası və 423 mülki obyekt dağıdılmışdır.[123]

Onu da qeyd etmək lazımdır ki, Ermənistan tərəfindən beynəlxalq hüquqa uyğun olaraq mülkiyyət hüququ pozulmuş şəxslərin hüquqları bərpa olunmalıdır. Qeyd olunan məsələlərdə BMT-nin Qaçqınlar və məcburi köçkünlər üçün ev və əmlak restitusiyası Prinsiplərində (*Pinheiro prinsipləri*) nəzərdə tutulan standartlar da xüsusi əhəmiyyət kəsb edir. Burada əks olunan yaşayış yeri və əmlakın restitusiyası hüququnun mahiyyətinə görə, dünyada mövcud olan bütün qaçqın və məcburi köçkünlər qeyri-qanuni yolla məhrum edilmiş yaşayış yeri, torpağı və əmlaklarının restitusiyası hüququna malikdirlər. Bu mümkün olmayan hallarda isə müstəqil və qərəzsiz məhkəmənin müəyyən etdiyi formada yaşayış yeri, torpaq və əmlakın əvəzi ödənilməlidir. Dövlətlər məcburi köçkünlüyün başa çatdırılması və ədalətli sülhə nail olunması istiqamətində restitusiyanı prioritet alət hesab etməlidirlər. Restitusiya hüququ bütün digər hüquqlardan fərqlidir, qaçqın və məcburi köçkünlərin geri qayıdıb-qayıtmamasından asılı olmayaraq onların yaşayış yeri, torpaq və əmlaka olan hüquqlarını təsdiq və təmin edir.

5.6. Şəxsi və ailə həyatına hörmət hüququ

ÜİHB-nin 12-ci maddəsində qeyd edilir ki, heç kim şəxsi və ailə həyatına müdaxiləyə, evinin toxunulmazlığına, məktublaşmasının gizliliyinə, şərəf və nüfuzuna özbaşına qəsdə məruz qala bilməz. Hər bir şəxsin belə müdaxilə və qəsddən qanun tərəfindən müdafiə olunmaq hüququ var. MSHBP-nin 17.1-ci maddəsinə əsasən, heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və yaxud qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və məktublaş-

[123] https://iqtisadiislahat.org/news/ermenistanin_azerbaycana_tecavuzu_neticesinde_dinc_ehaliye_ve_mulki_infrastruktura_deymis_ziyan-1060

malarının gizliliyinə özbaşınalıqla və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz. Hər bir insan belə müdaxilə və belə qəsdlərdən qanunla qorunmaq hüququna malikdir.

AİHK-in 8-ci maddəsinin 1-ci bəndinə görə, hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir. Həmçinin, həmin maddənin ikinci bəndində qeyd edilir ki, milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətlərin qarşısını almaq üçün, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir. Beləliklə, AİHK-in 8-ci maddəsində qeyd olunan istisna əsasları dəqiq müəyyən edildiyindən Ermənistanın təcavüzü nəticəsində Azərbaycan məcburi köçkünlərinin pozulmuş şəxsi toxunulmazlıq hüquqları həmin beynəlxalq sənədin 8-ci maddəsinin də əhatə dairəsinə düşür.

İnsan hüquq və azadlıqlarını nəzərdə tutan beynəlxalq normalarda əks olunan şəxsi həyata hörmət prinsipi milli qanunvericilik sistemi tərəfindən də dəstəklənir. Belə ki, Azərbaycan Konstitusiyasının 32-ci maddəsində şəxsi toxunulmazlıq hüququ bəyan olunur. Bu hüquq özündə şəxsi və ailə həyatının sirrini saxlamaq hüququnu, şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququnu, yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququnu və s. bu kimi hüquqları ehtiva edir.

AİHM-nin bir çox qərarları əsasında hansı qanunsuz əməllərin insanın şəxsi həyat və ailə həyatına hörmət hüququnun pozulmasına səbəb olduğunu müəyyən etmək mümkündür. Belə ki, geniş mənada "Şəxsi həyata hörmət" hüququnun qorunması üçün insana sərbəst inkişaf edə biləcəyi və özünü ifadə edə biləcəyi şəraitin yaradılması təmin edilməlidir. Halbuki, öz doğma ocaqlarından didərgin düşmüş Azərbaycan vətəndaşları doğulduqları, böyüdükləri və əvvəllər həyatlarından sərbəst şəkildə istifadə edə bildikləri mühitdən tam məhrum olmuşlar.

Şəxsi və ailə həyatına hörmət hüququ şəxsin yaşayış sahəsinə də hörmət hüququnu tələb edir. Yaşayış sahəsini "fərdin şəxsi həyatını davam etdirdiyi yer" olaraq qiymətləndirən AİHM-nin bir çox qərarlarında bu faktın şahidi oluruq. Həmçinin, müəyyən olunur ki, "Yaşayış sahəsi" termini ölkədaxili qanunlarda nəzərdə tutulmuş təsnifatdan asılı olmayan müstəqil bir anlayışdır (*"Chiragov and Others v. Armenia" işi üzrə qərar, § 206*). Buna görə, şəxsin müəyyən bir yaşayış yerinin olub-olmaması faktiki şərtlərdən, yəni müəyyən bir yerdə kifayət qədər və daimi əlaqələrin mövcudluğundan asılıdır (*Winterstein and Others v. France § 141*[124]). AİHM-nin "*Chiragov and Others v. Armenia"* işi üzrə çıxardığı qərarın 213-cü bəndində göstərilmişdir ki, ərizəçilərin əmlakdan və evlərindən istifadə etmək imkanlarının davamlı surətdə Ermənistan tərəfindən rədd edilməsi ilə əlaqədar həmçinin AİHK-in 8-ci maddəsinin (şəxsi həyata və ailə həyatına hörmət hüququ) pozulması faktı da mövcuddur.

Onu da qeyd etməliyik ki, AİHK-in 8-ci maddəsinin tələblərinin pozulması yalnız şəxsi və yaşayış sahəsinə müdaxilə ilə məhdudlaşdırılmamalıdır. Çünki qeyd olunan maddə şəxsi və ailə həyatına, eləcə də yazışma sirrinə hörmət edilməsini tələb edir. Belə ki, AİHM əmək və

[124] https://hudoc.echr.coe.int/fre#{%22itemid%22:[%22001-127539%22]}

sosial münasibətləri (“*McFeeley and others v. United Kingdom”* işində[125] *və “Niemietz v. Germany”* işində[126]), fiziki və mənəvi toxunulmazlığı, yəni şəxsi həyatın fiziki və mənəvi bütünlüyünü (“*Costello-Roberts v. The United Kingdom”* işində[127]), ad və soyad, şöhrət, şərəf, həyat tərzini (“*Stjerna Finlandiyaya qarşı”* işində[128] *və “Guillot v. France”* işində[129]) və s. bu kimi məqamları da şəxsi və ailə həyatına hörmət çərçivəsinə daxil edir.

Ona görə də Ermənistanın təcavüzü nəticəsində şəxsi toxunulmazlığa qəsd halları daha geniş şərh olunmalı və ciddi məsuliyyət müəyyənləşdirilməlidir.

5.7. Vicdan azadlığı

MSHBP (18-ci maddə) kimi mühüm beynəlxalq sənəddə təsbit edilmiş insan hüquqlarından olan din və ya vicdan azadlığı “ibadəti, təlimləri, dini və mərasim ayinlərini” yerinə yetirməklə öz dininə və ya əqidəsinə etiqad etmək imkanını nəzərdə tutur. BMT İHK tərəfindən 22 saylı Ümumi şərhdə verilmiş anlayış isə geniş istiqamətdə fəaliyyətləri əhatə edir. Qeyd etmək vacibdir ki, ibadət etmək hüququ “əqidəni birbaşa ifadə edən ayin və mərasim hərəkətlərinə, eləcə də bu cür hərəkətlərin ayrılmaz hissəsi olan müxtəlif adətlərə, o cümlədən ibadət yerlərinin tikilməsinə, ayin formullarının və əşyalarının istifadəsinə, rəmzlərin nümayişinə, bayram və istirahət günlərinə riayət edilməsinə şamil olunur”. Bundan əlavə, BMT İHŞ 2007-ci il tarixli 6/37 saylı qətnaməsinin 9 (e) bəndində qeyd edir ki, dövlətlər "milli qanunvericiliklərinə və beynəlxalq insan hüquqlarına və humanitar hüquqa uyğun olaraq dini yerlərə, məkanlara, ziyarətgahlara və rəmzlərə tam hörmət edilməsini və onların qorunmasını təmin etmək üçün maksimum səy göstərməli və onların təhqir və ya məhv edilmə qarşısında müdafiəsiz durumda olduğu hallarda əlavə tədbirlər görməlidirlər". Eynilə, 2005-ci ildə BMT İHK-nın qəbul etdiyi 2005/40 saylı qətnamənin 4(b) maddəsində qeyd edilir ki, dövlətlər “...dini yerlərə, məkanlara, ziyarətgahlara və dini ifadə edən rəmzlərə tam hörmət edilməsini və onların qorunmasını təmin etməli və onların təhqir və ya məhv edilmə qarşısında müdafiəsiz durumda olduğu hallarda əlavə tədbirlər görməlidirlər”.

Qeyd etmək lazımdır ki, din və ya vicdan azadlığı nə fövqəladə hallarda məhdudlaşdırıla, nə də onun qüvvəsi milli təhlükəsizlik mülahizələri səbəbindən dayandırıla bilməz.

1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarının ümumi maddəsi olan 3-cü maddədə nəzərdə tutulur ki, döyüşlərdə iştirak etməyən şəxslərlə "irq, dərisinin rəngi, din və ya əqidə, cins, doğum və ya əmlak vəziyyəti və yaxud da digər analoji meyarlar əsasında heç bir neqativ ayrı-seçkilik qoyulmadan humanistcəsinə rəftar edilir". Həmin Konvensiyalara 1977-ci il tarixli I Əlavə Protokolun 75-ci maddəsi döyüşlərdə iştirak etməyən bütün şəxslərin din azadlığını həm neqativ mənada (ayrı-seçkiliyə qarşı), həm

[125] McFeeley v. United Kingdom.8317/78, Council of Europe: European Court of Human Rights, 15 May 1980. https://hudoc.echr.coe.int/app/conversion/pdf?library=ECHR&id=001-92713&filename=MCFEELEY%20AND%20OTHERS%20v.%20THE%20UNITED%20KINGDOM.pdf

[126] Niemietz v. Germany. 72/1991/324/396, Council of Europe: European Court of Human Rights, 16 December 1992. https://www.refworld.org/cases,ECHR,3f32560b4.html

[127] Costello-Roberts v. The United Kingdom. 89/1991/341/414 , Council of Europe: European Court of Human Rights, 23 February 1993. https://www.refworld.org/cases,ECHR,3ae6b6f08.html

[128] Stjerna v. Finland. 38/1993/433/512, Council of Europe: European Court of Human Rights, 25 November 1994. http://hudoc.echr.coe.int/app/conversion/pdf/?library=ECHR&id=001-3751&filename=001-3751.pdf&TID=thkbhnilzk

[129] Guillot v. France. 52/1995/558/644, Council of Europe: European Court of Human Rights, 24 October 1996. http://www.worldcourts.com/hrc/eng/decisions/2002.07.15_Gillot_v_ France.htm

də pozitiv mənada qoruyur, belə ki, "hər bir Tərəf bütün belə şəxslərin şəxsiyyətinə, şərəfinə, əqidəsinə və dini adətlərinə hörmət etməlidir".

BCM-nin Roma Statutunun 7 (1) (h) maddəsində göstərilir ki, "identikləşdirilə bilən hər hansı qrupun və ya toplumun ... dini ... əsaslarla təqib edilməsi" insanlığa qarşı cinayətlərə daxildir. Nəzərə almaq lazımdır ki, "təqib" termini, 7 (2) (g) maddəsinə əsasən, "qrupa və ya topluma mənsubluq səbəbindən beynəlxalq hüquqa zidd olaraq əsas hüquqlardan qəsdən və ciddi şəkildə məhrum edilmə" kimi başa düşülür. Bundan əlavə, dini təqib müharibə və ya silahlı münaqişə ilə əlaqəli olmadan da baş verə bilər. Nəhayət, 8 (2) (b) (ix) maddəsində 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarının "ciddi pozuntuları" "dini məqsədlər üçün nəzərdə tutulan binalara qarşı qəsdən edilən hücumları" özündə ehtiva edən anlayış kimi müəyyən edilir.

Silahlı münaqişələr dövründə mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Konvensiyası, bu Konvensiyanın İcra Reqlamenti ilə birlikdə, 1993-cü ildə Ermənistan tərəfindən ratifikasiya olunmuşdur və onun 1-ci maddəsinin (a)-(c) bəndlərində müəyyən edilən mədəni sərvətlərin qorunması aşağıdakıları əhatə edir: "hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyət daşıyan memarlıq, sənət abidələri və ya tarixi abidələr kimi dini və ya dünyəvi xarakterli daşınar və ya daşınmaz əmlak....". Bu Konvensiyada əsas termin olan "hər bir xalqın mədəni irsi" terminini, mühüm mədəni irsin müəyyənləşdirilməsinin aparıcı amili olaraq, həm məhdud mənada götürməklə bütövlükdə dünyada tanınan obyekt və ya məkan kimi, həm də daha əhatəli mənada götürməklə müqavilə iştirakçısı olan hər bir dövlətin özü tərəfindən müəyyən edilən onun milli mədəni irsi kimi başa düşmək olar. Hər iki halda hesab edilir ki, dini binalar və ya məkanlar yüksək mədəni dəyərə malikdirsə, yaxud sənət və memarlıq abidələri və ya tarixi abidələrdirsə, Müqavilədə nəzərdə tutulan anlayış və müdafiə onlara şamil olunur.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə vicdan azadlığının pozulması kimi dəyərləndirilən pozuntular törədilmişdir:

- Məscidlərin və müqəddəs yerlərin tam və ya qismən dağıdılması (Şuşa, Ağdam, Zəngilan və digər ərazilərdə);
- Məscidlərin və müqəddəs yerlərin təhqir olunması, məsələn, həmin tikililərin donuz və digər heyvanların saxlanılması üçün istifadə edilməsi;
- Ölənlərin qiymətli əşyalarını (qızıl dişlər və ya zinət əşyaları kimi) çıxarmaq üçün tərk edilmiş qəbiristanlıqların davamlı talan edilməsi də daxil olmaqla, müsəlman qəbiristanlıqlarının dağıdılması;
- Müxtəlif Alban kilsələrindəki rəmz və işarələrin erməni dilindəki işarələrlə əvəz edilməsi (Xudavəng, Gəncəsar (Kəlbəcər rayonu); Ağoğlan (Laçın rayonu) və s.);
- Azərbaycanın Kəlbəcər rayonundan məcburi köçkün düşmüş Azərbaycan vətəndaşları Şahbaz Quliyev, Həsən Həsənov və Azərbaycan əsilli Rusiya vətəndaşı olan Dilqəm Əsgərovun erməni işğalı altında qalmış öz ata-baba yurdlarını ziyarət edərkən 11 iyul 2014-cü il tarixində ermənilər tərəfindən Şahbaz Quliyevin və Dilqəm Əsgərovun girov götürülməsi, eləcə də Həsən Həsənovun öldürülməsi.

5.8. Köləliyə və məcburi əməyə məruz qalmamaq hüququ

ÜİHB-nin 23.1-ci maddəsinə görə hər kəsin işləmək, sərbəst iş seçmək, ədalətli və əlverişli iş şəraiti və işsizliyə qarşı qorunma hüququ vardır. Layiqli iş hüququ məcburi

əməyin, uşaq əməyinin və kölə kimi iş şəraitinin qadağan edilməsini əhatə edir. Eyni zamanda, Məcburi əmək haqqında BƏT Konvensiyasına görə məcburi əmək qadağandır. BƏT-ə görə, məcburi əmək "hər hansı bir şəxsdən hər hansı bir cəza təhlükəsi altında olan və adı çəkilən şəxsin özünə könüllü olaraq təklif etmədiyi bütün iş və ya xidmət" deməkdir.[130]

ÜİHB-nin 4-cü maddəsində qeyd edilir ki, heç kim köləlikdə və ya asılı vəziyyətdə saxlanıla bilməz; köləliyin və kölə ticarətinin bütün növləri qadağan edilir. MSHBP-nin 8-ci maddəsində də bu məsələyə ayrıca iki bənd həsr olunmuşdur. AİHK-in 4-cü maddəsində (Köləliyin və məcburi əməyin qadağan olunması) deyilir:

1. Heç kəs köləlikdə və asılılıqda saxlanmamalıdır.

2. Heç kəs məcburi və icbari əməyə cəlb olunmamalıdır.

3. Bu maddənin məqsədləri üçün "məcburi və ya icbari əmək" termini aşağıdakıları özünə daxil etmir:

a) bu Konvensiyanın 5-ci maddəsinin müddəalarına müvafiq olaraq həbsdə olan və ya belə həbsdən şərti azad edilmiş şəxsin adətən yerinə yetirməli olduğu hər hansı bir iş;

b) hərbi xarakterli hər hansı xidmət və ya hərbi xidmətdən əqidəyə görə imtina etmənin qanuni hesab edildiyi ölkələrdə məcburi hərbi xidmətin əvəzinə müəyyən edilmiş xidmət;

c) fövqəladə vəziyyət və ya əhalinin həyatı və rifahı üçün təhlükə yaradan fəlakət hallarında hər hansı məcburi xidmət;

d) adi vətəndaşlıq vəzifələrinin bir hissəsi olan iş və ya xidmət.[131]

Azərbaycan Konstitusiyasının 35-ci maddəsinə əsasən, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Azərbaycan Əmək Məcəlləsinin 17-ci maddəsi isə məcburi əməyin qadağan edilməsi ilə bağlı mühüm müddəaları təsbit edir.

Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 1 fevral 2018-ci ilə olan rəsmi məlumatına görə qeydiyyatdan keçən itkin düşmüş şəxslərin sayı 3890 nəfərdir ki, onlardan 3165 nəfəri hərbçi, 710 nəfəri isə mülki şəxsdir. İtkin düşmüş şəxslərdən 67 nəfərini uşaqlar (23 nəfər qız, 44 nəfər oğlan), 267 nəfərini qadınlar, 326 (o cümlədən 166 qadın) nəfərini isə qocalar təşkil edir. Bununla yanaşı, 871 nəfərin əsir-girov götürülməsi barədə məlumat mövcuddur ki, onlardan 602 nəfərini hərbçi, 269 nəfərini mülki şəxs təşkil edir. Həmin şəxslərin 29 nəfəri uşaqlar (7 nəfər qız, 22 nəfər oğlan), 98 nəfəri qadınlar, 113 nəfəri (o cümlədən 64 nəfər qadın) isə qocalardan ibarətdir.[132]

Ermənistanda və Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olan işğal ərazilərində əsirlikdə olan azərbaycanlılara qarşı AİHK-in 4-cü maddəsinin ("Köləliyin və məcburi əməyin qadağan olunması") kobud pozulması haqqında rəsmi sənədlərlə müəyyən edilmiş bəzi halların qeyd edilməsi zəruridir. Məsələn, müəyyən edilmişdir ki, Heyvəli kəndində (Kəlbəcər rayonu) əsir düşmüş 5 azərbaycanlını ermənilər ağır fiziki işlərdə xidmətçi kimi işlətmiş və bu işə dözməyənləri öldürmüşlər. Ermənistan tərəfindən işğal olunmuş ərazilərdən girov götürülmüş əksər şəxslər ağır əmək tələb edən işlərdə işlədilmiş və fiziki zorakılıqlara məruz

[130] https://www.ohchr.org/en/professionalinterest/pages/forcedlabourconvention.aspx
[131] https://www.echr.coe.int/Documents/Convention_RUS.pdf
[132] http://www.human.gov.az/az/

qalmışdır. Nəticədə əksəriyyəti sağalmaz xəstəliklərə düçar olmuşlar.[133] Bu vəziyyət AİHK-in 4.1 ("Heç kəs köləlikdə və ya asılılıqda saxlanmamalıdır") və 4.2 ("Heç kəs məcburi və ya icbari əməyə cəlb olunmamalıdır") maddələrinə tamamilə ziddir. Bu faktların bir qismi Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən BMT-yə təqdim edilən hesabatda göstərilmişdir.

Bütövlükdə, Azərbaycan ərazilərinin işğalı nəticəsində öz yurdlarından qovulan məcburi köçkünlərin əmək hüququnun Ermənistan tərəfindən ciddi şəkildə pozulması bu faktlarla da təsdiq edilir: işğal ərazilərindəki mövcud iş yerlərinin dağıdılması; əsir götürülmüş şəxslərin məcburi əməyə cəlb edilməsi; işğal edilmiş ərazilərdə əmək hüquqlarının qorunmasına yönəlmiş təsisatların fəaliyyətinin dayandırılması; məcburi köçkünlərin iş yerlərinin itirilməsi ilə bağlı çətin sosial-psixoloji duruma düşməsi; məcburi köçkünlərin uzun müddət işsiz qalması və məcburi olaraq ixtisası və seçdiyi peşə üzrə işləməməsi.

Bu halların bu gün də davam etməsi Azərbaycan məcburi köçkünlərinin *"şərəfli və təhlükəsiz qayıdış hüququ"*na ciddi maneçilik törədir.

5.9. Sosial təminat hüququ

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində pozulmuş əsas insan hüquqlarından bir də sosial təminat hüququdur. Sosial təminatın mahiyyəti onun funksiyalarında özünü göstərir. Sosial təminatın əsas funksiyası müxtəlif sosial risklərin səbəb olduğu gəlir itkisinə və ya xərc artımlarına qarşı kompensasiyaedici təsir göstərən sosial yardım və sosial dəstəklərdir. BƏT-in 1944-cü il Filadelfiya Bəyannaməsində sosial təminata belə bir anlayış verilmişdir: "Sosial təminat xalqın xəstəlik, işsizlik, yaşlılıq, ölüm səbəbi ilə keçici və ya davamlı olaraq qazancdan məhrum olması vəziyyətində düşəcəyi kasıblığa qarşı mübarizə, uşaqların və anaların qorunmasına yönələn ümumi tədbirlər sistemidir".[134]

Sosial təminatın minimum normaları haqqında 102 saylı BƏT Konvensiyası sosial təminat ilə bağlı bir çox riskləri: xəstəlik, işsizlik, yaşlılıq, iş qəzası, peşə xəstəliyi, analıq, şikəstlik, ölüm və s. kimi riskləri əks etdirir, eyni zamanda, Konvensiyanı qəbul edən dövlətlərə qeyd olunan bu risklərə qarşı insanları qorumaq kimi öhdəliklər müəyyənləşdirir. Azərbaycan Konstitusiyasının 35-ci maddəsinin VII və VIII hissələrində, 38-ci maddəsinin III və IV hissələrində; Azərbaycanın Əmək Məcəlləsində və digər qanunvericilik aktlarında 102 saylı BƏT Konvensiyasında təsbit olunmuş bir çox müddəalar öz əksini tapmışdır.[135]

ÜİHB-nin 22-ci maddəsi hər kəsin cəmiyyətin bir üzvü olaraq sosial təminat hüququnu, 25-ci maddə isə bu hüququn əhatə dairəsini göstərir. ÜİHB-nin 25-ci maddəsində qeyd edilir ki, hər bir şəxs onun özünün və ailəsinin səhhət və rifahını təmin etmək üçün lazım olan qida, geyim, tibbi xidmət və lazımi sosial təminat da daxil olmaqla, həyat səviyyəsi hüququna və işsizlik, xəstəlik, əlillik, dul qalma, qocalıq və özündən asılı olmayan səbəblər üzündən yaşayış vasitələrinin itirilməsi zamanı təminat hüququna malikdir. Analar və uşaqlar xüsusi qayğı və yardım almaq hüququna malikdirlər. Həm nikah nəticəsində, həm də nikahdan kənar doğulmuş uşaqlar eyni sosial müdafiədən istifadə etməlidirlər.

Avropa Sosial Xartiyasının 12-ci maddəsi bütövlükdə "Sosial təminat hüququ" adlanmaqla əsas məsələlərə toxunmuş, sosial təminat hüququnun səmərəli formada həyata keçirilməsini təmin etmək üçün tərəflər üzərinə mühüm öhdəliklər müəyyənləşdirmişdir. Avropa Sosial

[133] http://files.preslib.az/site/karabakh/gl4.pdf, səh 13.
[134] https://studwood.ru/584048/pravo/filadelfiyskaya_deklaratsiya_1944_obyazatelstva
[135] https://www.ilo.org/moscow/areas-of-work/social-security/WCMS_249300/lang--ru/index.htm

Xartiyasının II hissəsindəki hüquqlara tərəfdar çıxarkən dövlətlərin seçim imkanları vardır. Bununla belə, ikinci hissədə müəyyən maddələr vardır ki, Xartiyanı ratifikasiya edən dövlət onlara mütləq qoşulmalıdır. Bunlardan biri də sosial təminat hüququdur. 6 yanvar 2004-cü il tarixində Avropa Sosial Xartiyasına qoşulan Azərbaycanın ratifikasiya məqsədi ilə verdiyi bəyanatda göstərilir: "Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan tərəfindən işğal olunmuş ərazilərində Xartiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir".

Məlum olduğu kimi, AİHM-nin zəmanət verdiyi insan hüquqları əsasən mülki və siyasi hüquqlardır. Lakin sosial və iqtisadi hüquqların onun əhatə dairəsindən kənarda qalmasına baxmayaraq, bu hüquqlar Avropa Sosial Xartiyası tərəfindən tənzim edilir. AİHK-in müddəaları arasında sosial təhlükəsizlik hüququ birbaşa olaraq qeyd olunmasa da, AİHM-nin təcrübəsindən aydın olur ki, müavinətlərin ödənilməsi və təqaüdlər kimi sosial müdafiə formaları AİHK-ə I Əlavə Protokolun 1-ci və ya 8-ci maddələrinin əhatə dairəsinə daxildir. Qeyd etmək lazımdır, bir sıra AİHM işlərində ("*D.H. and Others v. the Czech Republic" (2007), "Orpup and Others v. Croatia" (2010))* yalnız aidiyyatı üzrə deyil, o cümlədən əlaqəli olduğu digər məsələlərə də aydınlıq gətirilir: məsələn, sosial hüquqları təmin olunmayan şəxslərin eyni zamanda diskriminasiya qurbanı olması faktı və s.

Azərbaycan ərazilərinin işğalı zamanı pozulmuş insan hüquqlarını birbaşa və dolayı yolla pozulan insan hüquqları olaraq təsnifləndirsək, pozulmuş birbaşa hüquqların, xüsusilə yaşamaq hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ, mülki və iqtisadi hüquqların nəticəsi olaraq sosial təminat hüququ da pozulmuşdur. Məsələn, yaşamaq hüququnun pozulmasına görə ailə başçısını itirmə, valideynlərini itirmə, əlil olma; iş yerlərini itirməyə görə əmək hüququ, layiqli həyat səviyyəsi hüququ; mülkiyyət hüququnun pozulmasına görə nikah hüququ (evi olmadığı üçün ailə qura bilməyənlər), təhsil hüququnun pozulması (dağılmış təhsil ocaqlarına görə) və s.

Sosial təminat hüququnun pozulması həm müharibə dövründə və daha sonra işğal zamanı müşahidə olunur. Belə ki, müharibə sosial təminata ehtiyacı olan şəxslərin (ailə başçısının itirilməsi, əlillik, yaşayış yerinin itirilməsi və s.) sayının ciddi şəkildə artmasına təkan vermişdir. Qeyd etmək lazımdır ki, işğal nəticəsində bir milyona yaxın məcburi köçkün sosial təminata möhtac qalan şəxslər sırasına aid edildi. Bu fakt həmin şəxslərin sosial təminat hüquqlarının təmin edilməsini gündəmə gətirməklə, Azərbaycanın büdcəsində əlavə maliyyə yükü yaratdı. Buna baxmayaraq, Azərbaycan həyata keçirdiyi sosial yönümlü siyasəti ilə məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində əməli addımlar atdı. Bu addımlar təbii ki, kifayət qədər maliyyə vəsaiti hesabına hər il dövlət büdcəsindən geniş ayrılmalar hesabına reallaşdırılır. Belə ki, məcburi köçkünlər üçün kifayət qədər imtiyazlar nəzərdə tutulmuşdur: Azərbaycan Prezidentinin 1 iyul 2004-cü il tarixli 298 saylı "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamının 2-ci bəndinə əsasən, məcburi köçkünlərin 1992-1998-ci illərdə mülkiyyət formasından asılı olmayaraq müvəqqəti məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər obyektlərdən çıxarılması onlar öz doğma yurdlarına qayıdana, həmçinin müvəqqəti yaşamaq məqsədilə yeni qəsəbələrə və evlərə köçürülənədək dayandırılır. Həmin Sərəncamın 3-cü bəndinə əsasən, özəl müəssisələrin, ali və orta ixtisas təhsili məktəblərinin rəhbərlərinə

tövsiyə olunur ki, qaçqın və məcburi köçkünlərin işlə təmin olunması və təhsil haqqının ödənilməsində güzəştlərin verilməsi məsələlərində onlara lazımi kömək etsinlər. Eyni zamanda, sıx məskunlaşma yerlərində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin istehlak etdikləri kommunal xidmət xərcləri (elektrik enerjisi, təbii qaz, su və məişət tullantılarının daşınması) dövlət tərəfindən ödənilir. Azərbaycan Prezidentinin 4 avqust 2003-cü il tarixli Sərəncamına əsasən dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqını ödəməkdən azaddırlar. Azərbaycan Prezidentinin 14 sentyabr 2011-ci il tarixli Sərəncamına uyğun olaraq, 2011/2012-ci tədris ilindən etibarən dövlət ali təhsil müəssisələrinin bakalavr və magistratura təhsil səviyyələrinə yeni qəbul olunmuş və ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.[136]

Bununla yanaşı, Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində şəhid ailələrinə və müharibə iştirakçılarına mütəmadi olaraq ciddi sosial dəstək də fəaliyyət göstərir ki, burada şəhid ailələri və müharibə iştirakçılarının hərtərəfli sosial təminat hüququnun realizəsi üçün addımlar atılır.[137]

Beləliklə, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində sosial təminata ehtiyacı olan şəxslərin sayı artmış və bu, Azərbaycanın üzərində həmin şəxslərin sosial təminat hüququnun qarşılanması sahəsində əlavə öhdəliklərin yaranmasına səbəb olmuşdur. Bu nöqteyi-nəzərdən Azərbaycan məcburi köçkünlərinin sosial təminatına yönəldilmiş dövlət xərcləri işğalçı Ermənistanın Azərbaycana vurduğu ziyanın tərkib hissəsi kimi qiymətləndirilməlidir.

5.10. Sağlam ətraf mühitdə yaşamaq hüququ

Ekoloji hüquqlar sırasında mühüm yeri sağlam ətraf mühitdə yaşamaq hüququ tutur. Bu hüququn realizə edilməsi digər ekoloji hüquqların həyata keçirilməsi prosesində əsas baza kimi çıxış edir. Ekoloji hüquqların universallığı kontekstində sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsinin mühüm şərti beynəlxalq hüquqi və dövlətdaxili təmin etmə səviyyəsinin qarşılıqlı əlaqəsidir. [138] Bu hüququn mahiyyəti Azərbaycan Konstitusiyasında (Maddə 39 - "Sağlam ətraf mühitdə yaşamaq hüququ") əks olunması ilə ifadə olunur.

Miqyasına və intensivliyinə görə ekoloji təhlükəsizliyin təmin edilməsinə və nəticə etibarı ilə, ekoloji insan hüquqlarına mənfi təsir göstərən daha ciddi amil silahlı münaqişələrdir.[139] Ümumiyyətlə, beynəlxalq hüququn müasir inkişaf tendensiyası və bu istiqamətdə qəbul olunan beynəlxalq-hüquqi sənədlər ətraf mühitin müharibə aparılması vasitəsi kimi istifadəsini tamamilə qadağan edir. Hətta 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarına 1977-ci il tarixli I Əlavə Protokolda müvafiq məsələ iki aspektdən – müharibə aparılmasının qadağan olunmuş üsul və vasitələrinin tətbiqinin yolverilməzliyi, habelə mülki obyektlərin mühafizəsi nöqteyi-nəzərindən öz əksini tapmışdır. Belə ki, birinci halda I Əlavə Protokolun 35.3-cü maddəsinə əsasən, təbii mühitə

[136] http://idp.gov.az/az/content/7/parent/21
[137] http://sosial.gov.az/Shehid
[138] Гусейнов Т.И. Международные и национально-правовые аспекты экологической безопасности. Баку, 2017, с. 21-24
[139] Mammadov Uzeyir; Huseynov Turqhay. Protecting Environmental Human Rights in Armed Conflict Situations // Environmental Policy and Law, vol. 49, no. 2-3, pp. 101-110, 2019//https://content.iospress.com/articles/environmental-policy-and-law/epl190134

genişmiqyaslı, davamlı və ciddi ziyan vurmaq məqsədi güdən və ya labüd surətdə buna səbəb olan müharibə aparılması üsullarının və vasitələrinin tətbiqi qadağandır. İkinci halda ətraf mühitin mühafizəsinə isə I Əlavə Protokolun 55-ci maddəsində rast gəlinir. Sözügedən beynəlxalq hüquq normasına uyğun olaraq, hərbi əməliyyatlar zamanı təbii mühitin geniş, davamlı və ciddi ziyandan mühafizəsinə qayğı göstərilir. Belə mühafizəyə təbii mühitə ziyan vurmaq məqsədi güdən və ya ziyan vuracağı, habelə nəticədə əhalinin sağlamlığına və ya sağ qalmasına ziyan vuracağı gözlənilən hərbi üsul və vasitələrdən istifadənin qadağan edilməsi daxildir. Təbii mühitə ziyan vurmağın qisas vasitəsinə çevrilməsi qadağandır. Bütövlükdə, ekoloji təhlükəsizliyin səmərəliliyinin artırılması məqsədilə 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarına silahlı münaqişələr zamanı ekoloji hüquqların qorunmasına yönəldilmiş Əlavə Protokolun qəbulu zəruridir.

Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il tarixli Konvensiyanın 1-ci maddəsində dövlətlərin ətraf mühitə genişmiqyaslı, uzunmüddətli və ya ciddi təsir göstərən vasitələrdən hər hansı iştirakçı dövlətə ziyan və ya zərər yetirilməsi üçün hərbi və ya hər hansı düşmən məqsədlərlə istifadədən çəkinmək öhdəliyi öz əksini tapmışdır. Həmçinin, BMT-nin 1972-ci il Stokholm konfransında qəbul olunmuş Bəyannamədə təsbit olunan indiki və gələcək nəsillərin rifahı naminə ətraf mühitin mühafizəsi prinsipinə uyğun olaraq, dövlətlər ətraf mühitin qorunması və mühafizəsi üçün zəruri tədbirlər görməli, eləcə də ətraf mühit üçün zərərli nəticələrin qarşısını almalı və təbii ehtiyatların elmi əsaslarla idarə olunmasında əməkdaşlıq etməlidirlər. Nüvə enerjisindən həm dinc, həm də hərbi məqsədlərlə istifadə olunarkən ətraf mühitin radioaktiv çirklənməsinin yolverilməzliyi mühüm vəzifə qismində müəyyən edilmişdir. Eyni zamanda, BMT-nin 1992-ci il tarixli Rio-de-Janeyro Konfransında qəbul olunan Ətraf mühit və inkişaf üzrə Bəyannamədə dövlətlərin silahlı münaqişə dövründə ətraf mühitin mühafizəsini təmin edən beynəlxalq hüquqa hörmətlə yanaşması və zəruri hallarda onun gələcək inkişafında əməkdaşlıq etmələri məqsədəmüvafiq hesab olunur.

Şübhəsiz ki, Ermənistan tərəfindən Azərbaycanın iyirmi faizə yaxın ərazisinin işğal edilməsi və həmin əraziləri uzun müddət işğal altında saxlaması ekoloji təhlükəsizliyə də təsirsiz ötüşməmişdir. Belə ki, işğal nəticəsində bərpası demək olar ki, mümkün olmayan ətraf mühit komponentlərinin məhv edilməsi baş vermişdir. Bütövlükdə isə, Ermənistan tərəfindən "yandırılmış torpaq" taktikasının tətbiqi və son nəticədə, ekoloji cinayətlərin törədilməsi ekoloji təhlükəsizliyin təmin edilməsində çox ciddi problemlər yaratmışdır.

Silahlı təcavüzün başlanmasından keçən müddət ərzində işğal altında olan Azərbaycan ərazilərində Ermənistanın cinayətkar fəaliyyəti nəticəsində Azərbaycanın təbii sərvətləri də talan edilmiş, bu ərazilərdə mütəmadi olaraq yanğınlar törədilmiş, regionun flora və faunasına, bölgənin ekoloji durumuna bərpa edilə bilməyəcək zərər vurulmuşdur. Bu faktların bir hissəsini təqdim etməklə Ermənistanın hərəkətlərinin sağlam ətraf mühitdə yaşamaq hüququna mənfi təsirsiz ötüşməyəcəyini təsdiq etmək yerinə düşərdi. Belə ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın xüsusi mühafizə olunan təbiət ərazilərinin 70 min hektarından çoxu işğal altına düşmüşdür. Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarının, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri ermənilər tərəfindən talan və məhv edilmişdir.

İşğala məruz qalmış ərazilərdə 261 min hektar meşə, o cümlədən 13,2 min hektar qiymətli meşə sahələri, 215 ədəd təbiət abidəsi, 5 ədəd geoloji-paleontoloji obyekt, hündürlüyü 45 metr, diametri 6-8 metrədək, yaşı 120 ildən 2000 ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət abidələri qalmışdı. Böyük əhəmiyyətə malik olan bu təbiət abidələrinin tam əksəriyyəti ermənilər tərəfindən məhv edilmişdir.[140]

İşğal olunmuş ərazilərdə 70-i endemik növ olan ümumilikdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir ki, bunların da əksəriyyəti işğal olunmuş ərazilərdə məhv edilərək dünya florasının xəzinəsindən silinmək üzrədir. İşğal olunmuş ərazilərdə "Qırmızı Kitab"a daxil edilmiş məməlilərin 4, quşların 8, balıqların 1, amfibiya və reptililərin 3, həşəratların 8, bitkilərin isə 27 növü qorunurdu. Bu ərazilərdə 7 relikt göl – Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayonu ərazisində Qaragöl kimi şirin su ehtiyatları uzun müddət işğal altında olmaqla böyük antropogen təsirə məruz qalmışdır. Ən zəngin faydalı qazıntı yataqları da uzun müddət ərzində işğal olunmuş ərazilərdə yerləşirdi. Bu ərazilərdə 155 növ faydalı qazıntı yataqları, o cümlədən – 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları, 11 şirin yeraltı su və 10 mineral su yataqları yerləşirdi.[141] Ermənistanın təbii ehtiyatlardan tükənmə həddinə çatana qədər istifadə etməsi isə həm də işğal altında olan ərazilərdə ekoloji tarazlığın pozulmasının əsas amillərindən biri olmuşdur.[142]

Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı Kitab"a daxil edilmiş ayıfındığı ağacları da kütləvi şəkildə qırılmışdır. Ayıfındığına Azərbaycanın başqa meşələrində nadir hallarda təsadüf olunur. Ayıfındığı Kəlbəcər rayonunda dəniz səviyyəsindən 1500-2100 m hündürlükdə bitir. Meşənin tərkibində ayı fındığı, palıd, vələs, cökə, fındıq, fıstıq ağacları vardır. Bəzi ayıfındığı ağaclarının hündürlüyü 25 m-ə, diametri 48-120 sm-ə çatır. Məhdud dairədə yayıldığı üçün qiymətlidir.

Erməni işğalçılarının törətdiyi ekoloji cinayətlərin qarşısının alınması üçün Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ekologiya və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlara və ya müvafiq mexanizmlərə daim müraciətlər ünvanlanmışdır.

Dünya terror və korrupsiyaya qarşı "Bank-İnformasiya" Beynəlxalq Strateji Tədqiqatlar Mərkəzinin məlumatında bildirilir:

1. Zəngilan rayonunun 107 hektar ərazisində yerləşən qoruq demək olar ki, yer üzündən silinib, çinarlıqlar hissə-hissə İran mebel fabriklərinə və başqa tikinti-sənaye komplekslərinə satılmışdır.

2. Ermənistanın hərbi hissələrinin Azərbaycanın qoruq ərazisinin 42 hektar sahəsində yerləşdirilməsi nəticəsində ağaclar tamamilə məhv edilmişdir…[143]

Laçın rayonunda yerləşən Hacışamlı meşəsində dünyada ən qiymətli növ olan qırmızı palıd (qızıl palıd) ağacları bitir. Azərbaycanda yalnız həmin yasaqlıqda yayılan bu ağacın materiallarından Ermənistan tərəfindən qiymətli mebel və xüsusən konyak spirti saxlamaq

[140] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 102-103
[141] www.eco.gov.az/uploads/hesabat/Jurnal-1.pdf
[142] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 102-104
[143] https://sia.az/az/news/social/826181.html

üçün çəlləklərin düzəldilməsində istifadə edilmişdir. Bundan başqa, həmin ərazidə qoz ağacları da qırılaraq mebel istehsalında istifadə məqsədi ilə İrana satılmışdır.[144]

İşğal altında olan Azərbaycan ərazilərindəki təbii mineral xammal ehtiyatlarının rəsmi talanına daha çox xarici dövlətlərin hüquqi şəxsləri cəlb edilmişdir.[145]

Ermənistanın ekoloji terroru Azərbaycanın su idarəetməsi və planlaşdırılması sisteminə də mənfi təsir etmişdir. Daha dəqiq desək, ölkənin bir sıra içməli su ehtiyatları və suvarma sistemləri Ermənistanın birbaşa işğalı altında olmuş və bunlardan həmişə Azərbaycan xalqına qarşı "hərbi-ekoloji silah" kimi istifadə olunmuşdur. Ermənistan tərəfindən işğal olunmuş Kəlbəcər rayonunun ərazisində yerləşən Sərsəng su anbarından daim təzyiq vasitəsi kimi də istifadə edilirdi. 560 milyon m^3 tutumu olan bu su anbarının suyu qış vaxtı ərazinin mövsümü ehtiyacları nəzərə alınmadan əhalisi azərbaycanlılardan ibarət olan kəndlərə və yaşayış məntəqələrinə buraxılır, nəticədə isti yay mövsümündə bu ərazidə kəskin su qıtlığı yaranırdı. Yaşayış məntəqələri, kənd təsərrüfatı sahələri və kommunikasiya xətləri qışda su altında qalırdılar. Yayda isə insanlar su qıtlığına məruz qalır və səhralaşma nəticəsində torpağın deqradasiyası müşahidə olunurdu. Bununla da yerli əhalinin, xüsusilə öz evlərini tərk etmiş məcburi köçkünlərin onsuz da ağır olan yaşayış şəraiti daha da ağırlaşırdı. AŞ PA tərəfindən qəbul edilmiş "Azərbaycanın sərhədyanı regionlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi" haqqında 26 yanvar 2016-cı il tarixli 2085 saylı Qətnamədə deyilir: "... AŞ PA tərəfindən hesab edilir ki, qəsdən süni bir ekoloji böhranın yaradılması bir dövlətin digərinə qarşı ekoloji fəlakət bölgələri yaratmaq və orada yaşayan əhalinin normal həyatının mümkünsüz edilməsinə yönəlmiş "ətraf-mühitə təcavüz" kimi qəbul edilməlidir".[146]

Onu da qeyd etmək lazımdır ki, ATƏT, BMT-nin İnkişaf Proqramı və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən hələ 2004-cü ilin oktyabrında hazırlanmış "Ətraf mühit və təhlükəsizlik: risklərin əməkdaşlığa çevrilməsi - Cənubi Qafqaz işi" adlı hesabatda bildirilir ki, işğal Azərbaycanın təhlükəsizliyi ilə yanaşı, ətraf mühitinə də ciddi problemlər yaratmışdır. Sənəddə daha sonra deyilir ki, Dağlıq Qarabağda torpağın qeyri-rasional istifadəsi, tullantıların yığılması, meşələrin kəsilməsi və otlaqlardan həddindən çox istifadə uzunmüddətli mənfi nəticələrə aparıb çıxaracaq problemlər yaratmışdır.[147] ATƏT missiyası 2006-cı il oktyabrın 2-13 tarixlərində işğal edilmiş Azərbaycan ərazilərindəki yanğınlar nəticəsində ekologiyaya dəymiş zərərlə bağlı da hesabat hazırlamışdı. Həmin sənəddə deyilir ki, bölgədə geniş ərazilər yandırılıb və bu, istər insanlara, istərsə də ətraf mühitə və iqtisadiyyata ciddi təsir göstərmişdir.[148]

Ermənistanın Azərbaycana qarşı müharibə cinayətlərinə yol verməklə, ətraf mühitə düşməncəsinə münasibətinin səciyyəvi xüsusiyyətlərindən biri də erməni işğalçıları tərəfindən Ağdam, Füzuli, Cəbrayıl, Tərtər və Xocavənd rayonlarının ərazilərinin düşünülmüş şəkildə yandırılması ilə bağlıdır. Yanğınlar işğal nəticəsində Ermənistanın nəzarətində olan min hektarlarla Azərbaycan ərazilərini əhatə etməklə, digər ərazilərə də yayılaraq ətraf mühitə və canlı təbiətə ciddi ziyan vurmuşdur. Ümumilikdə, Azərbaycanın işğal olunmuş

[144] https://www.virtualkarabakh.az/az/post-item/26/46/isgal-olunmus-azerbaycan-erazilerinde-ekoloji-veziyyet.html
[145] http://eco.gov.az/az/fealiyyet-istiqametleri/geologiya/isgal-olunmus-erazilerin-faydali-qazintilari
[146] http://interfax.az/view/817329
[147] http://newtimes.az/az/processestrends/7114/
[148] http://www.worldmedia.az/news.aspx?id=3315

ərazilərində Ermənistan ordusu tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində 96 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala düşmüşdür. Təkcə Ağdam rayonunun işğal altında olan ərazilərində erməni hərbçiləri tərəfindən ümumilikdə 18 min hektara yaxın otlaq sahəsi yandırılmışdır. Yanğın zamanı "Qırmızı Kitab"a və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına düşmüş müxtəlif sayda turac, qırqovul və gürzə məhv olmuşdur. Hətta mövcud məsələ və onun ətraf mühitə xoşagəlməz təsiri beynəlxalq təşkilatların sənədlərində də öz əksini tapmışdır. Belə ki, BMT BA-nın 7 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" 60/285 saylı qətnaməsində ətraf mühitə əhəmiyyətli şəkildə ziyan vurulması nəticəsində zərər çəkən ərazilərdə törədilmiş yanğınlarla əlaqədar narahatlığın ifadə olunması, habelə bu yanğınların qarşısının alınması və onların çox zərərli nəticələrinin aradan qaldırılması üzrə təxirəsalınmaz ekoloji əməliyyatın həyata keçirilməsinin zəruriliyinin vurğulanmasına dair müddəanın öz əksini tapması bunun bariz sübutu sayılmalıdır. Eyni zamanda, həmin qətnamənin 4-cü bəndində ATƏT-lə əməkdaşlıq şəraitində BMT-nin təsisat və proqramlarının (xüsusilə BMT-nin Ətraf Mühit Proqramı) bütün zəruri tədbirləri görməsinə, o cümlədən "regionda ətraf mühitin pisləşməsinin qısa və uzunmüddətli təsirinin qiymətləndirilməsi və bununla mübarizə, habelə onun reabilitasiyası……"na dair çağırış xarakterli müddəanın təsbiti həmin ərazilərdə ekoloji vəziyyətin ciddi böhran həddində olmasının göstəricisidir. Bundan əlavə, BMT BA-nın "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" 14 mart 2008-ci il tarixli 62/243 saylı qətnaməsində Dağlıq Qarabağda və ətraf rayonlarda yanğından zərər çəkmiş ərazilərdə olmuş ATƏT-in ətraf mühitin qiymətləndirmə missiyasının hesabatına toxunulması da bu məsələnin ciddiliyindən xəbər verir. [149]

27 sentyabr 2020-ci il tarixdən başlayaraq Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüquq normalarını, xüsusilə də 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları və onlara Əlavə Protokolları kobud şəkildə pozaraq, Mingəçevir su anbarı və enerji blokunu hədəfə almaqla raket atəşinə tutması təkcə Azərbaycanda deyil, bütün regionda ətraf mühit üçün ciddi təhlükə yaratmışdır. Bu yaxınlarda Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı məlumatda qeyd edilmişdir ki, Ermənistanın Azərbaycan ərazisini işğal etdiyi dövr ərzində 54,4 min hektar meşə sahəsi məhv edilmişdir. Belə ki, kosmosdan görüntülər əsasında müəyyən olunmuşdur ki, işğaldan əvvəl meşə örtüyü 228,9 min hektar təşkil etmişdir. Ötən ilin məlumatına görə, bu rəqəm 174,5 min hektar olmuşdur.[150]

Ermənistanın yuxarıda sadalanan beynəlxalq hüquq normalarına zidd əmelləri nəticəsində nəinki işğal edilmiş, həmçinin bitişik ərazilərdə də ətraf mühitə geniş miqyaslı ziyanların vurulması sağlam ətraf mühitdə yaşamaq hüququnun ciddi pozulmasına gətirib çıxarmışdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş şəxslər onların uyğunlaşdığı ətraf mühitdən də məhrum edilmişlər. Belə ki, məcburi köçkünlər yaşayış tərzinə xas olmayan və ekoloji baxımdan fərqli olan (içməli su, hava və s.) ərazilərdə (50 faizindən çoxu şəhərlərdə) məskunlaşmışlar. Bu faktlar birmənalı olaraq həmin

[149] Jha U.C. Armed conflict and environmental damage. New Delhi, Vij Books İndia Pvy Ltd, 2014, p. 66
[150] qafqazinfo.az/news/detail/ermeniler-54-min-hektar-mese-sahesini-mehv-edib-313140

şəxslərin sağlam ətraf mühitdə yaşamaq hüququnu pozmaqla yanaşı, ciddi mənəvi iztirab keçirdiklərinin də əyani sübutudur.

5.11. Sağlamlığın qorunması hüququ

İnsanın bəzi hüquqları vardır ki, onlar həyati əhəmiyyət daşıyır və bu hüquqlar təmin olunmazsa, digər hüquqların heç bir əhəmiyyəti yoxdur. Belə hüquqlara ilk növbədə, yaşamaq hüququ, sağlamlığın qorunması hüququ aiddir. Bu baxımdan sağlamlıq hüququ hər bir insanın sosial hüquqlarından biri olmaqla bərabər, həm də təməl hüquqlardan biridir. Sağlamlıq hüququ insan ləyaqətini qorumaq, sağlamlığını bərpa etmək və uzunömürlülüyü təmin etmək məqsədini daşıyır. Sağlamlıq elə bir əsas dəyərdir ki, onsuz insanın bioloji və sosial mahiyyətini effektiv həyata keçirməsi mümkün deyildir.[151] Müasir dövrdə sağlamlıq yalnız xəstəliyin olmaması kimi deyil, həm də tam fiziki, psixi və sosial rifah halı kimi nəzərdən keçirilir.[152]

Sağlamlıq hüququnun təmin edilməsinin əsasında bu hüququn beynəlxalq və konstitusion təsbiti durur. Aparılan araşdırmalar göstərir ki, 186 milli konstitusiyanın 135-ində (73 faiz) sağlamlıq və ya sağlamlıq hüququ ilə bağlı müddəalar geniş təsbit olunmuşdur.[153] Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsinin preambulasında nəzərdə tutulur ki, "ən yüksək sağlamlıq standartından faydalanmaq hər bir insanın irqi, dini, siyasi mənsubiyyəti, iqtisadi və sosial şəraitlərindən asılı olmayaraq əsas hüquqlarından biridir". Buna görə də təsadüfi deyildir ki, sağlamlıq hüququ əsas insan hüquqlarından olmaqla bir çox beynəlxalq-hüquqi sənədlərdə təsbit olunmaqla, həm də dövlətlərin siyasətinin prioritet istiqaməti kimi qeyd olunmuşdur. Ümumdünya Səhiyyə Təşkilatının əsas məqsədi "bütün dünyanı yüksək sağlamlıq həddinə çatdırmaqdır".[154]

ÜİHB və İSMHBP-də hər bir insanın sağlamlıq, səhiyyə hüququ təsbit olunmuşdur. Bundan əlavə, sağlamlıq hüququ UHK-nın 6-cı maddəsində, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın 10, 11, 12 və 14-cü maddələrində, Avropa Sosial Xartiyasının 11-ci maddəsində və digər beynəlxalq sənədlərdə də mühüm müddəalarla təsbit edilmişdir.

ÜİHB-nin 25-ci maddəsinin 1-ci hissəsinə görə "hər bir insan qida, geyim, mənzil, tibbi qulluq və zəruri sosial xidmətlər də daxil olmaqla onun özünün və ailəsinin sağlamlığının və rifahının qorunub saxlanılması üçün zəruri olan həyat səviyyəsinə malik olmaq hüququna və işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq halında və ondan asılı olmayan digər səbəblərə görə dolanışıq vəsaitlərini itirdiyi halda təminat hüququna malikdir".[155] Həmin maddənin ikinci hissəsində isə analıq və körpəliyin xüsusi himayə və yardım hüququ verdiyi müddəası əksini tapmışdır. Tədqiqatçıların fikrincə, ÜİHB-də sağlamlıq hüququnun əksini tapması ilə sonradan bir çox beynəlxalq sənədlərdə də bu sahədə mühüm normalar əks olunmuşdur.[156] Həmçinin, İSMHBP-nin 12-ci maddəsində qeyd edilir ki, "Bu Paktda iştirak edən dövlətlər hər insanın fiziki

[151] Старженецкий. В.В Интеллектуальная собственность и право на охрану здоровья. Вестник Высшего Арбитражного Суда Российский Федерации. №10 от 28 октября 2009 года, с.1 http://www.szrf.ru/doc.phtml?nb=edition07&issid=2009010000&docid=18

[152] Əliyev M.N. Azərbaycan Respublikasında tibb hüququnun nəzəri aspektləri. Monoqrafiya. Bakı, 2016, s.174

[153] Доступ к основным лекарствам в национальных конституциях http://www.who.int/bulletin/volumes/88/11/10-078733/ru/A

[154] https://www.who.int/ru/about/who-we-are/constitution

[155] Universal Declaration of Human Rights. http://dejure.az/en/legislation/universal- declaration-human-rights

[156] Kirby M. "The Right to Health Fifty Years on: Still Skeptikal?", Health and Human Rights,. 1999, Vol. 4, No 1, p. 15.

və psixi sağlamlığının ən yüksək səviyyəsinə çatmaq hüququnu tanıyırlar".[157] Eyni zamanda, İSMHBP-də bütün iqtisadi, sosial və mədəni hüquqlara tətbiq olunan proqressiv həyata keçirmə prinsipinə uyğun olaraq, üzv dövlətlər hüquqların tədricən tam şəkildə həyata keçirilməsinə nail olmaq məqsədilə öz mövcud resursları hesabına sağlamlıq hüququna nail olmaq üçün tədbirlər görməlidirlər.

Hər kəsin sağlamlığına dair qlobal öhdəlik Minilliyin İnkişaf Məqsədlərində də öz əksini tapmışdır. 2000-ci ildə sağlamlıq hüququna Ümumi Şərh qəbul edilmişdir. Ümumi Şərh hökumətlər, hakimlər və şərhçilər tərəfindən hüququn ardıcıl tövsifi və təhlilinə yüksək təsir göstərmişdir. BMT-nin Xüsusi Məruzəçisi Paul Hunt BMT İHK üçün 2003-cü ildə hazırladığı "Əldə edilə bilən ən yüksək sağlamlıq standartları hesabatın"da sağlamlıq hüququnu ən başlıca insan hüquqlarından olmaqla dəyərləndirərək bura əsas dərmanların əldə edilməsi, xəstəliklərin nəzarətdə saxlanılması, qarşısının alınması və müalicəsini aid etmişdir.[158]

Azərbaycanda işlənilmiş bəzi layihələr çərçivəsində ümumi və sosial-psixoloji yanaşma əsasında Ermənistan-Azərbaycan münaqişəsinin etnik cəhətləri təhlil olunmuş, məcburi köçkünlərin sosial-psixoloji vəziyyəti və münaqişə zamanı onların məruz qaldığı travmalar tədqiq olunmuş, münaqişə zamanı və ondan sonra təzahür edən travmatik halların psixoloji təzahürləri göstərilmiş, qaçqın və məcburi köçkünlərin sosial-psixoloji adaptasiyası, şəxsiyyət və identiklik böhranı, qayıdan təəssüratlar sindromu, travmatik hadisələr yaşamış insanlarda davranış strategiyalarının istiqamətləri öyrənilmişdir. Müəyyən olunmuşdur ki, travma amili məcburi köçkünlərin psixoloji vəziyyətinə ciddi neqativ təsir göstərir və bu təsirlər arasında əhəmiyyətli əlaqə vardır. Bununla yanaşı tədqiqat zamanı müəyyən edilmişdir ki, travmanın uzunmüddətliliyi qaçqın və məcburi köçkünlərdə psixoloji diskomfort yaradır, sosial-psixoloji adaptasiyanı çətinləşdirir, müxtəlif xəstəliklərə gətirib çıxaran emosional gərginliklər müşahidə olunur.[159]

Qaçqın və məcburi köçkünlərdə həyəcanlılıq səviyyəsinin ölçülməsi göstərmişdir ki, birbaşa döyüş bölgələrindən və yaşadığı ərazini təxirəsalınmaz tərk edən məcburi köçkünlərdə həyəcanlılıq səviyyəsi digərlərinə nisbətən çox yüksəkdir. Müəyyən edilmişdir ki, birbaşa döyüş bölgələrini tərk edən məcburi köçkünlər psixoloji travmalara daha həssasdırlar və hər hansı oxşar hadisələr (səslər, konflikt halları və s.) onlarda travmanın "təzələnməsinə" zəmin yarada bilir. Bu travmatik simptomlar məcburi köçkünlərin fəaliyyətinə, yaşayış tərzinə, psixoloji sağlamlığına ciddi təsir göstərir. Bu vəziyyət özünün formasını dəyişmiş psixosomatik ağrılarda, mütəmadi nevrotik tutmalarda, konfliktlərdə, sosial münasibətlərdən uzaqlaşmalarda və depressiv hallarda özünü təzahür etdirir və ümumilikdə məcburi köçkünlərin adaptasiyasında ciddi problemlər yaradır. Eyni zamanda müəyyənləşdirilmişdir ki, torpaqların uzun müddət düşmən işğalında qalması məcburi köçkünlərin psixoemosional vəziyyətinə neqativ təsir göstərməklə yanaşı, onların şəxsiyyətində identiklik böhranı yaradır, zamanın qavranılmasında bütövlük pozulur, gələcək qeyri-real planlaşdırılır.[160]

---

[157] United Nations Economic and Social Council, Committee on Economic, Social and Cultural Rights. General Comment No. http://www.ohchr.org/EN/HRBodies/CESCR/Pages/CESCRIndex.aspx

[158] United Nations Economic and Social Council, Committee on Economic, Social and Cultural Rights. General Comment No. http://www.ohchr.org/EN/HRBodies/CESCR/Pages/CESCRIndex.aspx

[159] Hesabat - Elmin İnkişafı Fondu www.sdf.gov.az

[160] Hesabat - Elmin İnkişafı Fondu www.sdf.gov.az

Ermənistanın uzun müddət ərzində işğal etdiyi Azərbaycan ərazilərindən olan əhalinin yaşayış şəraiti pisləşdiyinə görə onların arasında təbii artım kəskin surətdə aşağı düşmüş, uşaq ölümü artmışdır. Belə ki, işğal olunmuş ərazilərin əhalisi arasında 1989-1998-ci illər dövründə doğum kəskin surətdə aşağı düşmüş, ölüm qismən artmış və təbii artım hər 1000 nəfərə görə həddən çox azalmışdır. Cəbrayıl, Qubadlı, Zəngilan və Ağdam rayonları əhalisinin məskunlaşdıqları yerlərdə təbii artım daha çox aşağı düşmüşdür. İşğal olunmuş rayonların hamısında demoqrafik göstəricilər orta respublika səviyyəsindən aşağı olmuşdur.[161]

Odur ki, Azərbaycan ərazilərinin işğalı nəticəsində Azərbaycan məcburi köçkünlərinin sağlamlıq hüquqlarının həm fiziki olaraq birbaşa (ölüm, xəsarət), həmçinin dolayı davam edən (müxtəlif xəstəliklər və s.) pozuntuları Ermənistanın məsuliyyətini yaradan əsas amillərdəndir.

5.12. İstirahət hüququ

Hər bir dövlətdə insanlar istirahət hüququna malikdirlər. Bu hüquq birbaşa olaraq insanların həyat və iş şərtlərini, eləcə də əsas yaşayış ehtiyaclarını əhatə edən hüquqlar sırasında yer alır. Azərbaycan Konstitusiyasının 37-ci maddəsinə əsasən hər kəsin istirahət hüququ vardır. Bu hüquq əmək münasibətləri çərçivəsində reallaşdırılır və əsasən Konstitusiyanın 35-ci maddəsində təsbit olunmuş hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ və hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ ilə əlaqəlidir. Bununla yanaşı, istirahət hüququnun digər vacib təyinatı şəxsiyyətin qabiliyyət və istedadlarının inkişafından və təkmilləşdirilməsindən, şəxsi və ictimai həyatda iştirakının təmin edilməsindən ibarətdir.[162]

İstirahət və asudə vaxt keçirmək hüququ ÜİHB-nin 24-cü maddəsində, İSMHBP-nin 7-ci maddəsində, UHK-nın 31-ci maddəsində və s. beynəlxalq sənədlərdə əks edilmişdir. UHK-dən də göründüyü kimi, istirahət hüququ dedikdə, uşağın istirahət etmək, asudə olmaq, oynamaq, mədəni həyatda və sənətdə iştirak etmək kimi hüquqları başa düşülür. UHK-nın 16-cı maddəsi, uşağın məxfilik hüququnu təmin etməsi baxımından da çox vacibdir. Asudə vaxt formal şəraitdən kənar uşaqlara özləri seçdikləri fəaliyyətlə məşğul olmaq üçün sərbəst məkanın və imkanın olması kimi də qiymətləndirilə bilər. UHK oyun və istirahət fəaliyyəti ilə məşğul olma hüququnu açıq şəkildə tanıyan bir beynəlxalq sənəddir. Ehtimal edilir ki, aparılmış elmi tədqiqatların nəticəsində oyun oynamaq uşağın həyatında əsas rol oynadığı üçün oynamaq hüququ UHK-nın bu maddəsinə əlavə edilmişdir. Daha ətraflı şəkildə izah edilərsə, uşaqların oynamaq hüququ Konvensiyanın başqa bir maddəsi olan özlərini azad ifadə edə bilmək hüququ ilə də əlaqələndirilir. Belə ki, kifayət qədər oyun oynaya bilməyən uşaqlar özlərini ifadə edə bilməkdə çətinlik çəkirlər.

Hər bir uşağın özünün qrupunda bu mədəniyyətdə iştirak etmək hüququ vardır. Heç kəs bu qrupdan ayrı salına, məhrum edilə bilməz. Dövlətlər uşaqlar üçün bu imkanı yaratmağa borcludurlar. UNESCO-nun Mədəni həyatda insanların iştirak etməsinə dair 1976-cı il tarixli Tövsiyəsində "mədəni həyatda iştirak" aşağıdakı şəkildə ifadə edilmişdir: "Şəxsiyyətlərinin hərtərəfli inkişafı, ahəngdar bir həyat və cəmiyyətin mədəni tərəqqisi naminə bütün qrupların

[161] Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf
[162] http://www.constcourt.gov.az/decision/280

və ya fərdlərin sərbəst şəkildə özlərini ifadə etmələri, hərəkət etmələri və yaradıcılıq fəaliyyətləri ilə məşğul olmaları üçün təmin edilmiş konkret imkanlar".[163]

Ermənistan-Azərbaycan münaqişəsinin uşaqlar üzərindəki təsirini iki mərhələyə bölmək mümkündür. İlkin mərhələ öz evlərini tərk etmə mərhələsidir. Belə ki, münaqişə nəticəsində həyatlarını itirmə təhlükəsi altında olan 1 milyona yaxın insan öz doğma yurdlarından qaçmaq məcburiyyətində qalmışdır. Qaçarkən günlər, həftələrlə qışda, qarda, soyuqda meşələrdən, dağlardan, çətin yollardan keçmək məcburiyyətində qalmışlar. Beləliklə, müharibənin verdiyi tramva üzərinə yuxusuzluq və yorğunluq da əlavə olunmuşdur. Bildiyimiz kimi, məcburi köçkünlərin içərisində körpələr, yeniyetmələr də vardır. Yuxu uşağın inkişafı və böyüməsi üçün ən vacib faktorlardan biridir. Günlərlə yol getməyə, bir yerdən başqa yerə köçməyə çalışan bu uşaqların bu müddət ərzində yuxusuz qaldığı, dözülməz şəraitdən əziyyət çəkdiyi hər kəsə məlumdur. Bu isə birbaşa uşaqların UHK-nın 31-ci maddəsində əks olunan istirahət hüququnun birinci hissəsi olan istirahət etmək hüququnun kobud şəkildə pozulmasıdır.

Məcburi köçkünlərin düşərgələrdə məskunlaşması prosesi və bundan sonrakı proseslər isə ikinci mərhələyə aiddir. Bu düşərgələrdəki çadırlarda çox vaxt bir neçə ailə bir yerdə qalmağa məcbur olmuşdur. Burada da şəraitsizlik səbəbindən uşaqların yata bilməməsi, istirahət edə bilməməsi bu hüququn ilk hissəsinin yenidən pozulmasına gətirib çıxarmışdır. Şəraitsizliyin olması onların, eyni zamanda, hüququn ikinci hissəsi olan asudə vaxt keçirmə hüququnun pozulmasına da gətirib çıxarmışdır.

Çadırlarda yaşayan uşaqların özlərinə məxsus yerin, oyuncaqlarının, oynama imkanının olmaması da hüququn üçüncü hissəsi olan oynamaq hüququnun pozulmasına gətirib çıxarmışdır. Belə ki, öz doğma ocaqlarından didərgin düşmüş bu uşaqlar öz mədəni qruplarından, cəmiyyətlərindən kənar düşmüş, getdikcə topluluq dəyərlərini unutmağa məhkum olmuşlar. Daha bir acınacaqlı hal isə Qarabağlı bu uşaqların nəinki öz mədəniyyətlərini unutması, hətta istedadlarından istifadə edə bilməməsinə gətirib çıxarmasıdır. Qarabağlıların mədəniyyətə, musiqiyə, incəsənətə olan bağlılığı və istedadı bütün dünyaya məlumdur. Qarabağ öz musiqi, şahmat, idmanın müxtəlif növləri üzrə olan məktəbləri ilə məşhurdur. Bu uşaqların belə kiçik yaşda bu mühitdən ayrı salınması onların istedadlarının inkişafına birbaşa mənfi təsir etmişdir. Təsəvvür etmək çətin deyildir ki, yüksək istedada sahib olan bir uşaq bu cür gözəl məktəbdə təhsil alıb inkişaf etmək əvəzinə, qaçqın düşərgəsində həyatla ölüm-qalım savaşı etməyə məcbur olmuşdur. Bu isə həyatın onlara vurduğu zərbələrdən biridir. Bu gün o keşməkeşli həyatı yaşamağa məcbur olan gənclərin artıq 30-dan artıq yaşları vardır. Yuxarıda qeyd olunan hüquq pozuntuları onların həyatında böyük travmalar yaratmış, inkişaflarına mane olmuşdur. Bir sözlə bir nəslin uşaqlığı əlindən alınmışıdır.

Nəticə olaraq qeyd edilməlidir ki, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində məcburi köçkün uşaqların UHK-nın 31-ci maddəsində qeyd olunan istirahət hüquqları kobud şəkildə pozulmuşdur. Pozulmuş hüquqların nəticəsi olaraq bu uşaqların istirahət etmək, asudə vaxt əldə etmək, oynamaq, mədəni və incəsənət həyatında iştirak etmək hüquqları əllərindən alınmışdır ki, bu da onların fiziki və psixoloji inkişafına birbaşa təsir göstərmiş, gələcək həyatlarında ciddi mənfi nəticələr yaranmasına gətirib çıxarmışdır.

[163] Recommendation on Participation by the People at Large in Cultural Life and their Contribution to It, adopted at UNESCO General Conference, Nairobi, 26 November 1976

Beləliklə, yalnız uşaqlar timsalında məcburi köçkünlərin istirahət hüququnun izah edilməsi bu sahədə də əsas insan hüquqları standartlarının Ermənistan tərəfindən kobud şəkildə pozulduğunu bir daha sübut edir.

5.13. Mədəni hüquqlar

ÜİHB-nin 27-ci maddəsindən irəli gələrək, vurğulamaq lazımdır ki, mədəni hüquqların təmin edilməsi cəmiyyətin gələcəyini şərtləndirir. Mədəni hüquqlar hər bir insanın dünyagörüşünün genişlənməsinə, ona məxsus olan dəyərlərin, inancların, əqidələrin, folklorun özünəməxsus həyat tərzi ilə inkişaf etdirilməsi hüquqlarını qoruyur. Bu hüquqlar, eyni zamanda, inkişaf proseslərini təmin edən mədəni irs və mənbələrə əsaslanır.

Ermənistanın təcavüzü nəticəsində pozulan mədəni hüquqların əsasında işğal olunmuş ərazilərdəki Azərbaycan tarixi və mədəniyyət abidələri, məzarlıqları, məscidləri və müqəddəs yerlərin kütləvi şəkildə dağıdılması, talan edilməsi, təhqir olunması və saxtalaşdırılması dayanır. Azərbaycan Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli tarixə malik daşınmaz tarixi və mədəniyyət abidələrinin siyahısı", "Respublika əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələrinin siyahısı" na əsasən işğal altında olmuş ərazilərdə dövlət qeydiyyatında olan tarixi və mədəniyyət abidələri 900-dən çoxdur.

Aparılmış monitorinqlər göstərir ki, uzun müddət işğal altında olmuş Azərbaycan ərazilərindəki tarixi-mədəni-dini abidələrin bu gün yalnız kiçik bir hissəsinin qaldığı məlum olur, digərləri (Xudavəng monastırı, Gəncəsar monastırı və s.) isə ermənilərdirilmişdir. Bundan əlavə, ermənilər işğal altındakı ərazilərdəki məscidlərin Azərbaycan xalqına deyil, başqa dövlətlərə aid olduğunu iddia edir və bu "ixtiranı" sübut etmək məqsədilə həmin məscidlərin İran məscidinə çevrilməsi üçün addımlar atılmışdır. Məsələn, 1969-cu ildən tarix muzeyi kimi fəaliyyət göstərən Şuşadakı Yuxarı Gövhər Ağa məscidinin memarlıq xüsusiyyətləri və mahiyyəti dəyişdirilərək İran abidələri kimi təsvir edilmişdir. Ermənilər Ağoğlan monastırının içərisində və memarlıq üslubunda qanunsuz dəyişikliklər etmiş, abidənin divarlarındakı yazılar, habelə Alban dövrünü əks etdirən çoxlu sayda ornament və rəmzlər tamamilə silinmişdir. 2006-cı ildə ermənilər abidəni ikinci dəfə təmir etdirmək bəhanəsi ilə divarların müxtəlif hissələrinə, abidənin Erməni Apostol Kilsəsinə aid olduğunu göstərən yazıları olan 26 lövhə yerləşdirmişlər. Həyətin sağ tərəfində 2 məzar daşı, giriş qapısının qarşısında isə ermənilər tərəfindən İrəvanın qırmızı bazalt daşından 2 xaç daş ucaldılmışdır.

Bundan əlavə, işğal altındakı müsəlman dini ilə əlaqəli abidələr, digər mədəniyyət nümunələri təhqirlərə məruz qalmışlar. Son illərdə mal-qaranın və digər heyvanların (donuzların) məscidlərdə saxlanılması ilə bağlı faktlar da qərb ölkələrinin fotomüxbirləri tərəfindən yayılmışdır və bütün dünya ictimaiyyəti artıq bu vandalizmlə tanış olmuşdur.

İşğalçı qüvvələr işğal edilmiş Azərbaycan ərazilərindəki qəbirləri qarət etmiş, məzarlıq, məscid və kilsələrin mədəniyyət nümunələrini və dəyərli əşyalarını oğurlamışdır. İşğal nəticəsində Şuşa şəhərində mədrəsələrlə birgə Yuxarı və Aşağı Gövhərağa məscidi, Vaqif Məqbərəsi, Xurşidbanu Natəvanın evi, karvansaralar və s. mədəni abidələr dağıdılmış, yandırılmış və talan edilmişdir.

Bundan başqa, Ağdamın Əbdal və Gülablı kəndlərində "Pənah xan İmarəti" məscidlər kompleksi, Ağdam rayonunda Uğurlu bəy məzarlığı və Qurban Pirimovun ev-muzeyi, Xocalıda XIV əsrə aid kurqanlar, Başlıbel və Otaqlı kəndlərində məscidlər, Kəlbəcərin Moz, Keşdağ və

Yuxarı Ayrım kəndlərində qədim məzarlıqlar, Zəngilanın Qıraq Muşlan, Malatkeşin, Babaylı və İkinci Ağalı kəndlərində məscidlər, Zəngilanın Babaylı və Şərifan, Cahangirbəyli kəndlərində orta əsr məzarlıqları, Qubadlı rayonunda Qayalı və Məmər kəndlərində qədim məzarlıqlar və məscid, Laçının Qarıqışlaq kəndində məscid və Zabux kəndində qədim məzarlıq, Cəbrayılın Çələbilər kəndində məscid kompleksi və Xubyarlı kəndində qədim məzarlıq, Füzuli şəhərində məscidlər və Qoçəhmədli, Mərdinli, Qarğabazar, Ağhullu, Kuropatkina, Düdükçü, Salakatin kəndlərində və Xocavəndin Tuğ kəndində qədim məzarlıq, Tərtərin Ümüdlü kəndində qədim hamamlar, Sədərəkin Kərki kəndində qədim məzarlıq və s. tarixi-mədəni-dini abidələr dağıdılmış, yandırılmış və talan edilmişdir.

Kəlbəcər rayonunda qədim sikkələr, qızıl və gümüş işləmələr, nadir və qiymətli daşlar, xalça və digər əl işlərindən ibarət unikal kolleksiyaya malik Tarix Muzeyi, Şuşa muzeyləri, Laçın Tarix Muzeyi, Ağdam Tarix və Qida Muzeyi dağıdılmış, talan edilmiş və sərgi nümunələri digər dövlətlərdə satışa çıxarılmışdır. Şairə Natəvan, bəstəkar Üzeyir Hacıbəylinin və Bülbülün tunc heykəlləri Azərbaycan hökumətinin onları 500 min ABŞ dolları qiymətinə almayacağı təqdirdə, Gürcüstanda metal parçası kimi satılacaqdı. Həmçinin Laçın Tarix Muzeyinin eksponatı olan gümüş əl çantası Londonda Sotheby`s auksionunda 80 min ABŞ dollarına satılmışdır. 12 avqust 1992-ci il tarixində ermənilər tərəfindən atılan "Qrad" raketi dünyada ikinci çörək muzeyi olan Ağdam Çörək Muzeyinin mövcudluğuna son qoydu.

Laçın Tarix və Etnoqrafiya Muzeyi kompleksi erməni vandalları tərəfindən tamamilə dağıdılmış və yerlə yeksan edilmişdir. Laçın rayonunun Güləbird kəndində bayatı ustası Sarı Aşığın xatirə muzey binası və 200-ə yaxın eksponat məhv və talan edilmişdir. Ermənistan işğal etdiyi torpaqlarda Azərbaycana məxsus mədəni irsin görünüşünü dəyişmək üçün müxtəlif metodlara əl atmışdır. Buna misal olaraq, Laçın şəhərində erməni kilsəsinin tikintisi, uşaq musiqi məktəbi, kitabxana, dərnək və infrastruktur vasitələrin dağıdılması ilə Xocalı hava limanındakı uçuş zolağının genişləndirilməsini göstərmək olar. Başqa misal olaraq, müxtəlif abidələrin arxitektura detallarının dəyişdirilməsini, məsələn, Şuşa şəhərində Saatlı məscid və Xanlıq Muxtar karvansaraları, digər abidələrin Azərbaycan-islam elementləri və ərəb dilində yazılarının erməni xaçı və yazısı ilə əvəzlənməsini göstərmək olar.

Xocalıda törədilən soyqırımı təkcə konkret qrupun fiziki, psixi və bioloji məhvinə yönəlmiş beynəlxalq cinayət hesab oluna bilməz. Eyni zamanda, həmin ərazidə yerləşən tarixi, dini, memarlıq və mədəniyyət abidələrinin məhvi də bilavasitə "mədəni soyqırımı" siyasətinin tərkib hissəsi hesab olunmalıdır. Məlumat üçün bildirək ki, rayon ən qədim dini, memarlıq və mədəniyyət abidələri ilə zəngindir. Xocalının yaxınlığında b.e.ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyəti abidələri yerləşir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Azərbaycanda Kiçik Qafqaz dağ və dağətəyi rayonlarında, Kür-Araz çayları arasında son Tunc və ilk Dəmir dövrlərinə aid arxeoloji mədəniyyət abidələri Xocalı-Gədəbəy mədəniyyəti abidələri adlandırılır. Burada son Bürünc və ilkin Dəmir dövrlərinə aid olunan dəfn abidələri – daş qutular, kurqanlar və daş kitabələr tapılmışdır. Eyni zamanda, rayon ərazisində arxeoloji abidələr – dairəvi qəbir və mavzoley də vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc və sümükdən hazırlanmış bəzək əşyaları, habelə gildən bişirilmiş saxsı ev əşyaları və s. tapılmışdır. Qədim Xocalı qəbiristanlığındakı 11 saylı kurqandan tapılan muncuqlar, üzərində b.e.ə. 1307-1275-ci illərdə Assuriya çarı Adadnirariyə aid mixi yazılar, eləcə də müxtəlif çeşidli bəzək əşyaları, saxsı qablar, şüşə muncuqlar yerli sakinlərin Şərq ölkələri ilə

geniş iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Bundan əlavə, Xocalı rayonu ərazisindəki Əsgəran qalası XVIII əsrdə Qarqar çayının sağ və sol sahillərində Qarabağ xanı Pənahəli xan tərəfindən tikilmişdir. İki istehkamdan ibarət qala çay daşından inşa olunmuşdur. Əsgəran qalası öz quruluşuna görə daha çox müdafiə səddinə bənzəyir. Onu Azərbaycanın çoxəsrlik müdafiə sədləri ənənəsinin son örnəyi saymaq olar. Bu qalaya aid digər əlamətdar cəhət 1810-cu ildə Rusiya ilə İran arasında sülh danışıqlarının bu qalada aparılmasıdır. XIV əsrə aid edilən, habelə Xocalı kurqanları sahəsində yonulmuş ağ daşlardan tikilmiş Xocalı türbəsinin isə on iki bucaqlı quruluşda olması və giriş qapısının çox qabarıq, lakin sadə daşdan oyma ornamentlə işlənməsi onun özünəməxsusluğunu ifadə edir.[164]

Bütövlükdə Xocalı ərazisində erməni işğalı və soyqırımının qurbanı olmuş abidələri üç qrupa ayırmaq olar. *Birinci qrupu* tarixi-dini abidələr təşkil edir ki, bunlar da özündə aşağıdakıları birləşdirir: Şuşa kəndindəki Alban məbədi (905-ci il); Çanaxçı kəndindəki Alban məbədi (1100-cü il); Çanaxçı kəndindəki Alban məbədi (1065-ci il); Xaçmas kəndindəki Alban məbədi (1100-cü il); Xansıx kəndindəki Alban məbədi (1122-ci il); Armudlu kəndindəki Alban məbədi (1202-ci il); Xocalı kəndindəki Günbəz; Xocalı kəndindəki Qoç və ya yəhər şəkilli qəbir daşları; Xocalı kəndindəki qədim tarixə malik Alban abidələri; Kərkicahan qəsəbəsindəki qədim Alban kilsəsinin qalıqları; Meşəli kəndindəki "Börgün qayasında olan kilsə" adlı Alban kilsəsi; Meşəli kəndindəki "Yeddi kilsə" adlanan Alban kilsəsi; Meşəli kəndindəki "Durpasuda olan kilsə" adlı Alban kilsəsi; Meşəli kəndindəki "Balaca suda olan kilsə" adlı Alban kilsəsi; Meşəli kəndindəki "Əvəzin yurdunda olan kilsə" adlanan Alban kilsəsi; b.e.ə. IX-VIII əsrləri əhatə edən Xocalı qəbiristanlığı. Xocalıda olan *ikinci qrup* abidələrə ziyarətgahlar aiddir. Həmin ziyarətgahlara səkkizgüşəli günbəz ziyarətgahı (XIII əsr), türbə (XIV əsr), Seyid Cəlal ağanın ocağı (Xocalı şəhəri), Cahan nənə ocağı (Xocalı şəhəri), Qaranın ocağı (Kərkicahan qəsəbəsi), Darılı piri (Kosalar kəndi) kimi abidələr daxildir. *Üçüncü qrup* abidələrə isə Meşəli kəndindəki Teymurləngin qalası və Əsgəran qəsəbəsində yerləşən Əsgəran qalası (XVIII əsr) aid edilməlidir.[165]

Məhz bu baxımdan, Xocalıda baş verən soyqırımı cinayəti kontekstində həm də "mədəni soyqırımı"n mövcudluğu faktına da diqqəti yönəltmək lazımdır. Onu da qeyd etmək yerinə düşərdi ki, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il tarixli Konvensiyanın layihəsi hazırlanarkən sənədə "mədəni soyqırımı"n əlamətlərini ehtiva edən anlayışın daxil edilməsi təklif olunmuşdur. Belə ki, BMT Katibliyinin irəli sürdüyü 1947-ci il tarixli layihə milli dildən istifadənin qadağan olunması, milli dildə olan kitabların, habelə tarixi və dini obyektlərin sistematik məhv edilməsini nəzərdə tutan hərəkətləri özündə ehtiva edirdi. Eyni zamanda, BMT İqtisadi və Sosial Şurasının *ad hoc* komitəsi tərəfindən hazırlanan 1948-ci il layihəsi də bu yanaşmanı rəhbər tutmuşdur. Sözügedən layihə "soyqırımı" cinayətini aşağıdakılardan birini nəzərdə tutan milli və ya irqi mənşəyi, yaxud dini etiqad əsasında milli, dini və ya dini qrupun dilini, dinini və ya mədəniyyətini məhv etmək niyyəti ilə törədilən düşünülmüş hərəkət kimi xarakterizə etmişdir: gündəlik ünsiyyətdə, yaxud məktəblərdə, habelə qrupun dilində nəşrlərin çapı və yayılmasında qrupun dilindən istifadənin qadağan olunması; qrupun kitabxanalarının, muzey-

[164] www.xocalininsesi.info/2017/09/xocali-tarixi-memarliq-abidlri-diyaridir.html; Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p.88-90
[165] www.scwra.gov.az/structure/169/?Xocalı%20rayonunun%20əsir%20abidələri

lərin, məktəblərin, tarixi abidələrin, dini etiqad yerlərinin, yaxud digər mədəni təsisatların və obyektlərin məhv edilməsi və ya onlardan istifadənin qarşısının alınması.

Bununla belə, BMT BA-nın Altıncı Komitəsi "mədəni soyqırımı" anlayışından imtina etmişdir.[166] Buna baxmayaraq Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının *"Milosevic"* işində (2003) *"mədəniyyət abidələrinin məhv edilməsi soyqırımla eyni təsirə malik hərəkət sayılmalıdır"* müddəası xüsusilə mühüm əhəmiyyət kəsb etməklə, həm də Xocalı soyqırımı zamanı məhv edilən abidələrin törədilən soyqırımın tərkib hissəsi sayılmasına tam əsas verir. [167]

Azərbaycan məcburi köçkünlərinin əsrlər boyu toplanmış mədəniyyət, mənəvi dəyərlər və adətlər sistemi pozulmuşdur. Sənət nümunələrinin kütləvi oğurluğu, muzeylərdən, arxivlərdən, kitabxanalardan və digər mədəni obyektlərdən qaçırılan sərvətlər Azərbaycan xalqının ümumi mədəni irsinə ciddi təhdid kimi qiymətləndirilməlidir. Silahlı münaqişələr dövründə mədəni sərvətlərin qorunması haqqında 1954-cü il tarixli Konvensiyada qeyd edilir ki, silahlı qarşıdurmalar zamanı mədəni sərvətlərin məhv edilməsi, qədim mədəniyyət obyektlərinin dağıdıcı talanı, arxeoloji sahələrdə aparılan qanunsuz qazıntılar yolverilməzdir. Erməni işğalçılarının dağıdıcı hərəkətləri, məsələn, Xocavənd rayonundakı Azıx mağarasında 2003-cü ildən və işğal edilmiş Ağdam şəhərinə yaxın ərazilərdə 2005-ci ildən "arxeoloji qazıntılar"ın həyata keçirilməsi beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır. Belə ki, "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında" 1970-ci il tarixli UNESCO Konvensiyasının 11-ci maddəsində göstərilmişdir ki, xarici dövlət tərəfindən digər ölkənin işğalından birbaşa və ya dolayısı ilə irəli gələn məcburiyyət altında mədəni mülkiyyətin ölkədən çıxarılması və mülkiyyət hüququnun başqasına verilməsi qeyri-qanuni hesab olunur. Bundan əlavə, UNESCO-nun 1956-cı il tarixli "Arxeoloji qazıntılara tətbiq olunan beynəlxalq prinsiplər haqqında" Tövsiyəsinin 32-ci bəndi bu baxımdan iki mühüm müddəanı özündə ehtiva edir. Bunlardan birincisi silahlı münaqişə zamanı digər dövlətin ərazisini işğal etmiş istənilən üzv-dövlətin həmin ərazidə arxeoloji qazıntıları aparmaqdan çəkinmə öhdəliyinin mövcudluğu ilə bağlıdır. İkinci müddəa isə hərbi işğal zamanı aşkar olunan hər hansı tapıntının qorunması üçün işğal edən dövlət tərəfindən istənilən bütün zəruri tədbirlərin görülməsi, habelə hərbi əməliyyat başa çatdıqdan sonra bütün zəruri sənədləri ilə birgə şəkildə həmin tapıntının ərazisi işğal olunmuş ölkəyə təhvil verilməsi öhdəliyinin nəzərdə tutulması ilə bağlıdır. Bundan başqa, Ermənistan tərəfindən törədilən bu hərəkətlər UNESCO Baş Konfransı tərəfindən 2003-cü ildə qəbul edilmiş Mədəni irsin qəsdən məhv olmasına dair Bəyannamənin də ciddi pozulmasıdır.[168]

Ermənistanın işğal etdiyi ərazilərdə Azərbaycanın abidələrinə qarşı beynəlxalq hüquqa zidd siyasətinə ayrı-ayrı beynəlxalq təşkilatların sənədlərində də toxunulmuşdur. Məsələn, silahlı münaqişə və təcavüz nəticəsində Ermənistan tərəfindən Azərbaycana və Azərbaycan xalqına məxsus abidələrin, incəsənət, elmi və bədii əsərlərin qarət olunması və məhv edilməsi İƏT-in sənədlərində iki aspektdən nəzərdən keçirilir. Bunlardan birincisi işğal olunmuş ərazilərdə bütövlükdə müxtəlif növ abidələrin talan edilməsi və dağıdılması ilə bağlıdır. Bunun

[166] Quiqley J. The Genocide Convention: an international law analysis. Aldershot, Ashgate Publishing, 2006, p. 9
[167] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 91-92
[168] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 119-121

bariz nümunəsi kimi təşkilatın "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" 1997-ci il tarixli 12/8-P (IS) saylı, 2000-ci il tarixli 21/9-P (IS) saylı və s. qətnamələrində işğal olunmuş Azərbaycan ərazilərində arxeoloji-mədəni və dini abidələrin talan edilməsi və dağıdılmasının qəti şəkildə pislənilməsinə dair müddəaları göstərmək olar. Bundan əlavə, mövcud məsələyə İƏT-in digər sənədlərində də rast gəlinməkdədir. Məsələn, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" 2000-ci il tarixli 25/27-C saylı qətnaməsinin preambulasında, "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 2008-ci il tarixli 3/35-C saylı və 2010-cu il tarixli 2/37-C saylı qətnamələrinin "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslamın tarixi və mədəni yerləri və abidələrinin dağıdılması və təhqir edilməsi" adlanan hissəsində və s. sənədlərdə nadir qədim tikintilərin və İslam sivilizasiyası, tarixi yerlərinin və arxitekturasının, o cümlədən məscidlərin və digər müqəddəs yerlərin, məqbərə və türbələrin, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, qədim əşyaların, sərgi zallarının, dövlət teatrlarının və konservatoriyalarının tam və ya qismən dağıdılması, bununla yanaşı qaçaqmalçılıq yolu ilə çoxlu miqdarda qiymətli əşyaların ölkədən çıxarılması, milyonlarla kitabların, tarixi əlyazmaların və məşhur əsərlərin məhv edilməsi xüsusilə vurğulanmışdır. İşğal altında olan Azərbaycan abidələrinin dağıdılması və məhv edilməsinə İƏT-in nümayiş etdirdiyi münasibətin ikinci aspekti ondan ibarətdir ki, baş verən pozuntu halları sırf müqəddəs məkanların mühafizəsi nöqteyi-nəzərindən qiymətləndirilir. Nümunə qismində İƏT-in "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 2008-ci il tarixli 3/35-C saylı, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində İslamın tarixi və mədəni yerləri və abidələrinin dağıdılması və məhv edilməsi haqqında" 1999-cu il tarixli 39/26-C saylı, 2000-ci il tarixli 25/27-C saylı, 2002-ci il tarixli 11/29-C saylı, 2003-cü il tarixli 10/30-C saylı qətnamələrini və s. sənədlərini göstərmək olar. Bundan əlavə, Azərbaycanın işğal olunmuş torpaqlarında ATƏT-in Minsk Qrupunun Faktaraşdırıcı missiyasının nəticələrinə dair ATƏT-in Minsk Qrupunun həmsədrlərinin 6 mart 2005-ci il tarixli Tövsiyələrində mədəni irsin və müqəddəs yerlərin, habelə zərər çəkmiş ərazilərdəki qəbiristanlıqların qorunmasının təmini məqsədilə, tərəflər maraqlı icmalar arasında birbaşa əlaqələrin qurulmasına şərait yaradılmasına çağırılır.

Bununla yanaşı, işğal altında olan ərazilərdəki abidələrin qorunması ilə bağlı beynəlxalq təşkilatlarla birgə praktiki tədbirlərin həyata keçirilməsi də bu sahədə aparılan fəaliyyətin bir hissəsini təşkil edir. Məsələn, 21 dekabr 2012-ci il tarixində Parisdə UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitənin 7-ci sessiyasında Azərbaycanın təşəbbüsü ilə işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında qərar qəbul edilmişdir. Qərarda işğalçı dövlətlər tərəfindən işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması haqqında hesabatın verilməsi öhdəliyi və bu ərazilərə texniki missiyaların göndərilməsi imkanları əks olunmuşdur. 18-19 dekabr 2013-cü il tarixlərində Parisdə keçirilən UNESCO-nun Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Komitənin 8-ci Sessiyasında qəbul edilmiş digər sənəddə Silahlı münaqişələr dövründə mədəni sərvətlərin qorunması haqqında 1954-cü il tarixli Konvensiya və ona Əlavə protokollarda işğal edilmiş ərazilərə aid müddəaların hüquqi təhlili, onların həyata keçiril-

məsi mexanizmləri, monitorinq məqsədilə UNESCO tərəfindən texniki missiyaların göndərilməsi, UNESCO-nun Baş Direktoru tərəfindən BMT TŞ-də və BMT BA-da qəbul olunacaq qətnamələrdə işğal edilmiş ərazilərdə mədəni mülkiyyətin qorunması məsələsinin diqqətə çatdırılması və s. öz əksini tapmışdır.[169]

Bu yaxınlarda Azərbaycan Mədəniyyət Nazirliyi işğaldan azad olunmuş ərazilərdə tarix və mədəniyyət obyektlərin vəziyyətinə dair məlumat yaymışdır. Məlumatda qeyd edilir ki, indiyədək aparılmış monitorinqlər zamanı dövlət qeydiyyatında olan 312 tarix-mədəniyyət abidəsinin monitorinqi həyata keçirilmişdir. Həmin ərazilərdə yerləşən dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 106 obyekt (yeni aşkar olunmuş abidə) aşkarlanmışdır. Həmçinin, aparılan monitorinqlər zamanı 571 mədəniyyət müəssisəsi aşkar edilmişdir ki, onlardan 286-sı kitabxana, 237-si mədəniyyət evi və klub müəssisəsi, 19-u muzey, 24-ü uşaq musiqi məktəbi, 1-i kinoteatr, 2-si teatr, 2-si qalereyadır. Müəssisələrin hamısı demək olar ki, tamamilə dağıdılmış vəziyyətdədir. Monitorinqlər nəticəsində müəyyən edilmişdir ki, işğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda, bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir olunmuşdur. Burada, Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Mərdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndindəki iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla, XIX əsrə aid dörd türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələrinin dağıntılara məruz qoyulduğu, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan vurulduğu müəyyənləşdirilmişdir. İbrahimxəlil xanın türbəsi isə tamamilə dağıdılmışdır. Xocavənd rayonunda yerləşən Azıx mağarası, Ağdam rayonunda yerləşən Şahbulaq qəsrinin yaxınlığında xarici ölkələrdən olan mütəxəssislərin də daxil edildiyi saxta arxeoloji ekspedisiyalar tərəfindən qanunsuz qazıntı işləri təşkil olunmuşdur. Eyni zamanda, Ermənistan tərəfi daha bir təxribata əl ataraq Şuşa şəhərindəki Yuxarı Gövhər ağa məscidində "bərpa" işləri adı altında abidənin tarixini saxtalaşdırmaqla məşğul olub, xalqımıza məxsus bu tarixi tikilinin fars məscidi olmasını iddia etmişdir. Kəlbəcər rayonunda yerləşən Xudavəng və Gəncəsər monastırları da daxil olmaqla, Qafqaz Albaniyasına aid bir çox məbədlər mənimsənilərək vandalizmə məruz qalmışdır. Xudavəng monastırına aid Arzu xatun kilsəsinin şərq divarındakı, Xudavəng monastırının incisi hesab olunan freska xüsusi üsullarla kəsilərək götürülmüşdür. Gəncəsər monastırında aparılmış qanunsuz təmir işləri nəticəsində onun əzəli görkəminə zərər dəymişdir. Qubadlı, Füzuli və Ağdam şəhərlərində vaxtilə yerləşmiş 1941-1945-ci il müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidələri tamamilə məhv edilmişdir. Füzuli şəhərində Məhəmməd Füzulinin heykəli, Laçın rayonunun Güləbird kəndində Sarı Aşığın xatirə muzeyi, Molla Pənah Vaqifin Şuşa şəhərində yerləşən büstü, şairə Natəvanın Ağdam şəhərində yerləşən qəbirüstü abidəsi dağıdılmışdır. [170]

[169] www.mfa.gov.az/content/556
[170] www.qafqazinfo.az/news/detail/qarabagda-571-medeniyyet-muessisesi-tamamile-dagidilib-315223

Yuxarıda qeyd edilənlər ilkin monitorinqlərin nəticələridir. Bütövlükdə, Ermənistan bütün işğal illərini qəsdən tarixi-mədəni-dini və memarlıq abidələrini dağıtmaqla keçirmiş və bununla da oradan qovulmuş Azərbaycan məcburi köçkünlərinin öz doğma torpaqları ilə mədəni əlaqələrini məhv etməyə çalışmışdır.

Ermənistan tərəfindən Azərbaycan məcburi köçkünlərinin pozulmuş və tapdalanmış mədəni hüquqlarının əhatə dairəsi bununla bitmir. İşğal edilmiş Azərbaycan ərazilərindəki 200-dən çox tarixi yer və yaşayış məntəqələrinin adları dəyişdirilərək ermənileşdirilmişdi. Belə ki, işğal edilmiş Azərbaycan ərazilərində qanunsuz olaraq formalaşdırılan qondarma "Dağlıq Qarabağ Respublikası"nın 2 dekabr 1993-cü il tarixli qanunsuz qərarı ilə Laçın, Qubadlı və Zəngilan rayonlarını əhatə edən Kaşatağ bölgəsi yaradılmışdı, Laçın şəhəri "Berdzor", Ağdam şəhəri "Akna", Füzuli şəhəri "Varanda", Zəngilan şəhəri "Kovsakan", Qubadlı şəhəri "Sanasar", Kəlbəcər şəhəri "Karvakar", Cəbrayıl şəhəri "Krakan", Xocalı şəhəri "İvanyan" adlandırılmışdı. Beləliklə, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində gələcəkdə bir erməni dövləti yaratmaq üçün yer adları dəyişdirilməyə başlanılmışdı. Bu, həmin ərazilərin əvvəlki tarixinə qarşı törədilmiş bir vandalizmdir. Yer adlarının dəyişdirilməsi toponimik soyqırımı adlı soyqırımı növüdür. Yer adları, coğrafi adlar da qeyrimaddi mədəni irsin bir hissəsidir və onların kütləvi şəkildə saxtalaşdırılması orada əsrlər boyu yaşamış insanların mədəni hüquqlarının birbaşa pozulmasıdır.

İtirilmiş mədəni hüquqlardan danışarkən, işğal zamanı evlərini tərk edən əhalinin itirilən sənətkarlıq təcrübələrini də qeyd etmək lazımdır. Beynəlxalq, xüsusən də Avropa hüququnda "kənd irsi" ifadəsi mövcuddur. Buraya aiddir: kənd memarlığı kimi təsnif edilə bilən binalar (kəndlər, təsərrüfatlar, təcrid olunmuş evlər və binalar); yerli şəraitə və onları istehsal edənlərin ehtiyaclarına uyğunlaşdırılmış yerli məhsullar; yaradıcılıq fəaliyyəti nəticəsində yaranan və nəticələrini dizayn məntiqinə və ümumiyyətlə binaların (ətraf mühitin) landşaftın estetikasına uyğun olaraq qorumaq, bərpa etmək, dəyişdirmək və ya yaxşılaşdırmaq üçün vacib olan texnika, bacarıq və bilik; təcrübələrin, bacarıqların və (nou-hau) texnologiyaların nəsillərə ötürülməsi. Bu üsullar ən geniş kontekstdə simvollarda və mədəni mənalarda tapıla bilər. Məcburi köçkünlər, eləcə də valideynlərinin fərdi olaraq yaşadıqları və inkişaf etdikləri mühitdə yaşamaq imkanı olmayan nəsillər bütün bu imkan və qabiliyyətlərdən məhrum oldular.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində məcburi köçkünlərin təhsil hüquqları da pozulmuşdur. Belə ki, öz doğma torpaqlarından və evlərindən didərgin düşən uşaqlar və gənclər bir müddət təhsillərini davam etdirmək imkanından məhrum olmaq məcburiyyətində idilər. Məcburi köçkünlərin təhsil almaq hüquqlarının köçmək prosesinin təcili mərhələsində həyatın əsas ehtiyaclarının təmin edilməsi və birinci növbədə təhlükəsizliyə diqqət yetirilməsi səbəbindən tam həyata keçirilməsi mümkün olmamışdır. 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 50-ci maddəsi nəzərdə tutur ki, işğalçı dövlət milli və yerli hakimiyyət orqanlarının əməkdaşlığı ilə uşaqlara qayğı ilə təhsilə həsr olunmuş bütün qurumların düzgün işləməsini asanlaşdıracaqdır. Ermənistan isə mühüm beynəlxalq sənədlərə qoşulmasına baxmayaraq, Azərbaycanın işğal olunmuş ərazilərindəki bütün təhsil müəssisələrini tamamilə məhv etmişdir. Eyni zamanda, Ermənistan mülki və hərbi obyektlərə fərq qoymadığından Azərbaycanın bütün

sərhədyanı bölgələrində olan təhsil müəssisələrinin hər zaman istənilən təhlükəyə məruz qalmaq təhlükəsi olmuşdur.

Beləliklə, Ermənistan dövləti öz doğma yurdlarından qovulmuş Azərbaycan məcburi köçkünlərinin başqa hüquqları ilə yanaşı, mədəni hüquqlarını da kobud pozduğuna görə tam məsuliyyət daşıyır.

5.14. Səmərəli müdafiə vasitəsi hüququ

Beynəlxalq sənədlərdə səmərəli müdafiə vasitələri hüququna dair müxtəlif tipli terminlər, konsepsiyalar tətbiq edilsə də, qeyd edilən hüququn əsas məzmunu dəyişilməz olaraq qalmışdır – hər bir şəxsə öz hüquqları üzrə və ya pozulması şübhə altında olan digər maraqları üzrə səmərəli müdafiə vasitələri təqdim edilməli, şəxsin bu vasitələrdən tam, bərabər və ədalətli şəkildə yararlanması təmin edilməlidir.

BMT-nin İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəsinin 9 saylı Ümumi Rəyinin 3-cü paraqrafında qeyd edilir ki, İSMHBP-nin milli (dövlətdaxili) hüquqa tətbiqi zamanı 2 əsas beynəlxalq prinsip rəhbər tutulmalıdır: beynəlxalq müqavilənin pozulmasına dövlət öz milli hüquq normasına istinad ilə haqq qazandıra bilməz; Konstitusiya və digər qanunlar ilə təsbit edilən hüquqların pozuntusu zamanı hər bir kəsin səmərəli müdafiə hüququ vardır.[171]

Səmərəli müdafiə vasitələrinə çıxışın olması 2008-ci ildə BMT İHŞ tərəfindən insan hüquqları öhdəlikləri şəklində bəyan olunan "hörmət, mühafizə və müdafiə" prinsiplərindən biri kimi təsbit edilmişdir.[172] Digər tərəfdən, BMT 2005-ci ildə Beynəlxalq insan hüquqları hüququnun kobud pozuntuları və Beynəlxalq humanitar hüququn ciddi pozuntuları qurbanlarının müdafiə və reparasiya hüququ üzrə Əsas Prinsiplər və Təlimatlar sənədini qəbul etmişdir.[173] Sənəddə hər bir dövlətin cinayətlərin, ciddi insan hüquqları pozuntularının, humanitar hüquq pozuntularının qurbanlarına münasibətdə səmərəli müdafiə vasitələrinin təmin edilməsi öhdəliyi birbaşa şəkildə vurğulanmışdır. Səmərəli müdafiə vasitələri hüququndan istifadə təkcə məhkəmə çərçivəsində nəzərdə tutulmamışdır. Digər sözlə, səmərəli müdafiə vasitələri hüququ üçün mütləq şəkildə məhkəmə orqanının olması vacib deyildir və bu hüququn digər dövlət qurumlarına da ünvanlana bilinməsi ehtimalı vardır.[174] Bununla belə, məcburi köçkünlərin səmərəli müdafiə hüququnun həyata keçirilməsinə və ya bu istiqamətdə pozuntunun tanınmasına nail olmaq asan və sadə məsələ deyildir. Sözsüz ki, ədalətin bərpası, təmin edilməsi və qorunması hüququn əsas funksiyaları və ümumi prinsipləri içərisində özünəməxsus yer tutur. Ümumi hüquq sisteminin bu funksiyası özünü, demək olar ki, hər bir hüquq sahəsinin əsas məqsədləri sırasında da büruzə vermişdir. İnsan hüquqları sahəsində isə ədalətin qorunması, hüquqların müdafiəsi kimi ideyalar özünü digər hüquqlarla yanaşı, səmərəli müdafiə vasitəsi hüququnda daha çox əks etdirmişdir. Qeyd

[171] UN Committee on Economic, Social and Cultural Rights (CESCR), General Comment No. 9: The domestic application of the Covenant. 3 December 1998 https://www.refworld.org/docid/47a7079d6.html

[172] Deva S., Bilchitz D. Building a Treaty on Business and Human Rights: Context and Contours. UK, Cambridge University Press, 2017, p. 411

[173] UN GA A/RES/60/147 - Basic Principles and Guidelines on the Right to a Remedy and Reparation for Victims of Gross Violations of International Human Rights Law and Serious Violations of International Humanitarian Law. Adopted by General Assembly on 16 December 2005 https://www.ohchr.org/en/professionalinterest/pages/remedyandreparation.aspx

[174] Mowbray A. Cases, Materials, and Commentary on the European Convention on Human Rights. UK, Oxford University Press, 2012, p.796

etdiklərimiz bizə onu deməyə əsas verir ki, səmərəli müdafiə vasitələri probleminə beynəlxalq hüququn yanaşması təkcə insan hüquqlarına əsaslanmamışdır. Belə ki, beynəlxalq hüququn əsasında duran əsas fundamental sənədlərə nəzər yetirsək, səmərəli müdafiə vasitələrinin təmin edilməsi məsələsinə ümumi hüquqi məqsəd kimi, hüquqi prinsip kimi, dövlətin öhdəliklərindən biri kimi və s. yanaşıldığını görə bilərik. Bu mənada BMT Nizamnaməsinin, ATƏM-in Helsinki Yekun Aktının və s. beynəlxalq sənədlərin maddələrinin təhlili xüsusi önəm kəsb etməkdədir.

Azərbaycanın işğal edilmiş ərazilərindən olan məcburi köçkünlərin səmərəli müdafiə vasitəsi hüququndan danışarkən, ilk olaraq, AİHM tərəfindən "*Chiragov and others v. Armenia*" işi üzrə verilən qərarın yenidən nəzərdən keçirilməsi yerinə düşərdi.[175] Səmərəli müdafiə vasitəsi hüququnun pozulması qeyd edilən iş üzrə ən mərkəzi məsələlərdən biri olmuşdur. AİHM Azərbaycan məcburi köçkünləri timsalında bu hüququn pozuntusunu nəinki tanımış, hətta bu hüquq pozuntusunun statik – yəni bir dəfə üçün deyil, davamedici xarakter aldığını təsbit etmişdir. Səmərəli müdafiə vasitəsi hüququndan Azərbaycan məcburi köçkünlərinin məhrum olması bu gün də davam edir və Ermənistan tərəfindən müxtəlif cinayətlər törədən şəxslər məsuliyyətə cəlb edilməyənə qədər davam edəcəkdir.

AİHM tərəfindən Ermənistanın münaqişədə üçüncü tərəf olmaması, Dağlıq Qarabağ ərazisində "effektiv nəzarət"i həyata keçirməsi, həmin ərazilərdə yurisdiksiyaya malik olması, Dağlıq Qarabağdakı qondarma "hökumətə" ciddi maddi, mənəvi, inzibati və s. dəstək verməsi rəsmi və birmənalı şəkildə tanınmışdır. AİHM ən pis halda belə bəyan etmişdir ki, Ermənistanın hətta üçüncü tərəf kimi Dağlıq Qarabağ ərazisində özgə, kənar, xarici dövlət kimi fəaliyyəti onun öz rəsmi sərhədlərindən kənardakı proseslərə görə məsuliyyət daşıdığını sübut edir. Qeyd edilən bu iki amil məcburi köçkünlərin pozulan səmərəli müdafiə vasitəsi hüququnun məhz Ermənistan tərəfindən pozulması kontekstində gələcəkdə erməni cinayətkarlarına qarşı birbaşa şəkildə digər iddialar qaldırılmasına yol açır.

AİHM-in "*Chiragov and others v. Armenia*" işi üzrə qərarının daha bir xüsusiyyəti isə ondan ibarətdir ki, iş icraata alınandan sonra bu iş üzrə 2 şikayətçinin mülkiyyət hüquqlarının pozuntusunun qondarma "Dağlıq Qarabağ" hökumətinin birinci instansiya məhkəməsi tərəfindən tanınması haqqında təqdim edilən qərarı AİHM qəbul etməkdən imtina etmişdir. Ermənistan bu qərarı gecikdirərək AİHM-nə təqdim etməklə bir tərəfdən Dağlıq Qarabağda ədalətli və obyektiv dövlət məhkəməsinin mövcudluğunu, digər tərəfdən isə şikayətçilərin səmərəli müdafiə vasitəsi hüququnun Dağlıq Qarabağdakı qondarma "hökumət" tərəfindən təmin edilə bilinməsinin mümkünlüyünü, üçüncü bir tərəfdən isə şikayətçilərin Dağlıq Qarabağdakı məhkəmələrə müraciət etmədiklərinin təqsirlərinin elə onların özündə olmasını və bu şikayətin AİHM-ə ünvanlanmasının lüzumsuzluğunu ifadə etmək istəmişdir. AİHM isə öz imtinasını Ermənistanın bu qərarı niyə vaxtında təqdim edə bilməməsini məntiqli izah etməməsi ilə əsaslandırmışdır. Digər tərəfdən isə, əgər Dağlıq Qarabağdakı hər hansı qondarma "məhkəmə"nin qərarını gələcəkdə səmərəli müdafiə vasitəsi hüququnun təmin edilməsi kimi fərz etsək belə, Dağlıq Qarabağdakı qondarma hökumətin ancaq və cəmi 2 şikayətçi üzrə səmərəli müdafiə hüququnu təmin etməsi, lakin yüz minlərlə digər məcburi köçkünlər barədə heç bir iş görməməsi onun tam ifşasını nümayiş etdirir.

[175] The ECtHR, Application no. 13216/05 - CASE OF CHIRAGOV AND OTHERS v. ARMENIA, 16 June 2015 http://hudoc.echr.coe.int/eng?i=001-155353

AİHM-nin bu qərarının geniş təhlili Azərbaycan məcburi köçkünlərinin səmərəli müdafiə vasitəsi hüququnun Ermənistan tərəfindən kobud şəkildə pozulduğunu göstərir. Maraqlıdır ki, AİHM tərəfindən səmərəli müdafiə vasitəsi təkcə pozulmuş hüquq kimi yox, həm də digər hüquqların pozuntularının əsas şərti qismində də təhlil edilmişdir. Məsələn, AİHM "*Chiragov and others v. Armenia*" işi üzrə qərarında qeyd etmişdir ki, səmərəli müdafiə vasitələrinin təmin edilməməsi üzrə pozuntunun özündən öncə bu istiqamətdə pozuntu məsələləri AİHK-in 8-ci maddəsi və ona I Əlavə Protokolun 1-ci maddəsi çərçivəsində artıq araşdırılmışdır. Belə ki, məcburi köçkün olan şikayətçilərin davamlı olaraq öz mülkiyyətindəki əşyalara faktiki sahiblik etməsinə şərait yaradılmasının rədd edilməsi, şikayətçilərin öz evlərinə, özəl və ailə həyatlarına aid digər mülkiyyətə real olaraq əlinin çatmaması faktları elə səmərəli müdafiə vasitələrinin mövcud olmaması səbəbindən baş vermişdir. AİHM-nin bu nəticəsi isə bizə gələcəkdə səmərəli müdafiə hüququnu təkcə və ayrıca pozulan hüquq kimi deyil, insan hüquqlarının əsas şərti kimi pozulması haqqında da fikir yürütməyə tam şəkildə əsas verir. Bundan əlavə, AİHM Ermənistan tərəfindən səmərəli müdafiə hüququnun pozuntusunun davamedici olduğunu təsbit etmişdir.

Uzun müddət Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad edilməsi həmin ərazilərdən məcburi köçkün düşmüş şəxslərin öz pozulmuş hüquqlarının bərpası istiqamətində yeni müstəviyə keçmişdir. Artıq həmin şəxslərin pozulmuş hüquqlarına görə Ermənistanın məsuliyyətə cəlb edilməsinin mümkünlüyü beynəlxalq insan hüquqları müdafiə mexanizmləri tərəfindən də təmin edilməli və insan hüquqlarının təminatçısı olan beynəlxalq təşkilatlar tərəfindən qısa zamanda hüquqların bərpası təmin edilməlidir.

5.15. Azad sahibkarlıq hüququ

ÜİHB-nin 23-cü maddəsinə uyğun olaraq, hər bir insan işləmək, istədiyi işi sərbəst seçmək, ədalətli və əlverişli iş şəraitinə malik olmaq və işsizlikdən müdafiə olunmaq hüququna malikdir. Dar mənada yalnız əmək hüququ ilə məhdudlaşdırılan bu norma sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququna da aid edilir. Sahibkarlıq fəaliyyətinin əsas məqsədinin isə gəlir əldə etmək olduğu xüsusi qeyd edilməlidir. Belə olduğu halda şəxs "əlverişli iş şəraiti"ni özü müəyyənləşdirmək, "işsizlikdən müdafiə olunmaq hüququ"nu isə sahibkarlıqla məşğul olaraq realizə etmək istəyir. Təsadüfi deyil ki, insan hüquqları sahəsində tədqiqat aparan alimlər "hüquqlar" və "azadlıqlar" anlayışlarının şərhi zamanı əmək hüququnun sahibkarlıq fəaliyyəti azadlığı formasında da realizəsini mümkün sayırlar.[176]

İSMHBP-nin 6-cı maddəsində qeyd edilir ki, bu Paktda iştirak edən dövlətlər hər kəsin ruzi qazanmaq imkanı daxil olmaqla, sərbəst şəkildə seçdiyi, yaxud sərbəst şəkildə razılaşdığı əmək hüququnu tanıyır və bu hüququn təmin olunması üçün lazımi addımlar atacaqlar. Bu Paktda iştirak edən dövlətlərin həmin hüququn tam həyata keçirilməsi məqsədilə görməli olduqları tədbirlərə texniki-peşə təlimi və hazırlıq proqramları, durmadan iqtisadi, sosial və mədəni inkişafa, insanın əsas siyasi və iqtisadi azadlıqlarına təminat verilməsi şəraitində tam istehsalat məşğulluğuna nail olmağın yol və üsulları daxildir. Daha sonra, İSMHBP-nin 7-cı maddəsində qeyd edilir ki, bu Paktda iştirak edən dövlətlər hər bir insanın ədalətli və əlverişli əmək şəraiti hüququnu tanıyır.

Avropa Sosial Xartiyasında bəyan olunur ki, hər bir insan sərbəst şəkildə seçdiyi ixtisas üzrə öz zəhməti ilə yaşayış üçün qazanc əldə etmək imkanına malik olmalıdır. Aİ-nin Əsas

[176] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Nurlar, 2019, s. 114

hüquqlar Xartiyasının "Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq hüququ" adlanan 16-cı maddəsində İttifaqın qanunlarına və milli tənzimləmələrə uyğun olaraq sahibkarlıq fəaliyyəti azadlığı tanınır.

Azad sahibkarlıq hüququ Azərbaycan Konstitusiyasının 59-cu maddəsində təsbit olunmuşdur. Hər kəsin öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olma imkanını nəzərdə tutan bu maddədə deyilir ki, dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir. Eyni zamanda, Konstitusiyanın 15-ci maddəsinin 2-ci hissəsində qeyd edilir ki, Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Konstitusion qaydada bəyan olunmuş bu hüquq üçün müxtəlif normativ-hüquqi aktlarda da təminatlar nəzərdə tutulmuşdur. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində azad sahibkarlıq hüququnun pozulmasının iki aspektdən nəzərdən keçirilməsi məqsədəmüvafiqdir.

Birincisi, ayrı-ayrı vətəndaşların sahibkarlıq hüququna qəsd edilməsi nəticəsində onların cari və gələcək gəlirlərindən məhrum edilməsi nəticəsində dəyən ziyan çərçivəsində. Belə ki, sahibkarlıq fəaliyyəti insan azadlığının təzahür etdiyi, şəxsiyyətin özünü, daha dəqiq desək, fiziki-mənəvi imkanlarını ciddi şəkildə realizə etdiyi ən mühüm sahələrdən biridir. Bir çox hallarda şəxsiyyətin digər fəaliyyət sahələrində özünü təsdiqi məhz onun sahibkarlıq fəaliyyətindəki uğurlarından keçir. Başqa sözlə desək, sahibkarlıq insanın həm özünü, həm də onu əhatə edən ətraf mühiti dəyişməyə yönəlmiş fəaliyyətidir.

İkincisi isə, azad sahibkarlıq hüququnun pozulması nəticəsində Azərbaycan dövlətinə dəyən ziyan çərçivəsində. Çünki sahibkarlıq fəaliyyətinə edilən qəsdlər bilavasitə dövlətin iqtisadi sisteminə qəsd etmişdir. Əgər sistemli yanaşma metodundan çıxış etsək, onda görərik ki, iqtisadi fəaliyyətin nüvəsini sahibkarlıq fəaliyyəti təşkil edir. Belə ki, məhz sahibkarlıq fəaliyyəti iqtisadi fəaliyyətin bütün növlərini stimullaşdırır və özü də həmin sahələrlə əlaqəli şəkildə inkişaf edir. Eyni zamanda, dövlət büdcəsinin əsas hissəsini sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi nəticəsində ödənilmiş vergilər təşkil edir. Ona görə də ayrı-ayrı vətəndaşların azad sahibkarlıq hüququnun pozulması bütövlükdə dövlətin iqtisadi əsaslarına ziyan vurmuşdur.

Azad sahibkarlıq hüququ özündə bir neçə elementi birləşdirir ki, bu elementlər hüququn mahiyyətini və realizəsi şərtlərini müəyyənləşdirir. Birinci element iradə sərbəstliyidir, yəni sahibkarlıq fəaliyyəti hüququ şəxsə öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə etmə, eləcə də gəlir gətirən hər hansı bir iqtisadi fəaliyyətlə təkbaşına və ya başqaları ilə birlikdə məşğul olma imkanı verir. Məhz sonuncu imkan sahibkarlıq hüququnun ikinci elementini – gəlir əldə olunması məsələsini gündəmə gətirir. Burada başlıca meyar həmin gəlirin sistematik səciyyə daşımasıdır. Gəlirin sistematik əldə olunması o demək deyildir ki, fəaliyyət göstərən şəxs sistemli şəkildə əqdlər, müqavilələr bağlamalı və ya hər hansı bir işi, xidməti yerinə yetirməlidir. Önəmli olan amil gəlirin əldə olunmasıdır, yəni birdəfəlik xarakter daşıyan hər hansı bir əqdin bağlanması ilə müntəzəm gəlir əldə etmək mümkündür. Qeyd olunan sistemlilik sahibkarlıq hüququnun pozulması zamanı əldən çıxmış faydanın da

zərər kimi qiymətləndirilməsi üçün əsasdır. Leqal yanaşmaya görə, zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

Nəzərə almaq lazımdır ki, azad sahibkarlıq hüququnun pozulması faktının təsdiq olunması digər hüquqlardan fərqli qaydada müəyyən olunmalıdır. Məsələn, yaşamaq, şəxsi toxunulmazlıq və s. bu kimi hüquqların pozulması zamanı hər bir halda məhkəmə müdafiəsi üçün müraciət oluna bilərsə, azad sahibkarlıq hüququnun pozulması halları üzrə müvafiq dövlət qeydiyyatından keçmiş şəxslər üçün müdafiə hüququ yaranmış olacaqdır. Çünki qanunvericiliklə sahibkarlıq hüququnun həyata keçirilməsi üçün dövlət qeydiyyatı imperativ qaydada müəyyən olunmuşdur.

Azad sahibkarlıq hüququnun pozulması ilə bağlı AİHM-ə müraciət edilməsində yurisdiksiya çətinlikləri mövcuddur. Çünki AİHM yalnız AİHK-də nəzərdə tutulan hüquqların pozulması üzrə işlərə baxmaq səlahiyyətinə malikdir. Lakin bir çox işlərdə AİHM hüququn pozulması faktı üzrə AİHK çərçivəsində qorunan hüquqlara da zərər gəldiyi hallarda işi icraata götürə bilər. Bu baxımdan, mülkiyyət hüququnun pozulması ilə bağlı edilən müraciətlərdə sahibkarlıq fəaliyyətinə qəsd hallarına da münasibət bildirilə bilər. Bundan əlavə, Azərbaycan məcburi köçkünlərinin azad sahibkarlıq hüququnun pozulması bilavasitə Azərbaycan dövlətinin iqtisadi siyasətinə mənfi təsir göstərdiyi üçün dəymiş ziyan çərçivəsində Ermənistanın dövlət olaraq məsuliyyətinin müəyyənləşdirilməsi tam şəkildə həyata keçirilməlidir.

5.16. Sülh hüququ

Sülh hüququnun ayrıca insan hüququ kimi tanınması müasir beynəlxalq hüquq sisteminin zəruri amillərindən biridir. Tədqiqatlarda qeyd edildiyi kimi, kütləvi qırğın silahlarının mövcudluğu, soyqırımı və s. kimi cinayətlərin törədilməsi artıq özü-özlüyündə ayrıca sülh hüququnun mövcud olmasını zəruri etmişdir.[177] BMT BA-nın və digər əlaqədar qurumların hüquqi sənədlərinin təhlili göstərir ki, sülh hüququna yanaşma 3 istiqamətdə olmuşdur: digər hüquq və azadlıqların qorunması, təmin edilməsi və yerinə yetirilməsi istiqamətində beynəlxalq hüququn əsas başlıca şərtlərindən biri kimi; davamlı inkişaf istiqamətində qəbul edilmiş Davamlı İnkişaf Məqsədləri – 2030 Gündəliyi əsasında davamlı inkişaf konsepsiyasının hüquqi elementi kimi; insan hüquqları və azadlıqları sisteminə daxil olan ayrıca bir hüquq kimi.

BMT Nizamnaməsinin ilkin giriş hissəsində bəyan edilən məqsədlərdən başlayaraq bir sıra maddələrində sülh dəfələrlə beynəlxalq əməkdaşlığın əsas məqsədi, beynəlxalq hüququn əsas prinsipi və s. kimi təsbit edilmişdir. ÜİHB-də, AİHK-də, Afrika İnsan və xalqların hüquqları Xartiyasında, o cümlədən digər insan hüquqları sahəsindəki beynəlxalq sənədlərdə də sülhün qorunması əsas məqsədlər sırasında qeyd edilmişdir. Qeyd edilən beynəlxalq normaların, o cümlədən BMT Nizamnaməsi kimi müasir beynəlxalq hüququn fundamental normativ bazasını təşkil edən beynəlxalq sənədin sülhə dair müddəaları özündə ehtiva

[177] Raskin M.G., Squires G.D. Warfare Welfare: The Not-So-Hidden Costs of America's Permanent War Economy. USA, Washington, Potomac Books, 2012, p. 250

etməsi, sülhün müxtəlif beynəlxalq hüquq sahələrində əsas məqsəd və ya prinsip kimi qeyd edilməsi onu deməyə əsas verir ki, sülhün təmin olunması və sülh hüququ beynəlxalq adət norması kimi nəzərdən keçirilə bilər. Ən azından, müasir beynəlxalq hüquq sistemində və beynəlxalq hüquq doktrinasında sülhün təmin edilməsi prinsipinə heç bir davamlı etirazın olmaması, sülhün təminatı kimi ümdə vəzifənin bütün dövlətlər tərəfindən qəbul edilməsi, bütün beynəlxalq hüquq sənədlərinin sülh yönümündə təsbit edilməsi sülhə dair insan hüququnun da adət xarakteri haqqında mülahizələr yürütməyə tam əsas verir. Fikrimizcə, daha da irəli gedərək sülh hüququnu soyqırımın, işgəncənin və təcavüzün yolverilməzliyi kimi ifadələr sırasında *jus cogens* normalarından biri kimi də təhlil etmək olar. Bu zaman normativ hüquqi baza qismində yuxarıda qeyd edilən sənədlərlə yanaşı, Xalqlar Arasında sülh, qarşılıqlı hörmət və anlaşma ideallarının gənclər arasında təbliğinə dair Bəyannamə, Beynəlxalq təhlükəsizliyin gücləndirilməsinə dair Bəyannamə, Elmi və texniki tərəqqinin sülh və insanlığın faydaları naminə istifadəsinə dair Bəyannamə, Cəmiyyətlərin sülh şəraitində həyata hazırlanmasına dair Bəyannamə, Beynəlxalq sülh və təhlükəsizliyi təhdid edə biləcək mübahisələrin və vəziyyətlərin qarşısının alınması və aradan qaldırılması və bu sahədə BMT-nin roluna dair Bəyannamə, Sülh mədəniyyəti üzrə Fəaliyyət Proqramı və Bəyannamə müddəalarından yararlanmaq da mümkündür.

Konkret olaraq ayrıca insan hüquqlarından biri kimi isə sülh hüququna dair 2 BMT sənədi xüsusi əhəmiyyət kəsb edir: Xalqların sülh hüququna dair 1984-cü il Bəyannaməsi; Sülh hüququ üzrə 2016-cı il Bəyannaməsi.[178] Bəyannamələrin adları və əsas məqsədləri əhəmiyyətli dərəcədə eyni olsa da, onlar arasında müəyyən nəzəri-praktik fərqlər də mövcuddur. Məsələn, 1984-cü il Bəyannaməsi sülh hüququnu sırf insan hüququ kimi deyil, xalqların layiq olduğu həyat tərzi, sülh mədəniyyətinin bir forması kimi təsbit etmişdir. Bu baxımdan 1984-cü il Bəyannaməsi sülh hüququ üzrə gələcək insan hüquqları sənədlərinin qəbulu üçün baza rolunu oynaya bilər.[179] Bəyannamə sülhün qorunmasını bir daha BMT-nin əsas məqsədlərindən biri kimi qeyd etmiş, hər bir dövlətin bu istiqamətdə vəzifə daşıdığını təsbit etmişdir. Bəyannamədə, həmçinin müharibənin qeyri-hüquqi xarakteri önə çəkilmiş, mübahisələrin həllində güc tətbiqinin yolverilməzliyi təkrarən bəyan edilmişdir. Lakin yuxarıda da qeyd edildiyi kimi, implementasiya və nəzarət mexanizmlərinin olmaması, bir sıra aparıcı dövlətlərin sülh hüququna şübhə ilə yanaşması bu istiqamətdə beynəlxalq hüququnun gücünü xeyli zəiflətmişdir. Bəyannamənin qəbul edilməsindən sonra dünyanın müxtəlif yerlərində baş verən müharibələr, terror hadisələri və silahlı qarşıdurmalar isə sülh hüququnun ancaq kağız üzərində qaldığını, sülh hüququ üzrə pozuntuların cəzasızlıq mühitində daha artdığını nümayiş etdirmişdir.

Sülh hüququnun beynəlxalq müdafiəsinin zəifliyi digər səbəblərlə yanaşı, implementasiya mexanizminin yoxluğu, sülh hüququnun məzmun və elementlərinin dəqiq təsbit edilməməsi ilə izah edilə bilər. Məhz bu problemlər üzrə 2016-cı il Bəyannaməsi daha diqqətlə hazırlanmış və uzun hazırlıq prosesində sülh hüququnun əhatə dairəsinə, implemen-

[178] UN GA A/RES/71/189 - Declaration on the Right to Peace. Resolution adopted by the General Assembly on 19 December 2016 https://www.refworld.org/docid/589c72134.html ; UN GA A/RES/39/11 - Declaration on the Right of Peoples to Peace. Resolution adopted by the General Assembly on 12 November 1984 https://digitallibrary.un.org/record/74608?ln=en

[179] Campbell P.J., MacKinnon A., Stevens C.R. An Introduction to Global Studies. UK, Chichester: John Wiley & Sons. 2010, p.101

tasiya prosesinə xüsusi diqqət yetirilmişdir. Qeyd edə bilərik ki, Sülh hüququ üzrə 2016-cı il Bəyannaməsi BMT İHŞ-nin, onun Məşvərət Komitəsinin və əlaqədar vətəndaş cəmiyyəti qurumlarının əməyinin nəticəsidir. Belə ki, Bəyannamənin qəbulundan bir neçə il öncə - 2011-ci ildə Məşvərət Komitəsi tərəfindən BMT İHŞ-yə sülh hüququnun anlayışı, əsas elementləri, öhdəlik və vəzifələrin əhatə dairəsi ilə əlaqədar hesabat təqdim edilmişdir. Hesabatda sülh hüququnun müasir anlayışı haqqında aşağıdakı mülahizələr irəli sürülmüşdür:

a) Sülh hüququnun müharibə və konflikt olmayan dövrlərdə də bərabərlik, sosial təminat, iqtisadi inkişaf, rifah kontekstində nəzərdən keçirilməsi;

b) Sülh hüququ üzrə 11 əsas cəhət: beynəlxalq sülh və təhlükəsizlik, tərksilah, insan təhlükəsizliyi, zülmə müqavimət, sülhməramlılıq, etiqada görə hərbi xidmətdən boyun qaçırma və vicdan azadlığı, özəl hərbi və təhlükəsizlik qurumlarının yaradılması, sülh üzrə təhsil, inkişaf, ətraf mühit, qurbanların və həssas qrupların hüquqları;

c) Sülh hüququ üzrə əsas normativ standartlar və onların implementasiyasına nəzarət və monitorinqin təşkili üzrə təkliflər;

d) Sülh hüququnun BMT Nizamnaməsi, insan hüquqları üzrə beynəlxalq sənədlər əsasında, habelə BMT İnsan Hüquqları üzrə Ali Komissarlığı və BMT İHŞ-nin bir sıra qətnamələrində hüquq kimi tanınması;

e) Sülh hüququnun fərdi və kollektiv hüququ kimi tanınması, özündə əlaqədar öhdəlik və vəzifələr ehtiva etməsi.[180]

BMT İHŞ-nin hesabat əsasında qəbul edilmiş qətnaməsinin mətni sonralar 2016-cı ildə Sülh hüququ üzrə Bəyannamə formasını almışdır. Bu Bəyannamə 1984-cü il Bəyannaməsindən fərqli olaraq sülh hüququna sırf insan hüquqları nöqteyi-nəzərindən yanaşmışdır. Bəyannamənin giriş hissəsi insan hüquqları üzrə əsas beynəlxalq aktlara istinad etmiş, Davamlı İnkişaf Məqsədləri - 2030 Gündəliyini xatırlatmış, habelə sülhün beynəlxalq hüquqi prinsip kimi əhəmiyyətini bəyan etmişdir. Bəyannamənin giriş hissəsində müharibə qurbanlarının da sülh hüququ subyektləri sırasına daxil olması göstərilmişdir. Belə ki, irqçilik, irqi ayrı-seçkilik, dözümsüzlük qurbanlarının, bu əsaslarla baş verən müharibələrdən əziyyət çəkən insanların iqtisadi, sosial, mədəni rifahı və əlaqədar hüquqlarının təmin edilməsi üzrə beynəlxalq öhdəliklər bir daha ön plana çəkilmişdir.

Sülhün qorunması davamlı inkişaf komponenti kimi də nəzərdən keçirilə bilər. Davamlı İnkişaf Məqsədləri - 2030 Gündəliyində sülhün qorunması üzrə beynəlxalq hüquqi tələblər davamlı inkişaf konsepsiyasının hüquqi əsasları ilə əlaqələndirilmişdir.

Yuxarıda təhlil edilən beynəlxalq hüquq normaları və doktrinasının əsas müddəalarını Azərbaycanın işğal edilmiş ərazilərindən məcburi köçkün olan şəxslərə də tətbiq etmək mümkündür. Bu zaman məcburi köçkünlərin sülh hüququ həm fərdi hüquq kimi, həm də kollektiv hüquq kimi araşdırıla bilər.

BMT-nin 2016-cı il Bəyannaməsinin müddəaları nəzərə alınmaqla məcburi köçkünlərin sülh hüququ 2 nəzəri-praktiki anlamda başa düşülə bilər: ümumən sülh şəraitində yaşamaq və inkişaf etmək hüququ kimi; qorxudan azad olmaq – yəni erməni cinayətkarlığından, terrorizmindən və beynəlxalq hüquq pozuntularından uzaq qalmaq hüququ kimi.

[180] Fitzmaurica M., Merkouris P., Okowa P. Evolving Principles of International Law: Studies in Honour of Karel C. Wellens. Volume 5. The Netherlands, Leiden, Koninklijke Brill, 2012, p.145

Hesab edirik ki, Azərbaycan məcburi köçkünlərinin sülh hüququ onun hər iki anlamında bərabər səviyyədə pozulmuşdur. Zaman etibarilə Azərbaycan məcburi köçkünlərinin sülh hüququnun pozulması davamedici xarakterə malikdir və aşağıdakı mərhələlərlə fərqləndirilə bilər:

- Azərbaycan ərazilərinin işğalı və mühüm beynəlxalq cinayətlərin törədilməsinə hazırlıq dövründə sülh hüququ üzrə pozuntular;
- Azərbaycan ərazilərinin işğalı və mühüm beynəlxalq cinayətlərin törədilməsi dövründə sülh hüququ üzrə pozuntular;
- Fəal silahlı münaqişənin səngidiyi atəşkəs dövründə, lakin Ermənistan tərəfindən daim atəşkəsin pozulması və fəal silahlı münaqişələrə cəhd edilməsi ilə müşayiət olunan dövrdə sülh hüququ üzrə pozuntular;
- BMT Nizamnaməsinin 51-ci maddəsi ilə fərdi özünümüdafiə hüququndan istifadə edərək BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Azərbaycan tərəfindən icrası zamanı Ermənistanın beynəlxalq hüquqa zidd fəaliyyəti və yeni beynəlxalq münaqişə yaratmağa cəhd etməsi dövründə sülh hüququ üzrə pozuntular;
- Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə Ermənistan tərəfindən əməli addımların atılmaması və bu münaqişənin həll edilməsindən boyun qaçırmağa davam etdiyi hazırki dövrdə sülh hüququ üzrə pozuntular.

Azərbaycan məcburi köçkünlərinin pozulmuş sülh hüququnun nəzəri əsaslarına daha 2 arqumenti də əlavə etmək mümkündür:

- Məcburi köçkünlərin sülh hüququnun pozulmasının bir istiqaməti də Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin azad edilməsi ilə bağlı məsələnin sülh yolu ilə həll edilməkdən imtinası və ya gecikdirilməsi ilə bağlıdır. Belə ki, öz-özlüyündə atəşkəs rejiminin mütəmadi olaraq pozulması, danışıqlar prosesinin və sülh hazırlıqlarının 30 ilə yaxın müddətə kimi uzun bir vaxtda aparılması, beynəlxalq təşkilatların nümayəndələrinin də iştirak etdiyi sülh müzakirələrinin nəticəsiz qalması da Azərbaycan məcburi köçkünlərinin sülh hüququnı pozmuşdur. Burada BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilməməsi də xüsusi qeyd edilməlidir.
- Digər bir tərəfdən isə, işğal olunmuş ərazilərdən olan Azərbaycan məcburi köçkünlərinin taleyi Ermənistan dövlətini heç bir zaman maraqlandırmamış, Ermənistan məcburi köçkünlərin ən sadə problemlərinin həllində belə Azərbaycan ilə əməkdaşlıq etməmiş, nəticə etibarı ilə bütövlükdə məcburi köçkün probleminin həlli Azərbaycan dövlətinin üzərinə atılmışdır.

5.17. İnkişafa olan hüquq

Sülh hüququnun insan hüququ kimi qorunması, təmin edilməsi və yerinə yetirilməsi digər insan hüquqları ilə yanaşı inkişafa olan hüquq üçün də əlverişli şərait yaradır. Təsadüfi deyildir ki, Sülh hüququ üzrə 2016-cı il Bəyannaməsi də sülh hüququ ilə inkişafa olan hüquq arasında nəzəri və praktik əlaqəni diqqətdən kənarda qoymamışdır. Bəyannamənin giriş hissəsində həm İnkişafa olan hüquq üzrə Bəyannaməyə, həm də Davamlı İnkişaf Məqsədləri - 2030 Gündəliyinə istinad edilmişdir. Habelə, Sülh hüququ üzrə 2016-cı il Bəyannaməsinin 1-ci maddəsində sülh hüququ inkişaf prosesinin əsasında izah edilmişdir: "Hər bir kəsin bütün insan hüquqlarının təşviq olunduğu və qorunduğu və inkişafın tam həyata keçirildiyi şəkildə sülhdən yararlanmaq hüququ vardır."

İnkişafa olan hüquq hər bir şəxsin və bütün xalqların inkişafda iştirak etmək hüququnu, inkişafı təbliğ etmək hüququnu, inkişaf nəticələrini bölüşmək hüququnu əhatə edir.[181] Sülh hüququ kimi inkişafa olan hüquq da ünvanlandığı subyektin həcmi baxımından fərqlənə bilər. İnkişafa olan hüquq da konkret şəxsə aid fərdi inkişafa olan hüququ və ümumən xalqlara məxsus kollektiv hüquq kimi başa düşülərək özündə özünü təyin etmək hüququnu da ehtiva edir.[182]

İnkişafa olan hüquq, demək olar ki, bütün silahlı münaqişələr, cinayətkarlıq, digər təhlükəli proseslərdə pozulan insan hüquqları içərisində ən birinci olaraq göstərilməlidir. Bu baxımdan inkişafa olan hüququn Azərbaycanın işğal edilmiş ərazilərindən olan məcburi köçkünlərə aid edilməsi və bu hüququn sırf məcburi köçkün problemi kontekstində təhlili gələcəkdə müharibələr və inkişafa olan hüquq əlaqələrinin daha dərindən öyrənilməsi, dünyanın digər regionlarından olan məcburi köçkünlərin inkişafa olan hüququnun pozulması faktları ilə birgə təhlillərin aparılmasına əsas ola bilər.

İnkişafa olan hüquqa və bütövlükdə inkişaf problemlərinə həsr edilən beynəlxalq qanunvericilik standartları inkişafa olan hüququ bir neçə aspektdə nəzərdən keçirir: bütövlükdə beynəlxalq hüququn əsas məqsədlərindən və prinsiplərindən biri kimi davamlı inkişaf konsepsiyası və davamlı inkişaf hüququ daxilində; ayrıca normativ bazası olan insan hüququ kimi.

1992-ci il tarixli Rio-de-Janeyro Konfransında qəbul edilən Bəyannamə davamlı inkişafın sosial-iqtisadi əsaslarını hüquqi cəhətdən daha dəqiq müəyyənləşdirmişdir.[183] Bəyannamədə davamlı inkişaf istiqamətində təqribən 12 prinsip təsbit edilmişdir. Hüquqi cəhətdən məcburi öhdəlik qoymasa da, Bəyannamə inkişafa olan hüquq üçün bir sıra mühüm təkliflər vermişdir.

Davamlı inkişaf konsepsiyasına uyğun olaraq İnkişafa olan hüquq haqqında 1986-cı il tarixli BMT Bəyannaməsi də insan fərdini inkişaf prosesinin mərkəzində görür.[184] Bəyannamənin 2-ci maddəsinin 1-ci bəndində deyilir: "İnsan fərdi inkişafın mərkəzi subyektdir və inkişafa olan hüququn fəal iştirakçısı və faydalananı olmalıdır." Daha sonra, Bəyannamənin 1-ci maddəsinin ilk bəndi inkişafa olan hüququ belə təsbit edir: "İnkişafa olan hüquq elə bir ayrılmaz insan hüququdur ki, onun əsasında hər bir insan fərdinə və bütün xalqlara bütün insan hüquqları və əsas azadlıqlarının tam həyata keçirilə biləcəyi iqtisadi, sosial, mədəni və siyasi inkişafda iştirak etmək, inkişafa dəstək olmaq və ondan yararlanmaq hüququ bəxş olunmuşdur."

Bəyannamənin 2-ci maddəsinin 1-ci hissəsinin tələbinə görə, insan inkişaf prosesinin əsas subyektidir, inkişaf hüququnun fəal iştirakçısı və faydalananı olmalıdır. Bundan başqa, 8-ci maddənin 1-ci hissəsində qeyd edilir ki, dövlətlər inkişaf hüququnun həyata keçirilməsi üçün milli səviyyədə lazım olan bütün tədbirləri görməlidirlər. Məsələn, ehtiyatlara yol tapmağa, təhsilə, səhiyyəyə, qidalanmaya, mənzilə, məşğulluğa və gəlirlərin ədalətli bölgüsünə aid məsələlərdə hamı üçün inkişafın bərabərliyi təmin edilməlidir; inkişaf prosesində qadınların

[181] Xigen W. The Right to Development: Analysis of Sustainable Development and the Practice of Good Governance. The Netherlands, Leiden, Koninlijke Brill, 2019, p.176
[182] Ngang C.C., Kamga S.D., Gumede V. Perspectives On The Right To Development. South Africa, University of Pretoria Press, 2018, p. 17
[183] Rio Declaration on Environment and Development, 1992 https://undocs.org/en/A/CONF.151/26/Rev.1(vol.I)
[184] UN GA A/RES/41/128 - Declaration on the Right to Development. Adopted by General Assembly on 4 December 1986 https://www.ohchr.org/en/professionalinterest/pages/righttodevelopment.aspx

fəal rolunun təmin edilməsi üçün təsirli tədbirlər görülməlidir; bütün sosial ədalətsizlikləri ləğv etmək məqsədilə müvafiq iqtisadi və sosial islahatlar keçirilməlidir. Bununla yanaşı, həmin Bəyannamənin 10-cu maddəsində birbaşa göstərilir ki, milli və beynəlxalq səviyyələrdə siyasi tədbirlərin, qanunvericilik tədbirlərinin və digər tədbirlərin işlənib hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi daxil olmaqla, inkişafa olan hüququn tam həyata keçirilməsini və durmadan möhkəmləndirilməsini təmin etmək üçün bütün tədbirlər görülməlidir.

Xüsusilə məcburi köçkünlərə dair inkişafa olan hüquq haqqında müddəa həmin Bəyannamənin 5-ci maddəsində təsbit edilmişdir: "Dövlətlər, aparteid, hər cür irqçilik və irqi ayrı-seçkilik, müstəmləkəçilik, xarici hökmranlıq və işğal, təcavüz, xarici müdaxilə və milli suverenliyə, milli birlik və ərazi bütövlüyünə qarşı təhdidlər, müharibə təhdidləri və xalqların öz müqəddəratını təyinetmə əsas hüququnu tanımaqdan imtina nəticəsində yaranan halların təsirinə məruz qalan insan fərdlərinin və xalqların hüquqlarının kütləvi və açıq şəkildə pozulmasını aradan qaldırmaq üçün qətiyyətli addımlar atmalıdırlar."

İnsan hüquqları üzrə 25 iyun 1993-cü il tarixli Ümumdünya Konfransında qəbul edilmiş Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında göstərilir ki, İnsan hüquqları üzrə Ümumdünya Konfransı İnkişafa olan hüquq haqqında Bəyannamədə müəyyən edilən inkişafa olan hüququ əsas insan hüquqlarının ayrılmaz tərkib hissəsinə daxil olan universal və ayrılmaz hüquq kimi təsdiq edir.[185]

Bütövlükdə, hər bir insan hüquqları istiqamətində inkişafa olan hüququn pozulması Ermənistan tərəfindən Azərbaycan məcburi köçkünlərinin başqa hüquqları ilə yanaşı, bu sahədə də əsas insan hüquqları standartlarını kobud şəkildə pozduğunun sübutudur.

5.18. Digər hüquqlar

5-ci bölmədə təhlil edilmiş hüquqlarla məhdudlaşmayaraq, Azərbaycan məcburi köçkünlərinin digər hüquqlarının da pozulması təhlil edilməlidir. Qeyd etmək lazımdır ki, bu kateqoriyadan olan şəxslərin hüquqlarının realizə edilməsi onların düşdükləri vəziyyətlə daha da ağırlaşır. Bu baxımdan onların bəzi digər hüquqlarının həyata keçirilməsi də məhdudlaşmış, digərlərinin isə müvəqqəti məskunlaşdığı yerlərdə həyata keçirilməsinə nail olunmuşdur. Məsələn, məcburi köçkünlərin Azərbaycanın müxtəlif bölgələrində məskunlaşması və bir qayda olaraq inzibati idarəetmə orqanlarının (icra, hüquq mühafizə, məhkəmə və s.) onların müvəqqəti yaşadığı yerlərdən uzaq olması təhlil edilmiş hüquqların çatımlılığı baxımdan da məhdudlaşdırılması ilə nəticələnmişdir.

Digər hüquqlardan danışarkən siyasi hüquq və azadlıqlar qrupuna aid olan məlumat almaq azadlığının pozulmasını (məcburi köçkünlərin öz doğma yurdları haqqında məlumat almaqdan məhrum olması) qeyd etmək olar. Bundan başqa, işğal nəticəsində məcburi köçkünlər yerli özünüidarəetmədə iştirakdan da məhrum olmuşlar. Belə ki, məcburi köçkünlər tarixən yaşadıqları və sonradan Ermənistan tərəfindən işğal edilmiş ərazilər üzrə yerli özünüidarəetrmə hüququndan xeyli müddət məhrum olmuşlar.

Daha sonra, məcburi köçkünlərin hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ ilə ifadə edilən nikah hüququ da pozulmuşdur. Belə ki, Azərbaycan dövləti məcburi köçkünlər üçün normal yaşayış şəraiti təmin edənə qədər onların ailə qurmaq

[185] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2019, s. 129-130

üçün minimum şəraitinin olmaması da bu hüququn ciddi məhdudlaşdırılmasına gətirib çıxarmışdır.

Vacib önəm kəsb edən hüquqlardan biri də ÜİHB-nin 28-ci maddəsində əks olunmuş hər kəsin həmin Bəyannamədə göstərilən hüquq və azadlıqların tam olaraq həyata keçirilə biləcəyi sosial və beynəlxalq bir qayda əldə etmək hüququna malik olmasıdır. Belə ki, Azərbaycan dövlətinin bu sahədə atdığı bütün addımlara baxmayaraq, məcburi köçkünlərin hüquqlarını təmin edəcək işlək beynəlxalq qaydanın olmaması bu zaman xüsusi qeyd edilməlidir.

Nəticə: *Azərbaycan məcburi köçkünlərinin bir sıra mühüm hüquq və azadlıqlarının ərtaflı təhlili göstərir ki, bu hüquq və azadlıqlar Ermənistan tərəfindən kütləvi, sistematik və kobud şəkildə pozulmuşdur. Bundan başqa, insan hüquqları sistemində bütün hüquq və azadlıqlar bir-biri ilə sıx bağlı olduğundan, o cümlədən Azərbaycan məcburi köçkünlərinin əksər mühüm hüquq və azadlıqları kütləvi, sistematik və kobud şəkildə pozulduğundan, bu bütövlükdə onların bütün hüquqlarının pozuntusu ilə nəticələnmişdir.*

6. Ermənistan tərəfindən beynəlxalq hüququn əsas prinsiplərinin pozulması və törədilən beynəlxalq cinayətlər

Beynəlxalq hüquq qaydasının əsası və beynəlxalq qanunçuluğun mühüm meyarı olan beynəlxalq hüququn əsas prinsipləri *jus cogens* xarakterli olmaqla, başqa hüquqi normaların yaradılması üçün hüquqi bazanı təşkil edir. Beynəlxalq hüququn əsas prinsipləri universal xarakterli normalardır, onlar heç bir istisna olmadan bütün dövlətlərarası münasibətlərə şamil edilir və dövlətlərarası münasibətlərin inkişafı üçün mühüm siyasi-hüquqi əsas rolunu oynayır. Əsas prinsiplər BMT Nizamnaməsində təsbit olunmuşdur və əksər hallarda BMT Nizamnaməsinin prinsipləri adlanır. Onların məzmunu və sistemi isə BMT BA-nın BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannaməsində müəyyən edilmişdir. 7 mühüm prinsipin təsbit olunduğu həmin Bəyannamədə birbaşa olaraq qeyd edilir ki, beynəlxalq hüququn prinsiplərinin tövsifi və tətbiqi zamanı onlar qarşılıqlı əlaqədə olur və hər bir prinsipin başqa prinsiplər kontekstində nəzərdən keçirilməsi zəruridir. ATƏM-in 1975-ci il tarixli Helsinki Yekun Aktında isə beynəlxalq hüququn əlavə olaraq 3 mühüm prinsipi də təsbit olunmuşdur[186].

Beləliklə, BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannamə və ATƏM-in 1975-ci il tarixli Helsinki Yekun Aktı ilə beynəlxalq hüququn 10 mühüm prinsipi müəyyən edilmişdir:

- güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipi;
- beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi;
- dövlətlərin suveren bərabərliyi prinsipi;
- dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi;
- dövlətlərin əməkdaşlığı prinsipi;
- beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi;
- xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipi;
- dövlətlərin ərazi bütövlüyü prinsipi;
- sərhədlərin pozulmazlığı prinsipi;
- insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi.

Ermənistan tərəfindən Azərbaycan məcburi köçkünlərinin hüquqlarının pozulması, o cümlədən, törədilən beynəlxalq cinayətlər, ilk növbədə, beynəlxalq hüququn *jus cogens* normaları hesab edilən əsas prinsiplərin ciddi, kobud və sistematik pozuntusu hesab edildiyindən, onların qısaca təhlili vacib məsələlərdəndir.

[186] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, “Nurlar”, 2018, p. 9-10

6.1. Güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipi

Güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipinin normativ əsası öz əksini BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində tapmışdır. Belə ki, qeyd edilir ki, BMT-nin bütün üzvləri öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya BMT-nin məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər. Bu sahədə mühüm sənədlər kimi Müharibədən milli siyasət aləti kimi imtina haqqında 1928-ci il tarixli Brian-Kelloq Paktı, Təcavüzün tərifi haqqında BMT BA tərəfindən qəbul edilmiş 1974-cü il tarixli qətnamə, Beynəlxalq münasibətlərdə güclə hədələməkdən və ya onun tətbiqindən imtina edilməsi prinsipinin səmərəliliyinin artırılması haqqında 1987-ci il tarixli BMT BA tərəfindən qəbul edilmiş Bəyannamə və s. qeyd edilməlidir.[187]

Ermənistanın apardığı məqsədyönlü təcavüz siyasəti nəticəsində Azərbaycanın hazırda beynəlxalq hüquqla tanınmış sərhədləri çərçivəsində, o cümlədən SSRİ-nin mövcudluğu dövründə Azərbaycan SSR-nin tərkibinə daxil olan və SSRİ-nin Konstitusiyasına, o cümlədən Azərbaycan SSR-nin Konstitusiyasına əsasən onun ayrılmaz tərkib hissəsi olmuş, sonradan 26 noyabr 1991-ci il tarixdə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə ləğv edilmiş Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılmış bölgəsi (*1991-ci ilədək Azərbaycanın inzibati ərazi bölgüsünə əsasən – Şuşa, Xocavənd, Əsgəran, Hadrut, Ağdərə rayonları və Xankəndi şəhəri daxil olmuşdur*) işğal edilmişdi. Bundan əlavə, həmin bölgəyə bitişik 7 rayon – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bütövlükdə və ya əksər yaşayış məntəqələri daxil olmaqla ermənilər tərəfindən işğal olunmuşdu. Belə ki, Ağdam ərazisinin 77,4 faizi, Cəbrayıl və Füzuli ərazisinin ayrı-ayrılıqda 79,3 faizi, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları isə bütövlükdə erməni işğalçıları tərəfindən işğal edilmişdi. Bundan başqa, Tərtər rayonunun 13 məntəqəsi də Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuşdu. Naxçıvan Muxtar Respublikasının 1 və Qazax rayonunun 7 yaşayış məntəqəsi hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.[188]

BMT BA-nın 1974-cü il tarixli Təcavüzün tərifi haqqında 3314 saylı qətnaməsinin 1-ci maddəsinə uyğun olaraq, təcavüz dedikdə, bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı, yaxud BMT Nizamnaməsi ilə bir araya sığmayan istənilən digər şəkildə silahlı gücün istifadəsi başa düşülür. Bundan əlavə, qətnamənin 3-cü maddəsinə uyğun olaraq, aşağıdakı aktlardan biri təcavüz hesab olunur:

a) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisinə soxulması və ya basqın etməsi, yaxud hər hansı hərbi işğal;

b) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisini bombardman etməsi və ya onun ərazisinə qarşı hər hansı silah tətbiq etməsi;

c) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin liman və ya sahillərini blokadaya alması;

d) bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin quru, dəniz və ya hava qüvvələrinə, yaxud dəniz və hava donanmasına basqın etməsi;

[187] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 27

[188] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 36-38

e) bir dövlətin, başqa bir dövlətin ərazisində onunla razılaşma əsasında yerləşən silahlı qüvvələrinin bu razılaşmanın şərtlərini pozmaqla istifadə edilməsi, habelə həmin silahlı qüvvələrin bu razılaşmanın xitam olunmasından sonra göstərilən ərazidə qalmaqda hər hansı formada davam etməsi;

f) dövlətin öz ərazisini, həmin ərazini üçüncü bir dövlətə qarşı təcavüz aktı törətmək üçün istifadə edən başqa bir dövlətin sərəncamına verməsi;

g) bir dövlət tərəfindən və ya həmin dövlətin adından başqa bir dövlətə qarşı hərbi əməliyyatlar həyata keçirən silahlı bandaların, qrupların, qeyri-nizami qüvvələrin və ya muzdluların göndərilməsi.[189]

Ermənistanın Azərbaycana qarşı yol verdiyi təcavüz cinayətində düzünə və ya dolayısı olmasından asılı olmayaraq, 1974-cü il qətnaməsində nəzərdə tutulan bütün əlamətlərin özünü açıq-aşkar büruzə verməsi faktı dəfələrlə təkrarlanmışdır. BMT İHK-nın MSHBP-nin 6-cı maddəsinin təfsirinə dair 30 aprel 1982-ci il tarixli 6 saylı Ümumi Rəyinin 2-ci bəndində qeyd edilmişdir ki, özünümüdafiə hüququ istisna olmaqla, BMT Nizamnaməsinə uyğun olaraq, hər hansı dövlətin digər dövlətə qarşı güc təhdidi və ya onun tətbiqi artıq qadağan edilmişdir.

Hazırda beynəlxalq müstəvidə təcavüz cinayəti üzrə yurisdiksiyaya malik olan yeganə qurum BCM-dir. Bəlli olduğu kimi, 2010-ci ildə Roma Statutuna edilmiş əlavələrə əsasən təcavüzün anlayışı verilmiş (8-bis) və həmin cinayət üzrə yurisdiksiyanın həyata keçirilməsinin şərtləri müəyyən edilmişdir (15-bis və 15-ter).

Ermənistan tərəfindən uzun müddət Azərbaycan ərazilərinin işğalda saxlanılması və Azərbaycanın öz ərazilərini BMT TŞ-nin qətnamələrini əsas tutaraq işğaldan azad etməsi dövründə Ermənistanın bütün qüvvələri ilə hərbi əməliyyatlarda iştirak edərək buna mane olması, nəhayət 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli Bəyanatla işğal edilmiş digər Azərbaycan ərazilərini qaytarması uzun müddət Ermənistanın təcavüz cinayəti etdiyini bir daha təsdiq edir.

6.2. Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipi

Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsinin təsbit edildiyi beynəlxalq sənədlər kimi Beynəlxalq mübahisələrin dinc həlli haqqında 1907-ci il tarixli Haaqa Konvensiyası, Müharibədən milli siyasət aləti kimi imtina haqqında 1928-ci il tarixli Brian-Kelloq Paktı, Beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən mübahisə və situasiyaların qarşısının alınması və aradan qaldırılması və bu sahədə BMT-nin rolu haqqında 1988-ci il tarixli Bəyannamə və s. xüsusilə əhəmiyyətlidir[190].

BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü bəndində qeyd edilir ki, BMT-nin bütün üzvləri öz beynəlxalq mübahisələrini dinc vasitələrlə o qaydada həll edirlər ki, beynəlxalq sülh və təhlükəsizlik və ədalət təhlükəyə məruz qalmasın. 1928-ci il tarixli Brian-Kelloq Paktının 2-ci maddəsində birbaşa göstərilir ki, müqavilənin iştirakçısı olan dövlətlər öz aralarında ortaya çıxan bütün mübahisə və ya münaqişələri onların xarakterindən və mənşəyindən asılı olmayaraq, yalnız dinc vasitələrlə həll etməlidirlər.

Müvafiq prinsip dövlətləri istənilən dövlətlərarası mübahisələri dinc vasitələrlə həll etməyə çağırır. Tərəflər mübahisə edən zaman problemin dinc yolla tənzimlənməsindən

[189] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p.44-48
[190] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 21-22

imtina etmək hüququna malik deyildir. Beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən mübahisə və situasiyaların qarşısının alınması və aradan qaldırılması və bu sahədə BMT-nin rolu haqqında 1988-ci il tarixli Bəyannamə isə mübahisələrin və təhlükəli vəziyyətlərin qarşısının alınmasına və ləğvinə görə dövlətlərin məsuliyyəti prinsipini nəzərdə tutur. [191]

Bütövlükdə, beynəlxalq mübahisələrin dinc yolla həlli prinsipinin normativ məzmununa daxildir: dövlətlər öz mübahisələrini onların xarakterindən və mənşəyindən asılı olmayaraq, yalnız dinc vasitələrlə həll etməlidirlər; dövlətlər öz mübahisələrini həll edərkən dinc vasitələrdən hər hansı birini seçmək hüququna malikdirlər; dövlətlər öz aralarında olan mübahisələri həll olunmaq üçün hər hansı üçüncü tərəfə təqdim etməyə məcbur edilə bilməzlər; dövlətlər öz aralarında olan mübahisələrin kəskinləşməsinə səbəb ola bilən hərəkətlərdən çəkinməlidirlər; dövlətlər öz mübahisələrini beynəlxalq hüquq normaları əsasında həll etməlidirlər.

Beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi dövlətlərin özünün beynəlxalq öhdəliklərini yerinə yetirməsi və beynəlxalq təşkilatların qərarlarına hörmətlə yanaşmasında ifadə olunmalıdır. Ermənistan mövcud münaqişənin dinc yolla tənzimlənməsi məqsədini güdən beynəlxalq təşkilatların (BMT, AŞ, İƏT və s.) qərarlarına hörmət etməmiş və üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməmiş, nəhayət Azərbaycan və Ermənistan arasında münaqişənin həllinə nail olunması məqsədilə təşkil edilən birbaşa görüşlərdə Ermənistanın hazırkı və keçmiş rəhbərliklərinin qeyri-konstruktiv fəaliyyəti nəticəsində də bu prinsipin müddəaları tamamilə pozulmuşdur. Bütövlükdə, BMT TŞ-nin qətnamələrini uzun müddət yerinə yetirməmək beynəlxalq mübahisələrin dinc yolla həll edilməsi prinsipinin Ermənistan tərəfindən birbaşa pozulması deməkdir.

6.3. Dövlətlərin suveren bərabərliyi prinsipi

BMT Nizamnaməsinin 2-ci maddəsinin 1-ci bəndində Təşkilatın bütün üzvlərinin suveren bərabərliyi prinsipinə əsaslanması aydın şəkildə göstərilmişdir. Prinsipin əsas məzmununa daxildir: dövlətlər bir-birinin suveren bərabərliyinə, eləcə də hüquq subyektliliyi də daxil olmaqla, suverenliyə xas olan bütün hüquqlarına hörmət və ehtiram bəsləməyə borcludurlar; hər bir dövlət siyasi, sosial, iqtisadi və mədəni sistemlərini sərbəst seçmək və inkişaf etdirmək, qanunlarını və inzibati qaydalarını müəyyən etmək hüququna malikdir; bütün dövlətlər bərabər hüquq və vəzifələrə malikdirlər; bütün dövlətlər bir-birinə hörmət və ehtiram bəsləməyə və şəxsi qərarlarına əsasən beynəlxalq hüquqa müvafiq olaraq digər dövlətlərlə münasibətlərini həyata keçirməyə borcludurlar; hər bir dövlət beynəlxalq təşkilatlarda və müqavilələrdə iştirak etmək hüququna malikdir; dövlətlər beynəlxalq hüquq üzrə öhdəliklərini vicdanla yerinə yetirməyə borcludurlar.[192]

Ümumiyyətlə, müxtəlif anlayışlardan istifadə edilməsinə baxmayaraq, suveren bərabərlik prinsipi mahiyyət etibarilə eyni mənanı ifadə edir. Başqa sözlə ifadə etsək, dövlətlərin suveren bərabərliyi prinsipi iki mühüm müddəanın sintezi əsasında meydana gəlmişdir: dövlət suverenliyinə hörmət və dövlətlərin bərabərliyi prinsipi.

[191] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, “Nurlar”, 2019, s. 28-29
[192] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, “Nurlar”, 2018, p. 41-42

Dövlətlərin suveren bərabərliyi prinsipi üzrə mühüm normaların Ermənistan tərəfindən ciddi şəkildə pozulması tam şəkildə həyata keçirilmişdir. Ermənistan nəinki bərabərlik üzrə normalara əməl etməmiş, eyni zamanda Azərbaycanın suverenliyinə birbaşa təcavüz etmiş, uzun müddət Azərbaycan ərazilərini işğalda saxlamışdır. Bundan başqa, uzun müddət ərzində edilən və hazırda da davam etdirilən Ermənistan rəsmilərinin Azərbaycanın sərhədlərini qanunsuz keçməklə Azərbaycanın müvəqqəti olaraq Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərinə etdiyi səfərlər də Azərbaycan suverenliyinin birbaşa pozulmasıdır.

6.4. Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipi

Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin əsas məzmunu da BMT Nizamnaməsi ilə müəyyən olunmuşdur. Nizamnamə Təşkilata mahiyyət etibarilə istənilən dövlətin daxili səlahiyyətlərinə aid işlərə müdaxilə etmək səlahiyyəti vermir (Nizamnamənin 2-ci maddəsinin 7-ci bəndi). Dövlətlərin hüquq və vəzifələri haqqında 1933-cü il tarixli Montevideo Konvensiyasında qeyd edilir ki, heç bir dövlətin digər dövlətin daxili və xarici işlərinə qarışmaq hüququ yoxdur. Sonradan həmin müddəalar Dövlətlərin daxili işlərinə qarışmağın yolverilməzliyi, onların müstəqilliyinin və suverenliyinin qorunması haqqında 1965-ci il tarixli BMT Bəyannaməsində daha da inkişaf etdirilmişdir.

Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin normativ məzmununa aşağıdakılar daxildir: dövlətin suverenliyinə və onun siyasi və iqtisadi əsaslarına qarşı yönəlmiş silahlı müdaxilə və digər müdaxilə formaları qadağandır; heç bir dövlət başqa bir dövlətin onun öz suveren hüquqlarını həyata keçirmədə özünə tabe edilməsinə və bununla ondan hər hansı imtiyaz əldə edilməsinə nail olmaq üçün hərbi, siyasi və ya istənilən digər məcburiyyət tətbiq edə bilməz; başqa bir dövlətin quruluşunun zorakı yolla dəyişdirilməsinə yönəlmiş təxribatçı və ya terrorçu fəaliyyətin təşkili və ya dəstəklənməsi yolverilməzdir; başqa bir dövlətdə silahlı münaqişəyə müdaxilə qadağandır; hər bir dövlət digər bir dövlətin (və beynəlxalq hüququn digər subyektlərinin) müdaxiləsi olmadan öz siyasi, iqtisadi, sosial və mədəni sistemini seçmək hüququna malikdir.[193]

Daxili işlərə qarışmamaq prinsipinin pozulmasını göstərən əsas faktlardan biri də Ermənistan tərəfindən Azərbaycan ərazisində onun beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyünü pozaraq "qondarma dövlət"in formalaşdırılması və həmin "qondarma dövlət"in Ermənistanla "sıx bağlılığa" malik olmaqla onun tərəfindən idarə edilməsidir. Bunu Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin yerləşdirilməsi, hər iki tərəfin (Ermənistan və qondarma "Dağlıq Qarabağ Respublikası") yüksək hərbi komandanlıqları və heyətlərinin mütəmadi şəkildə "mübadiləsinin" həyata keçirilməsi, ssuda verilməsi vasitəsilə qondarma "Dağlıq Qarabağ Respublikası"nın büdcəsinin əsas hissəsinin Ermənistan tərəfindən maliyyələşdirilməsi (bəzi mənbələrə görə, bu hazırda qondarma "Dağlıq Qarabağ Respublikası" büdcəsinin 50 faizini təşkil edir; münaqişənin ilk illərində isə bu pay 90 faiz şəklində özünü büruzə vermişdir[194]), Ermənistan və qondarma "Dağlıq Qarabağ Respublikası"nın valyutalarının uyğunluğu və s. bilavasitə sübut edir. Bu faktlar AİHM-nin *"Chiragov and others v. Armenia"* qərarında və s. beynəlxalq təşkilatların qərarlarında da dəfələrlə təsdiq edilmişdir. [195]

[193] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 30-31
[194] Крюгер Х. Нагорно-Карабахский конфликт. Правовой анализ. Перевод с английского издания. Отв. ред. перевода А.И.Алиев, Т.И.Гусейнов. Баку, Издательство «Бакы Университети», 2012, с. 158-159
[195] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 42-43

Beləliklə, dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin əsas müddəalarına ümumi nəzər yetirilməsi bu normaların da Ermənistan tərəfindən ciddi şəkildə pozulmasına əlavə sübutlar təqdim etməyə ehtiyac yaratmır. Son olaraq qeyd edilməlidir ki, 27 sentyabr 2020-ci il tarixindən sonra Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin Azərbaycan silahlı qüvvələrinə qarşı vuruşması özü dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin bir daha açıq şəkildə Ermənistan tərəfindən kobud pozulmasıdır.

6.5. Dövlətlərin əməkdaşlığı prinsipi

Dövlətlərin əməkdaşlığı prinsipi dövlətlərin BMT Nizamnaməsi əsasında qarşılıqlı əlaqəsini nəzərdə tutur. BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndinə əsasən dövlətlərin üzərinə "iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi", Nizamnamənin 1-ci maddəsinin 1-ci bəndinə görə isə "beynəlxalq sülh və təhlükəsizliyin qorunması və bu məqsədlə səmərəli kollektiv tədbirlər" həyata keçirilməsi vəzifəsi qoyulmuşdur.

Dövlətlərin beynəlxalq əməkdaşlığının beynəlxalq-hüquqi əsasları BMT Nizamnaməsinin daha iki maddəsində öz əksini tapmışdır. Belə ki, Nizamnamənin 55-ci maddəsi sosial, iqtisadi və mədəni sahələrdə, o cümlədən irqi, cinsi, dil və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət və riayət edilməsinə dəstək verilməsi sahəsində dövlətlərin əməkdaşlığına həsr olunmuşdur. BMT Nizamnaməsinin 56-cı maddəsində isə qeyd edilir ki, Təşkilatın bütün üzvləri öz üzərilərinə 55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etmək barədə öhdəlik götürürlər. [196]

Beynəlxalq sülhün qorunması sahəsində əməkdaşlıq sözsüz ki, dövlətin hüquqi vəzifəsidir. Dövlətlər əməkdaşlıq prinsipi əsasında özlərinin beynəlxalq münasibətlərində elə davranmalıdırlar ki, əməkdaşlığa mane olmasınlar, əksinə, onu inkişaf etdirsinlər. Dövlətlərin əməkdaşlığının konkret formaları dövlətlərin özlərindən, onların tələbatı, ehtiyatları, daxili qanunvericilikləri və üzərilərinə götürdükləri beynəlxalq öhdəliklərdən asılıdır. Əməkdaşlıq həm də BMT məqsədlərinə zidd olmamalıdır.[197]

BMT Nizamnaməsi əməkdaşlıq ideyasını tam şəkildə müəyyən etmişdir. Qeyd edilən prinsip dövlətləri onların siyasi, iqtisadi və sosial sistemlərinin fərqli cəhətlərindən asılı olmayaraq bir-biri ilə əməkdaşlıq etməyə çağırır. Əməkdaşlığın əsas istiqamətləri kimi bunlar müəyyən olunmuşdur: sülhün və təhlükəsizliyin qorunması; insan hüquqlarına ümumi hörmət və ehtiram; iqtisadi, sosial, mədəni, texniki, ticarət və s. sahələrdə beynəlxalq münasibətlərin həyata keçirilməsi; BMT ilə əməkdaşlıq və onun Nizamnaməsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi; bütün dünyada, xüsusilə də inkişaf etməkdə olan ölkələrdə iqtisadi artıma yardım.

Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz və digər cinayətlərin törədilməsi özözlüyündə dövlətlərin əməkdaşlığı prinsipinin də ciddi pozulmasıdır. Bunlardan birincisi Azərbaycana münasibətdə Ermənistanın BMT Nizamnaməsinin 1.1-ci maddəsini pozması, yəni beynəlxalq sülh və təhlükəsizliyə təhdid yaratması ilə bağlıdır. İkinci məsələ isə Azərbaycan və Ermənistanın üzv olduğu universal və regional beynəlxalq təşkilatların təsis aktlarında

[196] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 33-34
[197] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 39-40

beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üzrə qarşılıqlı əməkdaşlıqla bağlı təsbit olunan normaların Ermənistan tərəfindən açıq-aydın şəkildə pozulmasını şərtləndirir. Ermənistanın qeyri-konstruktiv mövqeyi bu gün də Azərbaycanın əməkdaşlıq çağırışlarını qəbul etməməsi və yenə də müharibə siyasətini inkişaf etdirməsi ilə davam edir.

6.6. Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi

Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi beynəlxalq hüququn qədim prinsiplərindəndir. Bu prinsip beynəlxalq hüquqla eyni zamanda meydana çıxmış və *pacta sunt servanda* ("müqavilələrə riayət olunmalıdır") prinsipi kimi məşhur olmuşdur. Beynəlxalq hüququn hüquqi qüvvəsinin mənbəyi məhz bu prinsipdir.[198]

Beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi dövlətlərin beynəlxalq hüquq normalarının hüquqi qüvvəsinin tanınması barədə ümumi razılaşmalarını təsbit edir. 1969-cu il tarixli Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasında bu prinsip "hər bir qüvvədə olan müqavilə onun iştirakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir" kimi ifadə olunmuşdur. Həmin prinsipə riayət edilməsindən imtina hüquq pozuntusu kimi qiymətləndirilməli və hüquq pozuntusu törədən dövlət həm müqaviləni pozmasına, həm də onun nəticələrinə görə məsuliyyət daşımalıdır. BMT Nizamnaməsinin 2-ci maddəsinin 2-ci bəndində qeyd edilir ki, BMT-nin bütün üzvləri Təşkilata üzvlükdən irəli gələn hüquq və üstünlükləri özlərinə təmin etmək üçün bu Nizamnaməyə uyğun olaraq öz üzərilərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər. Bu zaman beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipi BMT Nizamnaməsindən, beynəlxalq hüququn əsas prinsiplərindən və beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsində öz əksini tapır.[199]

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın hüquqazidd fəaliyyəti dəfələrlə, hətta kosmik müşahidə və monitorinqlər nəticəsində öz təsdiqini tapmışdır. Belə ki, bunun bariz nümunəsini "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin 2017-ci il üzrə rəsmi hesabatında qeyd olunan məlumatda da görmək mümkündür. Hesabatda göstərilir ki, 2017-ci ildə Kəlbəcər və Zəngilan rayonları ərazisində yerləşən filiz yataqlarının kosmik monitorinqi həyata keçirilmiş və hasilat sahələrində baş vermiş ciddi genişlənmələr aşkar edilmişdi.[200] Belə ki, bu ərazilərdən olan zəngin qızıl yataqları Ermənistan tərəfindən xarici şirkətlər cəlb edilərək tam qanunsuz olaraq vəhşicəsinə istismar edilmiş və hər il milyardlarla qanunsuz gəlirlər əldə edilmişdi. Həmçinin, işğal olunmuş ərazilərdə tikinti materiallarının və üzlük daşının hasilatı da Ermənistanda həm tikinti meydançalarının genişlənməsinə, həm də üzlük daşının ixracatına geniş imkanlar yaratmışdı.

Yuxarıda qeyd edilənlər sadəcə bəzi faktlardır. Bütövlükdə, işğal edilmiş Azərbaycan ərazilərində Ermənistanın beynəlxalq hüquq normalarının kobud və ciddi pozuntusu ilə xarakterizə edilən fəaliyyətinin sərhədi olmamışdır.

Bundan başqa, üzv olduğu nüfuzlu beynəlxalq təşkilatların qərarlarını yerinə yetirməməsi, nəhayət iştirakçısı olduğu beynəlxalq müqavilələrə riayət etməməsi ümumilikdə Ermənistan tərəfindən beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipinin ən kobud şəkildə pozulmasını göstərir.

---

[198] Лукашук И.И. Международное право Общая часть. Учебник. Москва, Издательство БЕК, 1996, с. 288
[199] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 41
[200] "Azərbaycan" qəzeti, 11 yanvar 2018-ci il, № 6 (7733), s. 3

6.7. Xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipi

Xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipi beynəlxalq hüququn mühüm prinsipi kimi BMT Nizamnaməsi qəbul edildikdən sonra öz inkişafını tapmışdır. BMT Nizamnaməsində, habelə MSHBP-də, daha sonra Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il tarixli Bəyannamədə xalqların özünü müəyyənetməsi hüququ ən mühüm və başlıca müddəalardan biri kimi müəyyən edilmişdir. Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında 1960-cı il tarixli Bəyannamədə xalqların və millətlərin hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipinin məzmunu "xalqın öz ictimai, iqtisadi və mədəni inkişaf yolunu maneəsiz seçmək hüququnun təsdiqi" kimi açıqlanmışdır. Bu sənədlə dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hər cür cəhdin BMT Nizamnaməsində öz əksini tapmış məqsəd və prinsiplərlə bir araya sığmadığı da ehtiva olunmuşdur. BMT BA-nın BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannaməsində göstərilir ki, xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipinin həyata keçirilməsi zamanı Bəyannamənin heç bir müddəası suveren və müstəqil dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyinin qismən və ya tamamilə pozulmasına, onların bölünməsinə yönəlmiş hərəkətləri müdafiə etmək, onlara razılıq kimi tövsif edilə bilməz. ATƏM-in 1975-ci il Helsinki Yekun Aktında da xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipi iştirakçı-dövlətlər tərəfindən BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə və beynəlxalq hüququn müvafiq, o cümlədən dövlətlərin ərazi bütövlüyünə aid olan normalarına uyğun hərəkət edərək həyata keçiriləcəyi öz ifadəsini tapmışdır. AŞ-nin Milli azlıqların müdafiəsi haqqında 1995-ci il Çərçivə Konvensiyasının preambulasında da milli azlıqların hüquqlarının dövlətin ərazi bütövlüyü təmin olunmaqla həyata keçirilməsinin zəruriliyi xüsusi qeyd olunur. Həmin Konvensiyanın 21-ci maddəsində birbaşa göstərilir ki, Konvensiyanın heç bir müddəası dövlətin suveren bərabərliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə zidd tövsif edilə bilməz. Analoji müddəa Regional dillər və ya azlıqların dilləri haqqında 1992-ci il tarixli Avropa Xartiyasının 5-ci, habelə Yerli xalqların hüquqları haqqında 2007-ci il BMT Bəyannaməsinin 46-cı maddələrində də öz əksini tapmışdır.[201]

Beləliklə, xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipi dövlətlərin ərazi bütövlüyü prinsipi ilə sıx bağlıdır, bu hüququn həyata keçirilməsi dövlətlərin suverenliyi və ərazi bütövlüyü ilə uzlaşmaqla mövcud dövlətin parçalanması üçün heç vaxt əsas olmamalıdır.[202]

Ermənistan-Azərbaycan münaqişəsində Ermənistanın Dağlıq Qarabağla əlaqədar məsələni xalqların özünü müəyyənetmə hüququ kimi xarakterizə etməsinə çalışmasına baxmayaraq, qeyd etmək lazımdır ki, birincisi, beynəlxalq hüquq milli və ya etnik azlıqlara ayrılmaq hüququ vermir. İkincisi, nəinki birbaşa, hətta əlavə və dolayı sesessiyaya qoyulan qadağa beynəlxalq hüququn dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsiplərinin tətbiqindən irəli gəlir. Nəhayət, üçüncüsü, Dağlıq Qarabağla bağlı problemə gəldikdə, həmin ərazinin ayrılması faktına görə aparılan müharibə özünümüəyyənetmə hüququ kimi deyil, mahiyyət etibarilə, Dağlıq Qarabağ ətrafında yeni hərbi əməliyyatların başlanmasını

[201] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 32-35
[202] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 31-32

göstərən və beynəlxalq hüququn pozuntusu sayılan sesessiya kimi qiymətləndirilməlidir.[203]

Hər bir dövlətdə kifayət qədər milli azlıqlar yaşayır. Sual yaranır ki, onların hamısı üçün dövlət yaradılmalıdırmı? Onda dünya dövlətlərinin sayı nə qədər olardı? Ermənistan dövləti təcrübəsində ermənilər artıq öz müqəddəratını təyin etmişlər. Digər xalqlar kimi, öz ərazisində yaşayan etnik ermənilərin hüquqlarını da Azərbaycan qorumağa hazırdır. Sadəcə buna Ermənistan mane olur və Azərbaycan dövlətinin daxili işlərinə qarışmaqla problemi genişləndirməyə çalışır. Azərbaycan öz ərazisində yaşayan digər xalqların hüquqlarını ən yüksək səviyyədə təmin etmişdir və bu gün də edir. Bunu Azərbaycanla bağlı beynəlxalq təşkilatların hesabatları da bir daha təsdiq edir. Deməli, Ermənistan xalqların hüquq bərabərliyi və özünü müəyyənetmə prinsipindən sui-istifadə etməklə həmin normaları kobud şəkildə pozur, bununla da regionda sülh və təhlükəsizliyə ciddi təhlükə yaradır.

6.8. Dövlətlərin ərazi bütövlüyü prinsipi

Ərazi dövlətlərin mövcudluğunun maddi əsasını təşkil edir. Ərazisiz dövlət yoxdur. Buna görə də dövlətlər onun bütövlüyünün təminatına xüsusi diqqət yetirirlər. Dövlətlərin hüquq və vəzifələri haqqında 1933-cü il tarixli Montevideo Konvensiyasının 1-ci maddəsinə uyğun olaraq, hər hansı təsisatın beynəlxalq-hüquqi baxımdan dövlət sayılması üçün zəruri olan əlamətlərindən biri də onun müəyyən əraziyə malik olmasıdır. Bundan başqa, həmin Konvensiyanın 11-ci maddəsində birbaşa olaraq göstərilmişdir ki, dövlətin ərazisi pozulmazdır, hərbi işğal, yaxud digər dövlət tərəfindən birbaşa və ya dolayısı yolla, yaxud müvəqqəti olmasından asılı olmayaraq istənilən hər hansı motivə görə başqa məcburetmə tədbirlərinin obyekti ola bilməz. Bu, BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində ehtiva olunmuş dövlətlərin hər hansı dövlətin ərazi bütövlüyünə qarşı gücün tətbiqindən çəkinmək öhdəliyində daha aydın şəkildə özünü büruzə verir. BMT BA-nın BMT Nizamnaməsinə uyğun olaraq, dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa dair beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannaməsində qeyd edilir ki, hər bir dövlət istənilən digər dövlətin və ya ölkənin milli birliyinin və ərazi bütövlüyünün tam və ya qismən pozulmasına yönəlmiş hər hansı hərəkətdən çəkinməlidir. Bununla yanaşı, qeyd olunur ki, dövlət ərazisi BMT Nizamnaməsinin müddəalarını pozmaqla, zor işlətmənin nəticəsi olan hərbi işğal predmeti olmamalıdır, dövlət ərazisi güc tətbiq etmək və güc tətbiq etməklə hədələmək nəticəsində digər dövlətin qazanc obyekti olmamalıdır.

Müstəqil prinsip kimi isə ərazi bütövlüyü prinsipi ATƏM-in 1975-ci il Helsinki Yekun Aktında təsbit olunmuşdur. Göstərilən prinsipin başlıca məzmunu ondan ibarətdir ki, dövlətlər bir-birinin ərazi bütövlüyünə hörmət etməlidirlər. Hər bir dövlət başqa bir dövlətin ərazi bütövlüyünün pozulmasına yönəlmiş hüquqazidd hərəkətlərdən çəkinməlidir. Dövlətin ərazisi qanunsuz güc tətbiqi nəticəsində hərbi işğal obyekti ola bilməz, iştirakçı-dövlətlər digər iştirakçı-dövlətlərin hər birinin ərazi bütövlüyünə hörmət etməlidirlər. Buna müvafiq olaraq hər hansı iştirakçı-dövlət digər iştirakçı-dövlətin siyasi müstəqilliyi və ya ərazi bütövlüyü əleyhinə BMT Nizamnaməsinin məqsəd və prinsipləri ilə uzlaşmayan istənilən hərəkətlərdən, o cümlədən güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən ibarət olan istənilən bu cür hərəkətlərdən çəkinməlidir. Ərazi bütövlüyünə dair müddəalar, həmçinin, Amerika Dövlətləri Təşkilatının

[203] Мережко А.А. Проблема Нагорного Карабаха и международное право. Киев, Издательский дом Дмитрия Бураго, 2014, с. 156

Nizamnaməsi (maddə 1, 21, 28), Afrika İttifaqının Təsis Aktı (maddə 3), İƏT-in Nizamnaməsi (maddə 1.3, 1.4, 2.4), Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsi (maddə 3) və s. beynəlxalq sənədlərdə də təsbit edilmişdir.[204]

Ümumilikdə dövlət ərazisinin bütövlüyü onu bildirir ki, dövlətlər xarici ərazinin parçalanmasına yönələn istənilən hərəkətlərdən çəkinməlidir. Belə hərəkətlər dinc və ya qeyri-dinc, yəni hərbi xarakterli, yaxud güc tətbiq etmə hədəsi ola bilər. Lakin onların hamısı hüquqaziddir. Həm dövlət ərazisinin pozulmazlığı, həm də dövlət ərazisinin bütövlüyü anlayışlarının əsasən üst-üstə düşməsi onlara eyni prinsipin müxtəlif tərəfləri kimi baxmağa imkan verir.

6.9. Sərhədlərin pozulmazlığı prinsipi

Sərhədlərin pozulmazlığı prinsipi ATƏM-in 1975-ci il Helsinki Yekun Aktında müstəqil prinsip kimi təsbit olunmaqla beynəlxalq münasibətlərdə daha sərbəst və məcburi norma kimi tanınmışdır. Dövlətin razılığı olmadan onun sərhədləri heç bir halda dəyişdirilə bilməz. Sərhədlərin pozulmazlığı prinsipinin normativ məzmunu əsasən bu elementləri özündə birləşdirir: mövcud sərhədlərin hüquqi cəhətdən beynəlxalq hüquqa uyğun qaydada təsbit olunmasının tanınması; hazırda və gələcəkdə hər hansı ərazi iddialarından imtina; bu sərhədlərə güc tətbiq etmək və güc tətbiq etməklə hədələmək də daxil olmaqla, hər hansı qəsddən imtina etmək.[205]

Dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsiplərinin pozuntusunun ən bariz nümunəsi Ermənistan tərəfindən Azərbaycan ərazilərinin uzun müddət ərzində işğal edilməsi olmuşdur. Hazırda isə Ermənistan və Azərbaycan arasında dövlət sərhədlərinin müəyyən edilməsi zamanı Ermənistan tərəfindən kifayət qədər Azərbaycan sərhədlərinin pozulması və həmin ərazilərin Ermənistan ərazisi hesab edilməsinə cəhd halları müəyyən edilmişdir. Belə hallar müəyyən edilərək Azərbaycan sərhədləri bərpa edilir. Bundan başqa, bu gün də Ermənistan tərəfindən Azərbaycanın ərazisinə edilən qanunsuz səfərlər sərhədlərin pozulmazlığı prinsipinə ciddi təhdiddir.

Qeyd edilənlər dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmazlığı prinsiplərinin Ermənistan tərəfindən daim ciddi pozulduğunu bir daha təsdiq edir.

6.10. İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi

İnsan hüquqları və əsas azadlıqlarına hörmət prinsipi ümumi formada BMT Nizamnaməsində təsbit edilmiş və sonradan ATƏM-in 1975-ci il Helsinki Yekun Aktında beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi əks olunmuşdur. Bütövlükdə, insan hüquqlarının mühüm prinsipləri BMT Nizamnaməsi, ÜİHB, MSHBP, İSMHBP, UHK, 1965-ci il tarixli İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya, 1979-cu il tarixli Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiya və s. beynəlxalq sənədlərdə təsbit edilmişdir.[206]

Ermənistan-Azərbaycan münaqişəsi, habelə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində meydana çıxan insan hüquqları pozuntularını üç aspektdən qiymətləndirmək olar.

---

[204] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 10-11
[205] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 32-33
[206] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 24-26

Pozuntunun birinci tərəfi silahlı münaqişə prosesində insanların – qeyri-erməni əsilli Azərbaycan vətəndaşlarının yaşamaq hüququnun pozulması ilə bağlıdır.

Ermənistanın Azərbaycana qarşı beynəlxalq cinayətlər törətməsi kontekstində insan hüquqlarının pozulmasının ikinci tərəfi təcavüz və digər beynəlxalq cinayətlər nəticəsində 1 milyona yaxın Azərbaycan vətəndaşının məcburi köçkün vəziyyətinə düşməsi, nəhayət həmin şəxslərin hüquqlarının kobud çəkildə pozulması ilə bağlıdır.

Ermənistanın törətdiyi beynəlxalq cinayətlər nəticəsində insan hüquqlarının pozuntusunun üçüncü aspekti isə Azərbaycan vətəndaşlarının silahlı münaqişə nəticəsində əsir və girov götürülməsi, habelə itkin düşməsi nəticəsində onlara məxsus subyektiv imkanların realizəsindən kobudcasına məhrum edilməsi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, erməni əsirliyində olan minlərlə Azərbaycan vətəndaşının beynəlxalq hüquq normaları ilə malik olduqları insan hüquqları (məsələn, yaşamaq hüququ, işgəncələrə məruz qalmamaq hüququ, köləliyin və məcburi əməyin qadağan edilməsi və s.) kütləvi, sistematik və kobud şəkildə pozulmuşdur. Bunu yaşı, cinsi, sağlamlığı və digər əlamətlərinə fərq qoymadan erməni əsirliyində olan Azərbaycan vətəndaşlarına qarşı törədilən kifayət qədər müxtəlif hüquq pozuntuları faktları sübut edir.[207]

Qeyd edilənlər insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin Ermənistan tərəfindən kobud şəkildə pozulduğunu göstərən kifayət qədər hallardan bəzi misallardır.

Nəticə: *Göründüyü kimi, 1991-ci ildə müstəqilliyini əldə etmiş Ermənistan iştirakçısına çevrilmiş beynəlxalq hüquq qaydasının mövcud norma və prinsiplərinə uyğun inteqrasiya etməkdən boyun qaçırmış, tərəfindən beynəlxalq münasibətlərin tənzimlənməsinin əsasını təşkil edən beynəlxalq hüququn əsas prinsiplərinin kobud şəkildə pozulması nəinki jus cogens normalarının da daxil olduğu bütün beynəlxalq hüquq normalarına riayət edilməməsinə, həmçinin geniş miqyaslı beynəlxalq cinayətlərin törədilməsinə gətirib çıxarmışdır.*

6.11. Törədilən beynəlxalq cinayətlər

Ermənistanın törətdiyi beynəlxalq cinayətlər əsasən üç əsas istiqamətdə və xüsusiyyətdə özünü büruzə vermişdir:

- Azərbaycan ərazilərinin işğal edilməsinin başlandığı və işğal edildiyi dövrdən müvəqqəti atəşkəs elan edildiyi dövrə qədər törədilən beynəlxalq cinayətlər;

- Müvəqqəti atəşkəs elan edildiyi dövrdən 27 sentyabr 2020-ci il tarixinə qədər olan dövrdə törədilən beynəlxalq cinayətlər;

- 27 sentyabr 2020-ci il tarixindən sonrakı hərbi əməliyyatlar dövründə törədilən beynəlxalq cinayətlər.

Hər üç dövr üçün xarakterizə olunan beynəlxalq cinayətlər bunlardır:

1. *Təcavüz;*
2. *Soyqırımı;*
3. *İnsanlıq əleyhinə cinayətlər;*
4. *Müharibə cinayətləri* (müharibə cinayətləri geniş mənada beynəlxalq humanitar hüquq normalarının pozuntularını bildirir. Buna bəzən müharibə qanun və adətlərinin pozuntuları da deyilir).

Ermənistan tərəfindən törədilən əsas müharibə cinayətlərinə aiddir:

[207] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, “Nurlar”, 2018, p. 24-31

- qəsdən adamöldürmə;
- işgəncə və qeyri-insani rəftar;
- hərbi zərurətlə bəraət qazandırılmayan və qanunsuz və böyük miqyasda törədilən dağıntılar və əmlakın ələ keçirilməsi;
- hərbi əsirin və ya mülki şəxsin ədalətli məhkəmə araşdırmasına olan hüququndan qəsdən məhrum edilməsi və ya "qanunsuz məhkəmələr"in keçirilməsi;
- girov götürülməsi;
- mülki əhalinin və ya ayrı-ayrı mülki şəxslərin hücum obyekti edilməsi;
- hərbi əsirlərin və ya mülki şəxslərin geri qaytarılmasının əsas olmadan yubadılması;
- zəhərli silahların və ya lüzumsuz əzab-əziyyət törətmək üçün nəzərdə tutulmuş digər silahların tətbiq edilməsi;
- şəhər, qəsəbə və ya kəndlərin mənasız dağıdılması;
- müdafiə olunmayan şəhərlərin, kəndlərin, binaların və ya yaşayış evlərinin istənilən vasitələrlə bombardman edilməsi;
- təhsil, incəsənət və elm idarələrinin, dini və tarixi abidələrin, incəsənət və elm əsərlərinin qəsb edilməsi, dağıdılması və ya onlara qəsdən ziyan vurulması;
- ictimai və ya xüsusi əmlakın talan edilməsi;
- silahlı münaqişə zamanı ətraf mühitə genişmiqyaslı, uzunmüddətli və ağır ziyan vurulması niyyəti ilə hərbi zərurətlə əsaslandırılmayan müharibə üsul və vasitələrinin tətbiqi;
- muzdluların maliyyələşdirilməsi, onlara təlim keçirilməsi və onların hərbi əməliyyatlara cəlb edilməsi (4 dekabr 1989-cu il tarixli Muzdluların cəlb edilməsinə, onlardan istifadə olunmasına, onların maliyyələşdirilməsinə və təliminə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiyaya Azərbaycan uzun müddətdir ki, qoşulmasına baxmayaraq, Ermənistan bu Konvensiyaya yalnız 2020-ci ilin oktyabr ayının son günlərində qoşulmuşdur. Bununla da Ermənistan bu Konvensiyaya uzun müddərdir ki qoşulmamaqla bu sferadakı öhdəlikləri yerinə yetirməmiş və ondan boyun qaçırmış, daim muzdlulardan Azərbaycana qarşı müxtəlif beynəlxalq cinayətlər törətməkdə istifadə etmişdir. Bu barədə kifayət qədər materiallar mövcuddur.[208]);
- 15 yaşına çatmayan şəxslərin hərbi əməliyyatlara cəlb edilməsi[209];
- işğal edən dövlət tərəfindən öz əhalisinin bir hissəsinin işğal etdiyi ərazilərə köçürülməsi (Məsələn, ATƏT-in Faktaraşdırıcı missiyasının "Dağlıq Qarabağ ətrafında işğal olunmuş Azərbaycan ərazilərində vəziyyətə dair" 28 fevral 2005-ci il tarixli hesabatında göstərilmişdir ki, *"Bu hesabatda müzakirə olunan və əhalisi ilə Faktaraşdırıcı missiyanın söhbət apardığı ərazilərdə yerləşdirməyə dair rəqəmlər aşağıdakı kimi hesablanıb və ya birbaşa olaraq müşahidə edilib: Kəlbəcər rayonunda təxminən 1500 nəfər; Ağdam rayonunda 800-1000 nəfər; Füzuli rayonunda 10 nəfər; Cəbrayıl rayonunda 100 nəfər; Zəngilan rayonunda 700-1000 nəfər; Qubadlı rayonunda 1000-1500 nəfər.*[210] Eyni zamanda, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Cənubi Qafqaz üzrə Miqrasiya Nümayəndəliyinin 2004-cü il oktyabr ayının 25-də apardığı hesablamalarına görə, hər ay orta hesabla Dağlıq Qarabağ ərazisinə 15-ə yaxın erməni mənşəli ailə köçürülmüş və 2004-cü ildə belə ailələrin sayı 200-ə çatmışdı. Bununla yanaşı,

[208] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 59-60
[209] https://mail.mia.az/w1000496/1000496; https://xalqqazeti.com/az/news/61046; http://yap.org.az/az/view/news/46545/sedaqet-veliyeva-ermenistanin-fashist-rejimi-herbi-emeliyyatlara-ushaqlari-celb-etmesine-gore-sert-cezalandirilmalidir
[210] www.legal-tools.org/doc/b08893/pdf/

açıq qaynaqlara istinadən, 2004-cü ilin ilk altı ayı ərzində işğal olunmuş ərazilərə 120 erməni ailəsi köçürülmüşdü.[211] Azərbaycanın Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 2015-ci il məlumatlarına görə, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə 8500, Laçına 13000, Kəlbəcərə 700, Zəngilana 520, Cəbrayıla 280 nəfər olmaqla, cəmi 23000 nəfər şəxs qeyri-qanuni olaraq məskunlaşma üçün köçürülmüşdü[212]).

5. 10 noyabr 2020-ci il tarixli Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə Azərbaycan ərazisində ermənilər tərəfindən yenə də müharibə cinayətlərinin törədilməsi, qanunsuz silahlı qruplaşmaların yaradılması, terror, ekoloji cinayətlər və eyni zamanda, Azərbaycanın cinayət qanunvericiliyi ilə cəzalandırılmalı olan digər cinayətlərin törədilməsi baş vermişdir.

Nəticə: *Yuxarıda qeyd edilənlər onu təsdiq edir ki, Ermənistan tərəfindən Azərbaycan məcburi köçkünlərinin hüquqlarının pozulması həmin dövlət tərəfindən törədilən ağır beynəlxalq cinayətlərin baş verməsi ilə həyata keçirilmişdir.*

[211] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, “Nurlar”, 2018, p. 123-130
[212] www.human.gov.az/imagemanager/images/xerite_big.jpg

7. İşğalla əlaqədar vurulmuş ziyanların təxmini əhatə dairəsi

Ermənistan tərəfindən vurulmuş ziyanların əhatə dairəsi olduqca genişdir. Burada on minlərlə qətlə yetirilmiş insanlar, illərdir köçkün həyatı yaşayan ailələr, bütün əmlakını itirmiş şəxslər, dağıdılmış infrastruktur və evlər, bərpa edilməsi mümkün olmayan tarixi-mədəni-dini abidələr, ətraf mühit və təbiətə dəymiş ağır və bərpaedilməz ziyanlar və s. xüsusi qeyd edilməlidir. Mənəvi zərərlər artıq hesablana bilməyən və əvəzi ödənilə bilməyən səviyyədədir.

Bu ərazilərin bərpası üçün uzun illər çalışmaq və xeyli səviyyədə vəsait sərf etmək lazımdır. Bir daha vurğulamaq lazımdır ki, işğal edilmiş ərazilərdə ermənilər tərəfindən uzun müddət "yandırılmış torpaq" siyasəti həyata keçirilmiş, demək olar ki həmin ərazilər istifadəyə tam yarasız hala salınmışdır. Bu ərazilərdə həyat dayanmış və əmlaklar isə talan edilmişdir.

Bütövlükdə, dəymiş ziyanın hesablanması və əhatə etdiyi dairənin müəyyən edilməsi çox zəruridir. Bu sahədə beynəlxalq maliyyə qurumlarının təcrübəsindən faydalanaraq qiymətləndirilmədə bir sıra mühüm istiqamətlər əsas götürülə bilər: əmlaka, o cümlədən infrastruktura vurulan ziyan; insanların həyatını itirməsi və məcburi köçkün vəziyyətinə düşməsi nəticəsində vurulan ziyan; iqtisadi nəticələrdən irəli gələn ziyan; insan inkişafına vurulan ziyan.

Beləliklə, Ermənistan tərəfindən vurulmuş maddi ziyanların əhatə dairəsi təxmini olaraq aşağıdakı istiqamətlərdə müəyyən edilə bilər:

Birbaşa vurulmuş ziyanlara daxidir:

- həmin dövrdə mövcud olan dövlət və şəxsi (o cümlədən, kollektiv) mülkiyyətdə olan tikililərin sökülməsi və onlara aid mal-mülkün (avadanlıqlar, nəqliyyat vasitələri, ev əşyaları və s.) talan edilməsi;
- kənd təsərrüfatı məhsullarının və diri ev heyvanlarının qəsb edilməsi;
- infrastrukturun məhv edilməsi (yollar; su, kanalizasiya, qaz, işıq və rabitə xətləri; elektrik stansiyaları və s.);
- süni yolla yaranmış və təbii çoxillik əkmələrin məhv edilməsi;
- dini və tarixi abidələrin sökülməsi, əmlaklarının talan edilməsi və ya satılması nəticəsində külli miqdarda ziyan vurulması;
- mədəni irsin mənimsənilməsi;
- arxivlərin məhv edilməsi;
- torpaqların korlanması, yandırılması, eroziyaya məruz qalması, biomüxtəlifliyin pozulması və ətraf mühitin çirklənməsi;
- müxtəlif ağır silahlarla ərazilərin tam və ya qismən dağıdılması, eyni zamanda ərazilərin minalardan və digər partlayıcı silahlardan təmizlənməsi ilə əlaqədar uzun müddət tələb edilən böyük xərclərin mövcudluğu;

- uzun müddət həmin ərazilərin becərilməsinin və onlardan istifadənin mümkün olmaması, onların normal hala gətirilməsi üçün böyük vəsaitin tələb edilməsi;

-faydalı qazıntı yataqlarının, mineral ehtiyatların və s. geniş miqyaslı talan edilməsi; və s.

Qeyd: məhv edilmiş əmlaklarla yanaşı, birbaşa ziyan dedikdə həmin əmlakların yaradılmasına yönəldilmiş xərclər də nəzərə alınmalıdır.

Əldən çıxmış faydalara daxildir:

- məhv edilmiş istehsalat sahələrinin (zavod, fabrik, kənd təsərrüfatı emalı müəssisələri və s.) əldə edə biləcək gəliri;
- yerin təkindən (qızıl, daş, su və s.) istifadədən əldə edilən gəlirlər;
- daxili və xarici turizm imkanlarından gəlirlər;
- əkin (örüş) sahələrindən (kənd təsərrüfatı və heyvandarlıq) əldə olunacaq gəlirlər;
- dövlət və yerli büdcələrin vergilər və digər formada yığımlardan məhrum olması;
- əvvəl suvarılan ərazilərin susuz qalması nəticəsində torpaqların istifadəsiz qalması; və s.

Vurulmuş digər ziyanlara daxildir:

- əhalinin məşğulluq sisteminin məhv edilməsi və bununla bağlı Azərbaycan dövləti üzərində sosial təminatla bağlı maliyyə yükünün artması;
- ümumi daxili məhsulun azalması;
- dövlətin məcburi köçkünlərlə bağlı çəkdiyi xərclər (ümumi yerləşdirmə və ya yaşayış üçün şəraitin yaradılması, müavinətlər, sosial ödənişlər, imtiyazlar və s.);
- işğal altında qalmış inzibati idarəetməyə aid dövlət qurumlarının işinin bərpası xərcləri;
- uzun müddət keçdikdən sonra həyatın öz əvvəlki vəziyyətinə düşməsinə qədər xərclənən vəsait və əldə ediləcək gəlir; və s.

8. Mövcud beynəlxalq mexanizmlər

Məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası üçün müxtəlif beynəlxalq sənədlər qəbul edilmiş və bir sıra beynəlxalq təşkilati mexanizmlər yaradılmışdır. Bu bölmədə həmin beynəlxalq sənədlər və təşkilati mexanizmlər təhlil edilir.

8.1. Beynəlxalq sənədlər

Bu Hesabatla əhatə edilən beynəlxalq sənədləri şərti olaraq aşağıdakı qruplara bölmək olar:

A. Hərbi əməliyyatlar dövründə insan hüquqlarının müdafiəsini və törədilən beynəlxalq cinayətlərə görə məsuliyyəti nəzərdə tutan beynəlxalq sənədlər: Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (1948); Müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə görə təqib müddəti məhdudiyyətlərinin tətbiq olunmazlığı haqqında Konvensiya (1968); Mübahisələrin dinc həlli üzrə Avropa Konvensiyası (1957); Silahlı münaqişələr dövründə mədəni sərvətlərin qorunması haqqında Konvensiya (1954); Dünya mədəni və təbii irsinin qorunması üzrə Konvensiya (1972); Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyaları (1949) və ona Əlavə Protokollar (1977); Beynəlxalq kasetli silahlar üzrə Konvensiya (2008); Qeyri-maddi mədəni irsin mühafizəsi üzrə Konvensiya (2003); BCM-nin Roma Statutu (1998); və s.

B. İnsan hüquqlarını ümumi qaydada tənzimləyən beynəlxalq sənədlər: ÜİHB (1948); MSHBP (1966); İSMHBP (1966); AİHK (1950) və ona Əlavə Protokollar; UHK (1989); Əsas hüquqlar haqqında Aİ-nin Xartiyası; Qaçqınların statusu haqqında Konvensiya (1951) və ona Əlavə Protokol (1967); İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə Konvensiya (1984); və s.

C. Siyasi yükü olan, lakin hüquqi öhdəlik yaratmayan beynəlxalq sənədlər: Cəmiyyətlərin sülh şəraitində həyata hazırlanmasına dair Bəyannamə (1978); Sülh mədəniyyəti üzrə Fəaliyyət Proqramı və Bəyannamə (1999); Qaçqınlar və miqrantlar haqqında Nyu-York Bəyannaməsi (2016); Cinayət və Ədalət üzrə Vyana Bəyannaməsi (2000); Beynəlxalq insan hüquqları hüququnun kobud pozuntularının və Beynəlxalq humanitar hüququn ciddi pozuntularının qurbanlarının hüquqi müdafiəsi və təzminatı hüququ üzrə Əsas Prinsiplər və Təlimatlar (2005); BMT-nin Qaçqınlar və məcburi köçkünlər üçün ev və əmlak restitusiyası Prinsipləri (*Pinheiro prinsipləri, 2005*); Ölkədaxili yerdəyişmə üzrə Təməl Prinsiplər[213] (1998); və s.

[213] Ölkədaxili yerdəyişmə üzrə Təməl Prinsiplər məcburi köçkünlərin hüquqlarını təmin edən 30 prinsipdən ibarətdir. Bu prinsiplər bir neçə il ərzində məcburi köçkünlərin problemlərinin həllinə yönələrək beynəlxalq hüququn araşdırılmasının nəticəsidir. Prinsiplər beş blok üzrə qurulmuşdur: ümumi prinsiplər, məcburi yerdəyişmədən müdafiəyə dair prinsiplər, yerdəyişmə zamanı müdafiə ilə əlaqədar prinsiplər, humanitar yardım ilə əlaqədar prinsiplər, geri dönmə, başqa yerə yerləşmə və yenidən inteqrasiya ilə əlaqədar prinsiplər (Simon Bagshaw. Internally displaced persons at the fifty-fourth session of the United Nations Commission on human rights, 1998, p. 549).

Qeyd edilənlərlə yanaşı, BMT, AŞ, Aİ, ATƏT və digər beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər də bu Hesabatın predmetinə toxunur və onlar 5-ci bölmədə ətraflı təhlil edilmişdir.

Yuxarıda qeyd edilən bütün beynəlxalq sənədlər ümumi insan hüquqları nöqteyi-nəzərindən məcburi köçkünlərin də hüquqlarının müdafiəsində mühüm rola malikdir. Lakin əhali kateqoriyasına daxil olan hər bir qrup şəxslərin hüquqlarının müdafiəsində spesifik beynəlxalq sənədlərin də əhəmiyyəti çox böyükdür.

Bu nöqteyi-nəzərdən məcburi köçkünlərlə əlaqədar spesifik sənəd kimi BMT-nin Qaçqınlar və məcburi köçkünlər üçün ev və əmlak restitusiyası Prinsipləri (*Pinheiro prinsipləri, 2005*) xüsusi qeyd edilməlidir. Bu prinsiplər Bosniya və Herseqovina, Burundi, Kamboca, Kipr, Qvatemala, Kosovo, Cənubi Afrika və Ruanda üçün yaradılmış milli restitusiya proqramlarının mütərəqqi müddəaları nəzərə alınmaqla tərtib edilmişdir. Pinheiro prinsipləri özünün Preambulasında bütün qaçqın və məcburi köçkünlərin *"şərəfli və təhlükəsiz qayıdış hüququ"*nu əks etdirmişdir. Eyni zamanda, həmin sənədin preambulasında qeyd edilir ki, restitusiya hüququ münaqişənin həlli və münaqişədən sonra sülh quruculuğunda vacibdir. Bütövlükdə, Pinheiro prinsipləri əmlak restitusiyasının hüquqi və texniki məsələlərinin həllində milli və beynəlxalq tərəfdaşlara yardım etmək məqsədi daşımaqla aşağıdakı əsas prinsipləri özündə ehtiva edir:

- Bütün qaçqınlar və məcburi köçkünlər özbaşına və ya qanunsuz olaraq məhrum edildikləri hər hansı daşınar və daşınmaz əmlakın onlara qaytarılması hüququna, yaxud həmin əmlakın onlara qaytarılması faktiki olaraq mümkün deyilsə, müstəqil, qərəzsiz məhkəmə tərəfindən müəyyən edilən kompensasiya almaq hüququna malikdirlər;
- Dövlətlər beynəlxalq insan hüquqlarına və humanitar hüquqa və əlaqədar standartlara uyğun olaraq didərginlikdən müdafiə barədə müddəaları daxili qanunvericiliyə daxil etməli və həmin qoruyucu müddəaları hüquqi yurisdiksiyaları və ya faktiki nəzarətləri daxilində olan hər kəsə şamil etməlidirlər;
- Dövlətlər cəza tədbiri və yaxud müharibə üsulu və ya metodu qismində zorla evdən çıxarılmanı, evlərin uçurulmasını və kənd təsərrüfatı sahələrinin məhv edilməsini, habelə torpaqların müsadirəsini və ya ekspropriasiyasını qadağan edirlər;
- Dövlətlər lazım olduqda məcburi köçkünlərin qayıdışı üçün digər dövlətlərdən və ya beynəlxalq təşkilatlardan maliyyə və (və ya) texniki yardım istəyirlər;
- Dövlətlər restitusiya tələblərini qiymətləndirmək üçün prosedur, təsisatlar və mexanizmlər yaratmalıdırlar. Dövlətlər bu prosedurlar və mexanizmləri icra edə bilməsə, səmərəli restitusiya tədbirlərini təmin etmək üçün müvafiq beynəlxalq təşkilatlardan müvəqqəti rejim yaratmağı xahiş edə bilərlər;
- Restitusiya tələbi əmlakından məhrum olmuş istənilən şəxsə aiddir və dövlətlər bu tələb üçün hər hansı şərt irəli sürə bilməzlər. Dövlətlər restitusiya tələbləri üçün müvafiq mərkəzlər yaratmalıdır. Bu tələblər üçün aydın müddətlər müəyyən edilməlidir;
- Məcburi köçkünlərin öz əmlakına dair sənədləri olmasa, inzibati və məhkəmə orqanları müstəqil olaraq bu tələblərə dair faktları təsdiq edə bilərlər;
- Mülkiyyətin restitusiyası hüququ "beynəlxalq ictimaiyyət" tərəfindən təşviq edilməli və müdafiə edilməlidir.

Prinsiplər həmçinin tələb edir ki, dövlətlər əmlakın dağıdılması və ya talan edilməsinə qarşı konkret tədbirlər görməlidir. Bütövlükdə isə, restitusiya prosesinin tərkib hissəsi olaraq məcburi köçkünlərin tam və səmərəli kompensasiya almaq hüququ vardır.

Nəticə: *Azərbaycan yuxarıda qeyd edilən müddəaları və bütövlükdə insan hüquqları sahəsində qəbul edilmiş mühüm beynəlxalq sənədləri əsas tutaraq beynəlxalq ictimaiyyət qarşısında məcburi köçkünlərinin pozulmuş hüquqlarının bərpa edilməsi tələbi ilə çıxış etməyə tam haqlıdır. BMT-nin Qaçqınlar və məcburi köçkünlər üçün ev və əmlak restitusiyası Prinsiplərində* (*Pinheiro prinsipləri, 2005*) *və digər beynəlxalq sənədlərdə müəyyən edilmiş mühüm normalarla beynəlxalq təşkilatlar, o cümlədən BMT Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar gələcəkdə imzalanacaq sülh sazişlərində də əmlakın restitusiyasına dair müddəaların daxil edilməsinə çalışmalıdırlar. Hazırda Ermənistan-Azərbaycan münaqişəsi üzrə imzalanmış beynəlxalq müqavilələrin heç birində bu müddəalar ehtiva edilməsə də, dövlətimiz bu məsələni BMT və digər beynəlxalq təşkilatların gündəminə gətirmək hüququnu tam şəkildə özündə saxlayır. Bu hüquq Ermənistanın məsuliyyətini tam şəkildə müəyyən edir və vurulan ziyanlar mühüm beynəlxalq cinayətlərin törədilməsi ilə müşayiət olunduğundan müddət tətbiq edilmədən daim iddia hüququ ilə xarakterizə olunur.*

8.2. Beynəlxalq təşkilati mexanizmlər

Məcburi köçkünlərin hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təşkilatı mexanizmlərə BMT nəzdindəki müxtəlif mexanizmlər, ATƏT, AŞ, Beynəlxalq Miqrasiya Təşkilatı və digər beynəlxalq təşkilatların yaratdığı mexanizmlər aiddir. Münaqişə sonrası mexanizmlərə daha çox BMT-nin iştirakı ilə rast gəlinir.

İlk növbədə, insan hüquqları sahəsində BMT komitələri xüsusi qeyd edilməlidir. İnsan hüquqları sahəsində komitələrdə dövlətin dövlətə qarşı şikayət mexanizmi və şəxsin dövlətə qarşı (fərdi) şikayət mexanizmi mövcuddur. İnsan hüquqları sahəsində bəzi universal beynəlxalq sənədlər, məsələn, MSHBP, İşgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə 1984-cü il tarixli Konvensiya və Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il tarixli Konvensiya və s. beynəlxalq sənədlər bir dövlətin digər dövlətə qarşı şikayət təqdim etmək mexanizmini nəzərdə tutur. Lakin bu mexanizmlər heç bir dövlət tərəfindən indiyədək tətbiq edilməmişdir.[214] Belə ki, bu mexanizmin işləməsi üçün üzv-dövlət xüsusi bəyanat qəbul etməlidir, lakin dövlətlər bunu etmirlər.

Yeganə istisna İrqi ayri-seçkiliyin bütün formalarının ləğvinə dair 1965-ci il tarixli Konvensiya hesab edilə bilər. Bu Konvensiyada "irqi ayrı-seçkilik" ifadəsi məqsədi, yaxud nəticəsi siyasi, iqtisadi, sosial, mədəni və ictimai həyatın hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irqi, dərisinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirməni, istisnanı, məhdudiyyəti, yaxud üstün tutulmanı bildirir (maddə 1). Belə ki, 2018-ci ildə Fələstin İsrailə qarşı bu Konvensiyanın 11-13-cü maddələrində təsbit edilən məcburi xarakterə əsaslanaraq belə bir şikayət təqdim

[214] https://www.ag.gov.au/rights-and-protections/human-rights-and-anti-discrimination/human-rights-scrutiny/public-sector-guidance-sheets/complaints-mechanisms-under-human-rights-treaties#complaints-by-states

etmişdir.[215] Bunun ardınca Qətər Səudiyyə Ərəbistan Krallığına qarşı və Qətər Birləşmiş Ərəb Əmirliyinə qarşı şikayətlər də təqdim edilmişdir. Bu sözügedən Komitəyə təqdim edilən ilk üç şikayət olmuşdur. 2019-cu ildə Komitə bu şikayətlərin qəbul edilməsinə dair müsbət qərar çıxarmışdır. Qeyd etmək lazımdır ki, sözügedən Konvensiyanın 22-ci maddəsi ilə dövlətlərarası şikayətin təqdim edilməsi BMT BM vasitəsilə də mümkündür. Bu mexanizm vasitəsilə Ukrayna Rusiyaya qarşı şikayət təqdim etmişdir (hazırda baxılmaqdadır).

İnsan hüquqları sahəsində aşağıdakı BMT komitələri mövcuddur:

1. İHK MSHBP-yə əsasən yaradılmışdır.

2. İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə bu istiqamətdə yeganə komitədir ki, beynəlxalq müqavilə əsasında, yəni İSMHBP-nin konkret müddəalarına əsaslanaraq yaradılmamışdır. Bu Komitə BMT İqtisadi və Sosial Şurasının 1984-cü il tarixli qətnaməsi əsasında yaradılmışdır.

3. İşgəncələr əleyhinə Komitə İşgəncə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və cəza növləri əleyhinə 1984-cü il tarixli Konvensiyaya əsasən yaradılmışdır.

4. İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair 1965-ci il tarixli Konvensiya əsasında yaradılmışdır.

5. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il tarixli Konvensiya əsasında yaradılmışdır.

6. Uşaq hüquqları Komitəsi UHK-yə əsasən yaradılmışdır.

7. Bütün əməkçi-miqrantlar və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il tarixli Konvensiya əsasında yaradılmışdır.

8. Əlillərin hüquqları üzrə Komitə Əlillərin hüquqları haqqında 2006-cı il tarixli Konvensiya əsasında yaradılmışdır.

9. Zorakı yoxa çıxarmalardan müdafiə üzrə Komitə Bütün şəxslərin zorakı yoxa çıxarmalardan müdafiəsi üzrə 2006-cı il tarixli Konvensiya əsasında yaradılmışdır.[216]

BMT daxil olmaqla, bütün beynəlxalq təşkilatlar məcburi köçkünlərin problemlərinin həllində "davamlı həll" prinsipini təşviq edirlər. Bu prinsipə əsasən: "davamlı həll o zaman təmin edilir ki, məcburi köçkünlərin yerdəyişmə ilə əlaqədar daha hər hansı konkret yardıma və müdafiəyə ehtiyacı olmasın və onların insan hüquqları yerdəyişmə səbəbi ilə hər hansı ayrı-seçkiliyə məruz qalmadan təmin edilsin".[217]

BMT-nin davamlı həll çərçivəsi məcburi köçkünlərin davamlı həllə hansı dərəcədə nail olduqlarını müəyyən etmək üçün bir sıra meyarlardan istifadə edir:

- Uzun müddətli təhlükəsizlik, şəxsi təhlükəsizlik və hərəkət etmə azadlığı;
- Adekvat qida, su, mənzil, səhiyyə xidməti və baza təhsilinə minimal çıxış təmin edən müvafiq yaşam standartı;
- İş yerlərinin olması və dolanışıq;

[215] https://www.ejiltalk.org/icerd-and-palestines-inter-state-complaint/
[216] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 223-230
[217] "Framework on Durable Solutions for Internally Displaced Persons", United Nations, A/HRC/13/21/Add.4, Report of the Representative of the Secretary-General on the human rights of internally displaced persons. Human Rights Council, Thirteenth session, 2009.

- Mənzillərinin, torpaqlarının və mülkiyyətlərinin bərpası və ya təzminatın ödənilməsi üçün səmərəli mexanizmlərə çıxış; və s.

Müxtəlif kontekstlərdə aşağıdakı meyarların təmin edilməsi isə davamlı həllə nail olmaq üçün vacibdir:

- Şəxsi və digər sənədlərə çıxış və onların dublikatının təmin edilməsi;
- Yerdəyişmə ilə əlaqədar ayrı düşmüş ailə üzvləri ilə könüllü birləşmək;
- Bütün səviyyələrdə yerli əhali ilə bərabər şəraitdə qərarların qəbulunda iştirak etmək;
- Yerdəyişmə ilə əlaqədar pozulmuş hüquqlara görə, o cümlədən məhkəməyə çıxış, təzminatın ödənilməsi və pozuntunun səbəblərinə dair məlumatlara çıxış, səmərəli mexanizmlərin olması.[218]

Tədqiqatlarda haqlı olaraq qeyd edilir ki, "məcburi köçkünlərin və qaçqınların müharibədən əvvəlki mülkiyyət hüquqlarının bərpası sülhün bərpası üçün çox önəmlidir".[219] İnsanların geri qaytarılmasını davamlı etmək üçün insanlar öz mənzillərini, torpaqlarını və əşyalarını bərpa etmək iqtidarında olmalıdırlar.[220]

Səmərəli mexanizmlər sırasında 2000-ci ildə yaradılmış və Beynəlxalq Miqrasiya Təşkilatına həvalə edilmiş Xolokost qurbanları aktivlərinə dair Proqramı qeyd etmək olar. Bu təşkilata həmçinin Səddam Hüseyn dövründə əmlakın restitusiyası məsələləri ilə məşğul olan İraq Əmlak Tələbi Komissiyası (İPCC) da həvalə edilmişdir.

Yaxın keçmişdə Avropa Komissiyası beynəlxalq tələb tribunalı kimi Çoxtərəfli İnvestisiya Məhkəməsinin yaradılmasını təklif etmişdir.[221] Bu məhkəmə keçmişdəki təzminat tələblərinə dair deyil, gələcəkdə yaranacaq tələbləri hədəf tutmuşdur. Xarici investorlar beynəlxalq hüquq əsasında məcburi qərara malik olan məhkəmədə öz iddialarını təqdim edə biləcəklər. Aİ-nin üzvü olmadığı üçün Azərbaycan bu mexanizmdən yararlana bilməsə də, lakin bu mexanizmin təcrübəsindən gələcəkdə Azərbaycanın Ermənistana qarşı təzminatla bağlı iddialarının hüquqi həlli mexanizmi yaradılarkən istifadə edilə bilər.

Beynəlxalq təşkilati mexanizmlərdən danışarkən Azərbaycan məcburi köçkünləri ilə əlaqədar bəzi beynəlxalq təşkilatların hesabatları da xüsusi qeyd edilməlidir. Məsələn, ermənilərin azərbaycanlılara aid şəhərləri, kəndləri və mülkləri dağıtmaları ATƏT-in 2011-ci ildəki hesabatında qeyd edilmişdir.[222] Bundan başqa, göstərilmişdir ki, Azərbaycanın işğal edilmiş əraziləri dağıdılıb talan edilərkən Ermənistan hökuməti bunun qarşısını almaq üçün heç bir tədbir görməmişdir, halbuki talama 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyası ilə qadağan edilmişdir.[223]

Ermənistanın işğal edilmiş Azərbaycan ərazilərində uzun müddət apardığı qanunsuz məskunlaşma siyasəti də Azərbaycan məcburi köçkünlərinin hüquqlarının birbaşa pozulmasının sübutudur (bu barədə 6.11-də (səh. 88-89) ətraflı qeyd edilmişdir). Bütün bu hərəkətlər

[218] The World Bank Annual Report 2011 : Year in Review// file:///C:/Users/User/Downloads/644400REPLACEM0t0201109780821388280.pdf
[219] Hans van Houtte, Mass Property Claim Resolution in a Post-War Society: The Commission for real property claims in Bosnia and Herzegovina, The International and Comparative Law Quarterly, 1999, Vol.48, No.3, p.625
[220] Preparing for the future: protecting Iraqi refugees and Internally Displaced Persons, Summary Report, 2008, p. 9-10.
[221] Jeremy K. Sharpe. The future of International Claims Commission: conceptualizing the EU's proposed multilateral investment court as an International Claims Tribunal, 2017
[222] Crisis Group Policy Briefing, №67, 2012, p.11
[223] Nagorno-Karabakh: Vıewıng The Conflıct From The Ground Europe Report N°166 – 14 September 2005// https://www.files.ethz.ch/isn/13594/166_nagorno-karabakh.pdf

isə beynəlxalq hüquq normalarının, xüsusilə beynəlxalq humanitar hüququn ciddi pozuntusu sayılır. Belə ki, 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair IV Cenevrə Konvensiyasının 49-cu maddəsində birbaşa olaraq göstərilmişdir ki, işğalçı dövlət öz mülki əhalisinin bir hissəsini işğal etdiyi əraziyə deportasiya edə və ya köçürə bilməz. 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarına 1977-ci il tarixli I Əlavə Protokolun 85.4-cü maddəsinin (a) bəndinə uyğun olaraq, işğalçı dövlətin öz mülki əhalisinin bir hissəsini işğal etdiyi əraziyə köçürməsi və ya işğal edilmiş ərazinin əhalisinin hamısını və ya bir hissəsini deportasiya etməsi və ya bu ərazinin hüdudları daxilində və ya hüdudlarından kənara köçürməsi sözügedən beynəlxalq-hüquqi sənədin ciddi pozuntusu kimi nəzərdə tutulmuşdur. BCM-nin Roma Statutunun 8.2-ci maddəsinin (b) (VIII) bəndinə əsasən, işğal etmiş dövlət tərəfindən düzünə və dolayısı surətdə öz mülki əhalisinin bir hissəsinin işğal edilmiş əraziyə köçürülməsi beynəlxalq silahlı münaqişələrdə tətbiq olunan qanun və adətlərin ciddi pozuntusu hesab olunmaqla, müharibə cinayəti hesab edilir. Bundan əlavə, BMT Beynəlxalq Hüquq Komissiyasının işləyib hazırladığı 1991-ci il tarixli Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə Cinayətlər Məcəlləsi Layihəsində işğal olunmuş ərazidə sakinlərin yerləşdirilməsi və demoqrafik tərkibin dəyişdirilməsi "müstəsna ağır müharibə cinayəti" (maddə 22.2), 1996-cı ildə hazırladığı eyniadlı sənəddə isə işğalçı dövlət tərəfindən öz mülki əhali hissələrini zəbt etdiyi əraziyə köçürməsi isə "müharibə cinayəti" (maddə 20) kimi müəyyən olunmuşdur.

Nəticə: *Dünyada məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpasına dair mövcud beynəlxalq təşkilati mexanizmlər həmin təcrübədən istifadə edilməklə* və *beynəlxalq sənədlərin müddəaları əsas tutulmaqla Azərbaycan məcburi köçkünlərinin hüquqlarının da bərpasına dair spesifik beynəlxalq təşkilati mexanizmin yaradılmasını tam şəkildə şərtləndirir.*

9. Digər dövlətlərin təcrübəsi

Bu Hesabat çərçivəsində çoxsaylı əmlak və təzminat iddialarının həll olunması nəzərdə tutulan dövlətlər təcrübəsinin öyrənilməsi əhəmiyyətlidir:

1. Bosniya və Herseqovina Tribunalı;
2. İran - ABŞ Tələblər Tribunalı;
3. İraq - Küveyt münaqişəsi üzrə BMT Təzminat Komissiyası;
4. Eritreya-Efiopiya Tələb Komissiyası;
5. ABŞ təcrübəsi;
6. Xolokost qurbanları aktivlərinə dair Proqram;
7. İraq təcrübəsi;
8. ABŞ - Böyük Britaniya təcrübəsi.

Bosniya və Herseqovina Tribunalı (Deyton Komissiyası). Bosniya və Herseqovinada 1992-1995-ci illərdə gedən müharibə nəticəsində 2 milyondan çox insan öz evlərindən didərgin düşmüş və onlardan 1 milyona yaxın şəxs məcburi köçkün olmuşdur. Bu müharibəyə son qoyan Deyton Sazişinə 7-ci Əlavədə həmin şəxslərin mülkiyyət hüquqlarına dair mühüm müddəa daxil edilmişdir: "Bütün qaçqınların və məcburi köçkünlərin öz evlərinə sərbəst qayıtmaq hüququ vardır. Onların 1991-ci ildən məhrum olduqları əmlakın bərpa edilməsi və bərpa edilə bilməyən əmlaka görə təzminat almaq hüququ təmin edilməlidir".[224]

Qeyd edilən məqsədlə Deyton Sülh Sazişi ayrıca qurum kimi Məcburi köçkünlərin və qaçqınların daşınmaz əmlak tələbləri üzrə Komissiya yaratmışdır (Deyton Komissiyası). Deyton Komissiyasına 3 beynəlxalq üzv və 6 yerli üzv daxil edilmişdir. Beynəlxalq üzvlərini AİHM-nin Prezidenti təyin etmiş (BMT QAK-ın sabiq Baş Komissarı və iki universitet professoru), yerli üzvlərini isə münaqişə tərəfi olan 3 ölkə təyin etmişdir (bu şəxslər adətən qaçqın məsələləri üzrə nazir müavini və daşınmaz əmlak reyestrinin rəhbərindən ibarət olmuşdur). Bununla yanaşı Komissiyanın 250 yerli işçiləri olmaqla qərarlar plenar iclasda qəbul edilmişdir.[225]

Deyton Komissiyası xüsusi növ beynəlxalq orqan hesab edilir.[226] Belə ki, Deyton Sazişini şahidlər qismində Aİ-nin Xüsusi Vasitəçisi, Fransa, Almaniya, Rusiya, Böyük Britaniya və ABŞ imzalamışlar; eyni zamanda Komissiyanın maliyyələşməsi Aİ, ABŞ, İtaliya, Niderland, Kanada, İsveçrə, İsveç və digər ölkələr tərəfindən həyata keçirilmişdir.

Bu quruma Bosniya və Herseqovina ilə əlaqədar daşınmaz əmlak iddialarını qəbul etmək və onlar üzərində qərar qəbul etmək səlahiyyəti verilmişdir. Beləliklə, daşınmaz əmlaka dair Deyton Komissiyasına aşağıdakı tələblər təqdim edilə bilərdi:

[224] Dayton Sülh Sazişi, 1995// https://www.osce.org/bih/126173
[225] Hans van Houtte, Mass Property Claim Resolution in a Post-War Society: The Commission for real property claims in Bosnia and Herzegovina, The International and Comparative Law Quarterly, 1999, Vol.48, No.3, p.627
[226] Hans van Houtte, Mass Property Claim Resolution in a Post-War Society: The Commission for real property claims in Bosnia and Herzegovina, The International and Comparative Law Quarterly, 1999, Vol.48, No.3, p.628

1. Əmlaka geri dönmək (təxminən tələblərin 50 faizi bunu seçmişdir);
2. Dağıdılmış əmlaka görə təzminat almaq;
3. Mülkiyyət hüququnu təsdiq etmək.[227]

Deyton Komissiyasının qərarları son qərar olmuş və onlardan şikayət etmək mexanizmi mövcud deyildir. 2003-cü ildə səlahiyyətini başa vuran Komissiya daşınmaz əmlaka dair kifayət qədər yekun qərarlar qəbul etmişdir.[228]

Deyton Komissiyasının rastlaşdığı çətinliklərin müəyyən hissəsi daşınmaz əmlaka dair müvafiq sənədlərin itirilməsi və məhv edilməsi (təxminən 30 faiz), tam mülkiyyət hüququnun təsdiq edilməməsi və ya silah gücü ilə mülkiyyət hüququndan zorla imtina halları ilə əlaqəli idi (sonuncu etibarsız hesab edilmişdir). Oxşar olaraq, təzminat məsələsində əmlakın müharibədən əvvəlki dəyərinin müəyyən edilməsi, devalvasiyalar nəticəsində bazar qiymətinin müəyyən edilməsi ilə əlaqədar məsələlər də mövcud idi. Deyton Sazişi dağıdılmış əmlaka görə təkcə pul formasında təzminat deyil, gələcəkdən əmlak almaq hüququ verən istiqrazlar formasını da nəzərdə tutsa da, bu mexanizmin praktiki işləməsində ciddi çətinliklər olmuşdur.

İran - ABŞ Tələblər Tribunalı. 1981-ci ildə ABŞ - İran böhranının həlli elementlərinin biri kimi yaradılan Tribunal 500-dən çox tələbi araşdırmış və müvafiq qərarlar qəbul etmişdir.

Tribunal 9 üzvdən və 3 arbitrdən ibarət Palatalarda iclaslar keçirmişdir. Tələbləri araşdırarkən Tribunal qarışıq yurisdiksiyalardan istifadə etmişdir. Bəzən yerli qanunvericilik, bəzən cavabdehin ölkə qanunvericiliyi, bəzən də müxtəlif ölkələrin tətbiq etdiyi hüquq prinsiplərinə istinad edilmişdir.[229] Tələbləri araşdırarkən əsas sənəd kimi müqavilənin olması iddianın təmin edilməsi şansını artırmışdır. Bəzi hallarda isə, Tribunal kənar ekspertlər cəlb edərək ziyanın hesablanmasını tələb etmişdir. Məsələn, "*Richard D. Harza v. İran"* işində Tribunal mühəndis-ekspertlər cəlb edərək iddia edilən işlərin keyfiyyətlə yerinə yetirilməsini araşdırmış və bunun əsasında qərar qəbul etmişdir.[230] Tribunal "öhdəlik yaradan invoys" ("account stated") prinsipindən istifadə edərək, təqdim olunan invoysa müəyyən vaxt çərçivəsində etiraz bildirilmədikdə alan tərəfinin onu icra etməsi öhdəliyinin yarandığını qeyd etmişdir.[231]

Beləliklə, Tribunal həm beynəlxalq xüsusi hüquq, həm də beynəlxalq ümumi hüququn müddəalarına istinad etmişdir. Bütövlükdə isə, beynəlxalq praktikada iddiaların uğurlu olması üçün, iddiaçılardan ölkə qanunvericiliyinə daha az istinad edilməsi, müqavilə müddəalarına, beynəlxalq xüsusi hüququn müddəalarına və ya müxtəlif hüquq sistemlərinin qəbul etdiyi hüququn ümumi prinsiplərinə istinad etmələri tövsiyə edilir.[232]

Hər hansı yeni tribunalın uğurlu fəaliyyəti üçün əsas amillərdən biri onun maliyyə

[227] Hans van Houtte, Mass Property Claim Resolution in a Post-War Society: The Commission for real property claims in Bosnia and Herzegovina, The International and Comparative Law Quarterly, 1999, Vol.48, No.3, p.633
[228] http://www.nuhanovicfoundation.org/en/legal-instruments/commission-for-real-property-claims-of-refugees-and-displaced-persons-in-bosnia herzegovina/#:~:text=1995%20%7C%20Commission%20for%20Real%20property,Displaced%20Persons%20in%20Bosnia%20Herzegovina&text=Its%20mandate%20was%20to%20guarantee,gain%20compensation%20for%20their%20loss
[229] Crook, John, Applicable law in international commercial arbitration: the Iran-US-Claims Tribunal Experience, 83 AJIL 1989, p. 293
[230] Crook, John, Applicable law in international commercial arbitration: the Iran-US-Claims Tribunal Experience, 83 AJIL 1989, p. 289
[231] 4 İran-US C.T.R. 212, 221 (1983 III). Accord Houston Contracting Co. v. National Iranian Oil Co., para 73, I.A.L.R., Aug. 1988 at 16, 176, 16, 185
[232] Crook, John, Applicable law in international commercial arbitration: the Iran-US-Claims Tribunal Experience, 83 AJIL 1989, p. 311

təminatıdır. 1981-ci ildə yaradılan Tribunal tərəfindən İrana qarşı təzminat ödənişinə dair qərarların icrasını təmin etmək üçün İrandan 1 milyard ABŞ dollarını depozit kimi qoymağı tələb etmişdi. Eyni zamanda bu məbləğ 500 milyon ABŞ dolları səviyyəsinə endikdə, İran ona əlavə vəsaitlər köçürməyə dair öhdəlik götürmüşdü. [233]

İraq - Küveyt münaqişəsi üzrə BMT Təzminat Komissiyası. İraqın Küveyti işğal etməsi nəticəsində yaranan tələbləri araşdırmaq məqsədi ilə 1991-ci ildə BMT TŞ nəzdində BMT Təzminat Komissiyası yaradılmışdır. Bunun üçün xüsusi "Təzminat fondu" da təsis edilmişdir (Bu Komissiyanın maliyyə təminatını gücləndirmək üçün İraq neftinin satışından əldə olunan gəlirin Təzminat fonduna yönləndirilməsi mexanizmi tətbiq edilmişdir[234]).

Bu Təzminat Komissiyası BMT Təhlükəsizlik Şurasının 1991-ci il tarixli 687 saylı qətnaməsi əsasında yaradılmışdır. Bu Komissiyaya fakt araşdırma mandatı verilmişdir, o, zərərin birbaşa Küveytin işğalı nəticəsində dəyməsini təsdiq etməyə səlahiyyətli idi.

Eritreya - Efiopiya Tələb Komissiyası. Bu orqan iki dövlət arasında olan qərar əsasında arbitraj kimi yaradılmışdır. Komissiya hər iki tərəf üçün təzminatın məbləğini müəyyən etmişdir. Eyni zamanda, 2009-cu ildə Komissiya Efiopiya qoşunlarının qədim Eritreya abidəsinə qəsdən ziyan vurmasına görə Efiopiyanın Eritreyaya 50 min ABŞ dolları ödəməsi barədə qərar qəbul etmişdir.[235]

ABŞ təcrübəsi. ABŞ-ın Xarici tələblərin həlli Komissiyası kvazi-məhkəmə orqanı kimi ABŞ Ədliyyə Departamenti nəzdində fəaliyyət göstərir və Konqres tərəfindən verilmiş xüsusi yurisdiksiya, beynəlxalq tələblərin həllinə dair sazişlər və ya Dövlət Katibinin xahişi əsasında ABŞ vətəndaşlarının xarici dövlətlərə qarşı iddialarını araşdırır. Komissiya 1954-cü ildə yaradılmış və Müharibə Tələbləri Komissiyası və Beynəlxalq Tələblər Komissiyasını əvəz etmişdir. Bu qurumların fəaliyyəti dövründə ümumilikdə 43 proqram həyata keçirilmiş və Almaniya Federativ Respublikası, İran, Yuqoslaviya, Bolqarıstan, Rumıniya, Macarıstan, SSRİ, Çexoslovakiya, Polşa, İtaliya, Kuba, Çin, Almaniya Demokratik Respublikası, Vyetnam, Efiopiya, Misir, Panama və Albaniyaya qarşı tələblərə baxmışdır. Nəticədə dəyəri milyardlarla ABŞ dolları olan tələblər üzrə xeyli qərarlar çıxarılmışdır.[236]

Xolokost qurbanları aktivlərinə dair Proqram. Nasistlərin təqibi nəticəsində səhhətinə ziyan dəymiş şəxslərə təzminatın ödənilməsi üçün Çətinlik Fondu (Hardship Fund) yaradılmışdır və Almaniya hökuməti tərəfindən vəsait ayrılmışdır. Vəsaitlərin idarə olunması "Tələblər konfransı" tərəfindən həyata keçirilmişdir. 2011-ci ildən Fonda Xolokost qurbanlarına birdəfəlik təzminat ödənilməsi mexanizmi daxil edilmişdir. Bu imkan 22 iyun 1941-ci il tarixindən 27 yanvar 1944-cü il tarixinə qədər alman ordusunun hücum xəttindən 100 km məsafədə olan və qaçmağa məcbur olmuş yəhudilərə verilmişdir.

İraq təcrübəsi. Beynəlxalq Miqrasiya Təşkilatının İraq Əmlak Tələbi Komissiyası (İPCC) Səddam Hüseyn dövründə əmlakın restitusiyası məsələləri ilə məşğul olurdu.

ABŞ - Böyük Britaniya təcrübəsi. ABŞ *və* Böyük Britaniya arasında 1794-cü ildə bağlanılmış Dostluq, Ticarət və Naviqasiya Sazişi (Jey Sazişi) demək olar ki, kütləvi tələblərə dair ilkin

[233] Chiara Giagretti, Crafting a successful İnternational mass claims commission, 2017.
[234] Chiara Giagretti, Crafting a successful İnternational mass claims commission, 2017.
[235] Mədəni mülkiyyətin mühafizəsi: Hərbi bələdçi, O'Keefe, Roger, Péron, Camille, 2019, s.2; Roger O'Keefe, Camille Péron, Tofig Musayev, Gianluca Ferrari Protection of Cultural Property. Military Manual. UNESCO, 2016, p.2// http://www.unesco.org/new/fileadmin/MULTIMEDIA/HQ/CLT/pdf/MilitaryManuel-En.pdf
[236] https://www.justice.gov/fcsc/about-commission

mexanizmlərdən biridir və tərəflərin bir-birinə qarşı olan iddialarını araşdırmaq üçün yaradılmışdır.

Nəticə: *Bu bölmədə aparılmış qısa təhlillər də göstərir ki, qaçqınların və məcburi köçkünlərin pozulmuş hüquqları çərçivəsində dəymiş ziyanın ödənilməsi ilə bağlı ciddi beynəlxalq təcrübə mövcuddur. Bu nöqteyi-nəzərdən BMT TŞ-nin Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində qeyd edilmiş Azərbaycan məcburi köçkünlərinin "şərəfli və təhlükəsiz qayıdış hüququ" çərçivəsində mövcud problemlərin hüquqi həlli mexanizmləri də müəyyən edilməli və özünün real həllini tapmalıdır.*

10. Beynəlxalq məhkəmə mexanizmləri

Hesabatla əlaqədar aşağıdakı beynəlxalq məhkəmə mexanizmləri nəzərdən keçirilmişdir:

- BMT BM;
- BCM;
- AİHM;
- Afrika İnsan Hüquqları Məhkəməsi;
- Amerikaarası İnsan Hüquqları Məhkəməsi;
- Ad hoc beynəlxalq tribunallar.

BMT BM. BMT BM 1945-ci ildə BMT Nizamnaməsi ilə yaradılan və Haaqada yerləşən BMT-nin əsas altı daimi orqanından biridir. Onun əsas vəzifələri dövlətlər tərəfindən təqdim edilmiş hüquqi mübahisələrin həlli və səlahiyyətli beynəlxalq orqanlar və qurumlar tərəfindən ona təqdim edilmiş hüquqi məsələlər üzrə məsləhətçi rəy verməkdir.

BMT BM fiziki şəxslərlə dövlət arasındakı və fiziki şəxslər arasındakı mübahisələrə baxa bilməz. Dövlətlər arasındakı mübahisələrə də bütün tərəflərin razılığı ilə baxıla bilər. Beləliklə, məhkəmənin səlahiyyəti dövlət üçün məcburi yox, ancaq fakultativdir. Lakin hər hansı bir dövlət heç bir hüquqi əsas olmadan BMT BM-nin çıxardığı qərarı yerinə yetirmirsə, bu zaman BMT TŞ adekvat tədbirlər həyata keçirə bilər.

Eyni zamanda, BMT BM-nin Statutunda onun məcburi yurisdiksiyasının tanınması üçün bir neçə variant təsbit edilmişdir: a) dövlət məcburi yurisdiksiya barədə maddələr olan müvafiq bəyanatla çıxış edə bilər; b) ikitərəfli beynəlxalq sazişin iştirakçısı olaraq BMT BM-nin məcburi yurisdiksiyasını seçə bilər (sülhməramlı sazişlər, sülh və əməkdaşlıq haqqında və s. sazişlər).

BMT BM-nin yurisdiksiyasına beynəlxalq hüquqla əlaqədar hər bir məsələ və beynəlxalq öhdəliyə zidd bir hərəkətin gətirdiyi hər növ zərər ilə əlaqədar məsələlər daxildir. Beləliklə, BMT-yə üzv olan dövlətə qarşı BMT BM-də iş qaldırmaq üçün: qarşı dövlətin buna razılığı olmalıdır; BMT BM-nin qərarının məcburi olması üçün həmin dövlətlər arasında müvafiq saziş imzalamalıdır (məsələn, münaqişə nəticəsində zərər çəkmiş şəxslərin mülkiyyət iddialarının araşdırılmasına dair Saziş və s.). Belə ki, tələblərə riayət etmədiyi üçün Gürcüstanın Rusiyaya qarşı təqdim etdiyi şikayətə BMT BM imtina vermişdir.[237]

BCM. 1998-ci ilin iyul ayında Romada BMT-nin 120 üzv-dövləti tarixdə ilk dəfə daimi yurisdiksiyalı beynəlxalq cinayət məhkəmə orqanının yaradılması haqqında müqavilə imzaladı. Bu müqavilə 1 iyul 2002-ci il tarixində 60 dövlət tərəfindən ratifikasiya edilərək qüvvəyə minmişdir. 2017-cı ilin məlumatına görə, 124 dövlət BCM-nin Roma Statutunun iştirakçısıdır. BCM-nin fəaliyyətinin əsas məqsədləri insan hüquq və azadlıqlarının müdafiəsi,

[237] https://www.amerikaninsesi.org/a/beynlxalq-dalt-mhkmsi-gurcustann-rusiya-il-bal-ikaytin-xitam-verib-119072724/721411.html

sülhə və bəşəriyyətə qarşı cinayətlərin törədilməsində təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi və cəzalandırılmasının təmin edilməsi və gələcəkdə belə cinayətlərin qarşısının alınmasıdır. BCM-nin Roma Statutunun 4-cü maddəsinə görə, BCM beynəlxalq hüquq subyektliliyinə malikdir.

BCM-nin Roma Statutunda insan hüquqlarının qorunması ilə bağlı müxtəlif müddəalar təsbit edilmişdir. Həmin normalara istintaq gedişində şəxsin hüquqları (maddə 55), təqsirsizlik prezumpsiyası (maddə 66), təqsirləndirilən şəxslərin hüquqları (maddə 67), zərər çəkmiş şəxslərin və şahidlərin müdafiəsi, həmçinin onların məhkəmə baxışında iştirakının təmin olunması (maddə 68), zərər çəkmiş şəxslərə dəymiş ziyanın ödənilməsi (maddə 75), bəraət haqqında və ya təqsirli tanınma haqqında qərardan və hökmdən şikayət verilməsi (maddə 81), həbs olunmuş və ya təqsirli hesab edilən şəxsə kompensasiyanın ödənilməsi (maddə 85) və s. aid edilə bilər. [238]

BCM-nin spesifik xüsusiyyətlərindən biri odur ki, onun yurisdiksiya səlahiyyəti (ratione temporis) yalnız Roma Statutunun qüvvəyə minməsindən sonra törədilən cinayətlərə şamil edilir. BCM pozulmuş insan hüquqlarının bərpası istiqamətində də mühüm fəaliyyət həyata keçirir. BCM-nin Roma Statutu Keçmiş Yuqoslaviya və Ruanda üzrə beynəlxalq cinayət tribunallarının nizamnamələrindən fərqli olaraq, zərər çəkmiş şəxslərə zərərin əvəzinin ödənilməsinə aid prinsipləri təsbit edir: restitusiya, kompensasiya və reabilitasiya (maddə 75.1). Qurbanların müdafiəsi BCM-nin Roma Statutunun 79-cu maddəsində də nəzərdə tutulmuşdur. Həmin maddədə qeyd edilir ki, BCM-in yurisdiksiyası altına düşən cinayətlərdən zərər çəkmiş şəxslərin və onların ailələrinin maraqları naminə İştirakçı-dövlətlərin Assambleyasının qərarı ilə Məqsədli fond yaradılması nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, BCM yalnız fərdləri mühakimə edə bilər. Bundan başqa, Azərbaycan və Ermənistan hələlik BCM-nin Roma Statutunu ratifikasiya etməmişdir.

AİHM. AİHM AİHK-ə qoşulduqları üçün Ermənistan və Azərbaycandan daxil olan fərdi və dövlətlərarası şikayətlərə baxmaqda səlahiyyətlidir. AİHM-nin yurisdiksiyasının hər iki dövlət üçün 2002-ci ildən sonrakı pozuntulara şamil olunmasına baxmayaraq, "davam edən" pozuntu olduqda, hadisələrin bu tarixdən öncə də başlaması mümkündür. Bu əsasla AİHM Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazisi olan Laçın rayonundan olan məcburi köçkünlərin "*Chiragov and others v. Armenia"* işinə baxmış və müvafiq qərar çıxarmışdır.

Davam edən hüquq pozuntusu kimi AİHM, o cümlədən aşağıdakı bir sıra işlərə baxmışdır:

1. *Çeçenistan vətəndaşlarının Rusiyaya qarşı ərizələri.* AİHM qətlə yetirilmiş, itkin düşmüş və s. çeçen əsilli şəxslərlə bağlı yaşamaq hüququ, effektiv araşdırılmanın aparılmaması, mülkiyyət hüququ və s. pozuntuların tanındığı 250 iş üzrə qərar çıxarmışdır. Onların arasında: "*Esmuxambetov v. Russia"*[239]; "*İnderbiyeva v. Russia"*[240]; "*Aslakhanova and Others v. Russia"*[241]; "*Turluyeva v. Russia"*[242] işlər olmuşdur;

[238] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, "Nurlar", 2019, s. 243-244
[239] http://hudoc.echr.coe.int/eng-press?i=003-3487263-3928922
[240] http://hudoc.echr.coe.int/eng-press?i=003-3891816-4485929
[241] http://hudoc.echr.coe.int/eng-press?i=003-4202621-4984849
[242] http://hudoc.echr.coe.int/eng-press?i=003-4407151-5294415

2. "*Al-Skeini v. United Kingdom*"[243]. Bi iş İraqın Bəsrə şəhərinin Britaniya tərəfindən işğal olunduğu dövrdə öldürülən mülki şəxslərlə bağlı effektiv araşdırmanın aparılmaması pozuntusu üzrədir;

3. "*Georgia v. Russia*"[244]. Bu iş 2008-ci ildə Gürcüstan – Rusiya münaqişəsi zamanı pozulmuş insan hüquqlarından və onun nəticəsində 300 min insanın Abxaziya və Cənubi Osetiyadan məcburi köçkün olmasını əhatə edir. Bu zaman ayrı-ayrı hüquqların pozulması AİHM tərəfindən təsdiq edilsə də, mülkiyyət hüququnun pozulması faktı təsdiq edilmə-mişdir.[245]; və s.

"Chiragov and others v. Armenia" iş üzrə ərizə AİHM-ə 2005-ci ildə təqdim edilsə də, qərar yalnız 10 il sonra, yəni 2015-ci ildə çıxarılmışdır. Azərbaycan dövləti bu işdə üçüncü tərəf qismində çıxış etmişdir. Ərizəçilər bildirmişlər ki, onlar Laçın rayonunda yaşa-mış Azərbaycan kürdləridir və əcdadları orada yüz illər boyu yaşamışlar. 17 may 1992-ci il tarixində onlar yaşadıqları Laçın rayonundan Bakıya məcburi köçmüşlər. Həmin vaxtdan erməni işğalına görə öz evlərinə və mülklərinə qayıda bilməmişlər. Ərizəçilər qeyd etmişlər ki, öz əmlakları üzərində bütün nəzarətin, habelə ondan istifadə etmək, onu satmaq, vəsiyyət etmək, girov qoymaq, inkişaf etdirmək və ona malik olmaq imkanlarının itirilməsi AİHK-ə I Əlavə Protokolun 1-ci maddəsinin davam edən pozuntusunu təşkil etmişdir.

AİHM "*Chiragov and others v. Armenia*" işi ilə bağlı qərarında AİHK-ə I Əlavə Protokolun 1-ci maddəsinin, eyni zamanda AİHK-in 8-ci və 13-cü maddələrinin davam edən pozuntusunun baş verdiyini qət etmişdir. Bundan başqa, AİHM bu qərarında Ermənistanın işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonlarda "effektiv nəzarətə" malik olduğunu vurğulamışdır. Bundan başqa, həmin qərarın 206-cı bəndində ifadə olunmuş *"Ərizəçilər könüllü olaraq başqa yerdə məskunlaşmamış, ehtiyac üzündən Bakıda və başqa yerlərdə məcburi köçkün kimi yaşayırlar. ..... onların Laçın rayonundan məcburi köçürülməsi və iradələrindən asılı olmadan orada olmaması nəticəsində ....."* ifadəsi qeyd edilmişdir. Bu isə öz-özlüyündə BCM-nin Roma Statutunun 8.2-ci maddəsinin b (VIII) bəndində təsbit olunmuş "işğal olunmuş ərazinin əhalisinin bir hissəsini bu ərazinin sərhədləri daxilində və ya onun sərhədlərindən kənara deportasiya etmək, yaxud köçürmək" müharibə cinayəti ilə tam üst-üstə düşür. Yenidən AİHM-nin *"Chiragov and others v. Armenia"* işi üzrə qərarına müraciət etsək, görə bilərik ki, AİHM-nin qənaətinə (bənd 206) əsasən, ərizəçilərin Laçın rayonundan məcburi köçürülməsi və iradələrindən asılı olmadan orada olmamasının, habelə onların məcburi köçməsindən uzun müddət keçməsinin həmin şəxslərin rayonla əlaqələrinin qırılması anlamına gələ bilməz. Bununla bağlı AİHM mövqeyini onunla əsaslandırmışdır ki, *"ərizəçilərin hamısı Laçın rayonunda anadan olmuşdur. 1992-ci ilin may ayında məcburi köçənədək onlar həyatın böyük hissəsini orada yaşamış və işləmişlər. Həmin rayonda onların, demək olar ki, hamısının nikahı bağlanmış və uşaqları anadan olmuşdur. Bundan əlavə, burada onlar yaşayış üçün qazanc əldə etmiş, onların əcdadları yaşamışlar. Həmçinin, onlar yaşadığı evləri tikmiş, onlara sahib olmuşlar. Buna görə də, aydındır ki, ərizəçilərin həmin rayonda kök salmış həyatı və evləri olmuşdur"*.[246]

[243] http://hudoc.echr.coe.int/eng-press?i=003-3601054-4079088
[244] http://hudoc.echr.coe.int/fre?i=001-108097
[245] http://supremecourt.gov.az/uploads/files/avropa-mehkemesi/gurcustan_rusiyaya_qarshi.pdf
[246] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 131-132

Həmçinin, AİHM-nin *"Chiragov and others v. Armenia"* işi üzrə çıxartdığı qərarın 213-cü bəndində göstərilmişdir ki, ərizəçilərin əmlakdan və evlərindən istifadə etmək imkanının davamlı surətdə rədd edilməsi ilə əlaqədar AİHK-ə I Əlavə Protokolun 1-ci maddəsinin (mülkiyyətin müdafiəsi) və AİHK-in 8-ci maddəsinin (şəxsi həyata və ailə həyatına hörmət hüququ) pozulması AİHM tərəfindən artıq müəyyən edilmişdir. Buna görə, onların şikayətləri AİHK-in 13-cü maddəsinin (səmərəli hüquqi müdafiə vasitələri hüququ) məqsədləri üçün "əsassız" deyildir. Həmin qərarın 214-cü bəndinə əsasən, AİHM bir daha təsdiq etmişdir ki, cavabdeh dövlət *(yəni Ermənistan)* ərizəçilər üçün onların AİHK-ə əsasən şikayətləri ilə bağlı əvəzi ödəmək qabiliyyətində olan və ağlabatan perspektivləri olan hüquqi müdafiə vasitəsinin mümkün olmasını sübut etmək vəzifəsini yerinə yetirə bilməmişdir. Eyni səbəblərə görə, AİHM müəyyən etmişdir ki, ərizəçilərin Laçın rayonunda əmlakları və evlərindən istifadə etmək imkanının rədd edilməsi ilə əlaqədar səmərəli hüquqi müdafiə vasitələri mövcud olmamışdır. Beləliklə, AİHM qənaətə gəlmişdir ki (bənd 215), ərizəçilərin AİHK-in 13-cü maddəsinə əsasən hüquqlarının pozulması baş vermiş və baş verməkdə davam edir, buna isə Ermənistan cavabdehdir. Bununla yanaşı, qərarın 207-ci bəndində AİHM müəyyən etmişdir ki, AİHK-ə I Əlavə Protokolun 1-ci maddəsi üçün təqdim edilmiş səbəblərlə eyni olan səbəblərə görə, ərizəçilərin öz evlərindən istifadə etmək imkanının rədd edilməsi onların şəxsi və ailə həyatına, habelə evlərinə hörmət hüququ ilə əsassız müdaxiləni təşkil edir. Nəticə etibarilə (bənd 208), AİHM hesab etmişdir ki, ərizəçilərin AİHK-in 8-ci maddəsinə əsasən hüquqlarının pozulması baş vermiş və baş verməkdə davam edir, məhz buna görə də Ermənistan cavabdehlik daşıyır.[247]

Bundan başqa, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində zərər çəkmiş Azərbaycan məcburi köçkünlərinin hüquq və azadlıqlarının pozulmasına dair dövlətlərarası ərizə 15 yanvar 2021-ci il tarixdə AİHM-ə təqdim edilmişdir. Ərizədə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və 7 ətraf rayonunun Ermənistan tərəfindən 30 ilə yaxın davam etmiş işğalı nəticəsində Azərbaycan vətəndaşlarının yaşamaq hüququnun, şəxsi və ailə həyatına hörmət və dini etiqad azadlıqlarının, işgəncəyə və pis rəftara məruz qalmamaq, mülkiyyət və sərbəst hərəkət hüquqlarının pozulması məsələləri qaldırılır, həmçinin Azərbaycanın 3890 vətəndaşının itkin düşməsi və Ermənistanın bu şəxslərin taleyinin araşdırılması üçün hər hansı tədbir görməməsi barədə dəlillər irəli sürülür. Ərizədə, həmçinin Ermənistanın işğal etdiyi ərazilərdə külli miqdarda mina basdırması, şəhər və kəndləri yerlə yeksan etməsi, habelə işğaldan azad edilmiş ərazilərə 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan sonra qanunsuz silahlı birləşmələr göndərməsi səbəbindən Azərbaycan vətəndaşlarının öz evlərinə qayıtmaq hüququndan məhrum edildiyi vurğulanır.[248]

Afrika İnsan Hüquqları Məhkəməsi. Afrika regionunda insan hüquqları sahəsində qəbul edilmiş əsas sənəd İnsan və xalqların hüquqlarına dair 1981-ci il tarixli Afrika Xartiyası hesab olunur. Xartiya ilə nəzarət orqanı olan Afrika İnsan Hüquqları Komissiyasına fərdi şikayətlərin təqdim edilməsi mexanizmi müəyyən edilmişdir. Xartiya kütləvi insan hüquqlarının pozuntusuna dair müdafiə mexanizmini nəzərdə tutmuşdur. Buna baxmayaraq, qurbanların təzminat almaq hüququ Xartiya ilə birbaşa tanınmamışdır. Təcrübədə isə 2011-ci ildə ilk dəfə Misirə qarşı qərarında Afrika İnsan Hüquqları Komissiyası təzminat ödəməyi qeyd etmişdir.

[247] Aliyev A.I. Azerbaijan in the target of international crimes: legal analysis. Baku, "Nurlar", 2018, p. 174
[248] https://apa.az/az/dagliq_qarabag/Azrbaycanin-Ermnistana-qarsi-dovltlrarasi-rizsi-Avropa-Mhkmsin-gondrilib-624734

Afrikada digər bir mexanizm Afrika İnsan Hüquqları Məhkəməsidir. Afrika Komissiyası kütləvi insan hüquqlarının pozuntusu olduqda və ya cavabdeh dövlət Komissiyanın qərarını icra etmədikdə işi Afrika İnsan Hüquqları Məhkəməsinə göndərə bilər. "*The Endorois*" işində Afrika İnsan Hüquqları Komissiyası Endorois xalqının Keniya tərəfindən öz torpaqlarından məcburi çıxarılması məsələsini araşdırmış və nəticədə "Endorois xalqının mülkiyyət hüquqlarını tanımaq və əcdadlarının torpaqlarını restitusiya etmək" çağırışını Keniyaya ünvanlamışdır. Əmlakın və talanmış mülkün restitusiya edilməsi Afrika İnsan Hüquqları Komissiyasının baxdığı digər işlərdə də tələb edilmişdir.[249]

"*Darfur*" işində Afrika İnsan Hüquqları Komissiyası Sudan hökumətinə məcburi köçkünlərin və qaçqınların şərəfli və təhlükəsiz qayıdışı üçün şərait yaratmaq məqsədi ilə Darfur vilayətlərində iqtisadi və sosial infrastruktur, o cümlədən təhsil, səhiyyə, su və kənd təsərrüfatı xidmətlərinin bərpasını tövsiyə etmişdir.[250]

Amerikaarası İnsan Hüquqları Məhkəməsi. İnsan hüquqlarının müdafiəsinin Amerikaarası sistemində 1969-cu il tarixli İnsan hüquqları üzrə Amerikaarası Konvensiya xüsusi yer tutur. Konvensiyaya uyğun olaraq, iştirakçı-dövlətlərin üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsinə nəzarət səlahiyyətləri Amerikaarası Komissiya və Amerikaarası İnsan Hüquqları Məhkəməsinə həvalə olunmuşdur. Amerikaarası İnsan Hüquqları Məhkəməsinə dövlətlər yalnız o zaman müraciət edə bilərlər ki, Amerikaarası Komissiyada mübahisənin nəzərdən keçirilmə proseduru tükənmiş olsun. İşin Amerikaarası İnsan Hüquqları Məhkəməsi tərəfindən baxılmasına təqdim olunması zamanı Məhkəmə Amerikaarası Komissiya tərəfindən nəzərdən keçirilmiş hüquq ilə bağlı məsələlər və faktların nəzərdən keçirilməsi səlahiyyətinə də malikdir. Amerikaarası İnsan Hüquqları Məhkəməsi dəyən zərərin pul ilə kompensasiya olunmasına dair qərarlar qəbul etmək və eləcə də, nəinki pozulmuş hüquqların, həm də dövlətlərin qanun pozuntuları ilə əlaqədar olaraq qəbul edəcəkləri tədbirləri həyata keçirmək hüququna da malikdir. Amerikaarası İnsan Hüquqları Məhkəməsinin qərarları qətidir.

Amerikaarası İnsan Hüquqları Məhkəməsinin əmlakın itirilməsi, o cümlədən şirkətin itirilməsinə görə, həmçinin itkin düşmüş şəxslərin yerinin və vəfat etmiş şəxslərin qalıqlarının müəyyən edilməsinə çəkilən xərclərə görə, o cümlədən dəfn xərclərinə görə təzminat ödəmək üzrə qərarların qəbul edilməsində qabaqcıl təcrübəsi vardır.[251]

Eyni zamanda, Amerikaarası İnsan Hüquqları Məhkəməsi qeyd etmişdir ki, cavabdeh dövlət qurbanın əldən çıxmış qazancını təzminat məbləğinə daxil etməli və onun hesablanmasında qurbanın alacağı maaşı nəzərə almalıdır.[252]

Digər bir işdə, Amerikaarası İnsan Hüquqları Məhkəməsi qurbanın əldən çıxan təhsil imkanlarının da nəzərə alınmasını tövsiyə etmişdir. "*Aloeboetoe*" işində fiziki qüsuru olan

[249] African Commission, Centre for Minority Rights Development (Kenya) and Minority Rights Group (on behalf of Endorois Welfare Council) v Kenya, Communication 276/03 , dispositif, point (a) ; African Commission, Bah Ould Rabah v Mauritania, Communication 197/97, dispositif; Malawi African Association and others v Mauritania, dispositif point (1) ; 'Darfur Case', dispositif

[250] African Commission, Sudan Human Rights Organisation & Centre on Housing Rights and Evictions (COHRE) v Sudan, Communications 279/03-296/05, dispositif.

[251] IACHR, Chaparro Álvarez and Lapo Íñiguez v. Ecuador, Judgment of 21 November 2007 (Preliminary Objections, Merits, Reparations, and Costs) paras.228-234. IACtHR, Caracazo v. Venezuela, Judgment of 29 August 2002 (Reparations and Costs), paras.84-85.// https://summa.cejil.org/api/files/3863.pdf

[252] IACtHR, Caracazo v. Venezuela, Judgment of 29 August 2002 (Reparations and Costs), para.82. IACtHR, Loayza Tamayo v Peru, Judgment (Reparations), 27 November 1998, para. 129.// http://www.worldcourts.com/iacthr/eng/decisions/2002.08.29_Caracazo_v_Venezuela.pdf

şəxsə evdə kömək etmək üçün bir şəxsə görə ödənişin, eyni zamanda fiziki və psixoloji müalicə üçün ödənişin edilməsini qərara almışdır.[253]

Amerikaarası İnsan Hüquqları Məhkəməsi, eyni zamanda, "həyat planı" konsepsiyasını qəbul etmişdir. "*Cantoral Benavides"* (2001) işində şəxsin həbsi onun təhsilinə maneə olmuşdur. Məhkəmə "həyat planına" istinad edərək cavabdeh dövlətin qurbanın universitet təhsili üçün bütün xərclərinin ödənilməsini nəzərdə tutan qərar qəbul etmişdir.[254]

Digər bir neçə işdə Amerikaarası İnsan Hüquqları Məhkəməsi rəsmi üzr istəmək barədə cavabdeh dövlətə qarşı tələb irəli sürmüşdür.[255]

Ad hoc beynəlxalq tribunallar. Ad hoc beynəlxalq tribunallar BMT TŞ-nin qətnaməsi və ya beynəlxalq saziş əsasında yaradılır və müəyyən edilmiş yurisdiksiya çərçivəsində fəaliyyət göstərir. Məsələn, Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalı, Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalı, Sierra-Lione üzrə Xüsusi Məhkəmə və s.

Nürnberq Beynəlxalq Hərbi Tribunalı nasist Almaniyası və onun müttəfiqlərinin törətdikləri cinayətlərə görə təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi və cəzalandırılmasını nəzərdə tuturdu. Analoji hədəflər üçün Yaponiyada yeni komandanlıq tərəfindən Uzaq Şərq (Tokio) Beynəlxalq Hərbi Tribunalı təsis edilmişdi. Beynəlxalq hüquq alimlərinin qənaətincə, Nürnberq və Tokio beynəlxalq hərbi tribunallarının Nizamnamələrinin qəbulu beynəlxalq humanitar hüququn məcəllələşdirilməsinə güclü təkan verdi: "İlk dəfə olaraq müqavilə norması ilə fərdi qaydada məsuliyyətə cəlb edilməsini nəzərdə tutan cinayətkar əməllərin dairəsi müəyyən edildi və eyni zamanda, bir sıra təcrübi qərarlar qəbul edən, ümumtanınmış prinsiplər işləyib hazırlayan məhkəmələr təsis edildi".[256]

XX əsrin sonunda beynəlxalq humanitar hüququn ciddi pozuntuları, dünyada baş verən hadisələrlə bağlı siyasi və faktiki zərurət nəticəsində beynəlxalq ictimaiyyət beynəlxalq cinayət mühakiməsinin həyata keçirilməsi üzrə iki orqanın təsis edilməsi qərarına gəldi:

- Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı – keçmiş Yuqoslaviya ərazisində beynəlxalq humanitar hüququn ciddi pozuntularının törədilməsi üçün məsuliyyət daşıyan şəxslərin məhkəmə təqibi üzrə beynəlxalq cinayət tribunalı;

- Ruanda Beynəlxalq Cinayət Tribunalı – 1994-cü il 1 yanvardan 31 dekabr tarixədək olan dövrdə Ruanda ərazisində törədilmiş soyqırımı və beynəlxalq humanitar hüququn başqa ciddi pozuntuları və qonşu dövlətlərin ərazisində Ruanda vətəndaşları tərəfindən törədilən soyqırımı və başqa belə pozuntular üçün məsuliyyətli şəxslərin məhkəmə təqibi üçün beynəlxalq cinayət tribunalı.

Keçmiş Yuqoslaviyada və Ruandada törədilən cinayətlər üzrə tribunalların fəaliyyətindən sonra Syerra-Leonedə, Burundidə, Konqoda, Kambocada və Şərqi Timorda xüsusi məhkəmə orqanlarının yaradılması təşəbbüsləri aktivləşməyə başladı. İndiyədək növbəti hibrid məhkəmələr yaradılmışdır: Syerra-Leone xüsusi Məhkəməsi (2000); Şərqi Timorda törədilmiş

[253] IACtHR, Aloeboetoe v Suriname, Judgment (Reparations and Costs), 10 September 1993, para.96// http://www.worldcourts.com/iacthr/eng/decisions/1991.12.04_Aloeboetoe_v_Suriname.pdf
[254] IACtHR, Cantoral Benavides Case, Judgment of 3 December 2001, para.80; see also Barrios Altos v Peru, Judgment of 30 November 2001, para.43.// http://www.worldcourts.com/iacthr/eng/decisions/2010.11.14_Cantoral_Benavides_v_Peru.pdf
[255] IACtHR, Cantoral Benavides v Peru, Judgment Judgment, 3 December 2001, para.81; IACtHR, Moiwana Community v Suriname, Judgment (Reparations) 15 June 2005, para.216
[256] George A. Finch. The Nuremberg Trial and International Law. American Journal of International Law, Vol. 41, 1947, p. 20

ağır cinayətlər üzrə xüsusi məhkəmə palataları (2000-2006); Kosovoda qarışıq məhkəmə kollegiyaları (2000); Bosniya və Hersoqovinada beynəlxalq cinayətlərin araşdırılması üzrə məhkəmə palatası (2005); Kambocada fövqəladə məhkəmə palatalar (2006); Livan üzrə xüsusi Tribunal (2009); Afrika üzrə Xüsusi Tribunal (2013). Hibrid məhkəmələrin spesifik xüsusiyyəti ondadır ki, onlar sülhün saxlanılması üzrə missiyalar tərəfindən təsis edilirlər və bu missiyalara BMT-nin inzibati mandatı verilmişdir. Hibrid məhkəmələrin fəaliyyəti və yurisdiksiyası həm beynəlxalq, həm də milli hüquq normaları əsasında müəyyən edilir.[257]

Beləliklə, beynəlxalq tribunalların fəaliyyətinin təhlili əminliklə qeyd etməyə əsas verir ki, belə təsisatlar həm insan hüquqlarının qorunmasında, pozulmuş ədalətin bərpasında, həmçinin beynəlxalq hüquq normalarına riayət edilməsində mühüm işlər görmüşlər. Xüsusilə də bu orqanların fəaliyyəti nəticəsində məsuliyyətə cəlb edilən cinayətkarların arasında soyqırımı, müharibə cinayətləri, insanlıq əleyhinə və s. beynəlxalq cinayətləri törədən şəxslərin olması insan hüquqlarını kütləvi şəkildə pozanların cəzasız qalmadığını göstərir və gələcəkdə belə dəhşətli halların baş verməməsində əhəmiyyətli amil kimi qəbul olunur.

Nəticə: *Dünyada mövcud beynəlxalq məhkəmə mexanizmlərinin təcrübəsinin də ətraflı təhlili Azərbaycan məcburi köçkünlərinin hüquqlarının bərpasının tam şəkildə mümkünlüyünü müvafiq beynəlxalq məhkəmə mexanizmləri (məsələn, AİHM və yaradılacaq yeni ad hoc beynəlxalq tribunal) çərçivəsində də qəti şəkildə ifadə edir.*

[257] Əliyev Ə.İ.İnsan hüquqları. Dərslik. Bakı, “Nurlar”, 2019, s. 242

11. Ermənistanın beynəlxalq-hüquqi məsuliyyəti

Azərbaycan ərazilərinin işğal edilməsi və BMT TŞ-nin qətnamələrini yerinə yetirməməklə işğal vəziyyətinin 30 ilə yaxın müddətdə saxlanılması Ermənistan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinin pozulmasını təsdiq etməklə beynəlxalq məsuliyyətə cəlb edilməsini gündəmə gətirir. Ermənistanın beynəlxalq hüquqi məsuliyyətini yaradan əsaslardan biri də işğal nəticəsində bütövlükdə Azərbaycana, o cümlədən onun hüquqi və fiziki şəxslərinə vurulmuş ziyandır. Bəlli olduğu kimi, Ermənistanın hüquqa zidd hərəkətləri işğal edilmiş ərazilərdən mülki əhalinin (qeyri-ermənilərin) qovulması, dövlət qurumlarının fəaliyyətinin dayandırılması, mövcud infrastrukturun (tikililər, kommunikasiya xətləri, yollar və s.) tam dağıdılması, ətraf mühitə (biomüxtəlifliyin pozulması, torpaqların eroziyası, meşələrin məhv edilməsi, yerin təkindən qanunsuz istifadə və s.) ciddi və bərpaedilməz ziyanın vurulması ilə və s. müşahidə olunmuşdur. Bütövlükdə, Ermənistan tərəfindən işğalla əlaqədar vurulmuş ziyanların təxmini dairəsi Hesabatın 7-ci bölməsində ərtaflı qeyd edilmişdir (səh. 90-91) Bundan başqa, Ermənistan tərəfindən beynəlxalq hüququn əsas prinsip və normalarının kobud və sistematik şəkildə pozulması, nəhayət törədilmiş beynəlxalq cinayətlər məcburi köçkünlərin *"şərəfli və təhlükəsiz qayıdış hüququnu"* tam əngəlləmiş və bu gün də müvafiq problemlər yaratmaqdadır.

Dövlətin digər dövlətlər və ümumiyyətlə dünya birliyi qarşısında məsuliyyətinin əsaslarına 12 dekabr 2001-ci il tarixli Dövlətlərin beynəlxalq hüquqa zidd əməllərinə görə məsuliyyəti adlı Maddələr Layihəsi nöqteyi-nəzərdən baxılması zəruridir. Həmin sənədin 1-ci maddəsinə əsasən "dövlətin hər bir beynəlxalq hüquqa zidd əməli həmin dövlətin beynəlxalq məsuliyyətinə gətirib çıxarır", bu isə öz- özlüyündə müvafiq hüquqi nəticələri qaçılmaz edir.

Beynəlxalq məsuliyyət hüquqa zidd hərəkət və ya hərəkətsizlikdən ibarət olan davranış beynəlxalq hüquqa görə dövlətə aid edildikdə və bu dövlətin beynəlxalq öhdəliyini pozduqda meydana gəlir. Bu elementlər (birincisi, dövlətə aid edilən hərəkət və ya hərəkətsizlik, ikincisi beynəlxalq hüquqi öhdəliyin pozulması) əvvəllər BMT BM tərəfindən baxılan *Phosphates in Morocco*[258], *Diplomatic and Consular Staff*[259] işlərində öz əksini tapmışdır.

Dövlətlərin beynəlxalq hüquqa zidd əməllərinə görə məsuliyyəti adlı Maddələr Layihəsinin 4-cü maddəsində deyilir ki, bir dövlətin hər hansı bir orqanının davranışı, bu orqanın dövlət sistemində tutduğu mövqedən, o cümlədən, qanunverici, icraedici, məhkəmə və ya digər hər hansı bir funksiyanı həyata keçirməsindən asılı olmayaraq, beynəlxalq hüquqa görə bu dövlətin hərəkəti kimi qəbul edilir.[260] Məsuliyyət həm bu qurumların hərəkətlərinə, həm də hərəkətsizliyinə görə yaranır. Həmin maddədə qanunvericilik, icra və ya məhkəmə funksiyalarına əlavə olaraq orqanların digər funksiyalarından da bəhs edilir.

[258] http://www.worldcourts.com/pcij/eng/decisions/1938.06.14_phosphates.htm
[259] https://www.icj-cij.org/en/case/64/judgments
[260] http://docs.cntd.ru/document/901941379

Beynəlxalq hüquqi öhdəliyin pozulması məsələsinə gəldikdə, 12 dekabr 2001-ci il tarixli Dövlətlərin beynəlxalq hüquqa zidd əməllərinə görə məsuliyyəti adlı Maddələr Layihəsi bu halda hansı öhdəliyin nəzərdə tutulduğunu (müqavilə və ya müqavilədən kənar) açıqlamır. Ermənistanla bağlı bu pozuntu onun dövlət olaraq üzərinə götürdüyü beynəlxalq öhdəliklərin, həmçinin BMT TŞ-nin icrası məcburi olan qərarlarının (qətnamələrinin) icra edilməməsidir. Burada xüsusi olaraq həmin sənədin 42-ci maddəsinin müddəalarını qeyd etmək lazımdır. Həmin maddə ilə ziyan çəkmiş dövlət digər dövlətin məsuliyyətə cəlb edilməsinin şərtlərini müəyyən edir.[261]

Ziyan çəkmiş dövlət cavabdeh dövlətdən qanunazidd hərəkətlərini dayandırmaqla yanaşı, vurulmuş ziyanın ödənilməsini də tələb edə bilər. Cavabdeh dövlət özünün beynəlxalq hüquqa zidd əmelləri nəticəsində vurulmuş maddi və mənəvi ziyana görə tam məsuliyyət daşıyır. 12 dekabr 2001-ci il tarixli Dövlətlərin beynəlxalq hüquqa zidd əməllərinə görə məsuliyyəti adlı Maddələr Layihəsinin 34-cü maddəsi ziyanın ödənilməsinin restitusiya, kompensasiya və satisfaksiya formasını qeyd edir və hər birini fərqləndirir. Qeyd etmək lazımdır ki, insan hüquqlarının pozulmasına görə ədalətli kompensasiyanın məsuliyyətin növü olaraq beynəlxalq təsisatlarda (məsələn, AİHM) təcrübəsi də formalaşmışdır. Bir qayda olaraq ayrılıqda müraciət olunan bu məsuliyyət növlərinin qarşılıqlı istifadə olunması mümkünlüyü də beynəlxalq təcrübədə öz əksini tapmışdır (AİHM-nin "*Golder"* (1975) işi üzrə təcrübəsi və s.).

Ermənistanın beynəlxalq hüquqi məsuliyyətini yaradan beynəlxalq hüquqa zidd əməllərinin üç mərhələdə baş verdiyini vurğulamaq lazımdır:

- *işğal zamanı;*
- *işğal dövrü;*
- *işğaldan azad olunan zaman*.

Hər bir dövr özünə xas olan beynəlxalq hüquqa zidd əməllərin törədilməsi ilə müşahidə olunmuşdur. Bütövlükdə isə, hər bir dövrdə baş verən beynəlxalq hüquqa zidd əməllər işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş şəxslərin *"şərəfli və təhlükəsiz qayıdış hüququ*"na ciddi problem yaratmışdır.

Bu dövrlərin hər birində Ermənistan tərəfindən beynəlxalq humanitar hüquq normaları da ciddi şəkildə pozulmuşdur. Məsələn, işğal edilmiş ərazilərdən yerli qeyri-erməni olan əhalinin qovulması və Ermənistan tərəfindən həmin ərazilərdə qanunsuz məskunlaşmanın aparılması mövcud statistik göstəricilərlə də təsdiq edilir. Məsələn, bir necə inzibati vahid üzrə əhalinin statistik göstəricilərini təqdim edirik:

İnzibati vahid	İşğala qədər (əhalinin ümumittifaq siyahıya alınması - 1979-cu il [262])	İşğal zamanı (üç rayon əsasında qanunsuz olaraq Kaşataq rayonu yaradılmışdır[263])
Laçın rayonu	44665 – azərbaycanlılar; 34 – ermənilər	

[261] James Crawford. The International Law Commissions Articles on State Responsibility. Introduction. Text and Commentaries. Cambridge, 2002; Джеймс Кроуфорд. Статьи об ответственности государств за международнопротивоправные деяния.UN, 2013// https://legal.un.org/avl/pdf/ha/rsiwa/rsiwa_r.pdf

[262] https://www.prlib.ru/item/350966

[263] https://ru.wikipedia.org/wiki/%D0%9A%D0%B0%D1%88%D0%B0%D1%82%D0%B0%D0%B3%D1%81%D0%BA%D0%B8%D0%B9_%D1%80%D0%B0%D0%B9%D0%BE%D0%BD

Qubadlı rayonu	26537 – azərbaycanlılar; 26 – ermənilər	0 – azərbaycanlılar 9724 – ermənilər (2005)
Zəngilan rayonu	28635 - azərbaycanlılar; 35 – ermənilər	

Bundan başqa, məcburi köçkünlərin *"şərəfli və təhlükəsiz qayıdış hüququ"*na ciddi xələl gətirən hərəkətlər kimi işğal edilmiş ərazilərdə ətraf mühitə uzunmüddətli pozulması və bəzi hallarda bərpası mümkün olmayan ziyanların vurulmasıdır. Ermənistanın bu əməlinin ekosid kimi müəyyənləşdirilməsi zəruridir. İlk olaraq, bu məsuliyyət 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarına 1977-ci il tarixli I Əlavə Protokolda öz əksini tapmışdır (35-ci maddənin 3-cü hissəsi). Həmin sənədin 55-ci maddəsinə əsasən, hərbi əməliyyatlar zamanı ətraf mühitin geniş, uzunmüddətli və təsirli ziyandan qaçılması üçün müəyyən qayğı göstərilməlidir. Ətraf mühitə vurulmuş ziyana görə dövlətlərin beynəlxalq hüquqi məsuliyyət prinsipi də bu sahənin qorunmasına öz töhfəsini verən prinsiplərdəndir. Həmin prinsipə əsasən dövlətlər həm beynəlxalq hüquqla qadağan edilən (*responsibility*), həmçinin qadağan edilməmiş (*liability*) öhdəliklərinin icrası zamanı dəymiş ziyanı ödəməlidirlər. Burada yenə də 2001-ci il tarixli Dövlətlərin beynəlxalq hüquqa zidd əməllərinə görə məsuliyyəti adlı Maddələr Layihəsinin 31-ci maddəsinə müraciət etmək yerinə düşərdi. Həmin maddəyə əsasən beynəlxalq hüquqa zidd əməlinə görə təqsirkar dövlət vurduğu ziyanı tam qarşılamalıdır. Burada ziyan həm maddi, həm də mənəvi ziyanı əhatə edir. Ən mühüm məsələ isə həmin maddədə vurulmuş ziyanın ifadə edilməsindən gedir, dövlətin hərəkəti ilə ziyan arasındakı hüquqi əlaqəliliyin araşdırılması o qədər də əhəmiyyət kəsb etmir.[264]

Ümumiyyətlə, Ermənistanın beynəlxalq hüquqa zidd əməllərinin məsuliyyəti kimi bu əməllər pozuntuda təqsiri olan fiziki (hüquqi) şəxslərin cinayət məsuliyyətini və dövlətin maddi məsuliyyətini özündə ehtiva edir. Təqsirli fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi Ermənistanı maddi məsuliyyətdən azad etmir. 1949-cu il tarixli Müharibə qurbanlarının müdafiəsinə dair Cenevrə Konvensiyalarına 1977-ci il tarixli I Əlavə Protokolun 91-ci maddəsinə müvafiq olaraq Ermənistan öz silahlı qüvvələrinin tərkibinə daxil olan şəxslərin törətdikləri bütün əməllərə görə məsuliyyət daşıyır. Qeyd olunan əməllər nəticəsində Azərbaycana, o cümlədən Ermənistanın təcavüzü nəticəsində Azərbaycan məcburi köçkünlərinə vurulmuş ziyana görə Ermənistan kompensasiya ödəməyə tam şəkildə borcludur.

Nəticə: *Hər bir halda Ermənistanın beynəlxalq məsuliyyətə cəlb edilməsi üçün məsələnin beynəlxalq müqavilə əsasında yurisdiksiyası tanınmış təsisatlar (AİHM) və ya beynəlxalq təhlükəsizliyə və sülhə cavabdeh olan BMT TŞ-nin ad hoc təsisatları və ya yaradacağı digər qurumları çərçivəsində həyata keçirilməsi mümkündür. Eyni zamanda, bununla bağlı məsələlərin həllinin BMT BA-nın da müvafiq qərarı əsasında həyata keçirilməsi imkanları mövcuddur. Belə ki, BMT BA bütün dövlətləri təmsil edir, BMT Nizamnaməsi ilə BMT səlahiyyətinə aid istənilən məsələyə baxa bilər.*

Bundan əlavə, törədilən cinayətlərə görə məsuliyyətin müəyyən edilməsindən və təqsirkarların məsuliyyətə cəlb edilməsindən asılı olmayaraq məcburi köçkünlərin "şərəfli və

[264] Гусейнов Т.И. Международные и национально-правовые аспекты экологической безопасности. Баку, 2017, с. 31-38

təhlükəsiz qayıdış hüququ"nun realizəsində Ermənistanın məsuliyyəti tam şəkildə müəyyən edilməlidir. Belə ki, insanlar hələ uzun müddət həmin ərazilər minalardan və digər təhlükəli vasitələrdən və ya silahlardan tam təmizlənməyənə qədər, o cümlədən orada yaşamaq üçün normal həyat qurulmayana qədər həmin əraziyə qayıtmaq hüququndan məhrumdurlar. Normal həyat qurulması isə müəyyən müddət və kifayət qədər böyük vəsait tələb edir.

12. 2020-ci ilin sonlarına qədər işğal altında olmuş və hazırda işğaldan azad edilmiş Azərbaycan ərazilər üçün zəruri olan ilkin humanitar yardım

İşğaldan azad edilən Azərbaycan ərazilər üçün zərurət duyulan ilkin humanitar yardım aşağıdakılardan ibarətdir:

- ərazilərin minalardan və digər silahlardan təmizlənməsi;
- məcburi köçkünlərin dağıdılmış yaşayış yerlərinin bərpası və ya bərpası mümkün olmayan hallarda isə yenilərinin tikilməsi;
- məcburi köçkünlərin şərəfli qayıdışı üçün infrastrukturun qurulması (yollar, işıq, su, qaz təminatı, məktəbəqədər və digər məktəblər, kitabxana, xəstəxana binaları, hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün binalar və s.);
- azad edilmiş ərazilərə könüllü qayıtmaq üçün məcburi köçkünlərin siyahıya alınması;
- məşğulluq proqramları da daxil olmaqla, iş yerlərinin yaradılması;
- məcburi köçkünlərə psixoloji yardımın təşkili;
- gələcəkdə azərbaycanlı əhali ilə bir ərazidə yaşamaq üçün erməni əhaliyə xüsusi inteqrasiya proqramlarının təşkili;
- Azərbaycan ərazisində uzun müddət yaşayan və qanuni əsaslarla məskunlaşan erməni əhalisinə isə aşağıdakı mövzularda məlumat sessiyalarının təşkili zəruridir: Azərbaycan Konstitusiyası və qanunvericiliyi ilə tanışlıq; Azərbaycan vətəndaşlarının pozulmuş hüquqlarının bərpasına dair mövcud mexanizmlər; insan hüquqları sahəsində beynəlxalq təsisatlar; insan hüquqları sahəsində milli təsisatlar; Azərbaycanda vətəndaş iştirakı mexanizmləri; Azərbaycanda etnik və milli azlıqların hüquqları; Azərbaycanda vətəndaşların sosial təminat hüquqları; Azərbaycanda biznesə və sahibkarlığa dəstək; və s.

13. Nəticə

Hesabat üzrə nəticələri iki istiqamətdə müəyyən etmək olar:

I. Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqları üzrə aşağıdakıların qeyd edilməsi zəruridir:

- İnsan hüquqları sahəsində qəbul edilmiş beynəlxalq sənədlər və mövcud beynəlxalq təcrübə Azərbaycan məcburi köçkünlərinin pozulmuş hüquqlarına dair cavabdeh dövlət olan Ermənistanın məsuliyyətini beynəlxalq səviyyədə müəyyənləşdirməyə tam imkan verir. Azərbaycan isə insan hüquqları sahəsində qəbul edilmiş beynəlxalq sənədləri əsas tutaraq beynəlxalq ictimaiyyət qarşısında məcburi köçkünlərinin pozulmuş hüquqlarının bərpa edilməsi tələbi ilə çıxış etməyə tam haqlıdır. Bu hüquq Ermənistanın məsuliyyətini tam şəkildə müəyyən edir və vurulan ziyanlar mühüm beynəlxalq cinayətlərin törədilməsi ilə müşayiət olunduğundan müddət tətbiq edilmədən daim iddia hüququ ilə xarakterizə olunur. Ermənistan tərəfindən törədilən cinayətlərə görə beynəlxalq məsuliyyətin müəyyən edilməsindən və təqsirkarların məsuliyyətə cəlb edilməsindən asılı olmayaraq Azərbaycan məcburi köçkünlərinin *"şərəfli və təhlükəsiz qayıdış hüququ"*nun realizəsində Ermənistanın məsuliyyəti tam şəkildə müəyyən edilməlidir. "*Şərəfli və təhlükəsüz qayıdış hüququ"*nun birinci istiqaməti olan şərəfli qayıdış hüququ əvvəlki vəziyyətin bərpası ilə qayıdışın təmin edilməsini, ikinci istiqamət olan təhlükəsiz qayıdış hüququ isə məcburi köçkünlərin öz yurdlarına qayıdarkən heç bir təhlükə ilə rastlaşmayacağını əhatə edir.

- BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələri Azərbaycana qarşı təcavüzün baş verdiyini və ərazisinin işğal edildiyini təsdiq edir. Həmin qətnamələrlə və mühüm beynəlxalq sənədlərlə Azərbaycan məcburi köçkünlərinin tanınan *"şərəfli və təhlükəsüz qayıdış hüququ"* isə Ermənistan tərəfindən bu gün də pozulmaqda davam etməkdədir. Belə ki, ərazilər işğaldan azad edilsə də, Azərbaycan məcburi köçkünlərinin *"şərəfli və təhlükəsüz qayıdış hüququ"* müəyyən müddət həyata keçirilə bilməyəcəkdir: 30 ilə yaxın müddətdə işğal edilmiş ərazilər tam dağıdılmış, yaşayış üçün yararsız vəziyyətə salınmış, kütləvi şəkildə minalanmışdır. Vurulmuş ziyanların əhatə dairəsi isə təxmini olaraq belə istiqamətlərdə müəyyən edilə bilər: birbaşa vurulmuş ziyanlar; əldən çıxmış faydalar; vurulmuş digər ziyanlar. Ermənistan isə dəymiş ziyanları ödəməkdən imtina edir. Bu isə məcburi köçkünlərinin hüquqlarının Ermənistan tərəfindən pozulmasının bu gün də davam etdiyini göstərir. Belə ki, məcburi köçkünlər orada yaşamaq üçün normal həyat qurulmayana qədər həmin əraziyə qayıtmaq hüququndan məhrumdurlar. Normal həyat qurulması isə müəyyən müddət və kifayət qədər çox böyük vəsait tələb edir. Bu isə Azərbaycan tərəfindən ancaq mərhələli şəkildə edilə bilər.

- Azərbaycan məcburi köçkünlərinin bir sıra mühüm hüquq və azadlıqlarının ərtaflı təhlili göstərir ki, bu hüquq və azadlıqlar Ermənistan tərəfindən kütləvi, sistematik və kobud şəkildə pozulmuşdur. Dünyada məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpasına dair mövcud olmuş beynəlxalq təşkilati mexanizmlər həmin təcrübədən istifadə edilməklə və beynəlxalq

sənədlərin müddəaları əsas tutulmaqla Azərbaycan məcburi köçkünlərinin hüquqlarının da bərpasına dair spesifik beynəlxalq təşkilati mexanizmin yaradılmasını tam şəkildə şərtləndirir. Hər bir halda Ermənistanın beynəlxalq məsuliyyətə cəlb edilməsi üçün məsələnin beynəlxalq müqavilə əsasında yurisdiksiyası tanınmış təsisatlar və ya beynəlxalq təhlükəsizliyə və sülhə cavabdeh olan BMT TŞ-nin ad hoc təsisatları və ya BMT tərəfindən yaradılacaq digər qurumları çərçivəsində həyata keçirilməsi tam mümkündür.

II. Dünyada qlobal problemə çevrilən məcburi köçkünlər probleminin tənzimlənməsi, həmin şəxslərin hüquqlarının daha səmərəli müdafiəsi üzrə aşağıdakı təkliflərin irəli sürülməsi zəruridir:

- Dünyada mövcud regional təcrübədən (Afrika) çıxış edərək BMT və AŞ çərçivəsində məcburi köçkünlərin pozulmuş hüquqlarının müdafiəsi məqsədilə özündə dövlətlər üçün mühüm hüquqi öhdəliklər müəyyən edən yeni beynəlxalq konvensiyanın qəbul edilməsi zəruridir. Bu beynəlxalq konvensiyada BMT və regional çərçivədə qəbul edilmiş bir sıra beynəlxalq sənədlərin daha da təkmilləşdirilmiş xüsusiyyətləri əks etdirilməlidir.

- Qəbul ediləcək beynəlxalq konvensiya ilə müvafiq beynəlxalq nəzarət mexanizminin yaradılması da zəruridir. Həmin beynəlxalq mexanizmə dövlətlərdən müvafiq hesabatların alınması, o cümlədən dövlətlərarası və fərdi şikayətlərin verilməsi imkanlarının nəzərdə tutulması ilə bərabər, eyni zamanda, məcburi köçkünlərə dəymiş ziyanın müəyyən edilməsi, onun müvafiq təqsirkar dövlət tərəfindən ödənilməsi şərtlərini müəyyən etmək səlahiyyəti də verilməlidir.

14. Əlavələr
(14. Annexes)

14.1. Uzun müddət ərzində Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində mövcud olmuş, hazırda isə tam və ya qismən dağıdılmış tarix və mədəniyyət abidələrinin (Dünya əhəmiyyətli tarixə malik daşınmaz tarixi və mədəniyyət abidələrinin; Respublika əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələrinin; Yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələrinin) Siyahısı (Azərbaycan Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərari ilə təsdiq edilmişdir)

14.1. The list of historical and cultural monuments (immovable historical and cultural monuments of world importance; immovable historical and cultural monuments of Republican importance; immovable historical and cultural monuments of local importance) that existed in the territories of Azerbaijan occupied by Armenia for a long time and now completely or partially destroyed (Approved by the Resolution 132 of the Cabinet of Ministers of Azerbaijan dated August 2, 2001)

Ağdam rayonu üzrə
(For Aghdam region)

Adı ***(Name)***	**İnşa tarixi** ***(Date of construction)***	**Yerləşdiyi məkan** ***(Location)***
Çıraqtəpə yaşayış yeri *(Chiragtepe residence)*	tunc dövrü *(The Bronze Age)*	Ağdam şəhəri *(Aghdam city)*
Qarahacı yaşayış yeri *(Garahaji residence)*	ilk tunc dövrü *(early Bronze Age)*	Ağdam-Xankəndi yolunun sağ tərəfində, Ağdam şəhəri müasir müsəlman qəbiristanlığının qərbində *(On the right side of Aghdam-Khankandi Road, west of Aghdam City modern Muslim cemetery)*
Qarahacılı nekropolu *(Qarahajili necropolis)*	tunc dövrü *(The Bronze Age)*	Ağdam şəhəri *(Aghdam city)*

Vəlixantəpə yaşayış yeri *(Valikhantepe residence)*	Eneolit *(The Eneolith Age)*	Ağdam-Ağcabədi şosesinin 1,5 kilometrliyində *(1.5 km from Aghdam-Aghjabadi Highway)*
Kurqan *(The mound)*	tunc dövrü *(The Bronze Age)*	Üzümçülük sovxozu *(Vineyard collective farm)*
İlanlıtəpə yaşayış yeri *(Ilanlitepe settlement)*	eneolit—dəmir dövrü *(The Eneolithic-Iron Age)*	Baş Qərvənd kəndi *(Prime Garvand village)*
Dəyirmantəpə kurqanı *(Deyirmantepe mound)*	tunc və dəmir dövrü *(The Bronze and Iron Age)*	Orta Qərvənd və Mirəşəlli kəndlərinin arasında *(Between the villages of Middle Garvand and Mirashalli)*
Yaşayış yeri *(The residence)*	antik dövrü *(antique period)*	Qərvənd kəndi *(Garvand village)*
Şomullutəpə yaşayış yeri *(Shomullutepe residence)*	Eneolit *(The Eneolith)*	Mirəşəlli kəndindən 1 km şimal-şərqdə *(1 km north-east of Mirashalli village)*
Bənövşələr təpəsi yaşayış yeri *(Violet Hill residence)*	Eneolit *(The Eneolith)*	Mirəşəlli və Armudlu kəndlərinin arasında *(Between the villages of Mirashalli and Armudlu)*
Gültəpə yaşayış yeri *(Gultepe residence)*	Eneolit *(The Eneolith)*	Mirəşəlli kəndindən 300 km şimal-şərqdə *(300 km north-east of Mirashalli village)*
Yaşayış yeri *(The residence)*	e.ə. II—I minilliklər *(II-I millennia B.C.)*	Armudlu kəndi *(Armudlu village)*
Rəsultəpə yaşayış yeri *(Rasultepe residence)*	orta tunc dövrü, orta əsrlər *(Middle Bronze Age, Middle Ages)*	Armudlu kəndinin şimal-qərbində *(north-west of Armudlu village)*
Rəsultəpə yaşayış yeri *(Rasultepe residence)*	tunc dövrü *(The Bronze Age)*	Armudlu kəndi, Rəsultəpə yaşayış yerinin 30—40 m şimalında *(In the north-west of Armudlu village)*
İsmayılbəy təpəsi yaşayış yeri *(Ismailbek Hill residence)*	Eneolit *(The Eneolith)*	Armudlu kəndi *(Armudlu village)*
Kəbləhüseyn yaşayış yeri *(Kablahuseyn residence)*	Eneolit *(The Eneolith Age)*	Kəbləhüseyn kəndi *(Kablahuseyn village)*

Namazəli təpəsi yaşayış yeri *(Namazali Hill residence)*	Eneolit *(The Eneolith)*	Kəbləhüseyn kəndindən 500 m şərqdə *(500 m east of Geblehuseyn village)*
Kurqan çölü *(Mound deserts)*	e.ə. II—I minilliklər *(II-I millennia B.C.)*	Boyəhmədli kəndi *(Boyahmadli village)*
Boyəhmədli kurqanları (80-a qədər) *(Boyahmadli mounds (Up to 80))*	ilk tunc dövrü *(early Bronze Age)*	Boyəhmədli, Qızıllı Gəngərli və Salahlı Gəngərli kəndlərinin arasında *(Among the villages of Boyahmadli, Gizilli Kangarli and Salahli Kangarli)*
Gavurqala yaşayış yeri *(Gavurgala residence)*	ilk orta əsrlər *(early Middle Ages)*	Boyəhmədli kəndinin cənubunda *(In the south of Boyahmadli village)*
Daş qutusu nekropolu *(The Stone boxes necropolis)*	ilk orta əsrlər *(early Middle Ages)*	Boyəhmədli kəndinin cənub tərəfində *(On the south side of Boyahmadli village)*
Paprəvənd-Boyəhmədli kurqanları (Möhürlü təpələri, Əli kişi təpəsi, Molla Mustafa oğlu təpəsi, Həmşəri təpəsi və s.) *(Papravand-Boyahmadli mounds(Mohurli hills, Ali kishi hill, Molla Mustafa oghlu hill, Hamshari hill, etc.))*	tunc və dəmir dövrü *(The Bronze and Iron Age)*	Boyəhmədli kəndinin şimalında və şimal-şərqində *(In the North and north-east of Boyahmadli village)*
Qarapirim təpələri *(Garapirim hills)*	tunc və ilk dəmir dövrü *(The Bronze and early Iron Age)*	Qarapirim kəndinin qərbində *(In the west of the village of Garapirim)*
Güllütəpə-I yaşayış yeri *(Kullutepe-I place of residence)*	III—XIII əsrlər *(III-XIII centuries)*	Papravənd kəndi *(Papravand village)*
Güllütəpə-II yaşayış yeri *(Kullutepe-II place of residence)*	son tunc dövrü, ilk orta əsrlər *(late Bronze Age, early Middle Ages)*	Papravənd kəndinin cənub-şərqində *(In the south-east of Papravand village)*
Misir qışlağı yaşayış yeri *(Misir winter quarter residence)*	son tunc, ilk dəmir dövrü *(late Bronze, early Iron Age)*	Papravənd kəndindən 250 m şərqdə *(From Papravand village 250 m to the East)*

Kurqanlar *(The mounds)*	son tunc, ilk dəmir dövrü *(late Bronze, early Iron Age)*	Papravənd kəndindən 1 km şərqdə *(1 km east of Papravand village)*
Qala qalıqları *(The remains of the castle)*	orta əsrlər *(Middle Ages)*	Tarpaut kəndi *(Tarpaut village)*
Nekropol *(The Necropolis)*	orta əsrlər *(Middle Ages)*	Kənçərli kəndi *(Kancherli village)*
Şomultəpə yaşayış yeri *(Shumultepe residence)*	e.ə. V—II minilliklər *(V-II millennia B.C.)*	Quzanlı qəsəbəsi *(Guzanli settlement)*
Gülməmməd təpəsi yaşayış yeri *(Gulmammad hill residence)*	Eneolit *(The Eneolith)*	Quzanlı qəsəbəsindən 2 km cənub-şərqdə *(2 km south-east of Guzanli settlement)*
Çaqqallı təpə yaşayış yeri *(Chaggalli hill residence)*	Eneolit *(The Eneolith)*	Quzanlı qəsəbəsindən şimal-şərqdə *(In the north-east of Guzanli settlement)*
Əjdaha təpə yaşayış yeri *(Dragon Hill residence)*	Eneolit *(The Eneolith)*	Quzanlı qəsəbəsindən 2,5 km şimalda *(2.5 km north of Guzanli settlement)*
Yaşayış yeri *(The residence)*	e.ə. V—II minilliklər *(V-II millennia B.C)*	Zəngişalı kəndi *(Zangishali village)*
Yaşayış yeri *(The residence)*	e.ə. V—II minilliklər *(V-II millennia B.C.)*	Mərzili kəndi *(Marzili village)*
Nekropol *(The Necropolis)*	antik dövrü *(antique period)*	Seyidli kəndi *(Seyidli village)*
Yaşayış yeri *(The residence)*	antik dövrü *(antique period)*	Əlimədətli kəndi *(Elimedetli village)*
Yaşayış yeri *(The residence)*	antik dövrü *(antique period)*	Göytəpə kəndi *(Goytepe village)*
Göytəpə yaşayış yeri *(Goytepe residence)*	tunc dövrü *(The Bronze Age)*	Göytəpə kəndinin qərbində, Qarabağ atçılıq zavodu qəsəbəsinin şərqində *(In the west of Goytepe village, in the east of Garabagh horse-breeding plant settlement)*

Göytəpə kurqanları *(Goytepe mounds)*	tunc dövrü *(The Bronze Age)*	Göytəpə kəndinin qərbində, Qarabağ atçılıq zavodu qəsəbəsinin şərqində *(In the west of Goytepe village, in the east of Garabagh horse-breeding plant settlement)*
Şümürlütəpə kurqanı *(Shumurlutepe mound)*	tunc dövrü *(The Bronze Age)*	Əfətli kəndi *(Efetli village)*
Balatəpə kurqanı *(Balatepe mound)*	tunc dövrü *(The Bronze Age)*	Əfətli kəndi *(Efetli village)*
Yaşayış yeri *(The residence)*	antik dövrü *(antique period)*	Sarıcalı kəndi *(Sarijali village)*
Çinartəpə yaşayış yeri *(Chinartepe residence)*	e.ə. II—I minilliklər *(II-I millennia B.C.)*	Sarıcalı kəndindən 3 km cənub-şərqdə *(3 km south-east of Sarijali village)*
Sarıcalı yaşayış yeri və nekropol *(Sarijali residence and necropolis)*	eneolit, tunc dövrü *(The Eneolith, The Bronze Age)*	Sarıcalı kəndindən 2 km cənub-şərqdə *(2 km south-east of Sarijali village)*
Sarıcalı tayı yaşayış yeri *(Sarijali Thayi residence)*	tunc dövrü *(The Bronze Age)*	Sarıhacılı kəndindən 2,5—3 km şərqdə *(2.5-3 km east of Sarıhajili village)*
Ağtəpə yaşayış yeri *(Agtepe residence)*	tunc dövrü *(The Bronze Age)*	Çəmənli kəndindən 3 km şərqdə *(3 km east of Chamanli village)*
Çəmənli təpə kurqanı *(Chemenli hill mound)*	eneolit, tunc dövrü *(The Eneolith, The Bronze Age)*	Çəmənli kəndindən 3 km cənub-şərqdə *(3 km south-east of Chamanli village)*
Seyid Mustafa yaşayış yeri *(Seyid Mustafa residence)*	Eneolit *(The Eneolith)*	Bala Baharlı kəndindən 2 km qərbdə *(2 km west of Bala Baharli village)*
Yaşayış yeri *(The residence)*	e.ə. V—I minilliklər *(V-I millennia B.C.)*	Gül Baharlı kəndi *(Gul Bakharli Village)*
Yaşayış yeri *(The residence)*	antik dövrü *(antique period)*	Natavan adına sovxozun ərazisində *(On the territory of the state farm named after Natavan*
Yaşayış yeri *(The residence)*	antik dövrü *(antique period)*	Əhmədavar kənd *(Ehmedevar village)*

Qəhrəmanbəyli kurqanı *(Gahramanbayli mound)*	tunc dövrü *(The Bronze Age)*	Qəhrəmanbəyli kəndi *(Gahramanbayli village)*
I və II Qoşatəpə yaşayış yeri *(I and II Qoshatepe residence)*	Eneolit *(The Eneolith)*	Əhmədağalı kəndinin cənub-qərbində *(In the south-west of Ahmadagali village)*
Əhmədoğlu yaşayış yeri *(Ahmadoglu residence)*	Eneolit *(The Eneolith)*	Əhmədağalı kəndinin cənubunda *(In the south of Ahmadagali village)*
Məscidtəpə yaşayış yeri *(Maschidtepe residence)*	Eneolit *(The Eneolith)*	Əhmədağalı kəndi *(Ahmadagali village)*
Əzgənlitəpə yaşayış yeri *(Azgenlitepe residence)*	Eneolit *(The Eneolith)*	Əhmədağalı kəndindən 300 m şərqdə *(From Ahmadagali village to 300 m east)*
Vəlibəy təpələri (4 ədəd) *(Velibey hills (4 pieces))*	eneolit, tunc dövrü və orta əsrlər *(The Eneolith, The Bronze Age and Middle Ages)*	Əhmədağalı kəndindən 2 km şərqdə *(2 km east of Ahmedagali village)*
Yaşayış yeri *(Place of residence)*	antik dövrü *(antique period)*	Poladlı kəndi *(Poladli village)*
Qasımtəpə yaşayış yeri *(Gasimtepe residence)*	ilk tunc dövrü *(early Bronze Age)*	Qiyaslı kəndi *(Giyasli village)*
Çinartəpə yaşayış yeri *(Chinartepe residence)*	tunc dövrü *(The Bronze Age)*	Qarqarçayın sol sahilində *(On the left bank of the Karkarchay River)*
Yaşayış yeri *(Place of residence)*	e.ə. V—I minilliklər *(V-I millennia B.C.)*	Evoğlu kəndi *(Evoglu village)*
Qaradağlı kurqanları *(Garadaghli mounds)*	tunc dövrü *(The Bronze Age)*	Qaradağlı kəndinin şərqində *(In the east of Garadagli village)*
Bəyliktəpə kurqanı *(Beyliktepe mounds)*	tunc dövrü *(The Bronze Age)*	Qaradağlı kəndinin şimal-şərqində *(In the north-east of Garadagli village)*
Xırmantəpə kurqanı *(Khirmantepe mound)*	ilk tunc dövrü *(early Bronze Age)*	Çuxurməhlə kəndi *(Chukhurmehle village)*

Hüseyntəpə kurqanları *(Huseyntepe mounds)*	ilk tunc dövrü *(early Bronze Age)*	Çuxurməhlə kəndinin qərbində *(In the west of Chukhurmehle village)*
Çuxurməhlə kurqanı *(Chukhurmehle mound)*	ilk tunc dövrü *(early Bronze Age)*	Çuxurməhlə kəndi *(Chukhurmehle village)*
Qaratəpə yaşayış yeri *(Garatepe residence)*	son tunc, ilk dəmir dövrü *(late Bronze, early Iron Age)*	Şıxbabalı kəndinin cənubunda *(In the south of Shikhbabali village)*
Gülablı kurqanları *(Gulabli mounds)*	son tunc, ilk dəmir dövrü *(late Bronze, early Iron Age)*	Gülablı kəndinin şimal-şərqində *(In the north-east of Gulabli village)*
Maqsudlu kurqanları *(Magsudlu mounds)*	tunc dövrü *(The Bronze Age)*	Maqsudlu kəndindən 2,5—3 km şərqdə *(2.5-3 km east of Maksudlu village)*
Töyrətəpə kurqanları *(Teyratapa mounds)*	tunc və dəmir dövrü *(The Bronze and Iron Age)*	Güllücə kəndinin şimalında *(In the north Gulluja village)*
Karvansara təpə və Çaparyeri yaşayış yeri *(Karvansara Hill and Chaparyeri residence)*	ilk orta əsrlər *(early Middle Ages)*	Güllücə kəndinin cənub-qərbində *(In the south-west of Gulluja village)*
Yüzbaşlı təpəsi yaşayış yeri *(Yuzbaşlı hill residence)*	Eneolit *(The Eneolith)*	Yuxarı Yüzbaşlı kəndindən 250—300 m cənubda *(250-300 m south of Yukhari Yuzbashli village)*
Ağabəy təpəsi yaşayış yeri *(Agabey hill residence)*	eneolit, ilk orta əsrlər *(The Eneolith, early Middle Ages)*	Yuxarı Yüzbaşlı kəndinin şimalında *(In the north of Yukhari Yuzbashli village)*
Abdüləzim təpəsi yaşayış yeri *(Abdulazim hill residence)*	Eneolit *(The Eneolith)*	Aşağı Yüzbaşlı kəndindən 1,3 km şərqdə *(1.3 km east of Ashagi Yuzbashli village)*
Şükürbəyli təpəsi yaşayış yeri *(Shukurbeyli hill residence)*	Eneolit *(The Eneolith)*	Aşağı Yüzbaşlı kəndindən 2,3 km şimal-şərqdə *(2.3 km north-east of Ashagi Yuzbashli village)*
Sarıçoban kurqanları *(Sarichoban mounds)*	tunc dövrü *(The Bronze Age)*	Sarıçoban kəndinin qərbində *(To the west of Sarichoban village)*
Bəşirtəpə yaşayış yeri *(Bashirtepe residence)*	eneolit, son tunc dövrü, ilk orta əsrlər *(The Eneolith, late Bronze Age, early Middle Ages)*	Üçoğlan kəndi, Kiçikli məhəlləsinin cənubunda *(Uchoghlan village, south of the living quarter)*

Böyüktəpə kurqanı və yaşayış yeri *(Buyuktepemound and place of residence)*	tunc dövrü *(The Bronze Age)*	Üçoğlan kəndi, Kiçikli məhəlləsindən 2 km şərqdə *(Uchoghlan village, 2 km east of the living quarter)*
Kərimtəpə və yaşayış yeri *(Karimtepe and place of residence)*	eneolit, orta əsrlər *(The Eneolith, Middle Ages)*	Üçoğlan kəndinin şimal-şərqində *(In the north-east of Uchoghlan village)*
Qəbiristan təpəsi *(Qabiristan hill)*	tunc dövrü *(The Bronze Age)*	Üçoğlan kəndinin şimal-şərqində *(In the north-east of Uchoglan village)*
I və II Üçoğlan yaşayış yerləri və kurqanlar *(I and II Uchoglan places of residence and mounds)*	tunc dövrü *(The Bronze Age)*	Üçoğlan kəndindən 3 km şimal-qərbdə, Sarıçoban kəndinin yanında *(3 km north-west of the village of Uchoghlan, next to the village of Sarichoban)*
Qaçaytəpə yaşayış yeri və nekropol *(Gachaytepe residence and necropolis)*	tunc dövrü *(The Bronze Age)*	Üçoğlan kəndi, Orta qışlaq məhəlləsindən şimalda *(Uchoghlan village, in the north of the Middle winter quarter)*
Güllütəpə yaşayış yeri *(Gullutepe residence)*	Eneolit *(The Eneolith)*	Alıbəyli kəndindən 1 km cənub-şərqdə *(1 km south-east of Alibayli village)*
Kazımtəpə yaşayış yeri *(Kazimtepe residence)*	Eneolit *(The Eneolith)*	Alıbəyli kəndinin qərbində *(In the west of Alibayli village)*
Sayadtəpə kurqanı *(Sayadtepe mound)*	tunc dövrü *(The Bronze Age)*	Səfərli kəndinin qərbində *(In the west of Safarli village)*
Səfərli təpələri yaşayış yeri *(Safarli hills residence)*	Eneolit *(The Eneolith)*	Səfərli kəndi *(Safarli village)*
Leyla təpəsi II yaşayış yeri *(Leyla hill the II residence)*	Eneolit *(The Eneolith)*	Eyvazlı kəndindən 300 m şimalda *(300 m north of Eyvazli village)*
Nəsirbəy təpəsi yaşayış yeri *(Nasirbey hill residence)*	Eneolit *(The Eneolith)*	Eyvazlı kəndindən cənub-qərbdə *(In the south-west of Eyvazli village)*
Kərimtəpə yaşayış yeri *(Karimtepe residence)*	Eneolit *(The Eneolith)*	Eyvazlı kəndinin şərqində *(East of Eyvazli village)*
Əhəd təpəsi yaşayış yeri *(Ahad hill residence)*	Eneolit *(The Eneolith)*	Eyvazlı kəndinin şərqində *(East of Eyvazli village)*

Düyü təpəsi yaşayış yeri *(Duyu hill residence)*	eneolit, orta tunc dövrü *(The Eneolith, Middle Bronze Age)*	Eyvazlı kəndindən 500 m cənub-şərqdə *(500 m south-east of Eyvazli village)*
Nazdıxan təpəsi yaşayış yeri *(Nazdikhan hill residence)*	Eneolit *(The Eneolith)*	Eyvazlı kəndindən 1,5 km cənub-şərqdə *(1.5 km south-east of Eyvazli village)*
Çullutəpə kurqanı *(Chullutepe mound)*	tunc dövrü *(The Bronze Age)*	Quzanlı qəsəbəsinin, Çullu və İmamqulubəyli kəndlərinin arasında *(Among the villages of Guzanli settlement, Chullu and Imamgulubayli villages)*
Həsəntəpə kurqanı *(Hasantepe mound)*	tunc dövrü *(The Bronze Age)*	Çullu kəndindən qərbdə *(In the west from Chullu village)*
Sultanbud kurqanı *(Sultanbud mound)*	tunc dövrü *(The Bronze Age)*	İmamqulubəyli kəndinin şimal-qərbində, Xıçınçayın sahilində *(In the north-west of Imamgulubayli village, on the Bank of Khichinchay)*
Qulu Musa oğlu türbəsi *(The tomb of Gulu Musa oghlu)*	1314-cü il *(1314 year)*	Xaçın Türbətli kəndi *(Khachin Turbatli village)*
Çalağantəpə yaşayış yeri *(Chalaghantepe residence)*	eneolit dövrü *(The period of the Eneolith)*	Əfətli kəndi *(Efetli village)*
Leylantəpə yaşayış yeri *(Leylantepe residence)*	eneolit dövrü *(The period of the Eneolith)*	Quzanlı qəsəbəsi *(Guzanli settlement)*
Üzərliktəpə yaşayış yeri *(Uzerliktepe residence)*	tunc dövrü *(The Bronze Age)*	Ağdam şəhəri *(Aghdam city)*
Pənah xanın imarəti *(Panah Khan palace)*	XVIII əsr *(XVIII century)*	Ağdam şəhəri *(Aghdam city)*
Pənah xanın türbəsi *(The tomb of Panah Khan)*	XIX əsr *(XIX century)*	Ağdam şəhəri *(Aghdam city)*
Xanoğlu türbəsi *(The tomb of Khanoghlu)*	XVIII əsr *(XVIII century)*	Ağdam şəhəri *(Aghdam city)*

Türbə *(The tomb)*	XIX əsr *(XIX century)*	Ağdam şəhəri *(Aghdam city)*
Sərdabə *(The grave)*		Ağdam şəhəri *(Aghdam city)*
Qalanın xarabalıqları *(Ruins of the castle)*		Gülüstan kəndinin cənub-şərq tərəfində *(On the south-east side of Gulustan village)*
Qala qalıqları *(Remains of the castle)*	XII—XIII əsrlər *(XII -XIII century)*	Maqavuz kəndinin 8 kilometrliyində *(8 km from Magavuz village)*
